AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 2

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2020

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Əsgər Rəsulov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Həbib Zərbəliyev, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Tofiq Hacıyev, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2020, № 2

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2020

www. filologiyameseleleri.net

DİLÇİLİK

VÜQAR QARADAĞLI
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti
Zahid Xəlilov küçəsi
garadaghly@gmail.com

HƏFS İLƏ VƏRŞ RƏVAYƏTLƏRİ ARASINDAKI FƏRQLƏRDƏ /ʾ/ (HƏMZƏ) FONEMİNİN MODİFİKASİYASININ MÜQAYİSƏLİ TƏHLİLİ

Xülasə

Məqalədə Qurani-Kərimin islam aləmində ən geniş yayılmış Asim qiraətindən edilən Həfs və Nafe qiraətindən edilən Vərş rəvayətləri arasında həmzə ilə bağlı müşahidə edilən fərqli halların əmələ gətirdiyi fonetik hadisələrin təhlili aparılır, hər rəvayətdə baş verən hadisələr ayrı-ayrılıqda izlənilir. Problemə dair bəzi fikirlərə münasibət bildirilir, fonetik hadisələri yenidən təhlil edərək uyğun qiymət verməyə cəhd göstərilir. Tədqiqatın elmi yeniliyi rəvayətlərdə baş verən fonetik hadisələrə müsəlman-ərəb tədqiqatçılarının tərtib etdiyi ümumiləşmə prinsiplərindən deyil, hadisələri kombinator dəyişikliklər sırasına daxil edərək təhlil və təsnifatını aparmaq, hadisəni uyğun şəkildə müəyyən etməkdir. Rəvayətlərdə, xüsusilə geniş elmi auditoriyaya az tanış olan Vərş rəvayətində ərəb dili səslərində baş verən hadisələrin müəllifin müqayisəli-qarşılaşdırma metodu əsasında apardığı təhlili həm elmi, həm də təcrübi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Hasil olunmuş qənaət ondan ibarətdir ki, rəvayətlərdə baş verən fonetik hadisələrin müsəlman-ərəb tədqiqatçılarının tərtib etdikləri ümumi prinsiplərindən kənara çıxa bilib, onları kombinator dəyişikliklərin müvafiq növlərinə ayırmaq mümkün olmuşdur.

Abstrakt

Məqalədə Asim qiraətindən edilən Həfs rəvayəti ilə Nafe qiraətindən edilən Vərş rəvayəti arasında həmzə ilə bağlı müşahidə edilən fərqli halların əmələ gətirdiyi fonetik hadisələrin təhlili aparılır, hər rəvayətdə baş verən hadisələr ayrı-ayrılıqda izlənilir, aparılmış tədqiqatlarla hadisələrə yanaşmanın uyğunluğunu yoxlayır, müəllif hasil etdiyi qənaətləri elmi ictimaiyyətin müzakirəsinə təqdim edir.

Həfs ilə Vərş rəvayətləri arasında həmzə ilə bağlı fərq əmələ gətirən hallar [ʾ] səsinin düşümü, [ʾ] səsinin əvəzlənməsi, [ʾ] səsinin zəifləməsi, [ʾ] səsinin [ẏ] ilə əvəzlənməsi, yaxud zəifləməsi, [ʾ] səsinin zəifləməsi, yaxud düşümü, [ʾ] səsinin dü-

şümü, yaxud zəifləməsi hallarını və أَءَأَمِنتُم ['ə 'ə'mə̃n̈tum̃] ifadəsində ['] səsinin məruz qaldığı hadisələri əhatə edir.

Sözügedən hallar və hadisələr ayrı-ayrılıqda təhlil olunduqdan sonra aşağıdakı qənaətlər hasil edilib:

1. Həmzə «əlifin bir növü» deyil, tamhüquqlu kar samit səsdir. Saitlə başlanan heca olmur, qəbul etdiyimiz saitlə başlanan heca əslində Əl-Xəlil ibn Əhməd əl-Fərahidinin ərəb dili üçün *həmzə* adlandırdığı, məxrəci boğazın ən uzaq (aşağı) hissəsində səs tellərinin sıx kipləşməsi sayəsində yaranan ani partlayan kar samit səs ilə başlayır. Səs telləri ehtizaza gəlmədən yaranan həmzənin cingiltili, yaxud nə cingiltili, nə də kar səs kimi qiymətləndirilməsi doğru sayıla bilməz.

2. «Həmzənin hərəkəsinin yerdəyişməsi» hadisəsi əslində ['] səsinin düşümüdür, çünki hadisənin özəyində əsas hal kimi həmzədən sonra gələn sait səsin yerdəyişməsi deyil, həmzənin düşümü durur.

3. «Həmzənin əliflə əvəzlənməsi» tərifi əlifin öz-özlüyündə müəyyən səs bildirmədiyi üçün hadisəni tam açmır, çaşqınlıq yaradır. Baş verən hadisə ['] səsinin fəthənin bildirdiyi qısa saitlə əvəzlənməsidir.

4. «Həmzənin *təshili* (yüngülləşməsi)» hadisəsi ['] səsinin zəifləməsi, fasilitasiyası kimi qiymətləndirilərək fonetik hadisə kimi lenisiya qəbul edilməlidir. İntervokal mövqedə zəifləmiş həmzə yarımsamit kimi çıxış edir.

Açar sözlər: *həmzə, həmzənin düşümü, həmzənin zəifləməsi, həmzənin əvəzlənməsi, Qurani-Kərim, Asim qiraəti, Həfs rəvayəti, Nafe qiraəti, Vərş rəvayəti, eliziya, lenisiya, akkomodasiya.*

Ключевые слова: *хамза, падение хамзы, ослабление хамзы, замена хамзы, Коран, чтение Асима, передача Хафса, чтение Нафи, передача Варша, элизия, леницuя, аккомодация.*

Key terms: *hamza, elision, lenition, accomodation, Qur'an, Coran, Koran, Quran, Asim, Nafi, reading, Hafs, Warsh, transmission.*

Tədqiqat üzərində çalışarkən bir çox mövcud transkripsiya sistemlərinə (GAL Supplement, Revue des Etudes Islamiques (Paris), Arabica (Paris), İslam Ansiklopedisi, The Encyclopedia of Islam, Encyclopedie l'Islam, Şarkiyat Mecmuası (İstanbul), Türk İlmi Transkripsiyon Sistemi, İlahiyat Fakültesi Dergisi (Ankara), DİA [52, 41, 308]) müraciət etdiyimizə baxmayaraq onlardan heç birinin Quran səslərinin ifadəsi yetərincə tələblərinə cavab vermədiyi problemi ilə üzləşdik. Qurani-Kərimin əhatə etdiyi səsləri latın əlifbası ilə tam və dolğun şəkildə ifadəsinin qeyri-mümkün olduğunu qəbul etsək də, ən azı latın qrafikasının imkanı daxilində Quran səslərinin daha dolğun ifadəsi üçün yeni fonetik transkripsiya sisteminin tərtibinə ehtiyac duyduq. Tədqiqatda tətbiq edilən xüsusi transkripsiya sisteminin – ***TT-HAFS/ASIM*** (*Təcvid Transkripsiyası, Həfs/Asim, Bakı*) tərəfimizdən işlənib hazırlanmışdır.

TT-HAFS/ASIM

(*Təcvid Transkripsiyası, Həfs/Asim, Bakı*)

’ – *həmzə*	z̲z̲ – qoşa *za*
̓ – zəifləmiş *həmzə*	z̤-z̤ – sözlərin kəsişməsində *zəl*-dən sonrakı mövqedə qoşa səslənən *za*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *za*
b – saitöncə mövqedə *bə*	‘ – *ayn*
bb – saitöncə mövqedə qoşa *bə*	‘‘ – qoşa *ayn*
b-b – sözlərin kəsişməsində qoşa *bə*; sözlərin kəsişməsində *bə*-dən sonrakı mövqedə qoşa səslənən saitöncə *bə*	‘-‘ – sözlərin kəsişməsində *ayn*-dan sonrakı mövqedə qoşa *ayn*
b̆ – *bə* və ya *mim*-in bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *bə*	ğ – *ğayn*
b̆ – üzərində vəqf icra olunduğu halda *bə*	f – ***fə***
bb̆ – *vəqf* icra olunduğu halda qoşa *bə*	ff – qoşa *fə*
t – *tə*; *vəqf* icra olunmadığı halda *tə-mərbutə*	f-f – sözlərin kəsişməsində *fə*-dən sonrakı mövqedə qoşa *fə*
tt – qoşa *tə*; *dəl*-dən sonrakı mövqedə qoşa səslənən *tə*	q̣ – saitöncə mövqedə *qaf*
t-t – sözlərin kəsişməsində qoşa *tə*; sözlərin kəsişməsində *dəl*-dən sonrakı mövqedə qoşa səslənən *tə*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *tə*	q̣q̣ – saitöncə mövqedə qoşa *qaf*
s̲ – *sə*	q̆ – *qaf* və ya *kəf*-in bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *qaf*
s̲s̲ – qoşa *sə*	q̣̆ – *vəqf* icra olunduğu halda *qaf*
s̲-s̲ – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *sə*	q̣q̣̆ – *vəqf* icra olunduğu halda qoşa *qaf*
c – saitöncə mövqedə *cim*	k – ***kəf***
cc – saitöncə mövqedə *qoşa cim*	kk – qoşa *kəf*; *qaf*-dan sonrakı mövqedə qoşa səslənən *kəf*
c̆ – *cim*-in bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *cim*	l – incə ***ləm***
c̆ – *vəqf* icra olunduğu halda *cim*	ll – qoşa incə *ləm*
cc̆ – *vəqf* icra olunduğu halda qoşa *cim*	l-l – sözlərin kəsişməsində *ləm*-dən sonrakı mövqedə qoşa incə *ləm*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa səslənən incə *ləm*; *Allah* kəlməsində *kəsrə*-dən sonrakı mövqedə qoşa incə *ləm*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən incə *ləm*

ḥ – *ha*	l̤-l̤ – *Allah* kəlməsində *dəmmə* və ya *fəthə*-dən sonrakı mövqedə qoşa orta (qalın) *ləm*
ḥḥ – qoşa *ha*	m – saitöncə mövqedə *mim*
x – *xa*	m̃ – *mim* və ya *bə*-nin bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *mim*; *vəqf* icra olunduğu halda *mim*
xx – qoşa *xa*	m̃ – *bə*-dən öncəki mövqedə *mim*; *bə*-dən öncəki mövqedə nazal *mim*-ə çevrilmiş nazal *nun* və ya *tənvin*
d – saitöncə mövqedə *dəl*	m̃m̃ – qoşa nazal *mim*
dd – saitöncə mövqedə qoşa *dəl*	m̃-m̃ – sözlərin kəsişməsində *mim*-dən sonrakı mövqedə qoşa nazal *mim*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *mim*
d-d – sözlərin kəsişməsində qoşa *dəl*; sözlərin kəsişməsində *tə*-dən sonrakı mövqedə qoşa səslənən *dəl*; sözlərin kəsişməsində *dəl*-dən sonrakı mövqedə qoşa səslənən saitöncə *dəl*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *dəl*	n – saitöncə mövqedə *nun* və ya *tənvin*
d̆ – *dəl* və ya *tə*-nin bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *dəl*	ñ – *həmzə*, *ha*, *xa*, *ayn*, *ğayn* və ya *hə*-dən öncəki mövqedə *nun* və ya *tənvin*; *vəqf* icra olunduğu halda *nun*: *tənha*; قِنْوَانٌ, نٌ ۚ وَٱلْقَلَمِ, يسٓ ۝١ وَٱلْقُرْءَانِ ٱلْحَكِيمِ, صِنْوَانٍ, ٱلدُّنْيَا, بُنْيَانٌ, بُنْيَانًا, بُنْيَانَهُمْ, بُنْيَانُهُمْ, بُنْيَانَهُ sözlərindəki *nun*; *vəqf* icra olunduğu halda *nun*
d̆̃ – *vəqf* icra olunduğu halda *dəl*	ñ̃ – *tə*, *sə*, *cim*, *dəl*, *zəl*, *zəy*, *sin*, *şin*, *fə* və ya *kəf*-dən öncəki mövqedə *nun* və ya *tənvinin* bildirdiyi incə nazal səs
d̆̃d̆̃ – *vəqf* icra olunduğu halda qoşa *dəl*	ṉ̃ – *sad*, *dad*, *ta*, *za* və ya *qaf*-dan öncəki mövqedə *nun* və ya *tənvinin* bildirdiyi qalın səs
z̲ – *zəl*	ññ – qoşa nazal *nun*
z̲z̲ – qoşa *zəl*	ñ-ñ – sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *nun*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən nazal *nun*
z̲-z̲ – sözlərin kəsişməsində *zəl*-dən sonrakı mövqedə qoşa səslənən *zəl*; sözlərin kəsişməsində *sə*-dən sonrakı mövqedə qoşa səslənən *zəl*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *zəl*	h – ***hə***; *vəqf* icra olunduğu halda *tə-mərbutə*
r – incə *ra*	hh – qoşa *hə*
rr – qoşa incə *ra*	h-h – sözlərin kəsişməsində *hə*-dən sonrakı mövqedə qoşa *hə*
r-r – sözlərin kəsişməsində *ra*-dan	y – saitöncə mövqedə ***vav***

sonrakı mövqedə qoşa incə *ra*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa səslənən incə *ra*; [’əl-] artiklindəki *ləm*-dən qoşa səslənən incə *ra*	
ṛ – qalın (orta) *ra*	ṿṿ – qoşa *vav*
ṛṛ – qoşa (qalın) *ra*	ṿ-ṿ – sözlərin kəsişməsində *vav*-dan sonrakı mövqedə qoşa ***vav***
ṛ-ṛ – sözlərin kəsişməsində *ra*-dan sonrakı mövqedə qoşa orta (qalın) *ra*; sözlərin kəsişməsində *ləm*-dən sonrakı mövqedə qoşa səslənən orta (qalın) *ra*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa səslənən orta (qalın) *ra*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən orta (qalın) *ra*	ỹ-ỹ – sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *vav*
z – *zəy*	y – saitöncə mövqedə ***yə***
zz – qoşa *zəy*	yy – qoşa ***yə***
z-z – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *zəy*	ỹ-ỹ – sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *yə*
s – *sin*	â – *sad*, *dad, ta*, *za*, *xa*, ğayn və *qaf*-dan sonrakı mövqedə *fəthə*
ss – qoşa *sin*	a – *ha*, *ra* (ṛ), *ayn*, *ləm* (ḷ), *vav* və qoşa nazal *vav*-dan sonrakı mövqedə *fəthə*
s-s – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *sin*	ä – *həmzə*, *bə*, *tə*, *s̲ə*, *cim*, *dəl*, *z̲əl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*, *yə*-dən sonra və *sad*, *dad, ta*, *za*, *xa*, ğayn, *qaf*, *ha*, *ra* (ṛ), *ayn*, *ləm* (ḷ), *vav* və qoşa nazal *vav*-dan öncəki mövqedə *fəthə*
ş – *şin*	ə – *həmzə*, *bə*, *tə*, *s̲ə*, *cim*, *dəl*, *z̲əl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*, *yə*-dən sonra və *həmzə*, *bə*, *tə*, *s̲ə*, *cim*, *dəl*, *z̲əl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*-dən öncəki mövqedə *fəthə*
şş – qoşa *şin*	e – *həmzə*, *bə*, *tə*, *s̲ə*, *cim*, *dəl*, *z̲əl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*, *yə*-dən sonra və *yə*-dən əvvəl gələn *fəthə*
ş-ş – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *şin*	i – *kəsrə*
ṣ – *sad*	u – *dəmmə*
ṣṣ – qoşa *sad*	â, ā, ä, ə; ī; ū – iki qısa sait ölçüsündə uzun sait
ṣ-ṣ – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *sad*	ââ, āā, ää, əə; īī; ūū – dörd qısa sait ölçüsündə uzun sait
ḍ – *dad*	âââ, āāa, äää, əəə; īīu; ūūu – beş qısa sait ölçüsündə uzun sait

ḍḍ – qoşa *dad*	a͡a͡a, ā͡ā, ä͡ä, ə͡ə; ī͡ī; ū͡ū – altı qısa sait ölçüsündə uzun sait
ḍ-ḍ – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *dad*	ññ – تَأۡمَنَّا (12:1) sözündəki [ññ] səs birləşməsinin tələffüz edilən vaxt ərzində dodaqların (sanki [u] səsini tələffüz edərək) qabağa uzadılması (*işmam*)
ṭ – saitöncə mövqedə *ta*	$_{u}$ – [u] saitinin örtülü (ötəri) tələffüzü (تَأۡمَنَّا (12:1) sözündə *təşdid* işarəli *nun* hərfinin bildirdiyi qoşa səsin arasına [u] qısa saiti daxil edib onun örtülü (ötəri) şəkildə tələffüzü; *ixtilas*)
ṭṭ – saitöncə mövqedə qoşa *ta*	âu, au, äu; ây, ay, əy, ey – iki qısa sait ölçüsündə diftonq
ṭ-ṭ – sözlərin kəsişməsində *tə*-dən sonrakı mövqedə qoşa səslənən *ta*, qoşa samit; sözlərin kəsişməsində *ta*-dan sonrakı mövqedə qoşa səslənən saitöncə *ta*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *ta*	âuū, auū, äuū; âyȳ, ayȳ, əyȳ, eyȳ – dörd qısa sait ölçüsündə diftonq
ṭt – *tə*-dən öncəki mövqedə *ta*-nın süzgün *ṭə*-yə keçməsi (*qəlqələsiz*)	âuūū, auūū, äuūū; âyȳȳ, ayȳȳ, əyȳȳ, eyȳȳ – altı qısa sait ölçüsündə diftonq
ṭ – *ta* və ya *tə*-nin bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *ta*	´ – vurğu işarəsi (â, á, ä, ə́, é, í, ú, ȃ, ȁ, ȁ́, ə̏, e̋)
ṭ̩ – *vəqf* icra olunduğu *ta*	‖ – vəqf
ṭṭ – *vəqf* icra olunduğu halda qoşa *ta*	(1), (2), (3)... ...(286) – ayəsonu vəqf
ẓ – *za*	׀ – səktə

Qurani-Kərimdən olan istinadlar iki nöqtə ilə aralanan sol tərəfdə surənin sıra sayı və sağ tərəfdə müvafiq surə daxilində ayənin sıra sayı verilir, məsələn, əl-Fatihə surəsinin 4-cü ayəsi: 1:4, yaxud Yasin surəsinin 79-cu ayəsi: 36:79.

Giriş. Müəllifin məqsədi məqalədə Asim qiraətindən edilən Həfs rəvayəti (bundan sonra – AH) [52, 15, 118-119] ilə Nafe qiraətindən edilən Vərş rəvayəti (bundan sonra – NV) [52, 43, 63] arasında həmzənin düşümü, əvəzlənməsi, zəifləməsi ilə bağlı fərqləri aşkarlamaq, onları növlərinə görə təsnif etmək, hər rəvayətdə baş verən fərqli hadisələri öyrənib fonetik təbiətini izləmək, aparılmış tədqiqatlarla tanış olub hadisələrin müasir elmin tələblərinə uyğunluğunu yoxlamaq, hasil ediləcək mümkün yeni nəticələrin elmi ictimaiyyətin müzakirəsinə çıxarılmasını təmin etməkdən ibarətdir.

Müqəddimə. Məlum olduğu kimi, Qurani-Kərim ilahi Kitab olmaqla təkcə dini səciyyə kəsb etmir, o, müasir ərəb ədəbi dilinin qaynağı, ümumilikdə ərəb dilinin ən möhtəşəm abidəsidir. İllər uzunu Azərbaycanda qadağa altında olan Qurani-Kərim bu aspektdən öyrənilməmiş tədqiqat obyekti kimi aktuallığını saxlayır. Qurani-Kərimin nəinki az işlənən, hətta dünyada ən geniş yayılmış rəvayətləri belə Azərbaycanda müqayisəli şəkildə tədqiqat obyekti olmamışdır. Odur ki, sözügedən iki rəvayətdə *həmzə* ilə bağlı müşahidə edilən fərqlərin təhlili müasir ərəb dilində baş

verən oxşar hallara fərqli bucaqdan yanaşmaqla bu sahədə aparılacaq tədqiqatlara kömək edəcək. Material ərəb dili səsləri ilə bağlı hadisələrə daha həssas yanaşmağa, təlim-tədris əsnasında baş verən fonetik hadisələrin təbiətini daha dərindən izahına xidmət edəcək, doğru təsəvvürün formalaşmasına kömək edəcəkdir ki, bu da mövzunun aktuallığını üzə çıxaran amil kımi çıxış edir. Bu baxımdan, mövzu öz yeniliyi, müəllifin hasil etdiyi yeni qənaətlər isə özəlliyi ilə seçilir.

Həmzə. Bir tərəfdən həmzənin tələffüzünə tələb olunan ziyadə əzələ gərginliyi, digər tərəfdən onun bir sıra səslərlə məxrəci baxımından yaxınlığının müxtəlif kombinator dəyişikliklərlə nəticələnməsi onu Quran qiraətlərinin səs hadisələri sırasında əhəmiyyəti və özünəməxsusluğu ilə fərqləndirir.

Maraqlıdır ki, haqqında və ətrafında Sibəveyhi (765-796), yetirməsi Qütrübdən (?-821) tutmuş dövrümüzədək çoxsaylı müəlliflər tərəfindən sayı yüzü ötən əsər [57, 170-281] yazılmasına baxmayaraq, həmzə samiti haqqında hələ də yekdil fikir söylənilməyib, o, gərgin müzakirə obyekti olaraq qalır. **(**Orta Əsr alimləri arasında həmzəyə dolayısı ilə olsa da toxunmuş görkəmli dilçi-alim, həmvətimiz Əbdülvəhhab ibn İbrahim əz-Zəncaninin (1190-1257) adını çəkmək olar [76].)

Orta Əsr müsəlman alimləri, məsələn, əl-Xəlil ibn Əhməd (718-791), Sibəveyhi, İbn Cinni (934-1002) həmzənin məxrəci kimi أقصى الحلق «boğazın ən uzaq hissəsi»ni göstərirlər [29, 1, 52; 47, 1, 43-48; 87, 4, 432-434; 90, 1, 90]. Demək olar ki, həmin dövrün alimlərindən yalnız İbn Sina (980-1037) həmzə samitinin məxrəcinin الحنجرة «xirtdək» göstərməklə [12, 111; 50, 72]) müasir dilçilərin, məsələn, Kamal Bişr, Muhəmməd Əhməd Mahmud, Muhəmməd Fətih, Əhməd Muxtar Ömərin gəldikləri qənaəti 10 əsr qabaqlayıb [22, 109; 32, 64; 67, 117; 91, 319]. Ğanim Qədduri əl-Həməd həmzənin məxrəcini daha dəqiq müəyyən edir: الحنجرة (بين الوترين الصوتيين) «qırtlaq (səs tellərinin arası)» [39, 95], İbrahim Ənis isə فتحة المزمار «xirtdəküstü boşluqlar»ı müəyyən edir [15, 89-90]. Maraqlıdır ki, Orta Əsr alimləri arasında müasir dövrdə ayaqlaşan fikirlə yanaşı, müasir dilçilər arasında Orta Əsr alimlərinin fikirlərini hələ də qəbul edənlər var, məsələn, Əbdülğəffar Hamid Hilal. O, İbn Sina istisna olmaqla digər adları çəkilmiş Orta Əsr alimlərinin fikri ilə tam razı olduğunu bildirir [40, 151].

Təqribən eyni mənzərə alimlərin həmzə samitinin cingiltili, yaxud kar səs kimi qəbulu məsələsində də müşahidə edilir. Belə ki, Sibəveyhi, İbn Cinni həmzəni cingiltili (əl-Xəlil ibn Əhməd həmzənin cingiltili, yaxud kar samitlər sırasına aid etməkdən yayınır) [47, 69; 87, 4, 573] və yalnız İbn Sina, müasir dilçilərin bir qisminin fikri ilə üst-üstə düşəcək fikri ilə onu kar səs kimi qəbul edir [12, 108; 67, 102; 88, 39]. Müasir dilçilərin bir qismi həmzəni nə cingiltili, nə də kar səslərə aid edir [15, 90; 21, 288; 22, 110; 32, 54; 91, 324]. Əbdülğəffar Hamid Hilal Orta Əsr alimlərinin fikri ilə bölüşüb həmzə samitini cingiltili olaraq qəbul edir [40, 162-174].

Qərb-SSRİ-Rusiya şərqşünas-ərəbşünas alimlərindən həmzə ilə bağlı tədqiqatçılar sırasında ilk növbədə V.Qerdner, J.Kantino, V.S.Seqal, B.M.Qrande, V.Q.Lebedev, Y.M.Militaryov, O.İ.Redkinin adları çəkilməlidir. Göstərilən alimlər-

dən bəziləri həmzənin məxrəcini xirtdək, özünü də kar samiti kimi qəbul edirlər [33, 30; 37, 50; 79; 84, 9]. J.Kantino həmzənin kar [h] samitinin cingiltili korrelyatı olduğunu söyləyir, Y.M.Militaryov da həmzənin cingiltili olması haqqında öz fərziyyəsini irəli sürür [24, 77; 71, 18], V.Q.Lebedev isə onu nə cingiltili, nə də kar samitlərə aid edir [65, 57]. Bir çox dərslik və lüğətlərdə də həmzəyə dair ümumi məlumat verilir [17; 36; 60; 62; 64; 75; 92; 93].

Həm Qərb şərqşünaslıq prinsiplərini nəzərə almaqla, həm də müsəlman-ərəb dilçilik ənənələrinə sadiqliyi ilə seçilən ərəb dili fonetikasının görkəmli tədqiqatçısı ABŞ-ın İndiana Universitetinin əslən iraqlı professoru Salman Həsən əl-Ani ərəb dilinin eksperimental fonetikası sahəsində ən dolğun nəticələr əldə etmiş tədqiqatçı kimi dəyərləndirilə bilər [13]. Bir qədər irəliyə gedərək qeyd etməliyik ki, alimin apardığı eksperimental tədqiqatlar gəldiyimiz nəzəri qənaətlər üçün tutarlı əsas kimi çıxış edir.

Azərbaycanda müasir ərəbşünaslığın əsasını qoymuş professor Ə.C.Məmmədovun dərsliyində həmzəyə dair ümumi səciyyəli məlumat verilsə də, müasir ərəb ədəbi dilində onunla bağlı bu və ya digər hadisələrin təhlili olduqca dəqiq təsvir edilir [70].

Həmzəyə dair Azərbaycan ərəbşünaslığında görülmüş işlərdən söz açarkən, əsasən iki tədqiqatı qeyd etməyi lazım bildik. Birincisi Azərbaycanın tanınmış dilçi-alimi L.M.Orucovanın gərgin zəhməti nəticəsidə görkəmli Orta Əsr alimi, həmvətənimiz əz-Zəncaninin əsərinin əlyazmalarını incələyib 1977-ci ildə çap edilərək ərsəyə gətirmiş «Əz-Zəncaninin «Məbadiu fit-Təsrif» əsəri» adlı monoqrafiyasıdır. Tədqiqatçı Orta Əsr aliminin morfoloji, fonetik, o cümlədən həmzəyə dair fikirlərini təhlil edib anlaşıqlı dildə diqqətə çatdırır. Əsasən sələflərinin fikrini təkrarlayan əz-Zəncani həmzənin vav və yə ilə ibdal olunması məsələlərinə də toxunur [76, 58-60]. 20 il sonra 2007-ci ildə çapdan çıxmış digər tədqiqat isə bilavasitə həmzənin tədqiqinə həsr edilmiş «Ərəb dilinin fonetikası, leksikoqrafiyası və orfoqrafiyasında həmzə fonemi» monoqrafiyasıdır. Yüksək müşahidə qabiliyyətinə malik müəllif Q.R.Süleymanov çoxillik araşdırmalarının bəhrəsi olan elmi işində həmzə haqqında birmənalı elmi qənaətlərə gəlir. Belə ki, müəllif həmzənin kar olduğunu qəbul edir, məxrəcini göstərir. Tələffüzünü bir qədər obrazlı olsa da, kifayət qədər dəqiq təsvir edir: «həmzə tələffüz edilərkən hava axını [səs tellərinin kipləşib yaratdığı maneə hesabına – **V.Q.**] ani olaraq kəsilir, səs telləri qəflətən aralanır və hava xirtdək deşiyində "ilişib" qalmır, axır. Həmin anda da kar həmzə samiti əmələ gəlir» [88, 42].

Sözügedən məsələyə münasibət bildirərək qeyd etmək istərdik ki, həmzənin məxrəci səs telləri olsa da, onlar səsin tələffüzü əsnasında ehtizaza gəlmir, bu səbəbdən də həmzə cingiltili deyil, kar səs kimi qəbul edilməlidir. Ani səsləndiyi və sözlərin başlanğıcında ardı ilə dərhal sait səsin gəlməsi onun cingiltili olduğu təəssüratını yaradır. Böyük ehtimalla məhz bu səbəb həmzəni bir çoxları tərəfindən cingiltili samit kimi səciyyələndirilməsinə, yaxud nə cingiltili, nə də kar səs kimi qəbul edilmə-

sinə sövq edib. Professor əl-Ani qeyd edir ki, ədəbiyyatda əsasən cingiltili samit kimi təsvir edilən həmzənin kar səs olması apardığım təcrübələrlə sübuta yetirilib [13, 62].

AH-də həmzənin iki tələffüz forması müşahidə edilir: tam realizə ilə ([’]) və Qurani-Kərimin 1 yerində müşahidə edilən zəifləmiş şəkildə reallaşması ilə ([ٔ]).

Ədəbiyyatda həmzənin birinci tələffüz forması lüğəvi mənası «həyata keçirmə», «icra»; «yoxlama»; «tədqiq etmə», «öyrənilmə»; «bərqərar olunma», istilahi mənası «(haqqını olduğu kimi verməklə) tam realizə ilə tələffüz etmə» anlamında (التحقيق) *təhqiq*, ikinci tələffüz formasını isə lüğəvi mənası «yüngülləşdirmə»; «dümdüz etmə»; «xoşgəldin etmə», istilahi mənası «zəifləmə ilə reallaşması (burada: həmzənin intervokal tələffüzü, tələffüzü əsnasında gərginliyin zəifləməsi)» anlamında (التسهيل) *təshil* hadisəsi kimi keçir ([10, 31; 26, 97]).

NV-ni digər rəvayətlərdən, o cümlədən Nafe qiraətindən edilən Qalun rəvayətindən fərqləndirən özəlliklərindən biri onun bir çox halda [’] səsinin tam reallaşmasından yayınması təşkil edir [81, 129].

Məlum olduğu kimi, nəbatilərin, yaxud nəbətilərin (e.ə. II əsr) yazı sisteminin əsasını aramilərin yazısı (e.ə. VIII əsr), onun da əsasını tarixi e.ə. XV əsrə gedib çıxan finikiyalıların yazısı qoymuşdur. Ərəb yazısı, öz növbəsində, məhz nəbəti yazı sisteminin təsiri ilə formalaşmış və ilk olaraq Hicaz əhli, xüsusilə, yayda Şama, qışda Yəmənə gedib tacirlik edən qüreyşlilərin (106:1-2) arasında yayılmışdır [3, 11].

Həm finikiya, arami, həm də nəbəti yazı sistemlərində birinci hərf qismində ərəb yazısına *əlif* kimi keçmiş kar boğaz partlayan samit səsi bildirən *alp/alef* (finikiya), *alap/alaf* (arami), *alap/əlif* (nəbəti) çıxış edir.

Bəsrə qrammatika məktəbinin görkəmli nümayəndəsi Əbu Səid əs-Sirafinin (898-978) əlyazmasına istinadən ər-Racihi deyir ki, Ərəbistan yarmadasının mərkəzi və şərqində yaşayan Nəcd əhlinin (məsələn, Bənu Təmim, Qeys, Bənu Əsəd qəbilələrinin) ləhcələrinin özəl xüsusiyyətlərindən biri danışıqlarında həmzəni əsasən *təhqiq* ilə, yəni tam realizə ilə tələffüz etməkdən ibarətdir. Qərblərində yaşayan və nəbəti yazı sistemini ilk əxz edib özünküləşdirən Hicaz əhlinin (məsələn, Qüreyş qəbiləsinin) ləhcəsinin özəl xüsusiyyətlərindən biri isə, həmzəni *təshil*, yəni zəifləmə ilə tələffüz edirlər [48, 1, 17; 48, 11, 349-350; 78, 105]. (Maraqlıdır ki, Nəcd əhlindən olan təmimilər bəzən, emosional cavab, yaxud çıxış zamanı ifrata varıb yeni bir fonetik hadisənin (عنعنة تميم) yaranması ilə nəticələnən həmzəni aynla əvəzləyərək tələffüz edirlər, məsələn, kəskin etirazda [lā] (لا) əvəzinə nəinki [lə’] (لأ), hətta [lä‘] (لغْ), yaxud [’ən] (أَنْ), yaxud [’ənnə] (أَنَّ) əvəzinə [‘an] (أَنْ), [‘annə] (عَنَّ) işlədirlər [3, 41].) Başqa sözlə, AH əsasən Qüreyş ləhcəsində olmasına baxmayaraq digər, o cümlədən Nəcd əhlinin ləhcələrini özündə əks etdirir. Burada Əli ibn Əbu Talibin (ə.) söylədiyi maraq doğurur: «Quran *nəbrsiz* (həmzəsiz – **V.Q.**) nazil olsaydı, biz də həmzəyə riayət etməzdik» [16, 3, 32; 59, 288].

Beləliklə, əslində əlif, ilkin olaraq, bu gün həmzə kimi tanıdığımız səsin qrafik qeydidir. Burada XI əsrin görkəmli dilçi-alimi, həmvətənimiz əl-Xətib ət-Təbrizinin (1030-1108) yetirməsi olan Mövhub əl-Cəvaliqinin (1073-1144) gəldiyi qənaətilə ra-

zılaşmamaq çətindir: «Hicazilər sözlərdəki həmzələri həmzə ilə tələffüz etmədiklərinə görə, yazı da bu şəkildə yayılıb mövcud hala düşmüşdür. Gördüyümüz əlif – həmzənin əski rəmzi-simvoludur» [3, 13].

Ərəblərin əxz etdikləri nəbəti yazısında, heç şübhəsiz, kar boğaz partlayan həmzə əliflə qeydə alınıb, lakin hicazilərin həmzənin tam realizə ilə tələffüzündən yayınmaları əlif hərfinin qrafik işarə olaraq öz həmzə tutumunu itirməsinə gətirib çıxarır. Sonralar, əsasən, Quran qiraəti hesabına orada işlənən həmzəni göstərmək üçün yaranmış boşluğu doldurmaqdan ötrü görkəmli alim əl-Xəlil ibn Əhməd əl-Fərahidi tərəfindən xüsusi işarə tərtib olunub dövriyyəyə salınır. Həm "əski əlif"in bildiridiyi [’] (həmzə) səsinə, həm də ع hərfinin üst hissəsinin kiçildilmiş şəklindən əmələ gətirilmiş (ع → ء) xüsusi işarəyə əl-Xəlil ibn Əhməd lüğəvi mənası «(iynə, yaxud iti, sivri, şiş uclu bir əşya ilə) sancma», «(iynə, yaxud iti, sivri, şiş uclu bir əşya) batırma» olan *həmzə* adını verir. Burada əl-Xəlil ibn Əhməd yəqin ki, səsin tələffüzü əsnasında hava axınının qarşısını alıb maneə yaradan səs tellərinin kipləşməsini «sancma» təəssüratı yaratdığına eyham vurub. Dilimizdə işlənən ərəb mənşəli «mahmız» (atı daha cəld yerisin deyə, atlının çəkməsinin dabanına taxılan şişdişli dəmir çarx) və *həmzə* sözü eyni (*hmz*) köklü sözlərdir.

O da qeyd olunmalıdır ki, hicazilərin sözlərin ortası və sonunda həmzəni "itirmələri" (məsələn, [ra’sun] əvəzinə [rāsun], [mu’minun] əvəzinə [mūminun], [bi’sun] əvəzinə [bīsun] tələffüz etmələri bu kimi sözlərdə uzun saiti bildirmək üçün işlənən əlif, vav, yə yenidən bərpa olunmuş həmzənin qeydi üçün istifadə olunaraq dayaq rolunu oynamağa başlayır. Azərbaycan tədqiqatçısı Q.Süleymanov bu haqda haqlı olaraq deyir: «Qüreyş qəbiləsinin dialekti ərəb orfoqrafiyasına çox böyük təsir göstərə bilmişdir» [88, 31].

Təsadüfi deyil ki, İbn Yəiş əlif hərfinin həmzənin həqiqi işarəsi olduğuna dair fikrini ifadə edərək sual verir: «Görmürsən ki, çarəsiz halda (sözlərin başlanğıcındakı həmzə nəzərdə tutulur – **V.Q.**) o, mütləq əliflə yazılır?» (bunu Əbu Zeyd əl-Ənsari də qeyd edir [48, 1, 14]). İbn Cinni isə gözəl məntiqlə çıxış edib deyir ki, hər hərfin adı bildirdiyi səslə başlayır: cim – [c], dəl – [d]... eləcə də əlif [’əlif] həmzə ilə başlayıb onu bildirir. Kufə qrammatika məktəbinin görkəmli nümayəndəsi Əbu Zəkəriyya əl-Fərranın (761-822) gətirdiyi faktı göstərmək yerinə düşər. O yazır ki, səhabi Abdullah ibn Məs’ud (594-653) öz dəsti-xətti ilə qələmə aldığı Müshəfdə həmzələrin hər növünü, istər sözün ortası, istərsə axırındakı həmzəni yalnız əlif ilə qeydə alıb. Əl-Fərra belə bir qənaətə gəlir: «Ola bilsin, ərəblər həmzəni həmişə əliflə yazıb, çünki əlif hərfi əslində həmzədir (həmzəni bildidir – **V.Q.**)» [31, 2, 134]. İbn Cinninin fikrincə, «həmzə daima (sözün əvvəlində, ortasında və axırında) əlif üzərində yazılmalıdır» [47, 2, 47; 88, 31].

Ədəbiyyatda xüsusi vurğulanır ki, həmzə səsi sami dillərinə xas səsdir. Zənnimizcə, bura qeyd kimi əlavə edilməlidir ki, sözlərin ortası və axırında işlənən həmzə, əsas etibarilə, sami dillərinə xas səsdir. Sözlərin əvvəlində müzakirə edilən həmzə səsi isə təkcə sami, xüsusilə ərəb dilinə deyil, ümumilikdə hər dilə məxsus səs kimi çı-

xış edir. Məsələn, Azərbaycan, ingilis, rus, gürcü dillərində saitlə başlanması qəbul edilən hər hansı sözün («alma», «erkək», «əvvəl», «işarə», «orman», «ömür», «ulduz», «ürək», ingilis dilində «ask», «eyght», «ill», «operate», «oops», rus dilində «искра», «ыппыт», «удар», «эхо», «окрик», «арбуз», gürcü dilində «არა» [ara], «ერთი» [erti], «იარაღი» [iaraghi], «ორი» [ori], «უცნაური» [utsnauri]) ilk sait səsin tələffüzü üçün danışıq orqanlarının ilkin vəziyyət alması, yəni səsin tələffüzünün ilkin mərhələsi, başlanğıcı – ekskursiya zamanı – məxrəci boğazın ən uzaq (aşağı) hissəsində səs tellərinin sıx kipləşməsi sayəsində yaranan ani partlayan səsdir. Həmzənin dilimizdə mövcudluğunun bariz sübutunu klassik ədəbiyyatımızdan görmək olar:

Aqil odur (fAilAtün) ki, etdiyi (məfAilün) əməlin (fəilün)
Fikr edə ib- (fAilAtün) tidadə ən- (məfAilün) camin (fəlün)
O deyil kim, (fəilAtün) təəmmül ey- (məfAilün) ləməyib (fəilün)
Keçirə qəf- (fəilAtün) lət ilə əy- (məfAilün) yamin (fəlün) [55, 103]. Göründüyü kimi, burada *aqil*, *əməlin*, *o* sözlərində ilk sait səsdən öncəki səs əruz vəznini müəyyənləşdirdikdə samit kimi "peyda olur" və *ƒ* ilə göstərilir. (Təsadüfi deyil ki, məhz əruz elminin banisi əl-Xəlil ibn Əhməd əl-Fərahidi "əski əlif" səsini yeni qrafik işarə ilə yazıya qaytarır.)

Söz başlanğıcında sait səslərdən əvvəl həmzəyə bənzər samitin mövcudluğu haqqında fikri Q.Süleymanov söyləmişdir. Biz onun bu qənaətini tam bölüşür, bütövlüklə qəbul edir, gələcəkdə aparılacaq təcrübələrlə isbata yetirməyə çalışacağıq. Q.Süleymanov öz əsərində fikrinin doğru olduğunun sübutu kimi L.R.Zinderin [94, 164-165], M.İ.Matuseviçin [69, 44], A.A.Axundovun [11, 154] kimoqramlarına əsaslanır [88, 71].

Həmzənin müasir ərəb dialektlərində tədricən "sıxışdırılıb aradan çıxarılması" prosesinin davam etməsi müşahidə edilirsə də [28, 17], bunu müasir ərəb ədəbi dili və, xüsusilə, Quran qiraətlərinə heç bir vəchlə aid etmək olmaz. Çünki ərəb ədəbi dilinin qaynağı olan Quran qiraətlərinin səslənməsinin saflığını, həmçinin onu fərqli təsirlərdən qoruyan təcvid elmi bunun öhdəsindən artıq 14 əsrdir ki, dayanıqlı şəkildə, əzmlə gəlir [34, 74].

Tədqiqat obyektimiz olan rəvayətlər arasında [ʾ] səsi ilə bağlı müxtəlif fərqli hadisələr, həmçinin alternativli hadisələrin baş verdiyi müşahidə edilir. AH ilə NV arasında həmzə ilə bağlı fərq əmələ gətirən halları təhlil etdikdən sonra onları 7 növ fərq üzrə qruplaşdıraraq təsnif etmək mümkün olmuşdur: [ʾ] səsinin düşümü, [ʾ] səsinin əvəzlənməsi, [ʾ] səsinin zəifləməsi, [ʾ] səsinin [ẏ] ilə əvəzlənməsi, yaxud zəifləməsi, [ʾ] səsinin zəifləməsi, yaxud düşümü, [ʾ] səsinin düşümü, yaxud zəifləməsi və أَءَأَنتُمْ [ʾə ʾəʾmə̊̃ntum̃] ifadəsində [ʾ] səsinin məruz qaldığı hadisələr.

1. [’] səsinin düşümü

NV-də tərəfimizdən [’] səsinin düşümü kimi nəzərdən keçirdiyimiz fonetik hadisə əslində iki fərqli hadisələri özündə ehtiva edir. Biri Orta Əsr müsəlman alimlərinin lüğəvi mənası «yerdəyişmə», «hərəkət»; «köç»; «nəqliyyat»; «ötürülmə»; «çevirmə», «tərcümə»; «rəvayət»; «surət çıxarma», «köçürmə»; «ənənə», istilahi mənası «yerdəyişmə», «keçmə», «sürüşmə», hətta «metateza» anlamında (النقل) *nəql*, daha dəqiq desək نقل حركة الهمزة «həmzənin hərəkəsinin yerdəyişməsi (keçməsi, sürüşməsi)» hadisəsi, digəri isə lüğəvi mənası «düşüm», «xaric etmə»; «tullazdırma», istilahi mənası «(səs, heca, söz) düşümü» anlamında (الحذف) *həzf* hadisəsidir. «Həmzənin hərəkəsinin yerdəyişməsi» adlandırılan hadisə təkcə saitin yerdəyişməsini deyil, eyni anda baş verən həmzənin düşümünü nəzərdə tutur. Baş verən hadisənin özəyində, zənnimizcə, əsas hal kimi həmzədən sonra gələn sait səsin yerdəyişməsi deyil, həmzənin düşümü və bunun nəticəsi olaraq saitin mövqeyinin dəyişməsi nəticəsində “önə keçməsi”dir. *Həzf* halında isə zatən səs düşümü müzakirə obyektidir. Həm birinci, həm də ikinci hadisədə həmzə, nəticə etibarilə, düşümə məruz qaldığına görə, tərəfimizdən sözügedən hadisələr məhz [’] səsinin düşümü kimi qəbul edilib. «Həmzənin hərəkəsinin yerdəyişməsi» hadisəsini 2007-ci illdə müdafiə etdiyi dissertasiyasında rus-sovet ərəbşünası Gülçarə Aqanina olduqca dəqiq təsvir edir: «saitin həmzəyə nisbətən postpozisiyadan prepozisiyaya keçməsi və həmzənin eyni anda eliziyası» [9, 199].

NV-də Qurani-Kərim boyu baş verən həmzənin, nəticə etibarilə, düşümü hallarının hamısını təhlil etdikdən sonra onları aşağıdakı qruplara ayıraraq təsnif etmişik: sözün son samitindən (o cümlədən, ([ñ]) tənvindən) sonra vəslələnməyən, yaxud vəslələnən həmzə gəldiyi hallar, [’əl-] artiklindəki [l] səsindən sonra vəslələnməyən həmzə gəldiyi hallar, həmçinin رِدْءًا [ríd̆’əñ], مِنسَأَتَهُۥ [miñsə’ətəhu], سَأَلَ [sə’ələ] sözlərindəki hallar.

[’] səsindən sonra gələn sait səsin həmzədən önə keçməsi və eyni anda həmzənin düşümü, yəni *həmzənin hərəkəsinin yerdəyişməsi* yalnız sözün son samitindən (o cümlədən, ([ñ]) tənvindən) sonra vəslələnməyən, yaxud vəslələnən həmzə gəldiyi və [’əl-] artiklindəki [l] səsindən sonra vəslələnməyən həmzə gəldiyi hallara aiddir.

Həzf isə رِدْءًا [ríd̆’əñ], مِنسَأَتَهُۥ [miñsə’ətəhu], سَأَلَ [sə’ələ] sözlərində baş verən halları əhatə edir.

AH-də tənvindən ([ñ] səsindən) başqa istənilən samitdən sonra gələn vəslələnməyən [’] səsi tam realizə ilə qiraət edildiyi halda (məsələn, فَٱذْهَبْ أَنتَ [fə-zhəb̆ ’ə̃ñtə], كَسَبَتْ إِنَّ [kəsəbət ’iññə], يَلْهَثْ أَوْ [yəlhəs̱ ’əu], فَٱخْرُجْ إِنِّى [fə̆-xṛuc̆ ’iññī], تَفْرَحْ إِنَّ [təfṛaḥ ’iññə], قَدْ أَصَبْتُمْ [qəd̆ ’äṣə̆btum̃], فَأَنۢبِئْهُم إِلَيْهِمْ [fə-m̃biz̧ ’iléyhim̃], وَٱذْكُرْ إِسْمَـٰعِيلَ [və́-zkuṛ ’ismä‘īlə], أُرْزُقْ فَذَكِّرْ إِنْ [fəzə́kkir ’iñ], تُطِعْ أَكْثَرَ [túṭi‘ ’əkṣäṛa], تَخَفْ إِنَّا [täxâf ’iññə], فَإِنْ أَهْلَهُ [’úṛzuq̆ ’əhləhu], قُلْ أُحِلَّ [qul ’uḥíllə], أَلَمْ ١ أَحَسِبَ [’əlif ləəəm-m̃īīīm̃ ’ä ḥəsibə], أَمِنَ [fə’íñ ’əminə], ٱتَّقَوْا أَفَلَا [’ittə́qâu ’ə fə́lə], آبَنَىٓ ءَادَمَ [’ib̆néy ’ə̆dəmə]), NV-də həmin mövqedəki [’] səsi nəticədə düşümə məruz qalır. Burada [’] səsindən sonra gələn sait

həmzədən önə keçir və həmzə dərhal düşümə məruz qalır: فَأَذْهَبَ اَنتَ [fə-ẕhəbə-’ñ̃tə] → [fə-ẕhəbə-ñ̃tə] (son samit [b̆] olduğu halda həmzənin düşümü səbəbindən o, qəlqələsini itirir), كَسَبَتْ إِنَّ [kəsəbətí-’ññə] → [kəsəbətí-ññə], يَلْهَثْ اَوْ [yəlhəṩ-’ỵ] → [yəlhəṩ-u], فَأَخْرُجِ اِنِّى [fă-xṛucí-’ññī] → [fă-xṛucí-ññī], تَفْرَحْ اِنَّ [təfṛaḥí-’ññə] → [təf-ṛaḥí-ññə], قَدَ اَصَبْتُمْ [qâdə-’ṣâb̆tum̃] → [qâdä-ṣâb̆tum̃], فَأَنْبِذِ اِلَيْهِمْ [fə-m̃biẕi-’léyhim̃] → [fə-m̃biẕi-léyhim̃], وَٱذْكُر اِسْمَاعِيلَ [ỵə-ẕkuri-’smā‘īlə] → [ỵə-ẕkuri-smā‘īlə], فَذَكِّرِ اِنْ [fə-ẕə́kkirí-’ñ] → [fəẕə́kkirí-ñ], تُطِعَ اَكْثَرَ [túṭi‘ə-’kṣäṛa] → [túṭi‘ə-kṣäṛa], تَخَفِ اِنَّا [tăxâfí-’ññə] → [tăxâfí-ññə], أُرْزُقْ أَهْلَهُ [’úṛzuqə̆-’hləhu] → [’úṛzuqə̆-hləhu], قُلُ اُحِلَّ [qúlu-’ḥíllə] → [qúlu-ḥíllə], اَلَمْ اَحَسِبَ [’ə́lif ləəəm̃-m̃īmə́’ ḥásibə] → [’ə́lif ləəəm̃-m̃īmə́ ḥásibə], فَإِنْ اَمِنَ [fə’ínə-’minə] → [fə’ínə-minə], أَتَّقَوْا اَفَلَا [’ittə́qâỵə’ fə́lə] → [’ittə́qâỵə fə́lə], اُبْنَىَ ادَمَ [’ibnéyə̆ə̆-’dəmə] → [’ibnéyə̆ə̆-dəmə]. Vəqf etdikdə isə nə sait həmzənin önünə keçir, nə də [’] səsi düşümə məruz qalır. Məsələn, كَسَبَتْ إِنَّ, اَلَمْ أَحَسِبَ, إِتَّقَوْا اَفَلَا [kəsəbət‖ ’íññə], [’ə́lif ləəəm̃-m̃īīīm̃‖ ’ä ḥásibə], [’ittə́qâu‖ ’ə fə́lə] (vəqf etmədikdə [’] səsi düşür: [kəsəbətí-ññə], [’ə́lif ləəəm̃-m̃īmə́ ḥásibə], [’ittə́qâỵə fə́lə] (burada diftonqun əmələ gəlmə şəraiti aradan qalxdığı üçün [ỵ] səsi tam realizə ilə tələffüz edilir). Qeyd olunanlarla yanaşı, qiraət zamanı bir surədən digərinə keçərkən baş verə biləcək hal da diqqətə layiqdir. Belə ki, 93-cü surənin sonuncu sözü qapalı heca ilə bitir, növbəti surənin ilk sözü isə vəslələnməyən [’] səsi ilə başlayır. Beləliklə, vəqf etmədən, bəsmələ işlətmədən [38, 167] qiraət etdikdə (AH-də فَحَدِّثْ ١١ أَلَمْ نَشْرَحْ لَكَ صَدْرَكَ ١ [fäḥáddiṩ ’ə ləm̃ náṣṛaḥ lə́kä ṣâd̆ṛak‖]) NV-də [’] səsi nəticədə düşümə məruz qalır: فَحَدِّثْ ١١ أَلَمْ نَشْرَحْ لَكَ صَدْرَكَ ١ [fäḥáddiṩə́’ ləm̃ náṣṛaḥ lə́kä ṣâd̆ṛak‖] → [fäḥáddiṩə́ ləm̃ náṣṛaḥ lə́kä ṣâd̆ṛak‖]. Bununla belə, Qurani-Kərimdə elə hallara da rast gəlinir ki, qiraətlər arasında mövcud olan digər fərqlər sayəsində NV-də sözügedən hadisə baş vermir, yaxud əksinə, baş verir. Məlumdur ki, AH-də qapalı hecanın son samiti olan mimi-cəm NV-də [’] səsindən əvvəl gəldiyi halda açıq hecaya çevrilir və saitin həmzədən önə keçməsinə, [’] səsinin düşümü üçün səbəb aradan qalxmış olur. Məsələn, لَكُمْ إِنْ [lə́kum̃ ’iñ] NV-də məddi-sileyi-mimi-cəmin yer alması ilə لَكُمُ إِنْ [lə́kumūūū ’iñ] qiraət edilir. AH-də قُلْ [qul] (72:20; قُلْ إِنَّمَا [qul ’íñ-ñəmə]) feli NV-də şəxs, şəkil, zaman fərqləri ilə قَالَ [qâlə] (72:20; قَالَ إِنَّمَا [qâlə ’íññə-mə]) qiraət edilir. Burada son qapalı heca əvəzinə açıq heca işlənir. Qurani-Kərimdə şərhi verilən halın əks variantlarına da rast gəlinir. Belə ki, AH-də 7:98-də أَ [’ə] sual ədatı və وَ [ỵa] bağlayıcısı (أَوَأَمِنَ [’ä ỵa’ə́minə]) NV-də alternativ sual ədatı أَوْ [’ă̆u] və bağlayıcının olmaması ilə qiraət edilir: أَوَأَمِنَ [’äu ’əminə]. Burada sait həmzədən önə keçir və həmzə düşür: أَوَ اَمِنَ [’äỵá-’minə] → [’äỵá-minə] (7:97) kimi qiraət edilir [35, 273]. AH-də 43:24-də son hecası açıq heca olan قَالَ [qâlə] (قَالَ أَوَلَوْ [qâlə ’ä ỵală̆u]) feli əvəzinə NV-də şəxs, şəkil, zaman fərqləri ilə قُلْ [qul] işlənir: قُلْ أَوَلَوْ [qul ’ä ỵală̆u]. Burada sait həmzədən önə keçir və həmzə düşür: قُلْ اَوَلَوْ [qúlə’ ỵală̆u] → [qúlä ỵală̆u] (43:23). İstisna hal 69-cu surədə baş verir. Yəni, AH-də 19-cu ayə qapalı heca ilə bitir. Növbəti ayəyə qiraəti vəqf etmədən keçərkən bir (كِتَابِيَهْ ١٩ إِنِّي [kitə̆biyəh ’íññī]), NV-də isə iki qiraət variantı mümkündür: həm AH-də tam realizə ilə, həm də saitin həmzədən önə keşməsi və [’] səsinin düşümü ilə: كِتَابِيَهْ ١٨ إِنِّي [kitə̆biyəh ’íññī] və ya

[kitə́biyəhí-’ññī] → [kitə́biyəhí-ññī] (69:18-19); NV-də AH-də tam realizə ilə birinci qiraət variantı daha üstün hesab edilir. Unudulmamalıdır ki, sözlərin kəsişməsində uzun sait bildirən zəif vav və ya yə samitindən sonra məddi-münfəsil baş verir və sözügedən hadisə baş vermir). Sözlərin kəsişməsində zəif samitlər yalnız samit (yalnız lin hərfi) qismində (üzərində sükun işarəsi) olduğu halda özündən sonra gələn [’] səsinin nəticədə düşümünə gətirib çıxarır. Əlifin isə ümumiyyətlə samitlikdən bir əlaməti olmadığı üçün, o, [’] səsinin düşümündə iştirak etmir. Yuxarıda verilən misallardan bəlli olur ki, qəlqələ xüsusiyyətinə malik səslərdən sonra saitin həmzədən önə keşməsi sayəsində o, açıq hecanın samiti mövqeyini əldə edir və qəlqələliyini itirir. Həmçinin özündə samit və sait xüsusiyyətlərini cəm edən [m̃] və [ñ] səslərindən sonra saitin həmzədən önə keşməsi sayəsində o, açıq hecanın samiti mövqeyini əldə edir və burunlaşmanın kəmiyyəti fərqi əmələ gəlir. Eləcə də *r* samitindən sonra həmzədən önə keçən sait [i] olduğu halda *r* samiti məxrəcə görə uyğunlaşmaya məruzqalır.

AH-də tənvindən ([ñ] səsindən) sonra gələn vəslələnməyən [’] səsi tam realizə ilə qiraət edildiyi halda (məsələn, عَذَابٌ أَلِيمٌ [‘azə́buñ ’əlím̃uñ], رَسُولٌ إِلَّا [ṛasū́liñ ’íllə], هُودًا أَوْ [hū́dəñ ’ə́u], ءَامَنَ ٢٨٤ قَدِيرٌ [qâdí̇ṛuñ ’ə́mənə], فَٰكِهَةٌ ءَامِنِينَ [fə̀kíhətiñ ’əmiñ́nə], أَصْنَامًا ءَالِهَةً [’äṣnə́məñ ’əlíhətəñ]), NV-də həmin mövqedə [’] səsi nəticədə düşümə məruz qalır. Burada [’] səsindən sonra gələn sait həmzədən önə keçir və həmzə dərhal düşümə məruz qalır: عَذَابٌ أَلِيمٌ [‘azə́bunə-’lím̃uñ] → [‘azə́bunə-lím̃uñ], رَسُولٌ اِلَّا [ṛasū́liní-’llə] → [ṛasū́liní-llə], هُودًا اَوْ [hū́dənə́-’ʏ] → [hū́dənə́-u], ٢٨٣ اٰمَنَ قَدِيرٌ [qâdí̇ṛunə́ə́-’mənə] → [qâdí̇ṛunə́ə́-mənə], فَٰكِهَةٌ اٰمِنِينَ [fə̀kíhətinəə́-’miñ́nə] → [fə̀kíhətinəə́-miñ́nə], أَصْنَامًا اِلٰهَةً [’äṣnə́mənəə́-’líhətəñ] → [’äṣnə́mənəə́-líhətəñ]. Bütün hallarda son samit [ñ] səsinin burunlaşmasının bir hissəsi itir [34, 247; 42, 167]. NV-də məddi-bədəlin yaranma səbəbi olan [’] səsinin nəticədə düşümündən sonra belə məddi-bədəl öz qüvvəsində qalır. Diqqətdən yayınmamalıdır ki, qapalı heca üzərində vəqf etdikdə sözügedən hadisə baş vermir və qiraət həmzənin tələffüzü ilə davam edir. Məsələn, vəqf etdikdə ardı ilə gələn hissə [’] səsi ilə başlamış olur: قَدِيرٌ ١٠٥ اَ لَمْ [qâdí̇ṛ ‖ ’ə ləm̃], أَرْبَابًا۬ اَيَامُرُكُم [’äṛbə́bə ‖ ’ə yəmúṛukum̃], إِنَّ۟ جَمِيعًا [cəmí̇‘ā ‖ ’íññə]; vəqf etmədikdə isə, [’] səsinin nəticədə düşümü baş verir: [qâdí̇ṛunə́’ ləm̃] → [qâdí̇ṛunə́ ləm̃], [’äṛbə́bənə’ yəmúṛukum̃] → [’äṛbə́bənə yəmúṛukum̃]. AH ilə NV arasında müşahidə edilən digər fərq halı NV-də [’] səsinin nəticədə düşümünə gətirib çıxaran xüsusi hal əmələ gətirir. Belə ki, 65:3-də AH-də بَٰلِغُ [bə́liğu] ismi NV-də tənvinlə işləndiyi üçün ondan sonra gələn vəslələnməyən [’] səsi nəticədə düşümə məruz qalır: بَٰلِغٌ أَمْرَهُ [bə́liğunə́-’m̃ṛahu] → [bə́liğunə́-m̃ṛahu].

قَالَتْ أُخْرُجَ [qâlət ’úxṛuč], لَقَدْ أُسْتُهْزِئَ [lấqâd̆ ’ustúhzi’ə], قُلْ أُنظُرُواْ [qul ’úñ̃zuṛū], أَنْ أُحْكُم [’ən ’úḥkum̃], أَوْ أُنقُصْ [’äu ’úñ̃quṣ] ifadələrində, yəni sözün tənvindən ([ñ] səsindən) başqa istənilən son samitindən sonra vəslələnən [’] səsi gəldiyi halda AH-də başlanğıc [’] səsi vəslələnən növə aid olduğu üçün özü və özündən sonra gələn sait (ikisi də) tələffüz edilmir, son samit köməkçi protetik [i] saiti vasitəsilə növbəti samit səsə “bağlanır”, yəni vəslələnmə baş verir: قَالَتِ ٱخْرُجْ [qâlətí-xṛuč], لَقَدِ ٱسْتُهْزِئَ [lấ-

qâdi-stúhzi’ə], قُلِ ٱنظُرُواْ [qúlí-ṇ̃ẓuṛū], أَنِ ٱحۡكُم [’əní-ḥkum̃], أَوِ ٱنقُصۡ [’äẏí-ṇ̃quṣ]. NV-də isə başlanğıc [’] səsi vəslələnən növə aid olduğu halda vəslələnmə baş vermir, burada [’] səsindən sonra gələn sait həmzədən önə keçir və həmzə dərhal düşümə məruz qalır: قَالَتۡ ٱخۡرُجۡ [qa̋lətú-’xṛuč] → [qa̋lətú-xṛuč], لَقَدۡ ٱسۡتُهۡزِئَ [lä́qâdu-’stúhzi’ə] → [lä́qâdu-stúhzi’ə], قُلُ ٱنظُرُواْ [qúlú-’ṇ̃ẓuṛū] → [qúlú-ṇ̃ẓuṛū], أَنُ ٱحۡكُم [’ənú-’ḥkum̃] → [’ənú-ḥkum̃], أَوُ ٱنقُصۡ [’äẏú-’ṇ̃quṣ] → [’äẏú-ṇ̃quṣ]. Diqqətdən yayınmamalıdır ki, vəqf etdikdə AH-də vəslələnmə, NV-də isə sözügedən hadisə baş vermir, hər iki rəvayətdə qiraət eyni olur: [qa̋lət‖ ’úxṛuč], [lä́qâd‖ ’ustúhzi’ə], [qul‖ ’úṇ̃ẓuṛū], [’əñ‖ ’úḥkum̃], [’äu ’úṇ̃quṣ]. Yuxarıda verilən misallardan bəlli olur ki, qəlqələli səslər qapalı hecanın son samiti mövqeyindən dəyişib açıq hecanın samiti mövqeyində olduğuna görə özünün bu xüsusiyyətini itirirlər. Eləcə də özündə samit və sait xüsusiyyətlərini cəm edən [ñ] səsindən ([m̃] ilə Qurani-Kərim boyu müşahidə edilmir) sonra AH-də vəslələnmə və NV-də sözügedən hadisə onun qapalı hecanın son samiti mövqeyi dəyişib açıq hecanın samiti mövqeyində olur. Bu səbəbdən malik olduğu burunlaşmanın kəmiyyəti fərqli olur.

بِرَحۡمَةٍ ٱدۡخُلُواْ [biṛaḥmətiñ ’údx̆ulū], مَّسۡحُورًا ٤٧ ٱنظُرۡ [məsḥū́ṛañ ’úṇ̃ẓuṛ] ardıcıl gələn iki sözdə, yəni tənvindən ([ñ] səsindən) sonra vəslələnən [’] səsi gəldiyi halda AH-də başlanğıc [’] səsi vəslələnən növə aid olduğu üçün özü və özündən sonra gələn sait (ikisi də) tələffüz edilmir, [ñ] səsi köməkçi protetik [i] saiti vasitəsilə növbəti samit səsə “bağlanır”, yəni vəslələnmə baş verir: بِرَحۡمَةٍ ٱدۡخُلُواْ [biṛaḥmətiní-d̆xulū], مَّسۡحُورًا ٤٧ ٱنظُرۡ [məsḥū́ṛaní-ṇ̃ẓuṛ]. NV-də isə başlanğıc [’] səsi vəslələnən növə aid olduğu halda vəslələnmə baş vermir, burada [’] səsindən sonra gələn sait həmzədən önə keçir və həmzə dərhal düşümə məruz qalır: بِرَحۡمَةٍ ٱدۡخُلُواْ [biṛaḥmətinú-’d̆xulū] → [biṛaḥmətinú-d̆xulū], مَّسۡحُورًا ٤٧ ٱنظُرۡ [məsḥū́ṛanú-’ṇ̃ẓuṛ] → [məsḥū́ṛanú-ṇ̃ẓuṛ]. Diqqətdən yayınmamalıdır ki, vəqf etdikdə AH-də vəslələnmə, NV-də isə sözügedən hadisə baş vermir, hər iki rəvayətdə qiraət eyni olur: [biṛáḥməh‖ ’údx̆ulū], [məsḥū́ṛah ’úṇ̃ẓuṛ]. Həmçinin özündə samit və sait xüsusiyyətlərini cəm edən [ñ] səsindən sonra AH-də vəslələnmə və NV-də sözügedən hadisə onun qapalı hecanın son samiti mövqeyi dəyişib açıq hecanın samiti mövqeyində olur. Bu səbəbdən malik olduğu burunlaşmanın kəmiyyəti fərqi olur.

AH-də [’əl-] artiklindəki [l] səsindən sonra vəslələnməyən [’] səsi tam realizə ilə qiraət edildiyi halda (məsələn, ٱلۡأَرۡضِ [’əl-’ā́ṛḍi], ٱلۡآخِرَةِ [’əl-’ā̆xíṛati], ٱلۡإِنسَٰنُ [’əl-’iñ̄sā̋nu], بِٱلۡإِيمَٰنِ [bil-’īmā̋ni], ٱلۡأُمُورُ [’əl-’umū́ṛu], ٱلۡأُولَىٰ [’əl-’ūlā]) NV-də [’] səsi nəticədə düşümə məruz qalır. Burada [’] səsindən sonra gələn sait həmzədən önə keçir və həmzə dərhal düşümə məruz qalır: ٱلۡأَرۡضِ [’ələ-’ṛḍi] → [’ələ́-ṛḍi], ٱلۡآخِرَةِ [’ələə̄-’xíṛəti] → [’ələ̄ə̄-xíṛəti], ٱلۡإِنسَٰنُ [’əli-’ñ̄sā̋nu] → [’əli-ñ̄sā̋nu], بِٱلۡإِيمَٰنِ [bílīī-’mā̋ni] → [bílīī-mā̋ni], ٱلۡأُمُورُ [’əlu-’mū́ṛu] → [’əlu-mū́ṛu], ٱلۡأُولَىٰ [’əlū́-’lā] → [’əlū́-lā]. NV-də məddi-bədəlin yaranma səbəbi olan [’] səsinin nəticədə düşümündən sonra belə, məddi-bədəl öz qüvvəsində qalır.

رِدۡءًا [ríd̆’əñ], مِنسَأَتَهُۥ [miñ̄sə’ətəhu], سَأَلَ [sə’ələ] sözlərində [’] səsi AH-də göstərildiyi kimi, yəni tam realizə ilə qiraət edildiyi halda, NV-də tərkibindəki [’] səsi

düşümə məruz qalır. Belə ki, رِدْءًا [ríd̆’əñ] sözündə III kök samiti olan [’] səsi düşür və bunun sayəsində [d̆] səsi qəlqələ xüsusiyyətini itirir: [rídəñ] (28:34). [miñsə’ətəhu] və [sə’ələ] hallarında II kök samiti [’] səsi düşür və bunun sayəsində uzun sait əmələ gəlir ([miñsə’ətəhu] → [miñsəətəhu] → [miñsətəhu]; [sə’ələ] → [səələ] → [sələ]): مِنسَاتَهُۥ [miñsətəhu] (34:14), سَالَ [sələ] (70:1).

2. [’] səsinin əvəzlənməsi

NV-də tərəfimizdən [’] səsinin əvəzlənməsi kimi səciyyələndirilən fonetik hadisə Orta Əsr müsəlman alimləri lüğəvi mənası «əvəzlənmə», «dəyişiklik»; «mübadilə», istilahi mənası «əvəzlənmə» anlamında (الإبدال) *ibdal*, daha dəqiq desək إبدال الهمزة «həmzənin əvəzlənməsi» hadisəsi kimi nəzərdən keçirir [18, 1, 27] və bu hadisənin ləhcələrdən qaynaqlandığını bildirirlər [73, 106]. Burada tədqiqatçılar həmzənin müəyyən mövqedə əlif (Sibəveyhi həmzəyə ən yaxın səs olduğunu bildirir [87, 4, 26]), vav və ya yə ilə əvəzlənməsini nəzərdə tuturlar [3, 397-398; 51, 10, 7]. Bəziləri *ibdal* altında həmzənin təkcə əlif, vav və ya yə deyil, həmçinin onun [h] və ya [‘] ilə əvəzlənməsini də daxil edirlər [1, 95]. Sözügedən hadisə bəzi qiraət alimləri tərəfindən lüğəvi mənası «yüngülləşdirmə»; «yumşaltma»; «kiçiltmə», «azaltma»; «əvəzlənmə (cəzanın əvəzlənməsi)», istilahi mənası həm qoşa samiti tək samit kimi tələffüzü anlamında «yüngülləşdirmə», anlamında (التخفيف) *təxfif* hadisəsinin fərqli bir təzahürü kimi təsvir edilir [66, 30; 80, 234], əsas kimi isə həmzənin qapalı hecanın son samiti olduğu halda sait səsin ona “güc gəldiyini” göstərirlər (məs., وَبِٱلۡأٓخِرَةِ (2:4): [ỿábil-’ə’xíṛati → ỿábil-’ā̆xíṛati]) [14, 165]. Müasir tədqiqatçılar əvəzlənməni, haqlı olaraq, qiraətin asanlaşması, Boduen de Kurtenenin “əzələ gərginliyinin qənaəti” prinsipindən çıxış edərək [19, 236], ziyadə gərginliyin aradan qalxması səbəbi ilə baş verən hadisə kimi qiymətləndirirlər.

Tədqiqatlarda إبدال الهمزة ألفا وواوا وياء «həmzənin əlif, vav və yə ilə əvəzlənməsi» hadisələri bir fonetik proses kimi nəzərdən keçirilir. Bununla isə yalnız qismən razılaşmaq mümkündür. Belə ki, həmzənin vav və yə ilə əvəzlənməsi ([u’] → [uỿ] və [i’] → [iy]) uzun saitin əmələ gəlməsi ilə nəticələnir ([uỿ] → [uu] → [ū] və [iy] → [ii] → [ī]). Burada həmzənin özündən əvvəl gələn saitə uyğun zəif samitlə əvəzlənməsini reqressiv akkomodasiyaya uğraması kimi də təsvir etmək mümkündür. [uỿ] və [iy] səs birləşmələrinin uzun saitə çevrilməsi ([uỿ]/[ū] və [iy]/[ī]) bunun ardınla baş verən növbəti hadisə kimi şərh oluna bilər. «Həmzənin əlif ilə əvəzlənməsi» fikri isə bizə icrası mümkün olmayan bir hadisə kimi görünür, çünki əlifin vav (و [ỿ]) və yə (ي [y]) kimi “maddi” ifadəsi, “maddi” tutumu yoxdur. Əgər vav və yə halında həmzə özündən əvvəl gələn saitin (dəmmə və kəsrənin bildirdiyi saitlərə uyğun) “maddi” ifadəsi ilə (yəni, vav və yə ilə) əvəzlənirsə, həmzənin özündən əvvəl gələn (fəthənin bildirdiyi saitə uyğun) “maddi” ifadəsi olmadığı üçün, onun “müəmmalı” əliflə əvəzlənməsi ağlasığmaz bir əməliyyat kimi görünür. Nəzərə alsaq ki, baş verən prosesin son nəticəsi uzun saitin əmələ gəlməsi, yəni [ə’] səs bir-

Məqalədə göstərilir ki, başqa ölkələrdə yaşayan həmyerlilərimiz və soydaşlarımız AzTV-ni böyük maraqla izləyirlər. Bu kanal vasitəsilə milli mədəniyyətimiz, siyasi-iqtisadi nailiyyətlərimiz, tariximizlə tanış ola bilirlər. Çünki Azərbaycan Televiziyası doğma Vətənimizin güzgüsüdür.

Qeyd olunur ki, milli mətbuatın əsasının qoyulması ilə Azərbaycan dilinin publisistik üslubu yaranmış və inkişaf etmişdir. Publisistik üslub kütləvi nitq foması olduğu üçün bütün dil göstəricilərinə görə adi danışıq dilinə çox yaxındır. Mətbuat dilində gedən proseslər ümumxalq danışıq dilinə də təsir göstərir. Publisistik üslub milli ictimai təfəkkürü ifadə edən nitq formasıdır. Televiziya aparıcıları Azərbaycan dilimizin fonetik, leksik və qrammatik imkanlarını həm nəzəri, həm də praktik cəhətdən mükəmməl bilməlidirlər.

Açar sözlər: Azərbaycan Televiziyası (AzTV), ictimai verilişlər, sərəncam, publisistik üslub, ictimai proqramların dili.

Televiziyanın cəmiyyətin həyatında çox böyük rolu olduğu hamımıza yaxşı məlumdur. İnternet əsri olan XX1 əsrdə televiziya insanların diqqətini daha çox cəlb edir, onları düşündürür və müzakirələrə səbəb olur.Ölkəmizdə baş verən hadisələr te-

leməkanda özünü dərhal göstərir və bu hadisələri operativ şəkildə xalqımıza çatdıran televiziyaların fəaliyyətini qiymətləndirməmək mümkün deyil. Əlbəttə ki, söhbət ölkəmiziin ictimai-siyasi və mədəni həyatının inkişafının göstəricisi, seyrçilərin dünyagörüşünü, zövqünü formalaşdıran müasir AzTV-dən gedir.Respublikamızın Prezidenti Cənab İlham Əliyevin televiziya mövzusuna dair vacib açıqlamalarla çıxış etməsi cəmiyyətdə xüsusi maraq doğurdu. Dövlət başçısı doğma dilimizin saflığı ilə bağlı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" imzaladığı Fərmanında TV-lərə tövsiyələrini verdi (1, səh.3905).Yarım əsrə yaxın bir dövrdə AzTV xalqımızın izlədiyi yeganə Azərbaycan televiziyası olub. Qeyd etmək lazımdır ki, həm doğma dilin saflığının, həm də insanların sağlamlığının qorunması ilə bağlı ölkə prezidentinin tövsiyələrinə əməl edən telekanallardan biri, bəlkə də birincisi AzTV-dir. AzTV bütün teleməkanlara nümunədir desək, yəqin ki yanılmarıq.Professor Cahangir Məmmədli "İki sahil" qəzetində yazır: "Hər şeyin bir başlanğıcı olur. Əgər Azərbaycanın milli mətbuatı öz başlanğıcını "Əkinçi" kimi klassik məktəb səviyyəsinə yüksəlmiş bir müqəddəs qəzetdən alırsa, bugünkü polifonik səsli teleməkanımız da öz təməlini AzTV-dən qəbul etmişdir. Öz başlanğıcını1956-cıil fevralın 14-dən alan Azərbaycan televiziyası uzun müddət ideoloji kanonlar çərçivəsində fəaliyyət göstərməyə məcbur olsa da, xalqımızın, millətimizin mədəni, ictimai, siyasi, iqtisadi inkişafı yolunda misilsiz xidmət göstərmiş və göstərməkdədir...Azərbaycan Milli Televiziyası bütün teleməkanımız üçün bir yaradıcılıq məktəbidir...Ulu öndərimiz Heydər Əliyev hələ 1996-cı ildə bu televiziyanın 40 illik yubiley təntənəsindəki çıxışında demişdi: "Azərbaycan milli televiziyası 40 il ərzində böyük yaradıcılıq yolu keçmiş və xalqımızın, respublikamızın həyatında əvəzsiz rol oynamışdır"(3. Səh.3). Televiziya hər cür informasiyanı bütün dünyaya yaymaq qüdrətinə malik çox mühüm və gözəl vasitədir və rəngarəng proqramları ilə insanları düşündürmək, məlumatlandırmaq, maarifləndirmək, əyləndirmək və hətta səfərbər etmək imkanına malikdir. Televiziya dövlətin və millətin əhalisinin bütün təbəqələrinin tərəqqisi üçün çox əhəmiyyətli rol oynayır. İnsanlar onları düşündürən, narahat edən problemlərlə bağlı məlumatları daha tez televiziya vasitəsilə alırlar. Azərbaycan televiziyası vasitəsilə müəyyən sahədə yaranan və yarana biləcək hər hansı problemin vaxtında aradan qaldırılmasına çalışır.

AzTV yalnız elmə, mədəniyyətə, incəsənətə, ictimai-siyasi hadisələrə həsr edilmiş milli-mənəvi dəyərlərə uyğun veriliş və proqramlarla deyil, eyni zamanda, xalqımızın taleyində müstəsna xidmətləri olan görkəmli şəxsiyyətləri nəinki Azərbaycana, bütün dünyaya tanıtmağa səy göstərir. Azərbaycan televiziyası (AzTV) bütün telekanallarımıza örnək olmalıdır, çünki AzTV respublikamızın bütün telekanalının başlanğıcıdır, yarandığı gündən bugünədək peşəkarlığını daha da inkişaf etdirərək, digər telekanallara bir məktəb olmuşdur. AzTV klassika və müasirliyin vəhdətinin yeniliklərini çox böyük məharətlə xalqımıza çatdırır. Azərbaycan televiziyasında efirə çıxan proqramlar yüksək səviyyədə fəaliyyət göstərməkdədir. Bu proqramlar həmin möv-

zuların inkişaf dinamikasını ortaya qoyan, əsrin çağırışları kontekstində fəaliyyətinin çoxtərəfli parametrlərini müəyyənləşdirən proqramlar kimi xüsusilə fərqlənir.

"Azərbaycan Televiziya və Radio Verilişləri" (AzTV) Qapalı Səhmdar Cəmiyyəti (QSC) yeni mövsümdə də bir sıra yeniliklərə start verib.

BakuPost.az xəbər verir ki, bu barədə AzTV, Sosial media və ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb. Bildirilib ki, bütün redaksiyalar yeni verilişlər təqdim edir, bir çox proqramlar isə yeni studiyalardan yeni formatda efirə çıxır. "İctimai-siyasi proqramlar və xarici xəbərlər studiyası"nın canlı verilişləri, tok-şouları yeni studiyalardan təqdim olunur. Ölkənin ictimai-siyasi həyatında baş verən ən aktual məsələlər həftə içi 5 gün **"Əsas məsələ"** tok-şousunda müzakirə olunur. Tam yeni və müasir standartlara cavab verən studiyadan təqdim olunan növbəti layihə - **"Hədəf" i**ctimai-siyasi proqramında isə ölkə və beynəlxalq əhəmiyyətli hadisələrin təfərrüatları geniş təhlil olunur. Bu veriliş də həftə içi 5 gün yayımlanır və qonaqlar gündəmdə olan ən aktual məsələlərə münasibət bildirirlər. **"Həftə", "Planet", "Parlament vaxtı", "Milli istehsal"** kimi geniş tamaşaçı auditoriyası olan proqramlar da yeniliklərlə təqdim olunur "(2,səh.1). Qeyd etmək lazımdır ki, Azərbaycan televiziyasının efirində ictimai - siyasi verilişlərdən "Əsas məsələ" tok-şousu, "Hədəf", "İstehlakçı seçimi", "Jurnalist araşdırması", "Planet", "Milli istehsal" proqramları da belə verilişlərdəndir. Hər bir aparıcı (hansı kanalın, proqramın, verilişin olursa-olsun, fərqi yoxdur) Azərbaycan dilimizin fonetik, leksik və qrammatik imkanlarını həm nəzəri, həm də praktik cəhətdən mükəmməl bilməli, nitqin dəqiqliyi, yığcamlığı üçün üslubi imkanlardan yerində, orfoepiyanın, ədəbi dil normalarının tələblərinə uyğun istifadə edərək tamaşaçı kütləsinə çatdırmağı bacarmalıdır.

Televiziya dilindən danışırıqsa, publisistik üslubdan danışmamaq qeyri-mümkündür. Çünki bütün televiziya kanallarının verilişləri publisistik üslubun əsasında yazılıb tamaşaçılara təqdim edilir. Publisistik üslub bütün dil göstəricilərinə görə adi danışıq dilinə çox yaxındır. Mətbuat dilində gedən proseslər (yeni yaranan sözlər və s.) ümumxalq danışıq dilinə də təsir göstərir.

Teleməkan elə bir sahədir ki, burada çalışanlarda təkcə istedad, peşəkarlıq, yaradıcılıq potensialı deyil, əsl vətəndaşlıq, vətənə böyük sevgi olmalıdır.Telekanallar arasında belə peşəkarlar, əlbəttə ki, daha çox AzTV-dədir.

Bəzi özəl TV-lər ictimai rəyi nəzərə almadan milli-mənəvi dəyərlərimizə zidd, səviyyəsiz verilişlərin nümayişini israrla davam etdirirlər. Onlar anlamaq istəmirlər ki, TV savadsız və zövqsüz insanların səviyyəsinə enə bilməz və hec bir telekanalın özbaşınalıq edib xalqın əsəbiləri ilə oynamağa ixtiyarı yoxdur. Əlbəttə ki, bu baxımdan, AzTV-nin digər özəl telekanallarla müqayisəsi mümkün və düzdün deyil.

Azərbaycan Televiziyasının verilişləri baxımlıdır, geniş tamaşaçı kütləsini qane edir, çünki Azərbaycan Televiziya və Radio Verilişləri QSC mədəniyətimizin qorunmasına və inkişafına çalışır, qarşısına qoyulan missiyanı vicdanla yerinə yetirir, ölkəmizi dünyada tanıdaraq, mədəniyyət incilərini xalqımıza təqdim edir. Müdrikcəsinə idarə olunan Azərbaycan Televiziyası və müasir maddi-texniki bazaya malik "Ana"

televiziyamızın efirində milli maraqlarımızın, ictimai-siyasi münasibətlərimizin, dilimizin, adət-ənənələrimizin, milli mədəniyyətimizin, incəsənətimizin qorunmasına, inkişafına və yayılmasına xidmət edən rəngarəng proqramlar hər gün evimizin qonağı olur. AzTV hazırda bu ənənəni uğurla davam etdirir.

XXI əsrdə informasiya, kommunikasiya texnologiyaları vasitəsilə dünyanın daha da sürətlə qloballaşması mədəniyyətləri və adət-ənənələri üz-üzə gətirdi. Və bu baxımdan da AzTV-nin müstəqil Azərbaycan dövlətimizin, xalqımızın marağına xidmət edən geniş və məqsədyönlü fəaliyyəti göz qabağındadır..

Başqa ölkələrdə yaşayan əmyerlilərimiz və soydaşlarımız AzTV-ni böyük maraqla izləyərək, bu kanal vasitəsilə milli mədəniyyətimiz, siyasi-iqtisadi nailiyyətlərimiz, tariximizlə tanış ola bilirlər. Çünki Azərbaycan Televiziyası doğma Vətənimizin güzgüsüdür. Müasir Azərbaycanımız məhz bu televiziyada öz əksini olduğu kimi tapır. Elə bu mənada da AzTV özəl telekanallardan əsaslı surətdə fərqlənir.

Azərbaycan Televiziyası Azərbaycanın siyasi-iqtisadi uğurlarını, tarixi həqiqətlərini, qədim mədəniyyətə malik ölkəmizin tarix boyu mənəvi dəyərlərini, dilini, dinini, adət-ənənələrini, folklorunu qoruyub saxlaya bildiyini, əsrarəngiz təbiətini, əsrlərin yaddaşı olan maddi-mədəniyyət abidələri ilə zəngin olduğunu dünyaya nümayiş etdirir. Azərbaycan tamaşaçısının maariflənməsi, öz doğma yurdunu daha da yaxından tanıması, sevməsi, ölkəmizin beynəlxalq imicinin formalaşması kontekstində olduqca vacib bir missiyadır. AzTV kanalı bu vacib missiyanın öhdəsindən uğurla gəlir.Televiziya tamaşaçılarının ictimai həyatın ən mühüm və müvafiq faktlarından, hadisələrindən xəbərdar olması üçün ictimai proqramların nümayiş etdirilməsi təqdirəlayiqdir və vacibdir. Bu proqramların daha gözəl təqdim olunması aparıcının Azərbaycan dilimizin fonetik, leksik və qrammatik imkanlarını həm nəzəri, həm də praktik cəhətdən mükəmməl bilməli, nitqin dəqiqliyi, yığcamlığı üçün üslubi imkanlardan yerində, orfoepiyanın, ədəbi dil normalarının tələblərinə uyğun istifadə edərək, tamaşaçı kütləsinə çatdırmağı bacarmasından asılıdır. Hal-hazırda fəaliyyət göstərən bütün telekanallarımızın öz işlərinə peşəkarcasına və məsuliyyətlə yanaşmaq, Azərbaycan ədəbi dil normalarının qanunlarına riayət edərək, dilimizin saflığını və gözəlliyini qorumagı bacarmaq onların vəzifə borcudur.

Ədəbiyyat

1.Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanı. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, səh.3905, Bakı, 2019.

2. AzTV-nin yeni mövsümlə bağlı hesabatı. BakuPost.az. 24 Sentyabr 2019.

3.Cahangir Məmmədli. “Dövlətçiliyimizin media qarantı: AzTV””İki sahil”, 3 iyun 2017.

4.Məhərrəmov Q. Televiziya nitqi və ədəbi tələffüz. Bakı, 1999.

И.Керимова

Социальные программы в азербайджанской
телевидении (азтв) и о языке ведущих этих программ
Резюме

В статье исследуется социальные программы и язык телеведущих этих программ на Азербайджанской телевидении. Отмечается, что АзТВ - это начало всех телеканалов в стране, с момента своего создания до сегодняшнего дня. Поэеому АзТВ должен быть примером для всех телеканалов республики . АзТВ с большим мастерством транслирует новинку классики и современности. Социальные программы, транслируемые на высоком уровне по Азербайджанскому телевидению, указывает на профессионализм ведущих и журналистов телевизионной аудитории АзТВ. Эти программы особенно выделяются как программы, которые раскрывают динамику развития этих тем, определяя многосторонние параметры в контексте нашего столетия. Среди этих программ, особенно отличаются сдедующие социальные программы: «Неделя», «Главный вопрос», «Цель», «Выбор потребителя», «Журналистское расследование», «Планета». Сотрудники студии оперативно привлекают внимание аудитории к важнейшим политическим и социальным событиям в стране и мире, объективно анализируют их сущность. Они пытаются проанализировать их сущность с честной, политической и научной точки зрения.Указывается, что наши соотечественники, которые живут в других странах, с большим интересом и наблюдают АзТВ. Через этот канал они узнают о нашей национальной культуре, о наших политических и экономических достижениях и нашей истории. Конечно и в этом смысле Азербайджанское телевидение - это зеркало нашей Родины. Это современный AzTV, который формирует мировоззрение и вкусы зрителей.

В статье отмечается, что с появлением национальной прессы был разработан и развит публицистический стиль азербайджанского языка. Публицистический стиль очень близок к обычному разговорному языку по всем языковым показателям. Телеведущие должны превосходно знать фонетические, лексические, грамматические и орфоэпические возможности Азербайджанского литературного языка как в теории, так и на практике. Они должны уметь использовать стилистические возможности для точности, компактности речи в соответствии с требованиями орфоэпии литературного языка. Публицистический стиль является формой речи, которая выражает национальное общественное мнение.

Ключевые слова:Азербайджанское Телевидение (АзТВ), социальные телепередачи, распоряжение, публисистический стиль, язык социальных программ.

İ.Karimova

Social programs in azerbaijan televisions (aztv)
and the language of the leading these programs

Summary

The article explores the social programs and language of the TV hosts of these programs on Azerbaijani television. It is noted that AzTV should be an example for all channels, since AzTV is the beginning of all television channels in the country, from its inception to today. Therefore, AzTV should be an example for all television channels of the republic. AzTV with great skill broadcasts a novelty of classics and modernity. High-level social programs on Azerbaijan television indicate the professionalism of the leading and journalists of the television audience of AzTV.These programs are particularly distinguished as programs that reveal the dynamics of the development of these topics, defining multilateral parameters in the context of our century. Among these programs, it should be noted especially that the social programs that take place are: "Week","The main issue" Rufat, "Target,", "Journalistic Investigation", "Planet" and others. Studio employees quickly attract the attention of the audience to the most important political and social events in the country and the world, objectively analyze their essence. They are trying to analyze their essence from an honest, political and scientific point of view.

It is indicated that our compatriots who live in other countries are very interested in watching AzTV. Through this channel they learn about our national culture, about our political and economic achievements and our history. Of course, in this sense, Azerbaijani television is a mirror of our homeland. This is a modern AzTV, which shapes the worldview and tastes of the audience.

The article notes that with the advent of the national press, the journalistic style of the Azerbaijani language was developed and developed. Journalistic style is very close to ordinary spoken language in all linguistic indicators. TV presenters should have excellent knowledge of the phonetic, lexical, grammatical and orthoepic possibilities of the Azerbaijani literary language both in theory and in practice.

Key words: Azerbaijan Television (AzTV), social tv shows, disposal, publicistic style, language of social programs.

Redaksiyaya daxil olma tarixi: 20.08.2019
Çapa qəbul olunma tarixi: 04.01.2020
Filologiya elmləri doktoru, professor Nizami Xəlilov tərəfindən çapa tövsiyə olunmuşdur

ELXAN YUSİFOV
Filologiya üzrə fəlsəfə doktoru, dosent
ADU
Təbriz küş 134
elxankamal@mail.ru

ALMAN DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ MÜRƏKKƏB SÖZLƏRİN ROLU

Xülasə

Söz yaradıcılığının ən məhsuldar növlərindən biri kimi mürəkkəb sözlər alman ddilinin lüğət tərkibinin zənginləşməsində mühüm yer tutur. Alman dili yeni bir məfhumun ifadəsinə xidmət edən çoxüzvlü mürəkkəb sözlərlə zəngindir. Araşdırmalar göstərir ki, tarixən alman dilində bir neçə sözün sintaktik birləşməsindən mürəkkəb sözlər əmələ gəlmiş və dildə vahidlik bildirən bir elementə çevrilmişdir. Bununla belə, mürəkkəb sözlər alman dilində sözdüzəldici vasitə kimi yeni sözlərin əmələ gəlməsinə, yəni yeni məfhumların ifadəsinə xidmət edir. Aparılan təhlillər mürəkkəb sözlərin böyük əksəriyyətinin oxşar yolla əmələ gəldiyini bir daha təsdiq edir. Ümumiyyətlə, mürəkkəb sözlər sözdüzəldici hadisə olub, ilk növbədə dildə yeni leksik vahidlərin əmələ gəlməsinə səbəb olur və əksər hallarda bu cür mürəkkəb sözlərin mənası onun komponentlərinin məna ümumililiyi ilə eyniyyət təşkil etmir. Sərbəst sintaktik münasibətlərin mürəkkəb sözlərlə ifadə olunması alman dilinin səciyyəvi xüsusiyyətindən irəli gəlir. Mürəkkəb sözlər leksik vahid kimi öz struktur bütövlüyü ilə nəinki sərbəst sintaktik, həmçinin sabit söz birləşmələrindən yalnız bir məfhum ifadə etməsi ilə fərqlənir. Bu nöqteyi-nəzərdən mürəkkəb sözlərin komponentləri birbirilə o qədər sıx bağlanmışdır ki, onlar yalnız müstəqil vahid kimi dərk edilir. Mürəkkəb sözlərlə sintaktik söz birləşməsi arasındakı fərq sintaktik söz birləşməsinin modallıq ifadə etməsi, yəni təsdiqlik, hər hansı bir hadisənin və hərəkətin reallığının qiymətləndirilməsi kimi işlənə bilməsindədir. Qeyd etmək istərdik ki, araşdırmalr nəticəsində belə bir qənaətə gəlirik ki, söz yaradıcılığı və xüsusən də onun növlərindən biri olan mürəkkəb sözlər alman dilinin lüğət tərkibin zənginləşməsinin ən məhsuldar yollarından birini təşkil edir.

Açar sözlər: alman dilinin lüğət tərkibi, lüğət tərkibinin zənginləşməsi, mürəkkəb sözlər, mürəkkəb isim

Bu günkü leksikoloji tədqiqatlarda ilk növbədə dilin lüğət tərkibinin sinxron dərkedilməsinin təhlili ön plana keçir. Belə halda dildəki leksik vahidlərə makrosistemin tərkib hissəsi kimi baxılır. Bu baxımdan da dilin funksional-semantik, praqmatik və sosiolinqvistik aspektlərinə böyük diqqət yetirilir. Bununla əlaqədar olaraq, alman di-

linin lüğət tərkibinin sosial və dialektik nöqteyi-nəzərdən təbəqələşməsində R.Grosse, semantik baxımdan araşdırılmasında V.Şmidt və T.Şippan, söz mənasının struktur çalarlarının tədqiqində Q.Votyak, E.Aqrikola, D.Vayhveqer kimi dilçilərin fikirləri diqqətəlayiqdir.Hələ XX əsrin ortalarından formalaşmağa başlayan leksikologiyanın qarşısında duran əsas məqsədlərdən biri dilçilik elminin bir şöbəsi kimi dilin lüğət tərkibinin diaxronik baxımdan öyrənilməsi idi. Həmin dövrdə dilçilərin əsas diqqəti sözyaradıcılığına yönəlmişdir. Dilçilik ədəbiyyatında bu konsepsiyanın ilk baniləri J.Qrimm və H.Paul hesab edilirlər. Hər bir dilin lüğət tərkibində həmin dilin daşıyıcısı olan xalqın həyat tərzinin bütün sahələri öz əksini tapır. Təbii ki, dilin lüğət tərkibi nə qədər zəngin olarsa, həmin dildə danışmaq və yazıb-yaratmaq bir o qədər də asan olar. Dilin lüğət tərkibi onun qrammatik sistemi ilə müqayisədə daha çox sürətlə inkişaf edir və dəyişilir. Belə ki, qədim alman dili ilə müqayisədə müasir alman dilinin lüğət tərkibinin bütün sahələrində əsaslı şəkildə dəyişikliklər özünü göstərir. Bu dəyişikliklər birbaşa alman xalqının konkret olaraq tarixi, həyat tərzi və bu günkü coğrafi-geosiyasi mövqeyi ilə sıx bağlıdır. Sözyaradıcılığının ən məhsuldar növlərindən biri kimi mürəkkəb sözlər Hind-Avropa dillərində, o cümlədən də alman, ingilis, rus və başqa dillərdə geniş yayılmışdır. Alman dili mürəkkəb sözlərlə zəngindir. Tarixən bir neçə sözün sintaktik birləşməsindən mürəkkəb sözlər əmələ gəlmiş və dildə vahidlik bildirən bir elementə (leksik vahidə) çevrilmişdir. Bu o demək deyildir ki, hər bir mürəkkəb söz mütləq sintaktik söz birləşmələrindən yaranmış və yaranmalıdır. Mürəkkəb sözlərin böyük əksəriyyəti bir-birinə oxşar yolla əmələ gəlmişdir. Ümumiyyətlə, mürəkkəb sözlər sözdüzəldici hadisə olub, ilk növbədə dildə yeni leksik vahidlərin əmələ gəlməsinə səbəb olur və əksər hallarda bu cür mürəkkəb sözlərin mənası onun komponentlərinin məna ümumililiyi ilə eyniyyət təşkil etmir. V.M.Jirmunskiy qeyd edir ki, alman dilində *Dickbauch* mürəkkəb ismi (qarnıyoğun, sallaqqarın) –göbəkli, kök, ətli-canlı adam mənasında işləndiyi halda, *der dicke Bauch*- yekəqarın mənasında işlənmir (1, 213).Mürəkkəb söz bəzən sintaktik münasibətlərin ifadəsinə də xidmət edir. Bu halda mürəkkəb söz mənasına görə sərbəst sintaktik söz birləşməsi ilə tamamilə üst-üstə düşür, yəni eyniyyət təşkil edir. Sərbəst sintaktik münasibətlərin mürəkkəb sözlərlə ifadə olunması alman dilinin səciyyəvi xüsusiyyətindən irəli gəlir. Məsələn, *das Kulturhaus* (mədəniyyət evi) mürəkkəb ismi *das Haus der Kultur* sintaktik söz birləşməsilə eyni mənanı ifadə edir.

Alman dilində sərbəst sintaktik münasibətlərin mürəkkəb sözlərlə ifadə olunması problemi M.D.Stepanova və V.M.Pavlov tərəfindən geniş şəkildə araşdırılmışdır.

D.Stepanovanın fikrincə, mürəkkəb sözlər alman dilində sözdüzəldici vasitə kimi yeni sözlərin əmələ gəlməsinə, yəni yeni məfhumların ifadəsinə xidmət edir. Eyni zamanda mürəkkəb sözlərdən cümlədə sintaktik münasibətlərin ifadə vasitəsi kimi istifadə edilir (3, 322).V.M.Pavlov bu məsələ ilə bağlı öz fikrini daha da qərarlaşmış bir şəkildə açıqlamışdır. O, mürəkkəb sözlərin mənasının sintaktik əlaqələrin bir vasitəsi kimi ifadə etdiyini vurğulayır və daha inandırıcı misallar gətirir. Eyni zamanda, V.M.Pavlov mürəkkəb sözlərin sözdüzəldici rolunu, funksiyasını da inkar etmir (2,

4).Mürəkkəb sözlər leksik vahid kimi öz struktur bütövlüyü ilə nəinki sərbəst sintaktik, həmçinin sabit söz birləşmələrindən yalnız bir məfhum ifadə etməsi ilə fərqlənir. Bu nöqteyi-nəzərdən mürəkkəb sözlərin komponentləri bir-birilə o qədər sıx bağlanmışdır ki, onlar yalnız müstəqil vahid kimi dərk edilir. Lakin formasına görə bu struktur vahidlik müxtəlif cür xarakterizə olunur.

Mürəkkəb sözlərlə sintaktik söz birləşməsi arasındakı fərq sintaktik söz birləşməsinin modallıq ifadə etməsi, yəni təsdiqlik, hər hansı hərəkətin reallığının qiymətləndirilməsi kimi işlənə bilməsindədir. Amma mürəkkəb söz heç bir modallıq ifadə etmir. Məsələn*, das schwarze Brot* sintaktik birləşməsi *das Brot ist schwarz* kompleksinə uyğun məna ifadə edir. Hər iki yaradıcılıq məhsulu müəyyən bir xüsusiyyətin, əlamətin mövcudluğunu təsdiq edir. Lakin *das Schwarzbrot* mürəkkəb sözündə bu kimi təsdiqlik yoxdur. Alman dilində mürəkkəb sözlər müxtəlif meyarlar üzrə təsnif olunur. Mürəkkəb sözlərin morfoloji nöqteyi-nəzərdən təsnifatına nəzər yetirək. Mürəkkəb sözlər istənilən nitq hissəsinə aid ola bilər. Mürəkkəb isimlərin hansı cinsə məxsusluğu bir qayda olaraq sözün sonuncu komponentindən asılı olur.

Alman dilində mürəkkəb sözlərin semantik-sintaktik nöqteyi-nəzərdən 4 bölgüsünü ayırd etmək olar:

1. Təyini mürəkkəb sözlər. Mürəkkəb sözlər təyini söz birləşməsi kimi iki və daha artıq komponentdən ibarət olur. Bir qayda olaraq 2-ci komponent 1-ci komponenti təyin edir, ismin cinsini, sayını və halını müəyyənləşdirir. Belə halda sözün əsas vurğusu təyinedici sözün üzərinə düşür. Sözün 2-ci komponenti köməkçi vurğu daşıyır. Məsələn: ´Sch*reib·tisch, ´Buch·halter, ´Fahr·rad* və s. Bəzi hallarda mürəkkəb sözün 2-ci komponenti 1-ci komponentini təyin edir. Bu halda əsas vurğu sözün 2-ci komponenti üzərinə düşür. Məsələn: *Jahr´hundert, Jahr´tausend.* Alman dilində sözün semantik fərqliliyinə bəzən vurğu də təsir edir. Məsələn: *´blutarm* (arm an Blut) – qanıaz; amma *blut´arm* (sehr arm) – çox kasıb və s.

Bununla belə, alman dilində üç, dörd və daha çox mürəkkəb sözlərin birləşməsinə rast gəlmək olar. Bir sözlə, çoxüzvlü mürəkkəb sözlər alman dilində geniş yayılmışdır. Bütöv mürəkkəb sözün birləşməsi yeni bir məfhumun ifadəsinə xidmət edir. Məsələn:

Grundstückverkehrsgenehmigungszuständigkeitsübertraungsverordnungrichtlinie.74 hərfdən ibarət 8 müstəqil leksik vahidin birləşməsi yolu ilə əmələ gələn bu mürəkkəb ismin cinsi alman dilinin daxili qayda-qanunlarına əsasən sonuncu ismə görə müəyyən edilir. Bu cür çoxüzvlü mürəkkəb sözlərin hər biri bütövlükdə ikiüzvlü söz kimi ayırd edilir. Bu halda mürəkkəb ismin sonuncu komponenti kimi *die Richtinie* (xətt, sıra) ismi əsas söz olaraq onun cinsini müəyyənləşdirir. *Grundstückverkehrsgenehmigungszuständigkeitsübertraungsverordnung* ismi isə təyinedici söz kimi bütövlükdə işlənir, bu minvalla ismin sonuncu komponenti yenə də ayrılıqda *Verordnung* (qərar, sərəncam) əsas söz kimi və *Grundstückverkehrsgenehmigungszuständigkeitsübertraung* bütöv birləşməsi təyinedici söz olaraq işlənir.

Grund- stück- verkehrs- genehmigungs- zuständigkeits- übertragungs-verordnung- richtlinie.

Alman dilində mürəkkəb sözlərin xüsusi bir növü də ayırd edilir. Bu növ isimlər təyini söz birləşmələrindən fərqli olaraq, hər hansı bir canlı varlığın xarakterik xüsusiyyətlərini bildirir. Məsələn, *Rotkäppchen* (qırmızı papaq), *Rosenfinger* (qızıl barmaq), *Gelbschnabel* (lap gənc, yeniyetmə), *Ziegenbart* (keçi saqqal)və s.

2. Mürəkkəb sözlərin komponentləri arasındakı sintaktik bərabərhüquqluğun mövcudluğu ilə xarakterizə olunan sözlər. Bu halda mürəkkəb sözün hər bir komponenti öz müstəqil mənasını saxlasa da, bütövlükdə yeni bir məfhum ifadə edir. Alman dilində bu növ mürəkkəb sözlərin komponentləri arasındakı əlaqə o qədər sərbəstdir ki, onları *und* bağlayıcısı ilə də əlaqələndirmək olar. Məsələn; *deutsch-aserbaidschanisch= deutsch* und *aserbaidschanisch, sauersüss=sauer* und *süss, süsssauer= süss* und *sauer, taubstumm=taub* und *stumm* və s. Bəzən bu növ mürəkkəb sözlərin komponentləri həqiqətən də *und* bağlayıcısı ilə işlənir. Məsələn; vier*und*vierzig, fünf*und*fünfzig və s. 3. Alman dilində bir neçə sözün sərbəst olaraq bir-birinə yanaşması yolu ilə əmələ gələn mürəkkəb sözlər. Bu növ sözlərin komponentləri ayrı-ayrılıqda öz müstəqil leksik mənasını saxlasa da, bütöv bir kompleks (söz məcmusu) kimi yeni bir məfhum ifadə edir. Məsələn; *zu Grunde gehen* (das Zugrundegehen) – məhv olmaq, hədər getmək; *Vergiss mein nicht* (das Vergissmeinnicht) - bot. yaddaşçiçəyi; *Spring ins Feld* (der Springinsfeld) –yüngül xasiyyətli adam və s.H.Paul, V.M.Jirmunskiy, M.D.Stepanova kimi dilçilərin fikrincə, ikinci komponenti isimləşmiş məsdərdən ibarət olan birləşmələridə bu növ mürəkkəb sözlərə aid etmək olar. Məsələn: *das Gesundwerden, das Alleinbleiben, das Einmaleins, der Gernegross v*ə s. (7,132;1, 348;4, 112).Bu növ mürəkkəb sözlər metaforik işlənərək müxtəlif nitq hissələrinə -- ismə *(Gottseibeiuns, Inzuchthauskommen*), sifətə (*allerhöchst*), zərfə (*beiseite, heutzutage, mutterseelenallein*), feilə (*stehenbleiben, zustandebringen*) aid olub, tamamilə yeni bir məfhum ifadə edir. Məsələn: *Stelldichein* (görüş, randevu), *Nimmersatt* (qarınqulu), *Geratewohl* (bəxtəbəxt, fikirləşmədən), *mutterseelenallein* (tək-tənha, yalqız), *derart* (o qədər, o dərəcədə), *infolge* (nəticəsində, səbəbindən) və s.

Bu növ mürəkkəb sözlər tam və natamam olmaqla iki yerə bölünür. Tam mürəkkəb sözlər bir neçə sözün sərbəst olaraq bir-birinə yanaşması yolu ilə əmələ gəlir və komponentləri semantik baxımdan vahid bir məna ifadə edir. Məsələn; *Vergissmeinnicht* ismi bir leksik vahid kimi tamamilə yeni bir məfhum ifadə edərək çiçək adı bildirir. Buna baxmayaraq, natamam mürəkkəb sözlər bir neçə sözün sərbəst olaraq birbirinə yanaşması yolu ilə əmələ gəlsə də, onların komponentləri arasındakı əlaqəlilik hələ də tam olaraq bağlanmamışdır. Bu hal onların yazılı formasında da özünü açıq şəkildə göstərir. Məsələn; *Allein-zurück-Bleiben, Einander-Verstehen, Zur-Ruhe-Gehen* və s. 4. Mürəkkəb düzəltmələr. Alman dilində mürəkkəb sözlərə sözdüzəldici şəkilçilərin əlavə olunması yolu ilə əmələ gələn isimlər də yeni bir məfhum ifadə etməsi ilə diqqəti cəlbedəndir. Məsələn, alman dilində *Schuhmacher* ismi *Schuhe machen*

söz qrupuna *–er* şəkilçisinin əlavə edilməsi ilə əmələ gəlmiş və tamamilə yeni bir məna ifadə etmişdir. O cümlədən də *Blut saugen* söz qrupundan – *Blutsauger*; *Hunger leiden* söz qrupundan – *Hungerleider* və s. kimi düzəltmə mürəkkəb isimlər əmələ gəlmişdir.Bu növ mürəkkəb sözləri digər mürəkkəb sözlərdən fərqləndirən ən mühüm cəhət onların təkcə mövcud şəkilçilərlə işlənməsində deyil, həmçinin komponentlərinin morfoloji formalaşmasından, adəti üzrə hal sonluqlarını, cəm və məsdər şəkilçilərini itirməsindən irəli gəlir. Məsələn*; "nichts tun"* söz qrupundan *Nichtstuer* mürəkkəb isminin əmələ gəlməsi *en-* məsdər şəkilçisinin *–er* səkilçisi ilə əvəz olunması ilə yaranır. Alman dilində mürəkkəb isimlərin komponentlərindən birinin tarixən öz leksik mənasını itirməsi nəticəsində dildə prefiks və suffikslərin yayılması mühüm yer tutmuşdur. Təbii ki, mürəkkəb sözün 1-ci komponentinin leksik mənasını itirməsi nəticəsində prefiks, 2-ci komponentinin tədricən müstəqil sözdən morfemə çevrilməsindən isə suffiks əmələ gəlmişdir. Məsələn; *-heit* şəkilçisi müstəqil sözün morfemə çevrilməsi yolu ilə yaranmışdır. Belə ki, *heit* orta alman dili dövründə - "*Art und Weise, Beschaffenheit, Stand*" mənasında işləndiyi halda, onda *lediger heit-* orta əsrlər dövründə *"im ledigen Stand"* anlamında işlənmişdir. *Heit-* sözünün leksik mənası bu gün də bəzi alman dialektlərində öz mənasını saxlamaqdadır.Məs.; Bavariya dialektində *von junger hait auf - "von Jugend auf"* mənası kəsb edir. *Heit*-sözünün ilkin semantik çalarlığı alman dilində *Freiheit, Klugheit, Kindheit* və s. isimlərində hələ də qalmaqdadır. O cümlədən də alman dilində *-schaft* şəkilçisinin qədim alman dilində işlənən *scaft- Beschaffenheit, Zustand* mənasında; *-lich* şəkilçisinin qədim alman dilində işlənən *lihhi- Körper, Gestalt* mənası kəsb edən isimlərindən əmələ gəldiyi özünü tarixi faktlarla göstərir. Bu hal tarixən tamamilə müstəqil söz kimi işlənmiş, bu gün də alman dilində yarımprefiks və yarımsuffiks kimi işlənməkdə olan leksik vahidlərdə özünü büruzə verir. H.Paul, V.Vilmans kimi dilçilər alman dilində ayrılan ön şəkilçilərlə işlənən *mitnehmen, aufmachen, zumachen, einsteigen, aussteigen* və s. kimi düzəltmə feilləri mürəkkəb sözlər kimi qəbul edirlər. Onların fikrincə, həmin ön şəkilçilər prefiks deyil, mürəkkəb sözün birinci komponenti olaraq, müstəqil məna daşıyır, vurğuya malik olur və ayrıqda işlənə bilir. K.A.Levkovskaya isə bu tip feilləri frazeoloji vahid kimi qiymətləndirir. Eyni zamanda, o, alman dilində yarımaffikslər sistemini inkar edərək, dildə tam formalaşmış sözlər, prefiks və suffikslərin mövcud olduğunu iddia edir (6, 65). Bu məsələdə o, M.D.Stepanova ilə elmi mübahisələr apararaq, öz fikrini müdafiə etmək istəsə də, onun gətirdiyi faktlar öz elmi təsdiqini tapmır. Belə ki, M.D.Stepanova alman dilində mürəkkəb sözlərin komponentlərinin tarixən öz leksik və semantik mənasını itirməsi ilə prefiks və suffikslərə çevrildiyi fikrini elmi faktlarla sübuta yetirmişdir (5,66). Biz isə belə hesab edirik ki, alman dilində komponentlərinin zəifləməsi, öz məna dairəsindən uzaqlaşması və tədricən müstəqilliyini itirməsi nəticəsində mürəkkəb sözlərdə məna çoxluğu və semantik parçalanma prosesi gedir və bu da dildə prefiks və suffikslərin yaranmasını reallaşdırır.

İstifadə edilmiş ədəbiyyatın siyahısı:

1. Жирмунский В.М. История немецкого языка, изд.3, Изд.лит. на иностр.яз., М.,1956
2. Павлов В.М. Развитие определительного сложного слова в немецком языке, Автореферат, Л., 1958
3. Степанова М.Д. К вопросу о синтаксической природе словосложения, Учение записки 1 МГПИИЯ, т.19, 1959
4. Степанова М.Д.Словообразование современного немецкого языка, Изд.лит. на иностр. яз., М., 1953
5. Iskos A., Lenkowa A. Deutsche Lexikologie. 2. Auflage, Leningrad 1963
6. Lewkowskaja K.A. Lexikologie der deutschen Gegenwartssprache. Moskau, 1968
7. Paul H. Deutsche Grammatik, Halle, 1920, Bd. V,

E.Yusifov

The role of compound words in the enriching of german vocabulary

Summary

Compound words as one of the most productive kinds of word building have a great role in the enriching of German vocabulary. The German language is rich in the multimembered compound words which serve to express the new concept. According to the investigation historically the compound words have been created from the syntactic combination of some words and have been gradually transformed into the element denoting unity. The compound words as means of word building serve to create the new words, the new concept in German. According to the thorough detailed conception the majority of compound words have been created by the similar ways. Generally, the compound words being the word building process cause the creation of the new units in the language and the meaning of these words in all cases are not the same with the common meaning of their components. The expression of independent syntactic relations with the compound words is connected with the specific characters of the German language. The compound words as lexical units are differed not only from the independent syntactic word combinations but also from the set expressions in their stucture. From this point of view the components of compound words are so closely connected with one another that they are understood only as independent units. The difference between the compound words and the syntactic word combinations is to express the modality of syntactic word combinations and to be used as the appreciation of the reality of any action and phenomena.

Key words: German vocabulary, the enriching of the vocabulary,compound words, compound noun

Э.Юсифов

Роль сложных слов в обогащении словарного состава немецкого языка

Резюме

Как одна из наиболее продуктивных форм словообразования, сложные слова играют важную роль в обогащении словарного запаса немецкого языка. Немецкий язык богат множеством сложных слов, которые служат для выражения новой концепции. Исследования показывают, что исторически сложные слова в немецком языке возникли из синтаксической комбинации нескольких слов и стали элементом языкового единства. Тем не менее, как синтактическая единица сложные слова в немецком языке служат для образования новых слов и выражения новых понятий. Исследования еще раз подтверждают, что большая часть сложных слов образована аналогичным образом. В целом, составные слова - это синтаксическое явление, которое, в первую очередь, приводит к появлению в языке новых словарных единиц, и в большинстве случаев значение таких сложных слов не совпадает с общностью его компонентов. Выраженность свободных синтаксических отношений сложными словами обусловлена характерной чертой немецкого языка. Как лексическая единица, сложные слова отличаются не только структурной целостностью, а также простым выражением фиксированных словосочетаний. С этой точки зрения компоненты сложных слов настолько тесно связаны, что понимаются только как самостоятельные единицы. Различие между сложными словами и синтаксическими словосочетаниями состоит в том, что синтаксическое словосочетание может использоваться как выражение модальности, то есть оценка действительности события или действия. Хотелось бы отметить, что в результате исследования мы пришли к выводу, что словарный запас, и особенно являющиеся одним из его типов сложные слова, - один из наиболее эффективных способов обогащения словарного состава немецкого языка.

Ключевые слова: словарный запас немецкого языка, обогащения словарного состава, сложные слова, сложное существительные**.**

Redaksiyaya daxil olma tarixi: 20.09.2019
Çapa qəbul olunma tarixi: 21.01.2020
Filologiya elmləri doktoru, Sərxan Abdullayev tərəfindən çapa tövsiyə olunmuşdur

VƏFA MƏHƏRRƏMOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
Dilarə Əliyeva 21
mhrrmova.vfa@mail. ru.

İNGİLİS DİLİNDƏ QRAMMATİK VƏRDİŞLƏRİN AŞILANMASI ZAMANI RAST GƏLİNƏN ÇƏTİNLİKLƏR VƏ HƏLLİ YOLLARI

Xülasə

Məlum olduğu kimi, xarici dillərin tədrisində iki əsas biri-birindən tamamilə fərqli istiqamət mövcuddur: qrammatikayönümlü və kommunikativyönümlü təlim. Bunların kökündə duran pedaqoji prinsiplər də bir-birindən əsaslı şəkildə fərqlənir. Belə ki, qrammatikayönümlü təlim mənimsənilməli olan qrammatik qaydalar, leksik vahidlər, fonem və intonasiya modellərinin tələbələrin bilik səviyyələrinə uyğun olaraq planlı şəkildə aşılanmasını nəzərdə tutur.

Kommunikativ yanaşmanın əsasını təşkil edən kommunikativlik prinsipi isə bu işin kommunikasiya vasitəsilə həyata keçirilməsini nəzərdə tutur. Burada qarşıya qoyulan məqsəd kommunikativ məqsədlərinə çatmaq üçün onlara yardımçı olmaqdır. Lakin onu da qeyd etmək lazımdır ki, dil vahidləri və nitq strukturları hazır şəkildə deyil, lüğətlər və eyni zamanda digər orijinal vasitələrlə öyrənilir. Son zamanlar kommunikativ yönümlü təlim əsas diqqət mərkəzindədir. Lakin, onu da nəzərə almaq lazımdır ki, heç bir metod təkmil deyil, metodların hər birinin konkret təlim kontekstinə uyğun şəkildə əlaqələndirilməsi tədris prosesinin daha səmərəli şəkildə təşkil edilməsi və daha uğurlu nəticələrin əldə edilməsinə imkan verir. Müxtəlif təlim şəraitində istifadə edilə biləcək vahid metod yoxdur. Bizcə, burada ilk növbədə məqsədlər düzgün müəyyənləşməlidir. Məqsədlərin düzgün qoyulması təlim prosesində çox şeyi həll edir. Yaxşı olardı ki, müəllim daha çox tələbələri fəaliyyətə cəlb etsin, sorğu – sual etsin, tələbələr dialoqları sərbəst şəkildə qurub danışsınlar, tapşırıqlar yerinə yetirsinlər və s. Onların yaş, fərdi və cinsi xüsusiyyətləri nəzərə alınmalıdır. Xüsusilə, qeyd edilməli məsələ burada psixoloji inkişafın nəzərə alınmasıdır. Belə ki, müəllim psixoloji inkişafa təsir edən ən güclü amillər sırasındadır.

Açar sözlər: danışıq, meyar, dil, söz

Pedaqoji prosesdə əyaniliyin anlayışa xidmət etməsi prinsipinə görə müəllim pedaqoji prosesdə əyani vasitələrdən istifadə edən zaman çalışır ki, tələbələrin müşahidə etdikləri cisimlərə dair təəssüratları qavrayış və təsəvvür səviyyəsində qalmasın, əyanilik ümumiləşdirmə vasitəsinə, müvafiq anlayışları formalaşdırmaq vasitəsinə

çevrilsin. Xüsusilə, dil bacarıq və vərdişlərin öyrədilməsi və yoxlanması zamanı əyani vəsaitlər olmadan keçinmək mümkün deyildir. Əgər tələbələrə səslər öyrədilirsə, mütləq onların düzgün tələffüz qaydalarını hazır dialoq və monoloq vasitəsi ilə dinləmək lazımdır. Qrammatikanın təlimi üçün nəzərdə tutulmuş dərsliklərin təhlili onu deməyə əsas verir ki, onları əksər hallarda felin formaları olan zaman formaları, şərt forması vasitəsiz və vasitəli nitq formaları, felin məchul növü və s. bu kimi mövzuları özlərində ehtiva edir. Kommunikativ təlim prinsiplərini üstün tutan alim və müəllimlərin fikrincə, hər hansı xaric dilin, o cümlədən qlobal ünsiyyət dili olan ingilis dilinin öyrədib- öyrənilməsinin əsas səbəbi kommunikasiyaya yiyələnməkdir. Əks təqdirdə hər hansı linqvistik biliklərin mənimsənilməsi tamamilə mənasız və nəticəsiz bir prosesə çevrilmiş olur [2, s.12]. Qrammatik bilikləri, eləcə də müvafiq bacarıqlara yiyələnmiş dil daşıyıcıları, tədris prosesində qrammatika ilə bağlı heç bir çətinliklə üzləşmir. Dil daşıyıcısı olmayan, xarici dilləri, o cümlədən ingilis dilini müxtəlif məqsədlərlə öyrənən tələbələrə müvafiq vərdişlərin aşılanması zəruridir. İngilis dilinin tədrisinin ilkin mərhələsində tələbələrə materialları dekodlaşdırmaq, yəni onların mənalarını açmaq bacarığının aşılanması əsas məqsəd kimi irəli sürülür. Sözügedən mərhələdə əsasən yazı və oxu vərdişlərinin inkişaf etdirilməsi üçün mənimsənilməsi zəruri olan qrammatik strukturların öyrənilməsi vacibdir. Qrammatik strukturların mənimsənilməsi prosesini səmərələşdirmək məqsədilə müəllim həmin strukturları tələbələrə təqdim etməli, cümlədə söz sırasında vacib və əhəmiyyətli olan funksional sözlər haqqında məlumatlandırmalıdır. Doğma dili Azərbaycan dili olan və ingilis dilini ixtisas kimi öyrənən tələbələrə müqayisə edilən bu iki dildə söz sırasının tamamilə fərqli olduğu haqda məlumat verilməli və onların diqqəti məhz fərqli olan cəhətlərə yönəldilməlidir. Başqa sözlə, tələbələrə qısa formada qrammatik qaydaların linqvistik izahatları verilməlidlir [3,s.264-265]. Yazılı şəkildə yerinə yetirilən tapşırıqlara misal olaraq, bir neçə cümləni lövhədə yazmaq, sonra isə onları birləşdirərək mürəkkəb cümlə düzəltmək tövsiyə edilir, 5-6 sadə cümlədən bir cümlə düzəltmək kifayət qədər çətin olan məsələdir. Bu tapşırığın tələbələr tərəfindən qrup şəklində yerinə yetirilməsi daha münasibdir. Qrammatika ilə bağlı olan əsas problem mətnlərin məzmununun başa düşülməsi üçün mənimsənilmiş qrammatik strukturların daha sonra produktiv məqsədlərlə, yazı prosesində yaradıcı şəkildə istifadə etmək məsələsidir. Bu cür strukturların hər birinin tədris mərhələsinə uyğun şəkildə siyahısı tərtib edilməlidir. Aşağı mərhələdə çətinliklərə səbəb olan qrammatik strukturlar orta mərhələdə heç bir çətinlik törətmir, orta mərhələdə olan tələbələr üçün çətin olan strukturlar tədrisin yuxarı mərhələsində heç bir çətinliyə səbəb olmur. Xarici dil tədrisinin yuxarı mərhələsində olan və həqiqətən həmin səviyyəyə uyğun olan bilik, bacarıq və qabiliyyətləri nümayiş etdirən tələbələr dili cümlə səviyyəsində deyil, cümlə səviyyəsindən daha üstün səviyyədə mənimsəyir.Mənimsənilməli olan qrammatik strukturlarının siyahısının tərtib edilməsi müəyyən mənada çətin bir məsələdir. Təqdim olunan cümlələrin quruluşu tələbələr üçün çətin olduğundan, müəllim bir neçə mürəkkəb cümlə nümunələrini əlavə olaraq tələbələrə təqdim etməlidir.

Aşağıdakı cümlələrdə “act” sözünün hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin:

1. I caught him in the act*. 2. You* acted *wisely. 3. We must* act *quickly.*

Yuxarıdakı cümlələrdə “act” sözünün mənaları arasında əlaqənin olub-olmaması haqqında nə deyə bilərsiniz? Qeyd edilməlidir ki, sözlərin ifadə etdiyi mənalar arasında olan yaxınlığın dərəcəsi müxtəlif ola bilər.

İngilis dilində çoxmənalılıq geniş yayıldığından burada sözlərin böyük əksəriyyəti çoxmənalı sözlərdir. Misal olaraq, “take” və “head” sözlərini göstərmək olar. Belə ki, “take” feli 24 mənaya malik olduğu halda, “head” sözü 39 mənaya malikdir. Şübhəsiz, polisemiya hallarının mövcudluğu ingilis dilini öyrənən insanlar üçün, xüsusilə də ana dillərində bu hadisəyə nadir hallarda rast gələn azərbaycanlı tələbələr üçün çoxsaylı problem və çətinliklər yaradır.

Ədəbiyyat

1. Maclennan, S. 1987. “ Integrating Lesson Planning and Class Management ELT Journal, 41,3,193-7.
2. MacCorquodale, Kenneth. 1970. On Chomsky’s Review on Skinner’s Verbal Behavior. Journal of the Experimental Analysis of Behavior 13: 83-99.
3. McCulloch, D. Languages hit the Grammar Gap. “ Sunday Times” (25.05.94).
4. Morgan, J and M. Rinvolucri. Once Upon a Time, Cambridge: Cambridge University Press, 1983, pp. 14-18.
5. McGroarty, Mary. 1984. Some Meanings of Communicative Competence for Second Language Students. TESOL quarterly 18:257-272

V. Maharramova

The difficulties and the ways of solvation in teaching grammatical skills in English

Summary

The article deals with the difficulties and ways of solvation in teaching grammatical skills in English. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language

learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of difficulties. The author emphasizes its role in methodology. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. Moreover, each text is unique in regard of the structure of the text, its genre, vocabulary, and language. Several factors influence a reader's interaction: how easy the text is to read, how accurately it follows the conventions of its genre or structure, the language it is written in, and even the type and the size of font. Effective readers locate the basic information from the text. Literal comprehension is needed when reading fiction as well as when reading nonfiction. In fiction, a reader has to identify the characters and follow the events of the story. In non-fiction, a reader needs to comprehend the topic, learn new facts related to it, and be able to find and remember important information. However, mature comprehension includes generalisation beyond the characters and the events of the story to the people and the events in real life.

Key words: speaking, criteria, language, word

В. Магеррамова

Трудности и пути решения в обучении грамматических навыков в английском языке

Резюме

В данной статье рассматриваются вопросы трудности и пути решения в обучении грамматических навыков в английском языке. Азербайджан обрел статус независимого государства, и его всесторонние связи развиваются и укрепляются. Сегодня в нашей стране существует настоятельная потребность в изучении иностранных языков. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения. В процессе приобретения определенного опыта предполагается оценка путей решения проблемы, а также пересмотр этих способов, в случае, если таковая, необходимость появится. Одним из основополагающих факторов, на которых базируется внедрение новаторских идей, является заинтересованность занимающихся их внедрением в практику преподавания людей в самом процессе а также, в его результатах будут вероятность того, что практикующие учителя вовлечены в процесс внедрения инноваций в качестве заинтересованных, инициативных, мотивированных и активных его участников, в значительной

степени возрастает в случае понимания ими того, какие именно новые идеи предполагается внедрять, их убежденности в том, что это соответствует реальным потребностям аудитории. Весьма значимым мотивирующим фактором является также их убежденность в том, что цена проводимых нововведений (в плане затрачиваемого времени, энергии, ресурсов и.т.д.), будет адекватна тем преимуществам, достижение которых предполагается в результате внедрения соответствующих новаторских идей. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами.Говоря знания преподавателей языка должны носить активный характер. Они должны быть готовы применить их, интерпретировать и адаптировать их применительно к конкретным ситуациям обучения и согласно интересам и потребностям своих студентов. Учителя языка должны знать, как язык функционирует в процессе речевой коммуникации, и как успешно использовать его, чтобы быть понятыми как носителями языка, так и людьми, которые таковыми не являются. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых мАтериалов. Соответственно, в процессе обучения необходимо использовать реальные тексты и истории из реальной жизни, а не созданные писателями и зачастую не имеющие ничего общего с реальной действительностью и реальными условиями использования языка рассказы.

Ключевые слова: разговор, критерия, язык, слова

Redaksiyaya daxil olma tarixi: 20.09.2019
Çapa qəbul olunma tarixi: 01.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Gülər Həsənova tərəfindən çapa tövsiyə olunmuşdur

ZƏRİFƏ AVİLOVA
Filolofgiya üzrə fəlsəfə doktoru, dosent
ZƏRİFƏ MƏMMƏDOVA
Filolofgiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Tibb Universiteti
Səməd Vurğun küçəsi
zarifa@mail.ru

AZƏRBAYCAN NİTQ MƏDƏNİYYƏTİNDƏ ATALAR SÖZLƏRİNİN ROLU

Atalar sözü Qurana girməz,
amma Quran yanında gedər.

Xülasə

Atalar sözü nitqi gözəlləşdirən, ona dərin məna qatan vasitədir.Nitq mədəniyyətində onun önəmi gündən-günə artır, xalq leksikonundan yeni-yeni atalar sözləri nitqə qatılır.Atalar sözü nitqi uzunçuluqdan qoruyur, qoymur ki, natiq öz fikrini açıqlamaq üçün çox söz işlətsin.

Heç bir xalq atalar sözünü bilərəkdən, qabaqcadan yaratmır.Onların yaranması bir hadisənin gətirdiyi zərurət üzündən baş verir.Yaranan hər bir atalar sözü doğru yola aparan bir çıraqdır.

Atalar sözü doğma dili, doğma xalqı öyrənmək baxımından, linqvistik müstəvidən önəmlidir.Natiq nitqində, şair nəzmində, yazıçı nəsrində atalar sözlərinə çox yer ayırsalar, bir o qədər dinləyicini, oxucunu cəlb edər.

Bu məqalədə atalar sözü başlıqlara bölünüb.Hər başlıqda şərhlər verilir, müvafiq atalar sözləri təqdim olunur.

Nizaminin şeirlərində Azərbaycan atalar sözləri tez-tez rastlanır.Onların üçü, Füzulidən biri bu məqalədə yer alır.Məqalə müəllifi təklif edir ki, Nizami bu baxımdan geniş tədqiq olunsun.

Məqalənin gəldiyi nəticələr bunlardır:

Azərbacan nitq mədəniyyətində Azərbaycan atalar sözlərinin rolu danılmazdır;

"Azərbaycan nitq mədəniyyətində atalar sözləri" barəsində dissertasiya və kitab yazılmalı mövzudur;

Nizaminin nəzmində rastlanan atalar sözləri ciddi tədqiq olunmalıdır;

Atalar sözləri axar bulaqdır.Onun haqqında nə qədər yazılsa, yenə mətləb bitməz. Bu mövzu mürəkkəbdir və bu haqqda bir məqalə də yoxdur.

Açar sözlər: *nitq, janr, atalar sözü, şifahi xalq ədəbiyyatı, söz inciləri, obrazlılıq, linqvistik information.*

Azərbaycan nitq mədəniyyətinin gözəlliyinə, dolğunluğuna işıq salan faktorlardan biri atalar sözüdür. Şifahi xalq ədəbiyyatının bir janrı olan atalar sözləri ibrətamiz məzmun daşıyıcı olub, həyatın üzə çıxardığı ayrı-ayrı məsələlərə aid olan qısa kəlam və bədii ifadələrdir. Yağ kimi insan beyninə süzülən bu ifadələrin bircə yaradıcısı var, o da xalq özüdür. Əsrlər boyu xalq onu yaradaraq, onu zaman-zaman cilalamış, ona milli ruh vermiş və uzun ömürlülük verərək, çağdaş günümüzə çatdırmışdır.

Çağdaş elmin elə bir sahəsi yoxdur ki, natiq ondan danışanda ona aid atalar sözü olmasın, hətta dəqiq elmlərdən söhbət gedərsə, yenə atalar sözü natiqin köməyinə çatar. Bu bir həqiqətdir, axı "*Atalar sözü Qurana girməz, amma Quran yanında gedər*" (2,44). Demək, xalqımızın inancında Qurandan üstün kitab yoxdur. Göründüyü kimi, xalq atalar sözünə Qurana yaxın bir qiymət verir. Fikrimizcə, atalar sözünə verilən ən üstün qiymət elə budur.

Qeyd edək ki, atalar sözü qısa ifadələr olub, fikir, mühakimə, inanc, xalqın məişət müdrikliyinin daşıyıcısıdır (9). Onlar həyatın ayrı-ayrı təzahürlərini və tarixi hadisələrini ehtiva etdikləri üçün nitq prosesində (istər yazılı nitqdə, istərsə də danışıqda) onlara dönə-dönə müraciət etmək qaçılmaz olur.

Atalar sözü həyat proseslərinin, nitq zamanı inikasıdır. Unutmaq olmaz ki, atalar sözü insanın həyatla ünsiyyətindən doğan bir prosesdir. Elə buna görə də yaşından asılı olmayaraq, bütün insanların atalar sözündən yararlanması onların nitqini zənginləşdirir və məntiqli edir.

Atalar sözünün yaradıcısı xalq olduğu üçün atalar sözünün yüzə-yüz haqlı olması, yalnız həqiqətin daşıyıcısı olması heç kəsdə zərrə qədər şübhə yaratmır, heç kəs atalar sözü üçün mübahisə etməz, onu təkzib etməyə əl qatmaz. Odur ki, belə bir tutarlı incini nitqdə işlətməklə nitqi dəyərli etmiş oluruq. Nitqdə qaldırılan bir məsələ, toxunulan bir sual, müzakirəyə çıxarılan bir yanaşma müvafiq atalar sözü ilə təsdiqlənsə, demək, həmin nitqə xalq müdrikliyi möhür qoymuş olur, həmin fikrin düzgünlüyünə kimsə şübhə və tərəddüd ilə yanaşmaz. Zaman dəyişir, yanaşmalar dəyişir, həyata münasibətlər dəyişir, amma atalar sözü dəyişmir, sementlə hörülən daş-divar kimi yerində möhkəm dayanır.

Hansı nitq yaxşı nitq sayılır? Zəngin, qısa, dəqiq, ifadəli, aydın olan nitq yaxşı nitq hesab olunur. O hansı atalar sözüdür ki, zəngin-qısa-dəqiq-ifadəli-aydın olmasın. Demək, uşaqlarına atalar sözlərini öyrətsək, uşaqlar onları danışıq əsnasında yeri gəldikcə işlətsələr, şübhəsiz ki, onların nitqi uşaqlıqdan sayılıb-seçilən nitq olacaq, yaşıdlarından davranışca fərqlənəcək. Atalar sözü ilə tərbiyələnən uşağın dili zəngin olur, inşa yazılarını yaradıcı səpkidə qura bilir, təxəyyülünə xalq müdrikliyi aşılandığı üçün yaradıcı fərdə dönür, müdrikləşir. Belə uşaq inşa yazırsa, asanlıqla metaforik, mübaliğəli, epitetli, alleqorik ifadələr qurur, fikrini orijinal olaraq çatdıra bilir. Göründüyü kimi, atalar sözü ilə nitq mədəniyyəti arasında bağlılıq ana ilə övlad arasın-

da bağlılığı, doğmalığı xatırladır. Ana uşağına hər baxımdan fayda verdiyi kimi, atalar sözü də nitqə har baxımdan fayda verir.

Bildiyimiz kimi, ingilis və rus dilləri beynəlxalq dillər olmaqla, Birləşmiş Millətlər Təşkilatının altı dilindən ikisidir. Bir çox atalar sözlərimizin ekvivalentləri ingiliscədə və ruscada olduğu kimi var. Natiqlərimiz məclisdə dedikləri bir atalar sözünün oxşar variantlarını yuxarıdakı dillərdə deyə bilsələr, onların nitqi beynəlmiləl səciyyə daşıyar, nitq daha cazibəli görünər. Məsələn, dilimizdə "*Dost dar gündə tanınar*" (6,128) atalar sözü ingiliscə "*Afriend in need is friend indeed*" (8,290), rusca "*Друзья познаются в беде*" (8,290) olduğu kimi. Dilimizdə olan "Ağıl ağıldan üstün olar" (6,11) atalar sözü ingiliscə isə "Two heads are better than one" (8,332), rusca "Ум хорошо, а два лучше" (8,332) olduğu kimi. Bunları artırmaq da olar, ancaq bizim iki atalar sözünü üç dildə verməyimiz məsələnin mahiyyətini açıqlamaq baxımından yetərlidir.

Müxtəlif sahələrə aid, müxtəlif mənalarda işlənən atalar sözləri vardır ki, onlardan bir qismi haqqında danışmağı vacib hesab edirik.

Dini inancla bağlı olan atlar sözləri

Dünyada elə bir xalq yoxdur ki, dini inancı olmasın. Bu, ulu Tanrının insanın gen kodlarına yeritdiyi yazıdır. Azərbaycan xalqı əsrlər boyu dini dəyərləri uca tutub, "Allah, Quran" anlayışlarının yer aldığı yüzlərlə atalar sözünü yaratmışdır. Bu el deyimləri nitq mədəniyyətimizə dərindən sirayət edərək, xalqın leksikonundan düşmür. Belə el sözlərində Tanrının təkliyi təsdiqlənir, Onun ruzi verən olması açıqlanır. Onun rəhmli olması göz önündə canlandırılır. Ona arxalanıb düzgün yaşama təqdir olunur. İşlənmə tezliyinə görə "Allah" məfhumundan sonra ikinci yerdə "Quran" məfhumu durur. Müşahidə edirik ki, bu cür atalar sözlərində Qurana dəyər verilir, ondakı öyüdlərə, yasaqlara, buyuruqlara sayqı ilə yanaşılır.

Qeyd edək ki, dini inancla bağlı atalar sözləri natiqin dini dəyərlərə söykənməsini ortaya qoyur, dinləyicilərin zehninə dindarlıq, düzlük, halallıq, əliaçıqlıq, mərhəmət aşılayır. Bu səpkidə aşağıdakı atalar sözlərinə diqqət yetirək:

Təklik Allaha yaraşır. (2,284)
Ruzini verən Allahdır. (2,261)
Səhərdən durmaqla deyil, Allah verməklədir. (2, 212)
Allah saxlayanı qurd yeməz. (4,28)
Allah var, rəhmi də var. (2,28)
Bəndə neylər, Allah gözdən salmasa? (2,59)
El üzünə namaz qılanın arxası Allahdır. (2,121)
Əliaçığa Allah özü yetirər. (2.130)
Qovanın gücü varsa, qaçanın da Allahı var. (2,218)

Avazın yaxşı gəlir, oxuduğun Quran olsa. (6,5)
Çox danışmaq Qurana yaraşır. (2,89)

Dostluq anlayışı ilə bağlı olan atalar sözləri

Ali məxluq olan insana uca Yaradanın bəxş etdiyi platonik özəlliklər arasında sevgidən sonra ikinci yer dostluğa məxsusdur. İnsan dost olanda onun insani dəyərləri üzə çıxır, onun yardım əli dinindən və dilindən asılı olmayaraq, yardıma, mərhəmətə, dəstəyə ehtiyac duyan hər kəsə uzanır. Dostluğun təbliğ olunduğu nitqdə, dostluqla bağlı səslənən atalar sözü müzakirə olunan mövzunun tez və rahat anlaşıılmasına yol açır. Atalar sözlərini düzüb qoşmaqda çox istedadlı olan Azərbaycan xalqı dostluğu vəsf edən çox sayda atalar sözünə sahibdir. Bu sayaq atalar sözlərində dostun, dostluğun mahiyyəti açıqlanır. Məsələn:

Dost dar gündə tanınar. (6,128)
Dost gəlişi bayram olar. (6,128)
Dostunu göstər, deyim kimsən. (2,128)
Dost dosta tən gərək, tən olmasa gen gərək. (2,133)
Dost başa baxar, düşmən ayağa. (1,168)
Hər şeyin təzəsi, dostun köhnəsi. (2,159)
Dost yolunda boran olar, qar olar. (2,133)
Yaxşı dost qardaşdan əzəldir. (2,301)

"Dost dar gündə tanınar" atalar sözlərinin ingiliscə variantı "A friend in need is a friend indeed" (8,290), rusca «Друзья познаются в беде» (8,290) formalarındadır. Bu atalar sözü o qədər doğrudur ki, azərbaycanlılar, ingilislər, ruslar hər üç xalq onu eyni mənada işlədirlər.

Ata-ana haqqında olan atalar sözləri

Ata-ana müqəddəs varlıqdır. Onların hörmətini saxlamaq və onları sevmək hər bir övladın borcudur. Adi məişət danışıqlarından elmi konfrans və simpozumlara qədər ata-ana ilə əlaqədar məsələlərə toxunulur, bu iki varlığınn sevilməsi tövsiyə olunur. Bu haqda atalar sözlərimiz yetərincədir. Onların çoxu anaya aiddir. Ananın duası, tökdüyü göz yaşları, çəkdiyi ahlar, övladsevər qəlbi, fədakarlığı atalar sözlərinin motivləridir. Valideynlər haqda media səhifələrindəki yazılarda, edilən çıxışlarda, yazılan kitablarda və elmi-publisistik məqalələrdə müvafiq atalar sözlərinin yer alması təqdirəlayiq yanaşmadır. Məsələn:

Anadan əziz yenə anadır. (2,30)
Ana haqqı – Tanrı haqqın. (6,34)
Ana qəlbi kövrək olar. (6,33)
Ana tökəni bala yığar (6,33)
Atasını tanımayan Allahını da tanımaz. (2,45)
Atanın duası, ananın ahı. (2,45)

Sözün məqamı haqda olan atalar sözləri

Nitq mədəniyyətində sözün məqamından (sözün yerindən) vacib məsələ yoxdur. Yerində deyilən bir söz, bir fikir, bir təklif, bir atalar sözü xəstəyə verilən dərman qədər şəfavericidir. Sözü, o cümlədən atalar sözünü yerli-yerində o natiq deyir ki, onun kifayət qədər **savadı**, **yaddaşı**, **mütaliəsi** var. Bu üç aspektin bir araya gəl-

məsindən natiq istedadı yaranır. Demək, istedadlı natiq danışdığı məclisin ab-havasını tutur, dinləyicilərin nəzər-diqqətini cəlb edir və bu işdə ona yardım edən çox vaxt atalar sözləri olur. Məsələn:

Söz var el içində, söz var ev içində.
Yüz ölç, bir biç. (3,212)
Saxla samanı, gələr zamanı.
Balı olana doşab satmazlar (2,53)
Ertəyə qalan arxaya qalar. (6,149)
Daldan atılan daş topuğa dəyər. (6,101)
Bu günün işini sabaha qoyma (3,212)

Zəhmət ilə bağlı olan atalar sözləri

Zəhmət baş ucaldır, insanı uğurlara çatdırır. Media qurumlarında, məişət danışıqlarında, hər hansı nitq prosesində zəhmət haqda çox rəylər, baxışlar səslənir. Sevindirici haldır ki, insanlarımız zəhmətə aidliyi olan bir çox atalar sözlərini danışıq əsnasında işlədirlər. Aşağıda yer alan atalar sözlərini hamı bilir, demək olar ki, hər kəs onlara dönə-dönə müraciət edir:

Ağac əkənə rəhmət oxunar. (2,15)
Nə əkərsən, onu da biçərsən.
Bağ salan barın yeyər. (2,51)
Bal tutan barmaq yalar. (2,52)
Əkiblər yemişik, əkərik yeyərlər.(2,128)
Tarlada izi olmayanın süfrədə üzü olmaz. (2,283)
Ağac əkənin ömrü uzun olar. (6,8)
Allah bacadan tökməz. (6,30)
İş insanın cövhəridir. (3,212)

Doğruluq haqda olan atalar sözləri

Nitq mədəniyyətində insanın doğru-düzgün həyat tərzi seçməsi tez-tez müzakirəyə çıxarılan məsələlərdən biridir. Biz bunu televiziyada görür, radioda eşidirik. Bu aktual mövzuya debatlar həsr olunur, elm adamları, din adamları, yazarlar, ağsaqqallar, ağbirçəklər fikir mübadiləsi aparırlar. Belə verilişlərin hər birində mütləq atalar sözlərinə müraciət olunur. Doğruluğa, düzgünlüyə aid atalar sözlərimiz çoxdur. Aşağıda hamının eşitdiyi atalar sözlərinə nəzər salaq:

Haq nazilər, üzülməz. (2,150)
Doğru sözə nə and. (2,112)
Doğru söz acı olar. (2,112)
Bərəkət ondur, onu da düzlük. (4,59)
Doğruya zaval yoxdur, çəksələr min divana. (6,127)
Düz yolda yıxılan tez qalxar. (6,126)
Doğru büdrər, amma yıxılmaz. (6,126)

Böyük-kiçiklik bildirən atalar sözləri

Böyüklərə sayqı, kiçiklərə qayğı milli mədəniyyətimizin ən vacib və ən incə məqamlarıdır. Böyükdən məsləhət alanda, kiçiyə öyüd veriləndə mütləq atalar sözlərindən yararlanırıq. Buna dair el deyimlərimiz olduqca çoxdur. İstər yazılı, istərsə də şifahi nitqdə belə nümunələrə tez-tez rast gəlirik. Bu mövzuda bir-neçə atalar sözlərinə nəzər salaq:

Böyük sözünə baxmayan böyürə-böyürə qalar. (6,32)
Kiçikdən xəta, böyükdən əta. (2,186)
Böyüyə böyük deyiblər, kiçiyə kiçik. (6,92)
Su kiçiyindir, yol böyüyün. (2,276)
Çobansız sürü yolu azar. (2,88)
Dəvədən böyük fil də var. (6,109)

Evlənmə ilə bağlı olan atalar sözləri

Evlənməyə, ailə qurmağa dair atalar sğzü çoxdur. Onların çoxu qızın əxlaqı, tərbiyəsi, həyası, namusu ilə bağlıdır. Hansı oğlan ailə qurmazdan öncə məsləhət almaq istəyirsə, onun Azərbaycan atalar sözlərinə uz tutması yetər. Bu haqda istənilən ağsaqqala, ağbirçəyə, böyüyə müraciət edilsə, onlar mütləq müvafiq atalar sözlərindən misal gətirirlər. Onlardan bəzilərinə nəzər salaq:

Anası çıxan ağacı qızı budq-budaq gəzər. (2,31)
Anasına bax, qızını al, qırağına bax, bezini al. (2,31)
Bez alasan Mosuldan, qız alasan əsildən. (2,58)
Qızı otaqlıya yox, papaqlıya ver. (2,210)
Qızın döyməyən, dizin döyər. (2,210)
Qızın isməti, atanın dövləti. (2,210)

Xalqımızın yaratdığı atalar sözlərindən biri "Çarvadar əkəni əkinçi biçər" atalar sözüdür. Çarvadarla dəvəçi bir rütbədə, bir hüquqda olan kəslərdir. Bu el kəlamının mənası budur ki, **kim nə etsə, qarşısına da o çıxar**. "İskəndərnamə" poemasında Nizami bu atalar sözünü səsləndirərək deyir:

Qızıldan yazılsın gərək bu sözlər:
Çarvadar əkəni dəvəçi biçər. (7,180)

Bu gün nitqimizdə işlənən "Dovşanı o yerin tazısı tutar" atalar sözünə Nizami müraciət edir. Bu el sözünün bir neçə mənası var. Həmin mənalardan biri budur ki, kim harada suç işləyərsə, izləri orada qalar:

Dovşanını hər bir yerin, məsəl var,
Yenə də o yerin tazısı tutar. (7,147)

Füzuli özünün bir qəzəlində "El ağzın tutmaq olmaz" atalar sözünə yer ayırır. Üstündən dörd yüz il keçsə də, bu el deyimi bu gün də işləkdir.

Demiş hər qönçəyə aşiqliyim razın səba derlər,
El ağzın tutmaq olmaz, qorxuram, ey gül, sana derlər. (5,112)

El ilə bağlı olan atalar sözləri

Azərbaycan xalqı elə, obaya dair yüzlərlə atalar sözü yaratmışdır. Onlarda sevgi, məhəbbət, qayğı aşılanır. Vətənpərvərliyə, vətən torpaqlarını yağılardan qorumağa həsr olunan nitq və çıxışlarda onlardan gen-bol istifadə edirlər. Televiziya kanallarında, radio verilişlərində, mediya səhifələrində bu el deyimlərinə alimlər, hərbçilər, sıravi vətəndaşlar çox müraciət edirlər. Bu atalar sözlərinin hər biri zamanın sərt sınaqlarından keçmişdir, onları eşidəndə elin gücü, yenilməzliyi, müdrikliyi, uzaqgörənliyi, təmizliyi göz önündə canlanır. Bu qəbildən olan atalar sölərinə nəzər salaq:

El ağzını bağlamaq olmaz. (6,142)
El atanı ər atar, el tutanı ər tutar. (6,143)
El ilə gələn qara gün bayramdır. (6,144)
El yandıran şamı söndürmək olmaz. (6,144)
El keçən körpüdən sən də keç. (6,144)
El malına kəm baxan malsız-davarsız qalar. (6,144)
Elin gözü tərəzidir.
Elin sözü əvvəl-axır düz olur. (4,122)

Səbir ilə bağlı olan atalar sözləri

Hər bir insanın gündəlik həyatında səbir onu təmkinliyə, çətinliyə duruş gətirməyə çağırır, ona mənəvi güc verir, onun sağlamlığının keşiyində durur. Səbir haqda atalar sözlərinə daha çox şifahi nitqdə rast gəlinir. Ata-analar övladlarına, böyüklər kiçiklərə səbir etməyi, çətinliyə dözməyi tövsiyə edəndə atalar sözlərinə dönə-dönə müraciət edirlər. Bir neçəsinə baxaq:

Allah bir yerdən bağlasa, bir yerdən açar. (6,30)
Asta gedən mənzil kəsər. (6,41)
Bağban tələsər, armud vaxtında yetişər. (6,60)
Səbir acıdır, meyvəsi şirin. (2,266)
Tələsən təndirə düşər. (2,284)

Qənaət ilə bağlı olan atalar sözləri

Olanına qane olma könül zənginliyidir. Yeni ailə quran cütlüyə, yoxsul yaşamaq istəməyən ailələrə qənaət su-hava kimi lazımdır. Ağıllı insan – sözünə, yeyib-içməsinə, geyiminə-keçiminə qənaət edən insandır. Daha çox dini səpkidə olan nitqdə qənaətdən söz açılr. Xalqımızın qənaətə dair atalar sözü az deyil. Bir neçəsini nümunə göstəririk:

Aza qane olmayan çoxa yetişməz. (6,22)
Azacıq aşın, ağrımaz başın. (6,22)
Azı bilməyən çoxu da bilməz. (6,23)
Dama-dama göl olar, axa-axa sel.
Saxla samanı, gələr zamanş.
Az yeyənin azarı da az olar. (2,49)

Qeyd edək ki, Azərbaycan atalar sözləri başlıqlara bölünsə , ən azı yüz başlığa bölməli olacağıq. Bu da bir məqalənin tutumuna sığışmır. Odur ki, az sayda başlıqlarda yer alan el deyimləri ilə keçindik. Ümid edirik ki, oxuculara bu mövzu haqqında az da olsa, məlumat verdik.

Məqalə müəllifinin gəldiyi nəticə budur ki:

1. Azərbaycan nitq mədəniyyətində Azərbaycan atalar sözlərinin rolu danılmazdır;
2. "Azərbaycan nitq mədəniyyətində atalar sözlərinin rolu" dissertasiya səviyyəsində müdafiə olunmalı, barəsində ayrıca kitab yazılmalı mövzudur;
3. Nizaminin "Xəmsə"sində olan atalar sözləri ciddi tədqiq olunmalı mövzudur;
4. Azərbaycan və Türkiyə türkləri oğuz türkləri olduğu üçün onların atalar sözləri də bir-birinə yaxındır.

İstifadə olunmuş ədəbiyyat

Azərbaycan dilində

1. Abdulova (Axundova) G. Atalar sözləri və xalq məsələləri etnoqrafik duyum-yozum kontekstində. Bakı "MBM". 2012, 220 s.
2. Atalar sözü və deyimlər. Tərtibçilər. T.Əhmədov, A.Qurbanov. Bakı. "Nurlan", 2007, 320 s.
3. Azərbaycan Milli Ensiklopediyası, II cild. Bakı, "AME" Elmi Mərkəzi. 2010, 599 s.
4. Əlizadə Z. Azərbaycan atalar sözlərinin həyatı. Bakı. Yazıçı. 1985, 245 s.
5. Füzuli M. Seçilmiş əsərləri, I c. Bakı, "Şərq-Qərb". 2013, 712 s.
6. Hüseynzadə Ə. Atalar sözləri və məsələlər. Bakı. Elm və təhsil", 2013, 400 s.
7. Nizami G. "İskəndərnamə" tərcümə edəni Abdulla Şaiq. Bakı, "Yazıçı", 1982, 688 s.

İngilis dilində

8. Müller B.Modern English-Russian dictionary, Moscow, "Russky Yazyk", 1998, 880 p.

Inter saytında

9. https://detskiychas.ru/school/rodnoye-slovo/rol-poslovits/

Z.Avilova
Z.Məmmədova

The role of proverbs in Azerbaijani speech culture

Summary

The proverbs beautify the speech, add to him a deep meaning. The importance of it increases day by day, add new proverbs protect the speech from the people language. The proverbs protect the speech from the chatter, do not let the orator to use many words to clear his meaning.

No one people creat the proverbs knowingly and beforehand. They are creating because of perforcec any incident. Every proverb is creating is a lamp leading to the right way.

The proverbs are important to learn a native language and native people, also from the view point of linguistics. If a orator in his speech, a poet in his poem, a writer in his prose use many proverbs, they will attract listenrs and readers.

The proverbs of this article are divided to the titles. n every title are giving commentaries, are placing conformable proverbs.

Azerbaijani proverbs often use in Nizami's poems. Three of them and one from Fuzuli take their places in the article. The author of the article offers Nizami must be investigated widely.

The results of the article are:

The role of Azerbaijani proverbs in Azerbaijani's speech culture is undenied;

The theme named "The role of Azerbaijani proverbs in Azerbaijani speech culture" is the theme about which must be devoted thesises and books;

The proverbs taking place in poems of Nizami must be investigated seriously;

The proverbs are running springs. İf they write a lot about them, the subject will not be finished. This theme is difficult, there is not any article according it.

Key words: speech, genre, proverbs, folk-lore, pearls of words, figurativeness, linguistics information.

З,Авилова
З.Маммадова

Роль пословиц В азербайджанской культуре речи

Резюме

Пословицы украшают речь, придают глубокий смысл. Роль пословиц в культуре речи растет день ото дня, все новые и новые пословицы поступают в речь из народной лексики. Пословицы защищают речь от многословия, так как не дает речи употребить много слов, когда оратору нужно высказать мнение.

Не один народ не создают пословицы умышленно и заблаговременно. Они создаются при необходимости происхождения событий. Создаваемая любая пословица есть светильник, ведущий к верному пути. Пословицы важны при изучении родного языка, родного народа, а также с языковой точки зрения. Если оратор в своей речи, поэт в своих стихах, писатель в своей прозе будут больше обращаться к помощи пословиц, то будут больше привлечь внимание слушателей и читателей.

В этой статье пословицы разделены на заглавия. В каждом заглавии имеются комментарии, представлены необходимые пословицы.

В стихах Низами часто встречаются азербайджанские пословицы. Трое из них и одна от Физули помещены в данной статье. Автор статьи предлагает, чтобы глубоко были изучены наследие Низами.

Таковы результаты статьи:

Не опровержимы роль азербайджанских пословиц в культуре речи

Азербайджана; “Пословицы в культуре речи Азербайджана ”- это такая тема, о которой должны быть написаны диссертация и книги;

Пословицы, встречаемые в стихах Низами, должны быть исследованы серьезно;

Пословицы текущий источник. Чем больше будут написаны о них тем меньше будут охватывать их. Данная тема трудная, нет даже ни одной статьи о ней.

Ключевые слова: *речь, жанр, пословицы, устное народное творчество, жемчуги слов, образность, лингвистическая информация.*

Redaksiyaya daxil olma tarixi: 20.09.2019
Çapa qəbul olunma tarixi: 01.16.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Mətanət Hcıyeva tərəfindən çapa tövsiyə olunmuşdur

SEVDA NOVRUZƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Tibb Universiteti
sevda.novruzaliyeva@mail.ru
NUŞABƏ ƏLİYEVA
Azərbaycan Tibb Universiteti
nushabe.aliyeva@bk.ru

NİTQ MƏDƏNİYYƏTİ VƏ İSLAM

Xülasə

"Nitq mədəniyyəti və islam" mövzusu olduqca aktual mövzudur. Azərbaycanda bu mövzuya dair indiyə kimi dissertasiya müdafiə olunmayıb, hətta bu adda kitab da yoxdur.

Bu məqalənin elmi yeniliyi budur ki, Qurani-Kərimə, İslam peyğəmbərinin və Həzrət Əlinin hədislərinə, farsca, türkcə, rusca elmi qaynaqlara söykənərək, İslam dininin nitq mədəniyyətinə böyük önəm veridyini ortaya qoyur.

Məqalədə qeyd olunur ki, nitq prosesində gözəl söyləmənin böyük önəmi var. Gözəl deyilən söz nitqin taleyini həll edir. Qurandan gətirilən sitat bunu təsdiq edir.

Sözün doğru-düzgün olması önəmli faktordur. Bunun mahiyyətini açıqlamaq üçün Qurandan müvafiq surə verilir. Məsələnin belə qüdsal kitabda yer alması onun önəmindən xəbər verir. Nizami də öz əsərlərində nitq gözəlliyinə dair dahiyana fikirlər söyləyir.

Natiq nə danışırsa, gərək qərəzli və düşmənyana olmasın. Belə olarsa, dinləyici onu eşitməz, nifrət isə gözəl nitqi dəyərdən salır.

Nitq prosesində əl-üz hərəkətləri diqqətdən yayınmır. Bu hərəkətlərə yersiz yol verilməsi izləyicilərdə ikrah doğurur. Bu haqda islam Peyğəmbərindən hədis təqdim olunur.

Sözdə uzunçuluq nitq mədəniyyətində qətiyyən bəyənilmir. Bunu həzrət Əlidən gətirdiyimiz sitat sübut edir. Bütün sitatlar həm orijinalda, həm də tərcümədə verilir.

Umid bəsləyirik ki, Azərbaycan alimləri və tədqiqatçıları məqalənin elmi-tədqiqat faydalarından bəhrələnəcəklər.

Açar sözlər: nitq, hədis, Qurani-Kərim, poetik tərcümə, sətri çevirmə, nitqin zənginliyi.

İnsanın daxili aləmində olanları açıqlamaq bacarığı olan nitq ulu Tanrının bəşərə əta etdiyi ali özəllikdir. Bütün canlı varlıqlar üzərində bəşəri fövqəladə mövqeyə çatdıran, ona platonik xüsusiyyətlər bəxş edən məhz nitqdir.

Qurani-Kərimdə nitq mədəniyyəti ilə bağlı dəyərli, aktuallığını tam qoruyub saxlayan fikirlər mövcuddur. Bu ulu kitabın yazdığına görə, Tanrı insanı yaratmaqla ona bəyanı (düşündüyünü açıqlamağı) öyrətdi. "Rəhman" surəsinin 3-cü, 4-cü ayələri bu haqda belə yazır:

Ərəbcə oxunuşu:

Xələqəl-insan, əlləməhul-bəyan. [Qurani-Kərim, 2017, s.530]

Sətri çevirmə:

O, insanı yaratdı, ona bəyanı öyrətdi. *[Kuran-i Kerim, 2016, s.143]*

Bu ayədən belə qənaət ələ gəlir ki, insan doğulduqda, onun nitq bacarığı doğumu ilə dünyaya gəlir, zaman axarında cilvələnib üzə çıxır. Başqa sözlə, *"Düşündüyünü və dünyadan aldıqlarını ifadə etmə anlamından bəyanın ilk insanın yaradılmasıyla başladığını söyləmək olar. Duyğu və düşüncələrini gözəl şəkildə anlatmağı bacaran canlı təkcə insandır" [İslam Ansiklopedisi, 2012,s.22]*.

Yerinə düşər qeyd edək ki, bəyan özü bir elmdir. Milli Ensiklopediyamızın qənaətincə, *"Bəyan elmi fikrin gözəl və aydın ifadə edilməsini və bu məqsədlə təşbeh, istiarə və kinayə kimi bədii təsriv vasitələrindən istifadə üsullarını öyrədir" [Azərbaycan Milli Ensiklopediyası, III, 2011, s.561].*

Bəyan elminin tarixi qədimdir. Belə ki, IX əsr ərəb yazıçısı, ensiklopedist alimi Cahiz "Bəyan və şərh kitabı" ("Kitab əl-bəyan vət-təbyin") adlı dəyərli kitabı yazacaq insanlara mənəvi miras qoymuşdur [Azərbaycan Milli Ensiklopediyası, V, 2014, s.164]

Nitq prosesində sözü gözəl söyləmə nitqin fövqündə dayanır. Öncə gözəl sözü, ardınca da (günahı) bağışlamağı önə çəkən Qurani-Kərimin müstəvisincə, arxasından əziyyət (minnət) gələn sədəqədən gözəl söz və (günahı) bağışlamaq daha xeyirlidir. "Bəqərə" surəsinin 263-cü ayəsi bunu bu cür açıqlayır:

Ərəbcə oxunuşu:

Qəulun mə'rufun və məğfirətun xəyrun min sədaqətin yətbəuha əzə. [Qurani-Kərim, 2017, s.43]

Sətri çevirmə:

Gözəl söz söyləmək və bağışlamaq arxasından əziyyət gələn sədəqədən daha xeyirlidir. *[Kuran-i Kerim, 2016, s.246]*

Göründüyü kimi, gözəl söz ona görə arxasından əziyyət gələn sədəqədən (yardıma ehtiyacı olana yardım göstərməkdən) üstündür ki, gözəl söz insan qəlbinə sirayət edərək, orada xoş duyğular yaradır, insanda pozitiv düşüncələrin çiçəklənməsinə yol açır.

Söz gözəl olsa da, əgər o, doğru-düzgün olmasa, sahibinə hörmətsizlik gətirər. İnsan doğru söz söylədikcə, onun əməlləri get-gedə islah olur(düzəlir) və Allah qa-

tında günahları bağışlanır. Qurani-Kərimdə yer alan "Əhzab" surəsinin 70-ci, 71-ci ayələri bu məsələni belə çözür:

Ərəbcə oxunuşu:

Ya əyyuhal-ləzinə amənut-təqul-lahə qulu qəulən sədidə. Yuslih ləkum ə'maləkum və yəğfir ləkum zunubəkum. [Qurani-Kərim, 2017, s.426]

Sətri çevirmə:

Ey iman gətirənlər, Allahdan qorxun və doğru söz söyləyin ki, (Allah da) əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. *[Kuran-i Kerim, 2016, s.185]*

Qurani-Kərimin yuxarıdakı ayəsinə dəstək verən dahi Nizami yalan sözü bərk qınayır və doğru olaraq buyurur ki, doğrunu söyləyən möhtəşəm olar, çünki doğru söyləyənin əməlini Allah qaydasına qoyur. Nizami bu dediyimizi poetik dillə belə açıqlayır:

Farsca oxunuşu:

Ço betvan rasti ra dərc kərdən,
Doruği ra çe bayəd xərc kərdən?!
Ze kəj-qui soxən ra ğədr kəm gəşt,
Kəsi ku rast-qu şod, mohtəşəm gəşt.
Ço sərv əz rasti bər zəd ələm ra,
Nədid əndər cəhan tarac-e ğəm ra. [Nizami: 2014, s.153]

Poetik tərcümə:

Var doğru yazmağa madam ki imkan,
Neçin gəlsin gərək ortaya yalan?!
Qiymətdən salmışdır sözü yalanlar,
Doğrunu danışan möhtəşəm olar.
Sərv də qaldırmış düzlük bayrağı,
Onunçün həmişə göydür yarpağı. [Nizami: 2013, s.177]

Qurani-Kərimin prizmasınca, doğru danışmaq təkcə dünya həyatında yox, eləcə də axirətdə də çox önəmli faktordur. Həmin gün Allah önündə danışan yalnız doğru-düzgün danışacaq, özü də Qiyamət səhnəsini izləyən mələklərin yanında. "Nəbə" surəsinin 38-ci ayəsinə baxaq:

Ərəbcə oxunuşu:

Yəumə yəqumur-Ruhu vəl-məlaikətu səffə. La yətəkəlləmunə illə mən əzinə ləhur-Rəhmanu və qalə səvabə. [Qurani-Kərim, 2017, s.582]

Sətri çevirmə:

Cəbrailin və mələklərin səf-səf duracağı gün Allahın izin verdiyi kimsələrdən başqa heç kəs danışmayacaq, danışan da doğrunu deyəcəkdir. *[Kuran-i Kerim, 2017, s.582]*

Gözəl nitq təbiətin insana verdiyi vergidir. Belə nitq dinləyicilərin yaddaşında iz qoyur, onlarda xoş ovqat və təəssürat yaradır, zaman keçdikcə unudulmur, əksinə, xatırlandıqca xatırlanır. VIII əsr ərəb filosofu, yazıçı və tərcüməçisi İbn əl-Müqəffa

bu qənaəti bölüşür ki, "gözəl nitq – sözü hər kəsin asan söyləyə bilmədiyi tərzdə söyləməkdir" *[İslam Ansiklopedisi: 2015, s.381]*.

Cahiz gözəl nitq olan bəlağətə belə bir tərif (açıqlama) verir ki, *"Bəlağət sözlə mənanın gözəllikdə bir-biriylə yarışması, yəni mənadan öncə sözün qulağa, sözdən öncə də mənanın zehnə sürətlə çatmasıdır" [İslam Ansiklopedisi: 2012, s.381]*

Cahizin bu gözəl açıqlamasından iki əsr öncə həzrət Əli elə nitqi gözəl sayır ki, qulaqlar onu eşidərək bezikmir və zehinlər onu anlamaqda əziyyət çəkmir. Demək, söylənilən nitq dinləyicinin bu iki orqanına yol tapmayınca, gözəl nitq sayılmaz:

Ərəbcə oxunuşu:

Əhsənul-kəlami ma la təmuccuhul-əzanu və la yut'ibu fəhmuhul-əfhamə. [www.karevansadeghiye]

Sətri çevirmə:

Ən yaxşı nitq odur ki, qulaqlar onu eşidərkən bezikmir və zehinlər onu anlamaqda əziyyət çəkmir *[www.karevansadeghiye].*

İnsan nitq söylərkən, fikrini bildirərkən etməyəcəyi ya da edə bilməyəcəyi bir kəlməni də dilinə gətirməməlidir. Yoxsa beləsinin sözü kəsərini itirər, hörmətini əldən verər. Bu baxımdan Qurani-Kərim belə natiqə xitabən "Saff" surəsinin 3-cü ayəsində vurğulayır.

Ərəbcə oxunuşu:

Ya əyyuhal-ləzinə amənu limə təqulunə ma la təf'əlun. [Qurani-Kərim, 2017, s.550]

Sətri çevirmə:

Ey iman gətirənlər, etməyəcəyiniz bir işi niyə deyirsiniz? *[Kuran-i Kerim, 2016, s.245]*

Nitq prosesində, söhbət əsnasında xoş söz işlətmək nitqə gözəllik, cazibəlilik, təravət, xoş ovqat verir. Qurani-Kərim xoş bir sözü elə gözəl bir ağaca bənzədir ki, onun kökü yerdə möhkəm olub, budaqları göyə ucalsın. Demək, gözəl ağacın kökü yerdədirsə, gözəl sözün kökü danışanın qəlbində olur. Gözəl ağacın budaqları göyə ucalarsa, gözəl sözün izləri dinləyicilərin qəlblərində yer alır. "İbrahim" surəsinin 24-cü, 25-ci ayələrinin dediyi kimi:

Ərəbcə oxunuşu:

Kəlimətən təyyibətən kə-şəcarətin təyyibətin əsluha sabitun və fər'uha fis-səma. [Qurani-Kərim, 2017, s.257]

Sətri çevirmə:

Xoş bir söz kökü yerdə möhkəm olub, budaqları göyə ucalan gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə bəhərini hər vaxt verər. *[Qurani-Kərim, 2017, s.257]*

Nitqdə xoş söz necə gözəlsə, pis söz bir o qədər ikrah doğurur. Belə söz düşmənçiliyə, kinə, ədavətə yol açır. Qurani-Kərim bizi xəbərdar edərkən yazır ki, pis söz yerdən qopardılmış ağac kimi bar verməz, kölgəliyi olmaz, quruyub odda yandı-

rılmağa layıq olar. Pis söz də belədir, qəlbləri bulandırar, sevgini tükədər, həyatı cəhənnəmə döndərər. Həmin surənin 26-cı ayəsinə nəzər edək:

Ərəbcə oxunuşu:

Və məsəlu kəlimətin xəbisətin kə-şəcərətin xəbisətin tussət min fəuqil-ərzi ma ləha min qərar. [Qurani-Kərim, 2017, s.258]

Sətri çevirmə:

Pis söz isə yerdən qopardılmış, kökü olmayan pis bir ağaca bənzəyir *[Qurani-Kərim, 2017, s.258]*

Nitq əsnasında bədənin görünən üzvlərinin hərəkətləri diqqətdən yayılmır. Bu hərəkətlərə yersiz yol verilməsi ya da onların normanı aşması izləcyicilərdə ikrah doğurur. Belə neqativ hərəkətlərdən biri nitq anında birinin öz dilini oynatmasıdır. Məhəmməd peyğəmbərin hədislərinin birində deyilir ki:

Ərəbcə oxunuşu:

İnnəllahə ləyubğizur-rəculəl-bəliğəl-ləzi yəl`əbu bi-lisanihi kəmə təl`əbul-baqirətu. [www.hawzah]

Sətri tərcüməmiz:

Doğrudan da, Tanrı nifrət edir elə natiqə ki, inək dilini oynatdığı kimi, dilini oynadır. *[www.hawzah]*

Yuxarıda adı keçən hədisin oxşar variantını həzrət Peyğəmbər aşağıdakı imlada təqdim edir. Burada ən nifrətli natiq eləsi sayılır ki, dilini hər yana çevirir:

Ərəbcə oxunuşu:

Əbğəzun-nasi illəllahi təalal-bəliğul-ləzi yətəxəlləlu bi-lisanihi təxəlləl-baqirəti bi-lisaniha. [www.karevansadeghiye]

Sətri tərcüməmiz:

Uca Tanrı qatında ən nifrətli natiq o kimsədir ki, dilini inək dili kimi hər yana çevirir. *[www.karevansadeghiye]*

Nitq əsnasında, danışıq vaxtı elə anlar ortaya çıxır ki, natiq danışmayıb susmalıdır. Bu onunla əlaqədardır ki, ya natiqə sual verilir ya verilən sualı natiq düşünür ya natiq daha nəyi danışmağı düşünür ya da başqa hallarla bağlıdır. Həzrət Peyğəmbər buna diqqət çəkərək buyurur:

Ərəbcə oxunuşu:

Əhmədu minəl-bəlağətis-səmtu hinə la yənbəğil-kəlam
[www.karevansadeghiye]

Sətri çevirmə:

Bəyənilən gözəl nitqdən biri odur ki, danışmağın gərək olmadığı anda susasan. *[www.karevansadeghiye]*

Dinləyicinin natiqə verdiyi sual natiqin öz nitqini necə qurmasından, nitq prosesində yaratdığı xoş ovqatdan birbaşa asılıdır. Başqa sözlə, natiq istəsə ki, verilən sual gözəl olsun, gərək özü gözəl danışsın. Həzrət Əlinin bir hədisi məsələni doğru işıqlandırır:

Ərəbcə oxunuşu:

İcmilu fil-xətabi təsmən cəmiləl-cəvab. [www.hawzah]

Sətri tərcüməmiz:

Gözəl danışın ki, gözəl sual eşidəsiniz. *[www.hawzah]*

Natiq etdiyi nitqin yolunu (hansı yollardan keçəcəyini) bilməsə, onun həqiqətini (açıqlayacağı mövzunu) gərəyincə ortaya qoya bilməsə, nitq uğurlu alınmaz, hədəfə tuşlanmaz. Nitqin yoluna və həqiqətinə diqqət vermənin önəmini həzrət Əli belə işıqlandırır:

Ərəbcə oxunuşu:

İyyakə vəl-kəlamu fima la tə`rifu təriqətəhu və la tə`ləmu həqiqətəhu. [www.hawzah]

Sətri çevirmə:

Yolunu tanımadığın, həqiqətini bilmədiyin nitqdən yayın*[www.hawzah]*

Nizaminin mayası ağır olan çox mətahı (çox dəyərli sözləri) olub, amma bunları hər kəsin önünə sərməyib, istəyənə təqdim edib. Şair bununla deyir ki, mayası ağır olan sözün olsa, de. Başqa sözlə, sözü söz üçün demə, verəcəyi fayda üçün de:

Farsca oxunuşu:

Məta-e geran-maye darəm bəsi,

Nəyarəm borun ta nəxahəd kəsi. [Nizami: 2014, s.975]

Sətri çevirməmiz:

Mayası ağır olan çox mətahım var,

Üzə çıxarmaram, istəyən olmasa.

Nitqin, səslənən sözün hansı durumda qalacağı natiqin ona bəslədiyi inancdan asılıdır. Demək, natiq dediyinə inansa, dediyinə inanarlar. Həzrət Əli bu incə məqamı dahiyanə açıqlayır:

Ərəbcə oxunuşu:

İza tabəqəl-kəlamu niyyətəl-mutakəllimi, qəbbələhus-sami və iza xaləfə niyyətəhu, ləm yəhsinu məuquhu fil-qəlbihi. [www.hawzah]

Sətri çevirmə:

Natiqin dediyi onun iç inancına uyğun gəlsə, dinləyici onu götürər, iç inancına qarşı çıxsa, dinləyicinin canına oturmaz. [www.hawzah]

Sözdə uzunçuluq nitq mədəniyyətində qətiyyən bəyənilmir. Həzrət Əlidən gətirdiyimiz sitatda uzunçuluğun neqativ anları bunlardır – sözün ətəyini genlədir, mayasını daraldır, sonu görünmür, kimsə ondan bəhrələnmir. Burada sözün ətəyi sözün çoxluğuna, sözün mayası isə sözün dəyərinə işarədir:

Ərəbcə oxunuşu:

Kəsirətul-kəlami tubsutu həvaşihi və tənqusu məanihi fə la yura ləhu əmədun və la yəntəfəu bihii əhəd. [www.hawzah]

Sətri çevirmə:

Uzunçuluq sözün ətəyini genəldir, mayasını isə daraldır, belə ki, onun sonu görünmür və kimsə ondan bəhrələnmir. [www.hawzah]

Sözdə uzunçuluğu qınayan Nizami məsləhət görür ki, boş söz söyləməkdən özünü saxlasın, belə sözü deməkdənsə, ağzına qıfıl vursun, sözünü yandırsın:

Farsca oxunuşu:

Dəhən ra be mesmar bər duxtən,

Beh əz qoftəno qofte ra suxtən. [Nizami: 2014, s.975]

Poetik tərcümə:

Bakir söz tapınca yontulur ürək,

Hər kəsin işimi incə söz demək? [Nizami: 2013, s.251]

İnsan nitqinin, sözünün məqsədi başqalarına xeyir vermək, kimsəyə ziyan verməməkdir. Həzrət Peyğəmbər buyurur ki, insanın dilindən, əlindən xeyir gəlməlidir, əgər o, bunu edə bilmirsə, susmalıdır:

Ərəbcə oxunuşu:

Mən kanə yuminu billahi vəl-yəumil-axiri fəl-yəqul xəyrən əu liyəsmut. [Пороховa, 2012, c.80]

Sətri çevirmə:

Allaha və Qiyamət gününə inanan kimsə xeyir danışsın ya da sussun. *[Пороховa, 2012, c.80]*

Nitq söyləyən istədiyini dərin bilməli, onun biliyi olmalı, veriləcək sorğuları elminə söylənib cavablandırmalıdır. İslam Peyğəmbəri tövsiyə edir ki, sənin elminin əhatə etmədiyini dilə gətirmə:

Ərəbcə oxunuşu:

La taxəbbir bi-ma ləm tuhittu bihi ilmə. [www.hawzah]

Sətri çevirmə:

Sənin elminin əhatə etmədiyini açıb söyləmə. *[www.hawzah]*

Sözü məqamında demənin, vaxtında söyləmənin önəmi böyükdür. Belə ki, söz nə qədər dəyərli olsa da, vaxtında deyilməsə, dəyərsiz olar, onu qulaqardına vurarlar. Bu baxımdan həzrət Peyğəmbər doğru buyurur ki, hər sözün məqamı, yeri vardır, məqamını tapmasanız, söyləməyin:

Ərəbcə oxunuşu:

La tukəllim iza ləm təcidu lil-kəlami məuqiə. [www.hawzah]

Sətri çevirmə:

Söz deməyə məqam tapmasan, onu söyləmə. *[www.hawzah]*

Natiq nitq söyləyərkən gərək sözləri aydın və səlis səsləndirsin, belə ki, hər söz necə varsa, dinləyiciyə çatmalıdır və bundan əlavə, söz dinləyicinin qavrama səviyyəsinə görə deyilməlidir. İslam Peyğəmbərinin nəzərincə, nitq aydın səslənməli və asan qavranmalıdır:

Ərəbcə oxunuşu:

Əl-bəlağətu ma səhhulə ələl-məntiqi və xəffə ələl-fitnəti. [www.karevansadeghiye]

Sətri çevirmə:

Gözəl nitq eləsidir ki, dildə aydın səslənir və asan qavranılır. *[www.karevansadeghiye]*

Yuxarıda yer alan aforizmin ardı olaraq qeyd edək ki, söz gözəl tərbiyə edici ünsürdür. Başqa sözlə, "Söz-sərrast seçilmiş, müdriklərlə dolu, canlı, inandırıcı, kəsərli, obrazlı olduqda böyük tərbiyəvi təsir gücünə malik olur [Sadıqov: 2017, s.173].

Ədəbiyyat siyahısı

Azərbaycan dilində

1. Azərbaycan Milli Ensiklopediyası (2011) altı cilddə, III cild, (Redaksiya heyəti üzvlərinin redaktəsi ilə), Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 604 s.

2. Azərbaycan Milli Ensiklopediyası (2014) altı cilddə, V cild, (Redaksiya heyəti üzvlərinin redaktəsi ilə), Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 592 s.

3. Qurani-Kərim (2017). Z.Bünyadov və V.Məmmədəliyev tərcüməsi. Bakı, "Nurlar", 2017, 624 s.

4. Nizami G. (2013). Əsərləri (iki cilddə). I cild. Bakı, Şərq-Qərb, 779 s.

5. Nizami G. (2013). Əsərləri (iki cilddə). I cild. Bakı, Şərq-Qərb, 763 s.

6. Sadıqov F. (2017). Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, Bakı Biznes Mərkəzi, 217 s.

Fars dilində

7. Nizami G. (2014), Kolliyati-Xəmsə, (dər do cild) I cild, Tehran, "Cavidan", 678 s.

8. Nizami G. (2014). Kolliyati-Xəmsə, (dər do cild). II cild, Tehran, "Cavidan", 680-1533 s.

Türk dilində

9. İslam Ansiklopedisi (2012), otuz dörd ciltte, IV cild, (Genel Sekreterin redaktəsi ile), İstanbul, Güzel Sanatlar Matbaası A.Ş., 559 s.

10. İslam Ansiklopedisi (2015), otuz dörd ciltte, VI cild, (Genel Sekreterin redaktəsi ile), İstanbul, Güzel Sanatlar Matbaası A.Ş., 559 s.

11. Kuran-i Kerim ve Türkçe mealı (2016). Mutarcim Emin Saraç. İstanbul, Hikmet Naşriyyat, 606 s.

Rus dilində

12. Порохова И.В. (2012) Хадисы пророка, Москва Наука, 195 с.

İnternet saytlarında

13. https: // karevansadeghiye.ir/51163 [istinad tarixi: 15.10.2019]

14. https://hawzah/net/fa/Magazine/View/2689/4262/28201/51163 [istinad tarixi: 17.10.2019]

S.Novruzaliyeva
N.Aliyeva

Oration`s culture and islam

Summary

The researeh of "Oration`s culture and islam" is too urgent. No one dissertation is defended in Azerbaijan about the research, even there is no any book by this name.

The scientific innovation of the article is that the article given an great important to the ortaion`s culture in İslam according to the Koran, the hadithes of İslam Prophet and His Majesty Ali, also to the scientific sources in Persian, Turkey and Russian languages.

İn the article says an excellent saying of the word has a big importance. The word saying excellently solves the desting of the word. The guotation given from the Koran maintain it.

The honesty of the word is an important factor. In order to explain it is given a corresponding part from the Koran. As such question is in the Koran, it says its importance. Nizami says genius thoughts about the excellent oration in his works.

What the orator says he must not say anything preconceived and animosity. If he says so, listener won`t hear him and the disgust goes down on an excellent speech.

The motions of the hand and face must not be out of the attention during oration. If we do them tastlessly, they will make an aversion on the listeners. We give one hadis by islam`s Prophet.

Word`s jabbering is not well in the oration`s culture. The aphorism saying by His Majesty Ali proves it. All the quotations are gived in the original and the translation.

We hope that the Azerbaijany scientists and investigators derive advantages from the scientific-investigating utilities of tge article.

Key words: oration, hadith; the Koran, poetical translation, interlinear translation, oration's richness.

С.Новрузалива
Н.Алиева

Культура речи и ислам

Резюме

Тема под названием «Культура речи и ислам» слишком актуальна. В Азербайджане не защищены ни одна диссертация по данной теме, даже нет книги с таким названием.

Научное новшество данной статьи заключается в том, что оно придает большое значение культуре речи в исламской религии, ссылаясь на Коран, хадисы исламского пророка и его сиятельство Али, а также на научные источники на персидском, турецком и русском языках.

В статье отмеучатся, что красивое выражение слов в речи имеет большое значение. Красивое слово решает судьбу речи. Цитатой, приведенной из Корана, это подтверждается.

Правильность слов – важный фактор. Чтобы раскрыть сущность вопроса, дастся соответствующий стих из Корана. Раз вопрос поднимается в священном Коране, значит, данный вопрос актуален. Низами также высказывает в своих произведениях гениальные мысли по вопросу красоты речи.

Оратор не должен говорить злоумешленно и враждебно. Если так скажет, то его не услышит слушатель. А пепависть обесценивает красивую речь.

В момент речи движения рук, лица не остаются вне внимания. Неуместное выражение таких органов вызывает у зрителей недоумение. По даннолу вопросу представляется цитата от Пророка ислама.

Длинность реци вовсе не одобряется. Этого утверждает изречение его сиятельство Али. Все цитаты даны в оригинале и переводе.

Уверены, что азербайджанские ученые и исследователи будут воспользоваться научно-исследовательскими данными этой статьи.

Ключевые слова: речь, хадис; Коран, поэтический перевод, дословный перевод, богатство речи.

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 01.06.2020
Filologiya üzrə fəlsəfə doktoru Sevda Kadiyeva tərəfindən çapa tövsiyə olunmuşdur

HÜZURƏ AĞAYEVA
ADU
Rəşid Behbudov 134
hagayeva@list.ru

ORTA MƏKTƏBLƏRİN İBTİDAİ SİNİFLƏRİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİNİN PSİXOLOJİ ƏSASLARI (İNGİLİS DİLİ MATERİALLARI ƏSASINDA)

Xülasə

Şifahi nitqin inkişafında psixologiya elminin də rolu az deyildir. Belə ki, psixoloji amillər hər zaman təlim prosesində vacib rol oynamışdır. Onların düzgün formada nəzərə alınması təlim prosesinin effektivliyini artırır.

Dilöyrənənlərin, xüsusilə də orta məktəb şagirdlərinin xarici dilə yiyələnməsi prosesində psixoloji əsasların qeyd edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Psixoloji amillər dərs prosesi zamanı şagirdlərin dərsi başa düşməsinə, dərsdə fəal şəkildə iştirak etməsinə və dərsə olan maraqlarına təsir göstərir. Siniflə yanaşı, şagirdlərin ingilis dilinə yiyələnməsində psixoloji amillərin rolu qeyd edilməlidir.

Ümumiyyətlə, psixoloji amillər dedikdə, davranış, təfəkkür, motivasiya, diqqət, şəxsiyyət və yaş kimi amillər nəzərdə tutulur. Tədris zamanı şifahi nitqin inkişafında bu amillərin hər biri xüsusi əhəmiyyət kəsb edir.

Təqdim edilən bu araşdırmada dərs prosesində xarici dil tədrisinin psixoloji mahiyyətinə, şagirdlərin yaşla əlaqədar psixoloji xüsusiyyətlərinin daha dərindən öyrənilməsinə və təlim materiallarının məzmunundan əlavə, onların potensialından istifadə etmək bacarığına diqqət yetirəcəyik.Dərsin aparılması və şifahi nitqin inkişaf etdirilməsi ilə bağlı biz təhsilin idrak, təlim, uyğunlaşdırma və inkişaf funksiyalarının vahidliyindən bəhs edəcəyik.

Açar sözlər: kommunikasiya, psixologiya, metod, texnologiya, nitq

Psixoloji amillərin daha çox məna kəsb edənlərindən biri şagirdlərin yaş xüsusiyyətləridir. Yaşla bağlı xüsusiyyətlər yaş psixologiyasında nəzərdən keçirilir. Yaş psixologiyası ilə bağlı prof. S.Seyidov və prof. M.Həmzəyevin elmi redaktorluğu ilə işıq üzü görən "Psixologiya" kitabında qeyd edilir: "Yaş psixologiyası müasir psixologiyanın əsas sahələrindən biridir. Yaş psixologiyasının predmetini birinci növbədə insan psixikasının inkişaf dinamikasının, şəxsiyyətin psixi prosesləri və psixi xassələrinin ontogenezinin inkişaf xüsusiyyətlərinin öyrənilməsi təşkil edir. Yaş psixologiyasının predmetinə fərdin psixologiyası və davranışının "yaş" anlayışı ilə ifadə olunan spesifik birliyini də aid etmək olar. Nəzərdə tutulur ki, insanın hər bir yaş döv-

ründə psixoloji və davranış xüsusiyyətləri həmin yaş dövrü üçün xarakterik olur ”[1,s.420].

Qeyd etmək istərdik ki, bu işlərin həyata keçirilməsində şagirdlərin yaş mərhələləri xüsusi olaraq nəzərdən keçirilməlidir. Y.A.Komenskiy uşaqların yaş xüsusiyyətlərinin təlim-tərbiyə işində ciddi nəzərə alınmasını tələb edən ilk tədqiqatçı olmuşdur[5,s.34]. Şagirdlərin psixoloji xüsusiyyətləri rus alimlərinin işlərində nəzərdən keçirilmişdir ki, bunlardan A.S. Belkin, İ.A.Zimnya, V.S.Muxina, S.A.Puyman, L.D.Stolyarenko, K.D.Uşinskiy və digərlərinin adlarını çəkə bilərik.

Buna görə də, tədqiqatlarda göstərildiyi kimi aşağıdakıları nəzərə almaq lazımdır:

1. Müxtəlif yaşda olan şagirdlərin özünəməxsus xüsusiyyətləri
2. Konkret mərhələdə əks olunan xüsusiyyətləri
3. Şagirdlərin fərdi xüsusiyyətləri

Psixoloji ədəbiyyatı təhlil etməklə biz IV-X siniflərdə oxuyan şagirdlərin şəxsiyyətini müəyyən edən xüsusiyyətlərə diqqət yetirəcəyik. Burada məqsədimiz ibtidai təhsil səviyyəsində olan şagirdlərin yaş xüsusiyyətləri ilə bağlı olsa da, sadəcə orta və yuxarı ilə müqayisədə aşkar görünən fərqləri təqdim etmək istəyirik.

Bu xüsusiyyətləri aşağıdakı qaydada müəyyən etmək olar:

1. İstiqamət

Buraya əminlik, dünyagörüş, ideallar, meyl, maraq, arzular daxildir.

2. Təcrübə

Buraya vərdişlər, bacarıq və biliklər aid edilir.

3. Psixi proseslər

Bu zaman iradə, hiss, mənimsəmə, təfəkkür, təəssürat, emosiyalar, yaddaş nəzərdə tutulur.

4. Biopsixi xüsusiyyətlər

Buraya isə temperament, yaş, patoloji xüsusiyyətlər daxil edilir.Belə ki, inkişafın müxtəlif mərhələlərində müxtəlif xüsusiyyətlər xarakterikdir.

Məsələn, I-V siniflərin yaş xüsusiyyətlərini nəzərdən keçirək:

Meyl. Azyaşlı məktəblilər ətraf aləmlə maraqlanır, ictimai işlərdə fəal iştirak edir, kollektivdə iştirak etməyə səy göstərirlər.

Uşaqlar konkret, müqayisəli və davamlı fəaliyyətə, tez alınan nəticəyə can atırlar.Bu fəaliyyətin qiymətləndirilməsində əsas fiqur həmyaşıdlardır. Şagirdlər rolların həyata keçirilməsinə maraqla yanaşır. Özlərinə münasibətdə yüksək özünüqiymətləndirmə qeyd edilir. Təqlidə meylli olur, səthi, hər şeyə sadəlövh oyun formasında yanaşırlar. Bu zaman uşaqlarda tədrisə marağın azalması müşahidə edilir və bununla yanaşı, maraq bacarığa münasibət də güclənir. Onlar bilik və ciddiliyi qiymətləndirməyə başlayırlar. Digər xüsusiyyət psixi proseslərdir. Kiçik məktəblilər yüksək istedadlar, həssaslıq, bacarıq nümayiş etdirirlər. Onlarda yaddaş, mənimsəmə, təfəkkür, diqqətin intensiv inkişafı baş verir. Uşaqlar hətta əhəmiyyətsiz görünən şeylərə belə

diqqət yetirirlər. Bu zaman əsasən yaxın fəaliyyət motivləri (alınan qiymətlər) aparıcı rol oynayır.

Bioloji-psixi xüsusiyyətlər. Qərarsızlıq, səbrsizlik, cəldlik, inadkarlıq, tənbəllik, intensiv fiziki inkişaf uşaqlara xas xüsusiyyətlərdir.

Orta dövr məktəb yaşlarına nəzər yetirək:

Bu 10-11 yaşdan 15 yaşa qədər olan müddəti əhatə edən yaş dövrləridir.

Bu yaş dövrü məktəb təhsili (VI-IX siniflər) alınan dövrlə üst-üstə düşür və bütün orqanizmin tam yetkinləşməsi və həyat fəaliyyətində yüksəlişlər dövrü kimi xarakterizə olunur.

Yeniyetmələrin mənəvi dünyasını N.K.Krupskaya yarı-uşaq və yarı-böyük yaş psixologiyası kimi belə xarakterizə etmişdir: "öz inkişafında o, uşaqlıqdan "çıxmış", lakin, hələ böyüklük dövrünə çatmamışdır"[6,s.45]. Bu dövr, həm yeniyetmənin özü, həm də onun ətrafındakı insanlar üçün çətin dövrdür.

Meyllilik. Orta yaş dövründə olan yeniyetmələr üçün təhsil mənəvi-etik problemlərə yaxınlaşır. Baxmayaraq ki, onlar bəzi mənəvi anlayışları hələ dərk etmirlər. Bu zaman uşaqlarda şəxsi dəyərlər formalaşır. Yüksək özünüqiymətləndirmə yaranır və bununla yanaşı, vicdan əzabı çəkməyə meyllilik meydana çıxır. Belə ki, onlarda biliklərə sahib olmaq və həqiqətən də bir şey edə bilmək arzusu oyanır.Bu mərhələdə uşaqların həyat təcrübəsində hələ də çatışmayan bəzi şeylər olur. Bu özləri ilə bağlı hərəkətlər və qərarlar, birtərəfli olması, özlərini idarə etmək iqtidarında olub- olmamaları ilə əlaqədardır. Hətta bəzi məsələlərdə özlərindən düzəliş etmələrini tələb edirlər. Psixi proseslər zamanı uşaqların diqqəti dağınıq olur, onlar diqqətlərini cəmləşdirmək iqtidarında olmurlar. Xatırlatma məqsədli olsa da, daha çox tənqidi düşüncə xarakterik olur.Biopsixi proseslər orqanizmdə dəyişiklik, balansın pozulması, dözümsüzlük, yüksək qıcıqlanma, tez yorulma, apatiya, yüksək fiziki fəaliyyət, məhsuldarlığın azalması kimi xarakterizə olunur. Uşaqlarda böyüklük hissi yaranır.

Müəllimlər müasir yeniyetmənin inkişaf və davranış xüsusiyyətlərini dərindən öyrənməlidirlər, real həyatın çətin və ziddiyyətli şərtlərində özlərini onların yerinə qoymalıdırlar. Bu yeniyetmələrin getdikcə müəllimlərdən, məktəblərdən və cəmiyyətdən uzaqlaşmasının qarşısını almaq üçün mühüm şərtdir.

Orta məktəb yaşlarında olan şagirdlər hadisələrdən baş açmağı və tam anlamağı bacarmalıdır, əsası olan fikirlərlə razılaşmalıdırlar.

Məktəb həyatının demokratikləşdirilməsi, sinifdənxaric işlərin, bölmələrin sərbəst seçilməsi - bütün bunlar yeniyetmənin özünü ifadə etməsi üçün əlverişli şərait yaradır. Bu da yekun nəticədə müsbət mənəvi və sosial keyfiyyətlərin formalaşmasını şərtləndirir.

Təhsilin yuxarı səviyyəsi X-XI siniflər hesab olunur.

Yeniyetməlik özünü təsdiq etmə, gələcəyi dərketmə, axtarış, ümid, arzular dövrüdür.

"Yeniyetməliyi canlandıran odda insana xas xüsusiyyətlər formalaşır. Buna görə də, bu odu söndürmədən keçmək, ondan qorxmamaq, cəmiyyət üçün onun təhlükəsiz

olmadığını düşünüb, onun sərbəst alışmasına yol vermək olmaz. Bu elə o andır ki, gənclərin ruhuna yaxın olmaq lazımdır" – deyə K.D.Uşinski yazmışdır[1, s.26].

Böyük yaşlı məktəblilər hərtərəfli inkişafa, biliklərin dərindən öyrənilməsinə can atırlar. Bu yaş dövründə şagirdlərin dünyagörüşü və təhsil prinsiplərinə olan marağı artır. Bunun səbəbi odur ki, dərs adi qaydada deyil, rəngarəng keçirildikdə maraqlı olur. Bu yaşda uşaqlar həmyaşıdları ilə ünsiyyətdən kənarda qala bilmirlər. Həmyaşıdları ilə qurulan əlaqə onların həyatının ayrılmaz hissəsi, məlumat mənbəyi və xarici ünsiyyət növüdür.

Yeniyetməlik dövründə olan şagirdlərdə getdikcə artan fəallıq, emosional disbalans, ekspressivlik, öz vəziyyətinin aqressiv formada ifadə edilməsi xüsusiyyətləri xasdır. Onların əhval-ruhiyyəsi başqa yaş dövrləri ilə müqayisədə daha qeyri-sabitdir.

Biopsixi xüsusiyyətlər üçün intensiv inkişaf və orqanizmdə funksional dəyişikliklərin baş verməsi xasdır.

Xarici dilin tədrisi ilə bağlı psixi-pedaqoji cəhətləri təhlil edərək belə qənaətə gəlirik:

Aşağı mərhələ

Bu mərhələdə aşağıda qeyd edilənləri nəzərə almaq tövsiyə edilir:

1. Şagirdlərin maraq dairəsini anlamaq, onları müxtəlif tədbirlərə cəlb etmək;
2. Maraqlara əsasən dərnəklərin işini təşkil etmək;
3. Təkcə keçid deyil, həm də məşğulluq, işin çoxcəhətliliyini anlayaraq sinifdənxaric iş növlərini dəyişdirmək;
4. Tədris prosesində yeni texnologiyalardan istifadə etmək;
5. Uşaqların fəaliyyətini onun özü deyil, uşaq kollektivi vasitəsilə qiymətləndirmək;
6. Uşaqların emosiyalarına təsir etməklə tədbirlər hazırlamaq;

Orta mərhələ.

Bu mərhələdə aşağıdakılara diqqət yetirilməsi vacibdir:

1. Hər bir şagird üçün işin həcmini nəzərə almaq, təxmini icra tarixlərini müəyyənləşdirmək;
2. Hər hansı birgə işin icrası zamanı uşaqların əməkdaşlığını təmin etmək;
3. Uşaqlara daha çox müstəqil işləmək imkanı vermək;
4. Kəskin mühakimələrdən uzaq tutmaq;
5. Yeniyetmələrin diqqətini çəkmək üçün müvafiq söz və ifadələrdən istifadə etmək;

Tədbir əsnasında aşağıdakı ifadələri işlək hala gətirmək lazımdır: "Xüsusilə maraqlı olan budur ki,", "Maraqlıdır ki …" və s.

Yuxarı mərhələ.

Bu mərhələdə vurğulanmalı olan cəhətlər aşağıdakılardır:

1. Şagirdlərin maraqlarının differensiallığını nəzərə almaq;
2. Şifahi nitqin inkişafını dəstəkləyən müxtəlif xarakterli tədbirləri vurğulamaq;

3. Mənəvi-etik xarakterli tədbirləri diqqətdə saxlamaq;
4. Yuxarı sinif şagirdləri arasından münsifləri diqqətlə seçmək;
5. Uşaqların təşəbbüsü ilə hər cür təşviqat aparmaq, şagirdlərin işinə qarşı diqqətli olmaq;
6. Şagirdlərin özünə və başqalarına səbəbsiz yerə, tez-tez qiymət verməsinə imkan verməmək;
7. Sinif şagirdlərinin və xüsusən də, müxtəlif siniflərin şagidlərinin dostluq münasibətlərini anlayışla qarşılamaq və nəzərə almaq. Belə ki, şagirdlərin psixoloji xüsusiyyətlərinin nəzərə alınması xarici dil üzrə şifahi nitq vərdişlərinin həyata keçirilməsi üçün vacib amildir.

Bunun həyata keçirilməsi müəllimdən böyük səy tələb edir.

Bu zaman sadəcə, aşağıdakı xüsusiyyətlərə əsaslanmaq lazımdır:

- müvafiq iş formalarının seçilməsi ("bu mərhələdə hansı iş formaları daha çox uyğundur?");
- "uşaqlar nə ilə maraqlanır?";
- İşin təşkili zamanı ("uşaqlar nəyi bacarır, onlarda nəyi inkişaf etdirmək lazımdır?" və s.).

Bu cür yanaşma özünü təsdiq etmiş və şifahi nitq vərdişlərinin inkişafının effektivliyini təmin edir.

Yeri gəlmişkən qeyd edək ki, şifahi nitqin inkişafında sinifdənxaric işlərin təşkilatçısının və onun həyata keçirdiyi fəaliyyətin (təşkilati) əhəmiyyəti olduqca böyükdür. Təşkilat fəaliyyəti maddi mədəniyyətin bütün sahələrinə, elm və təhsil sahəsinə, insanların dövlət və ictimai həyatına nüfuz edir.

Məktəbdə həyata keçirilən təşkilati fəaliyyət qarşıya qoyulan məqsədlərə çatmaq üçün şagirdlərin qrup şəklində birgə fəaliyyətini təşkil edən müəllimin işidir. Təşkilatçının şəxsiyyəti özündə ümumi keyfiyyətləri və xüsusi qabiliyyətləri birləşdirməlidir.

Ümumi keyfiyyətlərə sosial, ümumi inkişaf səviyyəsi, zehin praktikliyi, müşahidə, iş qabiliyyəti, şəxsi fəaliyyət, təşəbbüskarlıq, səbr, təşkilatçılıq, müstəqillik, özünüidarəetmə, dəqiqlik, vədinə əməl etmə bacarığı, yaxşı yaddaş, özünə inam, fikirləri, ideyaları, düşüncələri, şagirdlərin ifadələrini qəbul etmə (dözüm) keyfiyyətləri daxildir. Bunlara ümumi keyfiyyətlər deyilir, çünki bu keyfiyyətlər həm yaxşı təşkilatçıda, həm də təşkilati fəaliyyətlə məşğul olmayan bir şəxsdə də ola bilər.Xüsusi təşkilati bacarıqlara ehtiyac olması ilə bağlı daha az fikir qeyd edilir. Əsas xüsusiyyət "Təşkilati bacarıq" hesab edilə bilər.

Təşkilati bacarıq - müəllimin şagirdin psixologiyasını anlamaq və bunun əsasında öz səs tonunu, ünsiyyət formasını, hərəki vasitələri və üsullarını dəyişmək qabiliyyətidir.

Təşkilati bacarığa malik olmaqla müəllim bu və ya digər şagirdin nəyə qadir olduğunu, hansı tapşırığı yerinə yetirmək istəyəcəyini və ya yerinə yetirə biləcəyini,

onu nə ilə maraqlandıra biləcəyini, kiminlə işləmək istəyə biləcəyini, şagirdlərə necə köməklik etmək lazım olduğunu və s asanlıqla müəyyən edə bilər.

Qeyd edək ki, sinifdənxaric işlər bu baxımdan xüsusilə məqsədəuyğundur.

Fikrimizcə, şifahi nitqin inkişaf etdirilməsi ilə bağlı məsələlərin təşkilində müəllim aşağıdakı bacarıqlara malik olmalıdır:

1. Tapşırıqları təyin etmək;
2. Şəraitdən asılı olaraq, əsas tapşırığı seçmək;
3. Hər problemdə praktiki problemləri müəyyən etmək və onların həlli ardıcıllığını müəyyən etmək;
4. Tədbirləri hazırlamaq və aparılmaq üçün lazımi şəraiti müəyyənləşdirmək;
5. Şagirdlərin fəaliyyətini koordinasiya etmək;
6. Oyun iştirakçıları arasında rolları təyin etmək;
7. Təlimatın hazırlanmasına, keçirilməsinə və qiymətləndirilməsinə uşaqların yaradıcılıq işinə qarışmamaqla, bütün göstərişlərin icrasına nəzarət və kömək etmək.

Müəllimin şəxsiyyətilə bağlı məsələlər A.Q.Kovalyevin, N.V.Kuzminanın, L.İ.Umanskinin, A.N.Lutoşkinin, K.K.Platonovun və başqalarının işlərində tədqiq edilmişdir.

Müəlliflər müəllimin aşağıdakı xüsusiyyətlərini müəyyən edirlər:

1. Şəxsiyyətyönümlü olması.

Bu xüsusiyyətə əsasən, şəxsiyyətin mənəvi "məzmunu", dünyagörüşü, həyatdakı mövqeyi nəzərə alınır.Bu müəllim üçün olduqca vacibdir, çünki onun məsələyə münasibəti birbaşa və dərhal şagirdlərə ötürülür.

Dilöyrənənlər müəllimdə nikbinlik müşahidə etmədikdə, təlimdə müvəffəqiyyətə inamı, müəllimin öyrətmək arzusunu hiss etmirlər. Bu zaman bütün təşkilati fəaliyyət səmərəsiz olur.

2. Zehnin təcrübi baxımdan çevikliyi.

Bu xüsusiyyət təlimin necə aparılacağı, tədrisin necə təşkil ediləcəyi barədə nəzəri bilikləri tətbiq etmək qabiliyyətini özündə ehtiva edir.

Zehnin təcrübi baxımdan çevikliyi bəzi situasiyalarda sürətli oriyentasiyada, şagirdlər arasında vəzifələri bölüşdürmə, hər bir sahədə müvafiq motiv tapılması, şagirdlərin biliklərə münasibəti əsasında onlar arasında əlaqəni müəyyən etmək bacarığında və və s. meydana çıxır.

3. Fəaliyyət.

Bu enerji dolu hərəkət, tədbirlər görmək və gözləmə mövqeyində olmamaq qabiliyyəti, müzakirə olunan problemlə bağlı öz fikrini deməyi, həmçinin, müəyyən səviyyədə müəllimin dərsdə fiziki aktivliyini ifadə edir.

Təşkilatçı olaraq, müəllimin fəaliyyəti təşəbbüs, bacarıq, hər şeyi yaradıcı qaydada həyata keçirmək istəyini özündə ehtiva edir.

Fəaliyyətin stimulverici olduğunu bilmək vacibdir, çünki o, insanları cəlb edir, stimullaşdırır, öz arxasınca aparır, əminlik hissi yaradır.

4. Müəllimin əzmkarlığı onun iradəsinin təzahürüdür, müəyyən bir tapşırığı həll etmək və həlli yollarının düzgünlüyünü bilməkdir.

Dözümlülük, təlimin təşkil edilməsi üçün vacib olan təminatdır.Tələbkarlıq işarə, təklif, istək, göstəriş, əmr, zarafat və ya sual şəklində təqdim edilə bilər. Təşkilatçı bütün bu xüsusiyyətlərə sahib olmalı və onu açıq şəkildə ifadə etməyi bacarmalıdır.

5. Təlimin təşkilinə aid olan müstəqillik - özünü itirməmək, çətin vəziyyətlərdə öz hisslərinə nəzarət etmək, şagirdlərin istənilən "təşviqinə" nəzər yetirmədən, müəllimin öz qərarında durması kimi başa düşülür.

6. Müşahidəçilik.

Bunu qeyri-ixtiyari, təsadüfi vəziyyəti, davranışları, əhval-ruhiyyəni və s. detalları nəzərə almadan, yadda saxlamadan və qiymətləndirməyi bacarmadan təşkil etmək qeyri-mümkündür. Xüsusilə müəllim ünsiyyət qurmağı öyrətdikdə bu çətin olur.

Müşahidə psixoloji seçicilik, yəni əksər insanların psixoloji obyektlərə daha çox diqqətini cəlb etmək, daha yaxşı yadda saxlamaq və dərindən başa düşmək qabiliyyətinə əsaslanır. Bu insanlar həyatda psixi vəziyyətləri təhlil etmək, başqa birinin yerində özlərini təsəvvür etmək, onlarla birlikdə həyəcan keçirməyə qadir olurlar.

L.İ. Umanski və A.N. Lutoşkin yazır: "Əgər siz insanları anlayır və ya başa düşürsünüzsə, onları hiss edirsinizsə, onlara və ümumi işə görə ürəyiniz ağrıyırsa, yəni, müsbət psixoloji təsir gücünüz varsa o zaman sizin üçün insanları maraqlandırmaq, cəlb etmək, doğru dəyərləndirmək və yalnız düzgün təsir üsulu seçmək, psixoloji baxımdan təsir göstərmək daha asan olur”[8,s. 49] .

7. Təşkilatçılıq.

Müəllimin işinin mürəkkəbliyi hər kəsə məlumdur. Müəllimin təşkilatçılığı yüksək olmalıdır. Bu şərtlərdə təşkilatçı özü yüksək səviyyədə olmalıdır.

8. Tənqidi münasibət.

Bunun üçün öyrənmək və şagird psixologiyasını yaxşı bilmək, eləcə də tənqid olunanın şəxsiyyətindəki çatışmazlıqları görmək qabiliyyətinə malik olmaq, dostluq formasını tapmaq lazımdır.

Bu xüsusiyyətləri yaratmaq üçün üç şərt lazımdır:

1) idarəetmə barədə elmi biliklər;

2) praktiki təşkilati iş

3) şəxsin iradəsi, istəyi, arzusu.

Müəllim bi təşkilatçı olaraq, zəruri xüsusiyyətlərə malik olduğu zaman L.İ. Umanskinin və A.N. Lutoşkinin ifadəsinə əsasən, "Psixoloji əlaqələrin görünməz ipləri atılan və çıxarılan mərkəz" hesab edilir [8, s.11].

Hesab edirik ki, müvəffəqiyyət müəllimin işi təşkil etmək qabiliyyətindən asılıdır. Buna görə də heç bir şeyə laqeyd qalmaq olmaz. Tədris zamanı hər şeyi nəzərə almaq lazımdır.

Ədəbiyyat

1. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003, 280s.
2. Hüseynzadə G.C. Xarici dillərin tədrisində islahatların tətbiqi: Müəllim-yönümlü tədrisdən tələbəyönümlü tədrisə keçid / "Elm" ilinə həsr olunmuş Xarici dillərin tədrisinin aktual problemləri. II Respublika elmi konfransının materialları. Bakı: ADU, 2009, s.220-226.
3. Kərimov F. Şifahi nitqin inkişafı yolları. Bakı, 2002, 139 s.

İngilis dilində

4. Hyland K. "Developing Oral Presentation Skills", English Teaching Forum, 29, 2, 1991, pp. 35-76.
5. Jenkins J. "Native Speaker, Non-Native Speaker, & English as a Foreign Language: Time for a Change: IATEFL. Newsletter 13,2001, pp.10-11.
6. Krashen S.D. Explorations in Language Acquisition. Heinemann, 2003, 93p.
7. Little, D.Learner Autonomy, Dublin: Authentic Language Learning Resources., 1991, pp.15-23.
8. Nunan, D. (ed) Collaborative Language Learning, and Teaching Cambridge: Cambridge University Press.1992, 210 p.

H. Agayeva

Phsycological basis of developing oral speech in junior stages at schools
(on the basis of English materials)

Summary

The article deals with the problem of working out effective ways of developing oral speech in junior stages at schools in ELT. It is obvious that today any language, especially the global language should be taught for communicative purposes . Adequately, teaching all the skills and used methods , should be integrated into the process of developing language learning students communicative competence. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is

also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. Language learners are often too embarrassed or shy to say anything when they do not understand another speaker or when they realize that a conversation partner has not understood them. Instructors can help students in their teaching materials overcome this reticence by assuring them that misunderstanding and the need for clarification can occur in any type of interaction, whatever the participants' language skill levels. Instructors can also give students strategies and phrases to use for clarification and comprehension check. By encouraging students to use clarification phrases in class when misunderstanding occurs and by responding positively when they do, instructors can create an authentic practice environment within the classroom itself. As they develop control of various clarification strategies, students will gain confidence in their ability to manage the various communication situations that they may encounter outside the classroom.

Key words: communication, psychology, method, technology, speech

Х. Агаева

Психологические основы в формировании устной речью в младших классах средней школы (на основе материалов английского языка)

Резюме

В данной статье рассматриваются психологические основы в формировании устной речью в младших классах средней школы на преподавании английского языка. Очевидно, что сегодня любой язык, и в особенности глобальный язык должен обучаться в коммуникативных целях. Соответственно, все умения и использованные методы, должны быть и интегрированы в процесс формирования коммуникативной компетенции.

Азербайджан обрел статус независимого государства, и его всесторонние связи развиваются и укрепляются. Сегодня в нашей стране существует настоятельная потребность в изучении иностранных языков. Английский язык стал одним из основных предметов, преподаваемых в средней школе и высших учебных заведениях. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение английским языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами.

Здесь мы должны говорить о компетенции. Речевую коммуникацию понимают как ряд систематических речевых актов, совершаемых для достижения определенных целей. Обучаемые должны понимать цель речевой коммуникации и знать пути достижения этой цели посредством использования лингвистических средств. Учитель должен должен знать, в каких целях они изучают иностранный язык, с тем, чтобы разрабатывать наиболее оптимальные методы, способствующие достижению этих целей.

Коммуникативное преподавание языка предполагает обучение языку в определенном контексте для обмена мыслями. Наиболее эффективным путем формирования речевой компетенции обучаемых является систематическое сочетание основных компонентов языка (произношение, лексическая система и структура), когда контекст обеспечивается темами и ситуациями, а структура усваивается исключительно в функциональных целях.

Речевая коммуникация – это не просто действие. Она функциональна, целенаправленна и предназначена для того, чтобы оказывать определенное воздействие на слушателей и говорящих. Очень часто изучающие язык усваивают синтаксис, порядок слов в предложениях и лексические единицы, однако не знают, как можно достигнуть целей речевой коммуникации.

Ключевые слова: коммуникация, психология, метод, технология, речь

Redaksiyaya daxil olma tarixi: 20.10.2019
Çapa qəbul olunma tarixi: 01.01.2020
Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

KÖNÜL NƏCƏFOVA
ADPU

e-mail: najafova.konul1982@gmail.com

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FELI TƏRKİBLİ SADƏ NƏQLİ CÜMLƏLƏRİN STRUKTUR-SEMANTİK VƏ İNTONASİYA XÜSUSİYYƏTLƏRİ

Xülasə

Dil quruluşu dedikdə, adətən sistemin ünsürləri arasındakı əlaqələr məcmusu anlaşılır. Dil sistemi deyərkən isə biz dil vahidlərinin bir-birilə qarşılıqlı əlaqədə yaratdıqları mütəşəkkil, vahid bir bütöv, dil quruluşu adı altında isə həmin vahidlərin qarşılıqlı əlaqələrinin toplusunu başa düşürük. İnsanlar arasında ünsiyyət prosesinə xidmət edən dil leksik-qrammatik vasitələr öz əksini səslənən (canlı) nitqdə tapır. Fonetik ünsürlər prinsipcə leksik-qrammatik vasitələrdən fərqlənir, lakin onlar canlı nitqdə həmin vasitələrin mənalarının səsləndiricisi rolunu oynayır. Hər bir cümlə nitqin kontekstual vəziyyəti ilə bağlı olur. Kontekstdən xaricdə götürülmüş cümlənin intonasiyası həmin cümlənin birinci növbədə daxili üzvlərinə bölünməsini təmin edir. Bu üzvlərin söz birləşmələri, tərkiblər və s. şəklində formalaşması xüsusən budaq cümlə ilə tərkiblərin fərqləndirilməsində intonasiya mühüm rol oynayır, müxtəlif qrammatik, sintaktik-semantik əlaqələrin nəzərə çarpdırılmasına kömək edir. Qeyd edək ki, mürəkkəbləşməni sadə cümlədən fərqləndirən əsas amil heç də ifadə olunan fikrin mürəkkəbliyi, çoxşaxəliliyi deyil, struktur quruluş mürəkkəbliyidir. Belə ki, eyni informasiya mürəkkəb cümlədə və sadə cümlədə verilə bilər, xırda çalarla olsa da onların informativ çəkisi demək olar ki, eyni olur. Mürəkkəb cümlənin sadə cümlə ilə ifadəsi bir tərəfdən üslubi məqamla bağlıdır, digər tərəfdən nitqin emosional, ekspressiv təsir gücünü, daha doğrusu, müəyyən anlamları, o cümlədən zaman, məkan, şərt və s. məntiqi kateqoriyaların ifadəliliyini ya artırır, ya da azaldır. Müasir Azərbaycan və ingilis dillərində bu və ya digər cümlə üzvlərinin tema kimi çıxış etməsində, müəyyən məna çalarlarının verilməsində məqsəddən asılı olaraq, müxtəlif mövqeyə malik olması onların intonasiya xüsusiyyətlərində özünü göstərir. Müasir dilçilikdə müxtəlif cümlə tiplərinin, habelə sintaqm təşkil edə bilən cümlə üzvlərinin, intonasiya cəhətdən tədqiqi məsələsi hələ də aktual sayılır. Bu mənada feli bağlama tərkibli sadə nəqli cümlələrin intonasiya-qrammatık cəhətdən təhlili maraq doğurur. Feli bağlama tərkibi ilə genişlənmiş sadə nəqli cümlələrin intonasiya xüsusiyyətlərinə S.Babayev özünün namizədlik dissertasiyasını həsr etmişdir.

Açar sözlər: feli sifət, intonasiya, ton

Feli bağlama tərkibləri söz birləşmələrinin bir növü kimi nitqimizdə mühüm yer tutur. Hər hansı bir dil materialına nəzər salsaq, orada müəyyən qədər feli bağlama tər-

kiblərinin işləndiyini görərik. Müasir Azərbaycan dilində feli bağlama tərkibləri, ingilis dilində onlara müvafiq feli-sifət və cerund tərkiblərinin bir sıra sözlərdən ibarət olması, bu sözlər arasında məna və qrammatik əlaqələrin mövcudluğu, tərkibdəki ayrı-ayrı sözlərin müstəqil məna daşımaları və sintaktik vəziyyətlərinə görə fərqlənmələri göstərir ki, bu tərkiblər maraqlı quruluşa malikdir. Onların müxtəlif məna növləri içərisində özünü daha kəskin büruzə verəni və feli bağlama tərkibləri mənasının əsas mahiyyətini təşkil edəni onların nisbi zaman anlayışı ifadə etməsidir.

Müxtəlif semantik sıçrayışlar kommunikativ cəhətdən müxtəlif tipik quruluşa malik cümlələr onların müxtəlif forma və növlərinin əmələ gəlməsinə səbəb olur. Müasir Azərbaycan dilində feli bağlama tərkibləri cümlənin əvvəlində, ortasında gələrək, özlərinə məxsus melodik rəngarəngliyə malik olurlar. Cümlənin sonunda gələn feli bağlama tərkiblərinə isə biz poeziyada rast gələ bilərik. İngilis dilində isə müvafiq tərkiblər həm cümlənin əvvəlində, ortasında və sonunda gələ bilir. Müasir Azərbaycan dilində cümlənin əvvəlində gələn feli bağlama tərkibinə nəzər salaq:

«Səməndər də oxumağın daşını atıb, filarmoniyada işə düzəldi»

Yeri gəlmişkən qeyd edək ki, tərkib daxilində dinləyici və ya oxucunun nəzəri aktuallaşan «Səməndər də» komponentinə cəlb olunmuşdur, da/də elementi vasitəsilə "Səməndər" sözü cümlənin nüvə sözünə çevrilir və təəssüf məna çaları yaradır. Aksent nüvəsi bu remanın üzərinə düşür və alçalan terminal tonla səciyyələnir. Alınan nəticələrə əsasən deyə bilərik ki, hər iki dildə cümlənin əvvəlində gələn feli bağlama tərkiblərinin melodik vasitəsi çox ifadəli şəkildə özünü göstərir ki, bu da onların xüsusiləşmələrinə və sintaqm kimi ayrılmalarına kömək edir. Başlanğıc mövqeyində ya bu tərkiblərdə ifadə olunan hal və hərəkət mühüm bir əhəmiyyət kəsb edir, ya tərkibindəki sözlərdən biri və ya bir neçəsi məntiqi vurğu daşıyır, geniş bir fikri ifadə edir.Əsas səs tonunun kəskin qalxması həmin sintaqmların sonunda onların bütöv cümlənin tərkibində ayrılma vasitəsi olur.*«Orxan qızın rəsmini çəkib özündə saxladı».*

"Having sealed and posted this letter, he went into the dining-room". (Bu məktubu möhürlədəndən və yola salandan sonra , o qonaq otağına getdi .)[5,227]

«Leaning over his window, he saw her riding forth with Val». (Pəncərəyə tərəf əyilərək ,o onu Valla irəli çapan gördü.)[8,57]

Bu cümlədə feli sifət tərkibi cümlənini əvvəlində gələrək çox ifadəli şəkildə özünü göstərir. Xüsusiləşərək, ayrıca sintaqm təşkil edir. Aşağıdakı feli sifət tərkibi bəzən ara söz kimi də işlənir.

«Generally speaking, she is not an honest woman».(Ümumilikdə ,o vicdanlı qadın deyil .)

Təhlillər göstərir ki, bu zaman onlar ayrıca sintaqm təşkil edərək, qalxan tonla hüdudlanırlar. Adətən vurğulu olurlar. Bununla yanaşı onların ritmikası mənalarından

asılı olaraq, enən və qalxan tonlu olur. Danışıq tempinin sürətli, əsas səs tonunun intensivlik cəhətdən güclü olması ilə seçilirlər.

«They separated, crying quietly». (Onlar sakitcə ağlayaraq,ayrıldılar .)Burada da cümlənin sonunda gələn feli tərkib ayrıca sintaqm əmələ gətirmiş və eyni zamanlılıq cümlənin xəbərində özünü biruzə verir.

Onu da qeyd edək ki, müasir ingilis dilində xüsusiləşmiş cümlə üzvlərinin cümlənin əsas hissəsindən ayrılmasında vergül mühüm rol oynayır. Belə ki, xüsusiləşmiş cümlə üzvləri cümlənin başında durduqda vergül işarəsi ondan sonra, ortada gəldikdə hər iki tərəfdən axırda gəldikdə ondan əvvəl qoyulur. Bu da onların sintaqm kimi ayrılmalarının göstəricisi kimi səciyyələnə bilir.

Ədəbiyyat

Azərbaycan dilində

1. Veysəlli F. Y. German dilçiliyinə giriş Bakı : Mütərcim, 2001, 289 s.
2. Məmmədov A. Mətn yaradılmasında formal əlaqə vasitələrinin sistemi.(Müqayisəli təhlil təcrübəsi) Bakı: FZM-2001,144 s.

rus dilində

3. Арнольд И.В. Стилистика современного английского языка. М. 1990. 500 с.

ingilis dilində

4. Lakoff C., George P. Cognitive Scientist Looks at Daubert. American Journal of Public health / Supplement 1, 2005, Vol. 95, No 1, pp.22-24

İstifadə olunmuş mənbələr

5. John Galsworthy. “The Forsyte Saga “. In chancery Book: II Progress,1987, 303p.
6. Jane Austen .” Pride and Prejudice”. Oxfotd University Press, 1998, 108 p.
7. Kurban Said.” Ali and Nino”, 2003, 234p.
8. Making it all right. Modern English Stories. M: Прогресс, 1978, 478 p.

K. Najafova

The structural-semantic and intonative characteristics of simple declarative sentences with participials in Azerbaijani and English languages

Summary

This article is devoted to the intonational-qrammatical characteristics of simple declarative sentences with participials in Azerbaijan and English languages.While analyzing these sentences great attention was given to the linguistic facts taken from the experimental analyses. One of the important goals of the article is to defect and

find out –their intonational use in different positions. The author emphasizes its role in Linguistics. Since its emergence this notion caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly and use the language more competently. Perhaps the most remarkable aspect of human language is the range of purposes it served, the variety of different things that people make language do for them. Casual interaction in home and family, instruction of children, activities of production and distribution like building and marketing and more specialized functions such as those of religion, literature, law and government - all these may readily be covered by one person on one day's talk. We can define a `developed' language as one that is used freely in all the functions that language serves in the society in question. Correspondingly an `undeveloped' language would be one that serves only some of these functions, but not all. This is to interpret language development as a functional concept, one which related to the role of a language in the society in which it is spoken. They are, of course, perfectly well aware that English is used in al these functions in Britain, the USA and elsewhere. But they cannot accept that the homely English that they themselves speak (although dialectally it is of quite `standard' type that is readily understood by speakers from outside) is the same language as English in its national or international guise.In the same way, English in medieval England was not a developed language, since many of the social functions of language in the community could be performed only in Latin or in French.Not unnaturally, the members of a society tend to attach social value to their languages according to the degree of their development. A language that is `developed', being used in all the functions that language serves in the society, tends to have a higher status, while an undeveloped language is accorded a much lower standing, even by those who speak it as their mother tongue.

Key words: participials, intonation, tone

К. Наджафова

Структурные –семантические и интонационные характеристики простых повествовательных предложений с причастиями в Азербайджанском и английском языках

Резюме

Статья посвящена о преподавании интонационно-грамматические особенности простых повествовательных предложений с причастиями в Азербайджанском и английском языках . Один из важнейших цель раскрывать их интонационное употребление в разных позициях. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Ссылаясь на работы ученых исследовавших, автор также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл текстов во время анализа еще более ясно, а также более

разнообразном колорите. В процессе обучения студентов навыкам речевого общения на изучаемом языке важную роль играют ситуативные упражнения, суть которых заключается в свободной, творческой речевой реакции студентов на комплекс воображаемых или условно-реальных обстоятельств, содержащих некоторую трудность, проблему или конфликт и вовлекающих студентов в предполагаемые проблемные ситуации в целях поиска возможных, наиболее рациональных путей их разрешения. Выполнение на уроках домашнего чтения условно-коммуникативных и подлинно-коммуникативных упражнений содействует вовлечению студентов в процесс устного речевого общения в качестве активных, инизиактивных и заинтересованных его участников. В процессе выполнения речевых упражнений предполагается обсуждение различных тем, связанных с изучаемым текстовым материалом и реальными событиями, происходящими в нашей стране и за ее пределами. Повторение одних и тех же речевых структур обеспечивает закрепление сформированных ранее языковых и речевых навыков, а также содействует формированию высокоавтоматизированных навыков владения языковым и речевым материалом. Именно высокая степень автоматизированности и использования усвоенного языкового и речевого материала является одним из условий успешной речевой коммуникации, включая речевое общение на высоком уровне.

Ключевые слова:причастие, интонация, тон

Məqalənin redaksiyaya daxil olma tarixi: 04.10.2019
Çapa hazırlnma tarixi:23.01.2020
Filologiya elmləri doktoru Nuriyyə Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

NİGAR BAYRAMOVA
Bakı Slavyan Universiteti
S.Rüstəm 33
nigar.namazova@list.ru

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ HÜQUQ TERMİNLƏRİNİN SİNONİMLİYİ

Xülasə

Terminlərin əsas xüsusiyyətlərindən biri kimi təkmənalılıq və sinonimliyin olmamasını qeyd etsələr də, əslində bir çox hallarda biz bunun əksini müşahidə edirik. Sinonimiya müasir terminologiyanın mürəkkəb məsələlərindən biri hesab olunur. Bir semantik hadisə kimi terminologiya formalaşmanın müxtəlif mənbələri ilə, əmələ gəlmənin müxtəlif üsulları ilə bağlı olan özünəməxsus xüsusiyyətlərə malikdir. Tədqiqatlar göstərir ki, ingilis və Azərbaycan hüquq terminoloji sistemlərinin erkən inkişaf mərhələlərində *sinonimiya* dilin təbii hadisəsi hesab olunurdu. Müasir terminologiya üçün sinonimiya problemi çox aktualdır, çünki sinonimlər qanunvericilik aktları çərçivəsində aydınlıq, birmənalılıq və dəqiqliyə xələl gətirir. Bu da hüquq terminologiyasının nizamsızlığı və vahid şəkildə olmamasına dəlalət edir. Terminologiyada sinomimliyin varlığı adətən eyni obyektə müxtəlif yanaşmanın, eyni prossesual hadisələrin müxtəlif cür dərk edilməsinin nəticəsidir. Hüquq terminləri sistemində sinonim və sinonimik konstruksiyaların səciyyəvi hal olmasını alimlər terminlərin müxtəlif hüquqi diskurslarda işlənməsi ilə izah edir. Hüquqi sahədə sinonimlərin istifadəsi həyatda "bütün variantları" nəzərdə tutmaq məqsədilə şərtlənir. Məqalədə hüquq terminologiyasında işlənən *nisbi və tam* sinonimlər nəzərdən keçirilir. Ingilis dilindən fərqli olaraq bizim dildə əsli sinonimlər yoxdur. Məqalədə həmçinin *eyniköklü sinonim*-terminləri və müxtəlif köklü sinonimlərə aid misallar gətirilir. Quruluşca mürəkkəb sinonimlər; qarışıq (sadə/düzəltmə/mürəkkəb) sinonimlərin təsnifi də qeyd edilir. Ingilis dilinin hüquq terminologiyasında *müxtəlifköklü* sinonimlər çoxluq təşkil edir. Azərbaycan dilində isə *müxtəlifköklü* və *düzəltmə* sinonimləri çoxluq təşkil edir. Hüquq terminologiyasında sinonimlik hüquqi anlayışların müəyyən yaranma mərhələsində meydana çıxır. Bu zaman hüquqi anlayışlara dəqiq definisiya veriləndə sinonimlikdən əsər-əlamət qalmır. Müəllif müxtəlif elmi mənbələrə müraciət etmişdir. Bununla da, mövzunu əhatəli şəkildə qoymağa müvəffəq olmuşdur. Ümumiyyətlə, mövzu aktualdır, nəzəri və praktik əhəmiyyəti var.

Açar sözlər: hüquq terminləri, leksik-semantik səciyyə, sinonimlik, nisbi və tam sinonimlər

Terminlərin əsas xüsusiyyətlərindən biri kimi təkmənalılıq və sinonimliyin olmamasını qeyd etsələr də, əslində bir çox hallarda biz bunun əksini müşahidə edirik. Məsələn: *individual – person*; *to own – to posses* (sahib olmaq); *deposit – investment*; Azərbaycan dilində: *şəxsiyyət – şəxs, adam*; *advokat – vəkil; fərman - əmir*; *diqqət-etina; vəsatət qaldırmaq – məsələ qaldırmaq; sübut - dəlil*.

Sinonimiya müasir terminologiyanın mürəkkəb məsələlərindən biri hesab olunur və bir semantik hadisə kimi terminologiyada formalaşmanın müxtəlif mənbələri ilə, əmələ gəlmənin müxtəlif üsulları ilə bağlı olan özünəməxsus xüsusiyyətlərə malikdir.

Tədqiqatlar göstərir ki, ingilis və Azərbaycan hüquq terminoloji sistemlərinin erkən inkişaf mərhələlərində *sinonimiya* dilin təbii hadisəsi hesab olunurdusa, müasir terminologiya üçün sinonimiya problemi çox aktualdır, çünki sinonimlər qanunvericilik aktları çərçivəsində aydınlıq, birmənalılıq və dəqiqliyə xələl gətirir, bu da hüquq terminologiyasının nizamsızlığı və vahid şəkildə olmamasına dəlalət edir.

Terminologiyada sinomimliyin varlığı adətən eyni obyektə müxtəlif yanaşmanın, eyni prossesual hadisələrin müxtəlif cür dərk edilməsinin nəticəsidir.

Hüquq terminləri sistemində sinonim və sinonimik konstruksiyaların səciyyəvi hal olmasını T. Uskova terminlərin müxtəlif hüquqi diskurslarda işlənməsi ilə izah edir [6, 7]. "Hüquqi sahədə sinonimlərin istifadəsi həyatda "bütün variantları" nəzərdə tutmaq məqsədilə şərtlənir. Buna baxmayaraq, hüquqi sahədə sabitləşmiş ifadələr var ki, onlarda tam sinonimlik müşahidə olunur: *to tell the truth, the whole truth and nothing but the truth. Null and void* (qanuni qüvvəsi olmayan)" [6, 15]. Və ya termin-sabit söz birləşmələrində ümumi mənanın dəyişməsinə gətirməyən komponentlərin sinonimik əvəzlənməsi: *to put forward* / *to raise a claim* – iddia irəli sürmək; *to lay claim to smth./ to put smth. in a claim* - nəsəyə hüquq təqdim etmək/ nəyəsə tələb (iddia) qoymaq.

Hüquq terminologiyasında *nisbi və tam sinonimləri* qeyd etmək olar.

Tam sinonimlər, ilk növbədə, öz mənşəyinə görə fərqlənir: əsli və alınma sinonimlər. Latın və fransız dillərinin güclü təsiri nəticəsində bu dillərdən olan alınmalar və ingilis dilinin özündə olan terminlər eyni anlayışı ifadə etdikləri üçün dublet olurlar: *paternity - fatherhood, dolus malus - malice, delict - tort, place of residence - habitat, crime – offence, individual – person* (şəxsiyyət); *border-frontier* (sərhəd); *to own – to possess* (malik olmaq, sahib olmaq).

Process, procedure, proceeding, trial, action, suit sinonim olan terminlər "məhkəmə prosesi" mənasını bildirir, lüğəvi definisiyalarda bu sözləri birləşdirən ümumi semantik komponent – "*proceeding, process"dir.*

Belə ki, "*proceeding(s)* - the process of using a court of law to settle a dispute or to deal with a complaint: bankruptcy/divorce/extradition proceedings" [7, 208];

"*procedure* - judicial proceeding, mode of conducting legal action*"* [7, 208]; "*process* - A summons in writing to compel the appearance or response of a person before a court; the proceedings in a civil or a criminal case; the procedure by which a disobedient or recalcitrant defendant is made to plead. 2 Patent law, the method used to produce a thing or result [7, 208]; "*trial* - A formal judicial examination of issues of law or fact between parties by a court with jurisdiction in such cases. 2. A formal adversarial proceeding to hear evidence and decide legal issues and claims. Trials are covered by established rules of courtroom *procedure* as well as rules of evidence" [7, 261]; "*action* - Any behavior, conduct, or series of acts by a person. 2. A civil or criminal judicial proceeding intended to resolve a legal dispute, claim, or accusation" [7, 11]. "Suit n. Any proceeding brought by one or more parties against another one or more parties in a court of law. See also action/civil action" [7, 247]. *Legal process = legal procedure = legal proceeding* kimi terminlərin oxşar mənalarını ümumi semantik komponent – "*proceeding, process"* - birləşdirir. Yuxarıda qeyd olunan bütün terminlər bir-birini asanlıqla əvəz edir və mənaları tam həcmdə bir-birinə uyğun gəlir, yəni oxşarlıq dərəcəsinə görə *tam sinonimlərdir*, *action* və *suit* terminləri istisnadır, çoxmənalı olduqları yalnız "məhkəmə prosesi" mənasında bu sinonim cərgəsinə daxildir, yəni təkcə bir məna ilə yaxındır. "*Action* termini hal-hazırda "*lawsuit/claim*" – "iddia" mənasını da ifadə edir ki, bu da *civil action* termininə sinonimdir, *suit* termini isə "*civil action*" mənasında *lawsuit* terminin semantik tərkibinə daxildir" [5, 10]. Beləliklə, *action* və *suit* terminləri də ümumi semantik komponentə malik olduqları üçün "mülki iddia" mənasında tam sinonimlərdir.

Azərbaycan dilində ərəb, fars və Avropa mənşəli terminlər dublet yarada bilir: *müsadirə - həcz* (nisbətən köhnəlmiş termin); *xətm – xitam*; *xətm etmək (eləmək) – xitam vermək; etiraz – protest*; *imtiyaz – privilegiya* (lat.); *ünvan* (ərəb) - *adres* (Avropa mənşəli), *analiz* (Avropa mənşəli) - *təhlil* (ərəb), *arqument* (Avropa mənşəli) - *dəlil - sübut* (ərəb); *dezertir - fərari; təsdiq(edilmə) – ratifikasiya; saziş – müqavilə; vəkil - advokat; müzakirə-diskussiya; fərman - əmr; iddia - tələb; dekret – qərar; apellyasiya – şikayət.* "Bəzi ərəb və fars sözlərinə Azərbaycan ekvivalentləri olmadığı halda, onlar rus terminləri ilə verilir, məsələn: *nəfəqə – aliment, etiraz – protest, ünvan – adres*" [4, s.3]. Bu tendensiya zaman getdikcə azalır.

Bundan başqa, alınma hüquq terminləri Azərbaycan mənşəli terminlərlə də sinonimlik təşkil edir. Məsələn, *satqınlıq – xəyanətkarlıq*; *quldurluq – banditizm*; *sülh – barış, ittifaq – birlik, səfir – elçi; toqquşma- ixtilaf, mübahisə, münaqişə* və s. [1, 107]; *əxlaqsızlıq(ər. və Azərb.) – pozğunluq; dustaq – məhbus (ər.); fərari – qaçqın; birincilik - prioritet*.

Ikincisi, eynimənalılıq dilin öz terminləri əsasında formalaşır: *pledger- pledgor* (girov qoyan); *arbiter –arbitrator* (arbitr, münsif), *analyser – analyst* (analitik), *female offender - offendress, old offender- repeat offender* və s.; *adil - ədalətli* (hər ikisi ərəb mənşəli), *cani* (ərəb) - *cinayətkar* (ərəb), *cəza* (ərəb) - *tənbeh* (ərəb), *dairə* (ərəb) - *idarə* (ərəb) və s. Ingilis dilindən fərqli olaraq bizim dildə əsli sinonimlər

(yəni sinonim təşkil edən iki terminin Azərbaycan mənşəli olması hadisəsi), demək olar ki, yoxdur. İstisna: *quldurluq – soyğunçuluq-basqın – oğurluq; əlbir -əlbirlik.*

Nisbi (və ya xüsusi) sinonimlərin məna nüvəsi eyni, qalan periferiya mənalarının komponentləri isə fərqli olur. Nisbi sinonimlər həm ingilis, həm də Azərbaycan hüquq terminologiyasında fəal işlənir. Məsələn: *deposit* (bankda olan əmanət) və *investment* (kapital qoyuluşu); *catastrophe* (fəlakət) – *accident* (bədbəxt hadisə); *crash* (avtomobil qəzası) – *wreek* (dəmiryolunda və dənizdəki qəza); *clicats* (müştərilər) – *customents* (alıcılar); *reason* (səbəb, əsas) – *motive* (əsas, meyl və s.); to *marriage* - *to betroth* (evlənmək/nigaha girmək - nigah müqaviləsini imzalamaq).

Bir qayda olaraq, çoxmənalı sözlər yalnız mənaların biri ilə nisbi sinonim qismində çıxış edə bilir: *actor - complainant — informer — libellant - suitor* terminləri təkcə bir mənada – "iddiaçı" mənasında bir-birinə sinonim olacaq. İstənilən kontekstdə bu terminlər bir-birini tam həcmdə əvəz edə bilmir, ona görə də həmin terminlər nisbi və ya natamam sinonimlərdir. Eləcə də Azərbaycan dilində, məsələn, "*həbs*" termininin ikinci mənası "hökumət orqanının qərarına əsasən hər hansı bir şəxsin və ya təşkilatın mal-mülkünün əlindən alınması" olduğu üçün *müsadirə* termini ilə nisbi sinonim olacaq.

Nisbi sinonimliyə aşağıdakı misalı da aid etmək olar. İngilis dilində müdafiəçini, vəkillik peşəsinin müxtəlif tərəflərini bildirmək üçün təkcə '*lawyer'* terminindən deyil, həmçinin:

attorney – "vəkil edilmiş (məhkəmədə), inanılmış, etibar edilmiş; hüquqşünas; prokuror" [2, s. 75];

barrister – ali məhkəmələrdə iştirak etmək hüququ olan vəkil [2, 86], *solicitor* – məhkəmə nəzarətçisi; barrister üçün işləri hazırlayır; şirkətlərə məsləhət verən vəkil; aşağı məhkəmələrdə iştirak etmək hüququ olan vəkil; *counsel* - yuriskonsult, hüquq konsultantı, hüquq məsləhətçisi;

counsellor – məsləhətçi, vəkil (xüsusən, İrlandiya və ABŞ-da); hüquq məsləhəti verən barrister [2, 159],

advocate – yüksək dərəcəli vəkil, müdafiəçi; v. müdafiə etmək (məhkəmədə), təbliğ etmək; məsləhətçi, müşavir – kimi sözlərdən istifadə edirlər.

Azərbaycan dilində *nisbi* sinonimlər: *bəraət - məhkəmə qərarı*; *depozit – investisiya*; *fərari- qaçqın*; *gömrüksüz-rüsümsuz; zəbt-işğal; gömrük-rüsüm; vergi- rüsüm; dindirmə -istintaq etmə, təqsir – günah; vəkil-müdafiəçi -hüquqşünas*.

Sinonimlik eyni anlayışı müxtəlif konstruktiv formalarla (sintaktik üsulla və morfoloji əlamətlərlə) ifadə etməklə yaranır [3, s.27].

Ingilis və Azərbaycan dilinin hüquq terminologiyasında quruluşuna görə sinonimlərin 4 növü fərqləndirilir: eyniköklü; müxtəlif köklü, mürəkkəb, qarışıq (sadə/düzəltmə). Ingilis dilinin hüquq terminologiyasında *müxtəlifköklü* sinonimlər (60%), Azərbaycan dilində isə *müxtəlifköklü* və *düzəltmə* sinonimləri çoxluq təşkil edir.

İngilis dilinin *eyniköklü sinonim*-terminləri: *appellant - appellator* (apellyasiya üzrə iddiaçı); *pledger- pledgor* (girov qoyan); *arbiter –arbitrator* (arbitr, münsif), *analyser – analyst* (analitik), *bribe- bribery* (rüşvət, pay); *prejudiced - prejudicial jury* (yanlış fikirə gəlmiş andlılar), *confirmatory evidence = confirming evidence* (sübutu təsdiqləyən) və s.; Azərbaycan dilində: *xəyanət- xəyanətkarlıq*; *günəmuzd – gündəlik; idarəçilik- idarə* (etmə); *icarədar – icarəçi*; *şəxsiyyət – şəxs, hüquqşünas - hüquqçu*; *millətçilik- millətpərəstlik; seçilmə - seçmə; tabelik- tabeçilik* və s.;

müxtəlif köklü sinonimlər: *plaintiff – claimant* (iddiaçı); *killer- murderer* (qatil); *to defend – to protect* (müdafiə etmək); *oath – affidavit- affirmation*; *evidence – testimony (*şahidlik ifadəsi*); order -writ* (*məhkəmə əmri*); Azərbaycan dilində: *ədliyyə-hüquq*; *təqsirləndirmə - günahlandırma; təqsirkar – günahkar*; *təqsir – günah*; *əmlak – mülk*; *özbaşına - icazəsiz*, *dustaq – məhbus; tutma- həbs; qatil-cani; xahiş - ərizə*; *avtoritet – nüfuz – təsir; münaqişə- konflikt; satqın – xain; iştirakçılıq* - ortaqlıq, şəriklik və s.;

mürəkkəb sinonimlər: *counter-action = counter-claim* (həmiddiaçı – həmcavabdeh) [5, 11], *cross-action = cross-claim* (qarşılıqlı iddia/tələb) [5, 11], *law charges- law costs - law expenses* (məhkəmə xərcləri, məsarifi); *act of execution, court order (*icra vərəqi*); high treason - betrayal of state* (dövlətə xəyanət); *successful party = prevailing party* (işi udan tərəf) [5, 11], *court case = legal case = litigation case* (məhkəmə işi), *unbiased jury = unprejudiced jury* (qabaqcadan yanlış fikirdə olmayan andlı iclasçılar), *defeated party = unsuccessful party* (uduzan tərəf) [5, 10-11], *action of book account = action of book debt* (kontokorrent üçün borcun alınması haqqında iddia), Azərbaycan dilində: *vəsatət qaldırmaq – məsələ qaldırmaq; müdafiə etmək – tərəfini saxlamaq/tutmaq*; *həbs etmək – dustaq etmək*; *tətil etmək – qəti etiraz etmək*; *öz qüvvəsini itirmək – gücünü itirmək – gücdən düşmək - hökmdən düşmək;*

qarışıq (sadə/düzəltmə/mürəkkəb) sinonimlər: *leaseholder – holder of the lease (icarədar, icarəyə göturən /icaraçi, kiraçi; dustaq – həbs etmə)*; *Piracy- infringement; Hijack* v. To take over control of a vehicle or airplane by use of the threat of force - *air piracy- carjacking* [7, p. 151, 21 and p.62]; *feigned - fictitious action* (yalan/uydurma iddia) [5, 11], *hornbook - black letter law; binding authority – precedent; blackmail – extortion; blue sky law - securities acts* [7, p. 50 -51]. "Hüquq terminologiyasında eyni anlayışı həm adi söz, həm də mürəkkəb söz/söz birləşmə formalarında ifadə edən (əslində bunun praktikada özünü doğrultmadığı məlumdur) terminlər çoxdur" [1, 107]. Məsələn, yuxarıda göstərilən misallarda və ya Azərbaycan dilində: *ittihamnamə - ittiham vərəqəsi; müntəzərrir – zərər çəkmiş; təqsirləndirmə - günahlandırma – ittihametmə; etiraz- imtina- boyunqaçırma; imtiyaz – seçki hüququ/səs hüququ; tanıma- tanınma- etiraf etmə; malsız - əmtəəsiz, mülk - sahiblik, qarışma - müdaxilə, irəli çəkmə - irəli sürmə, hərəkət - əməliyyat, etibarlı - həqiqi, cəza almaq - cəzalanmaq; cəza görmək və cəza vermək - cəzalandırmaq; dindirmə - ifadə alma* və s.

Hüquq terminologiyasında sinonimlik hüquqi anlayışların müəyyən yaranma mərhələsində meydana çıxır. Bu zaman hüquqi anlayışlara dəqiq definisiya veriləndə sinonimlikdən əsər-əlamət qalmır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Allahverdiyeva G. Türk və Azərbaycan dillərində hüquq terminologiyasının formalaşması və inkişafı. Fil. ü. fəl. dok. ... diss. B., 2005, 143s.
2. Kamilzadə M.H., Əliyev Z.H., Kamilzadə İ.H. İngiliscə-rusca-azərbaycanca hüquq lüğəti. B.: Azərnəşr, 2003, 428 s.
3. Məmmədov N.B. Terminlərin semantik xüsusiyyətləri. ATP, Bakı, 1988, s.
4. Rusca-azərbaycanca qısa hüquq lüğəti (qiyabiçilər üçün köməkçi material). B., 1960, 189 s.
5. Оськина С.Д. Актуальные проблемы развития и современного состояния английской терминологии гражданского процессуального права. Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук. Омск , 2007, 23 с.
6. Ускова Т.В. Когнитивно-дискурсивные особенности англоязычной юридической терминологии. Автореф. дисс. … канд. фил. наук. М.: 2008, 25 с.
7. Webster's New World. Law Dictionary Copyright. By Susan Ellis Wild, Legal Editor. Published by Wiley, Hoboken, NJ Published simultaneously in Canada, 2006, 320 p.

Н.Байрамова

Синонимия юридических терминов в
английском и азербайджанском языках

Резюме

Несмотря на то, что одними из главных признаков терминов являются однозначность и отсутствие синонимии, во многих случаях наблюдается обратное явление. Синонимия считается одним из сложных вопросов современной терминологии. Терминология, как семантическое явление, обладает особыми признаками, обусловленные различными источниками формирования, различными способами образования. Как показывают исследования, на ранних этапах развития системы юридической терминологии английского и азербайджанского языков *синонимия* считалась естественным явлением языка. Для современной терминологии проблема синонимии очень актуальна, поскольку в рамках законодательных актов синонимы противоречат принципам ясности, однозначности и точности. А это приводит к неупорядоченности и асистемности

юридической терминологии. Явление синонимии в терминологии является результатом различных подходов к одному и тому же объекту, результатом различного понимания одного и того процессуального явления. Наличие в системе юридических терминов такого характерного явления как синонимы и синонимические конструкции, ученые объясняют употреблением терминов в различных юридических дискурсах. Употребление синонимов в юридической области обусловлено необходимостью учесть «все жизненные варианты». В статье анализируются относительные и полные синонимы, употребляющиеся в юридической терминологии. В отличие от английского языка в азербайджанском языке нет исконных синонимов. В статье также приводятся примеры однокорневых и разнокорневых синонимических терминов. Отмечается классификация синонимов по структуре: сложные синонимы; смешанные синонимы (простые/-производные/сложные). В юридической терминологии английского языка больше разнокорневых синонимов. В азербайджанском языке же преобладают и разнокорневые, и производные синонимы. Явление синонимии в юридической терминологии возникло на определенном этапе образования юридических понятий. Если дать точную дефиницию юридическим понятиям, то синонимия исчезнет. Автор в ходе работы обращается к различным научным источникам. Тем самым достигнуто широкое раскрытие темы. В целом, тема синонимии актуальна, имеет теоретическую и практическую значимость.

Ключевые слова: юридические термины, лексико-семантическая характеристика, синонимичность, относительные и полные синонимы.

N Bayramova

Synonymy of legal terms in English and Azerbaijani

Summary

Despite the fact that one of the main features of terms is unambiguity and lack of synonymy, in many cases the opposite phenomenon is observed. Synonymy is considered one of the complex issues of modern terminology. Terminology, as a semantic phenomenon, has special features due to different sources of formation, different ways of education. Research shows that at the early stages of the development of the legal terminology system in English and Azerbaijani, synonymy was considered a natural phenomenon of the language. For modern terminology, the problem of synonymy is very relevant, because in the framework of legislative acts, synonyms contradict the principles of clarity, unambiguity and accuracy. This leads to disordered and unsystematic legal terminology. The phenomenon of synonymy in terminology is the result of different approaches to the same object, the result of different understanding of the same procedural phenomenon. The presence of such a characteris-

tic phenomenon as synonyms and synonymous constructions in the system of legal terms is explained by the use of terms in various legal discourses. The use of synonyms in the legal field is due to the need to take into account "all life options". The article analyzes the relative and complete synonyms used in legal terminology. Unlike English, there are no native synonyms in the Azerbaijani language. The article also provides examples of single-root and multi-root synonymous terms. There is a classification of synonyms by structure: complex synonyms; mixed synonyms (simple/derived/complex). In the legal terminology of the English language, there are more multi-root synonyms. In the Azerbaijani language, however, different root and derived synonyms predominate. The phenomenon of synonymy in legal terminology arose at a certain stage of the formation of legal concepts. If you give a precise definition of legal concepts, the synonymy will disappear. The author refers to various scientific sources in the course of his work. Thus, a broad disclosure of the topic was achieved. In General, the topic of synonymy is relevant, has theoretical and practical significance.

Key words: technical terminology of law, lexical and semantic characteristics, synonymy, relative and complete synonyms,

Məqalənin redaksiyaya daxil olma tarixi:08.09.2019
Çapa hazırlnma tarixi:09.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Səbinə Süleymanova
tərəfindən çapa tövsiyə olunmuşdur

ARZU HÜSEYNOVA
Gəncə Dövlət Universiteti
Mingəçevir şəh., D.Əliyeva küç., ev. 20/1
zulfiyeismaylova8@mail.com

GÖYTÜRK DİLİNDƏ MÜVAFİQ DERİVATİV VASİTƏLƏRLƏ FORMALAŞMIŞ XÜSUSİ MƏNALI SÖZLƏRDƏ AZƏRBAYCAN DİLİ QARŞILIQLARI İLƏ PARALELLİK

Xülasə

Göytürk dili təsəvvürlərdə özünün leksik-semantik və derivativ xüsusiyyətləri ilə zəngin ənənələrə malik olmuş bir informasiya -ünsiyyət vasitəsi kimi canlanır. Bu dildə sözlərin nominativ mənaları ilə yanaşı məcazi mənaları da zəngin inkişaf perspektivlərinə malik olmuşdur. Eyni zamanda, Göytürk dilində əsas derivativ vasitələr kimi formalaşmış sözdüzəldici şəkilçilərin funksional fəallığa malik olduğu müşahidə edilir. Göytürk dilində işlənən sözlərin bir qisminin xüsusi mənalılığı onunla təcəssüm olunur ki, həmin sözlər fonetik tərkib etibarı ilə müasir Azərbaycan dilindəkindən fərqlənir. Lakin onların ifadə etdiyi mətni mənalar müasir Azərbaycan dilində öz izlərini müvafiq adekvatlarda nümayiş etdirir. Sözlərin bəziləri isə struktur tərkibcə müasir Azərbaycan dilindəki oxşar sözlərlə formal paralelliyə malik olsa da nominativ mənalılığa görə onlardan fərqlənirlər. Bununla belə həmin tipli sözlərin semantik paralelliyi Azərbaycan dilində saxlanılır. Sözyaratma prosesində iştirak edən şəkilçilər də özlərinin derivativ-semantik xüsusiyyətlərinə görə müasir Azərbaycan dilindəki oxşar mənalarla paralelliyə malik olur.

Göytürk dili özünün derivativ xüsusiyyətlərinə görə zəngin inkişaf mərhələsinə malik olmuşdur. Bu dildəki sözyaratma üsul və qaydaları zaman-zaman öz varisliyini və ənənəsini itirməmiş müasir dillərdə, o cümlədən Azərbaycan dilində ilkin izlərini saxlaya bilmişdir. Göytürk dilində işlənən morfoloji sözyaratma vasitələrinin bir qismi müasir Azərbaycan dilindəkinə uyğun funksionallığa malik olduğu halda onların qoşulduğu sözlər köhnəlmiş hesab olunur. Şəkilçilərin digər bir qismi isə struktur tərkibcə müasir Azərbaycan dilindəkindən fərqlənməsə də funksionallığa görə müasir Azərbaycan dilindəki başqa şəkilçilərin funksionallığını daşıyır. Hər iki halda formalaşan sözlər müasir Azərbaycan dilindəki müvafiq qarşılıqlarla derivativ-semantik paralelliyə malik olur. Göytürk dilində işlənmiş həmin tipli sözlərin tədqiqi və təhlili onların etimoloji rekonstruksiyası və reablitasiyası baxımından maraqlı və əhəmiyyətlidir.

Açar sözlər: derivasiya, xüsusi mənalar, semantik paralellik, çoxmənalılıq, leksik potensial

Göytürk dilində söz yaradıcılığı prosesi təkcə morfoloji vasitələrin funksionallığı ilə məhdudlaşmır. Göytürk dilinin morfoloji söz yaradıcılığı o qədər zəngindir ki, bu potensial özünün əzəməti ilə heç də müasir türk dillərinin morfoloji sözyaratma üsullarından geri qalmır. Əksinə, cəsarətlə demək olar ki, müasir türk dillərinə məxsus morfoloji söz yaradıcılığı özünün qayda və prinsiplərinə görə Göytürk dilinə məxsus morfoloji derivasiya prosesinə dair varisliyin ənənəvi davamından ibarətdir. Morfoloji sözyaratma qaydalarının daxili mexanizmi müasir türk dillərində saxlanmaqla öz ənənələrini yeni informasiyalar üzrə daim inkişaf etdirir, genişləndirir və təkmilləşdirir. Yalnız Göytürk dili ilə müasir türk dilləri, o cümlədən, Azərbaycan dili söz yaradıcılığı arasındakı fərqlər onunla təcəssüm olunur ki, derivativ vasitələrdə dillərarası təkamül prosesinə və normalaşmaya uyğun olaraq bəzi fonetik dəyişmələr baş verməsi müşahidə edilir. Semantik cəhətdən uyğun qarşılıqlar itmir və öz izlərini müasir dillərə, o cümlədən, Azərbaycan dilinə məxsus paralel nümunələrdə təcəssüm etdirir. Derivasiya elementlərinin əsasını təşkil edən söz köklərinə və onların semantik mühitinə gəlincə onu demək lazımdır ki, Göytürk mərhələsində bu imkanlar həddən artıq geniş olmuşdur. Belə ki, mövcud anlayışların doğru, düzgün, dəqiq, aydın və əhatəli ifadəsində morfoloji vasitələrin potensialı nə qədər geniş olmuşsa söz köklərinin semantik əhatəsi də o qədər zənginlik yarad bilmişdir. Söz köklərinin semantik mühiti hətta o qədər geniş və əhatəli olmuşdur ki, onların birbaşa ifadə etdiyi mənaları müasir dillərdə, xüsusən Azərbaycan dilində bəzi hallarda dolayısı yollarla təyin etmək lazım gəlir. Bununla da Göytürk və müasir Azərbaycan dilində derivativ tipli leksik vahidlərə məxsus semantik paralellikləri müəyyənləşdirmək imkanları əldə edilir. Bu istiqamətdə tədqiqatların aparılması ona görə əhəmiyyət kəsb edir ki, müqayisələr üzrə klassik mənbələrdə və eyni zamanda qədim dil materiallarında işlənib mənası unudulmuş sözlərin bildirdiyi anlayışları dəqiqləşdirmək mümkün olsun. Fikrin konkretliyi baxımından "Kitabi-Dədə Qorqud"un nümunəsində bütün sözlərin mənasının hamı üçün aydın olduğunu söyləmək mümkün deyildir. Bunun kimi, İzzəddin Həsənoğlunun, Nəsiminin, Xətayinin, Füzulinin və digər klassiklərin əsərlərində Azərbaycan dilinə məxsus elə sözlərin işlədilməsinə təsadüf edilir ki, onların əksəriyyəti müasir oxucu üçün anlaşıqlı deyildir. Odur ki, Göytürk dilinə məxsus olan və kök tərkibi geniş semantik mühitlə səciyyələnən sözlərin müasirliklə səsləşən paralellərini tədqiq və təhlil etmək onların tətbiqi imkanlarının təmin olunmasına əlverişli şərait yaradır. Bu cəhətdən aşağıdakı kimi sözlərin derivativ variantlarının araşdırılması ilə maraqlı nəticələr əldə etmək mümkün olur:

Yan- kökünün semantik potensialı

Yan- kökü Azərbaycan dilində sinkretik xarakterli dil vahidi kimi formalaşmış leksik nümunələrin tərkibinə daxildir. *Yan-* kökünün sinkretizmi onun feil kimi *yanmaqla* və atributiv isim kimi *ətraf* mənalarını bildirməsindən ibarətdir. Azərbaycan dilinin izahlı lüğətində *yan-* kökünün sinkretik mənaları müvafiq dil vasitələri ilə ətraflı təsbit edilmişdir [2, 520-528]. Göytürk dilində *yan* sözü həm feilə və həm də ismə məxsus mənaların qovşağını özündə ümumiləşdirməklə *yana dönmək, yana* (ətra-

fa, geriyə) dönüb qayıtmaq mənasında işlədilir: "Kırkızda *yantımız*. Türk Kağanta korüg kəlti, sabı antağ" [Tonyukuk abidəsi, Şimal tərəfi, 29] (Qırğızdan *qayıtdıq*. Turkiş xaqanından casus gəldi. Sözü bu idi); "Ol sabığ esidin bəglər kopın: - *yanalım* arığ abutı yəg -tidi" [Tonyukuk abidəsi, Qərb tərəfi, 37] (O xəbəri eşidib bəylər hamısı-qayıdaq, təmiz abır yaxşıdır, - dedilər); Təmir kapığka təgi irtimiz, anta *yantımız*" [Tonyukuk abidəsi, Qərb tərəfi, 45] (Dəmirqapıya kimi çatdıq, oradan qayıdarıq).

Cümlələrdə *yan* sözünün iştirakı ilə düzəlmiş *yantımız* və *yanalım* sözləri müasir Azərbaycan dilində işlənməyən geri dönmək və qayıtmaq mənalarını bildirir. Bu sözlərin Azərbaycan dilindəki semantik paralelliyi *yan* sözünün isim kimi geri, ətraf mənasının feillə qovuşaraq dönmək mənası üzrə motivləşməsində özünü təcəssüm etdirir. Müqayisə üçün demək olar ki, *yan* sözünün geri qayıtmaq, geriyə dönmək kimi anlayış bildirməsi artıq ümumişləklikdən çıxıb dialekt-şivə səviyyəsində qalan *qanırılmaq* sözündə öz ifadəsini tapır: "Meytixan qoyunun arsalasını *qaŋırdı*, qırdı" [1, 110]. *Qaŋırmaq* sözü "Kitabi-Dədə Qorqud"da da geri dönmək, burulmaq mənasında işlədilmişdir.

"Qaŋırılıban baqışından ağam Beyrətə bənzədirəm, ozan, səni" [6, 51].

Qaŋrılmaq sözünü *yan* kökü ilə bağlayan məna əsası *yan* kökü ilə *qan* monosillabının ilkin mənşə etibarı ilə bir-birinə bağlılığından ibarətdir.

İlkin monosillabların formalaşma prinsipinə gəlincə onu demək lazımdır ki, monosillabların *CVC* tərkibi birdən-birə yaranmamış, daxili saitin ətrafına prefiks səciyyəli birinci samit elementinin və postfiks səciyyəli sonuncu samit elementinin qoşulması əsasında formalaşmışdır. Bu mənada *yan* və *qan* monosillablarından ilk elementi çıxdıqda qalan *-an* tərkibi əlavə monosillabların formalaşmasının əsasını təşkil edən omonim variant sayılır. Məhz *-an* omonim variantına *q-* elementi əlavə olunduqda *qan*(maq), *d*-elementi qoşulduqda inkar etmək mənalı *qan*(maq), *s*-elementi qoşulmaqla *san*(maq) kimi yeni mənalı monosillablar yaranır [9, 113]. Onu da nəzərə almaq lazımdır ki, *an-* kökünün bilmək, başa düşmək mənalarından biridə xatırlamaq anlayışından ibarətdir. Xatırlamaq isə ümumi semantik əhatəsinə görə geridə qalanı, unudulanı, yenidən təsəvvürə gətirmək çalarlığını bildirir. Bu mənada, Göytürk dilindəki qaytarmaq mənasındakı *yan* sözü anlayışın genetikliyi baxımından ilkin omonim xarakterli *an-* kökü ilə səslənir.

Yağ- tir, kob- köklərinin semantik potensialı

Göytürk dilində işlənən bu monosillabik köklərin hər üçü müxtəlif struktur tərkibə malik olsa da onların arasında yaxınlaşdırıcı bir sinonimik anlayış da vardır. Müasir Azərbaycan dili ilə müqayisədə də həmin monosillabik köklərin bildirdiyi mənalar arasında genetik bir müştərəklik vardır. Həmin monosillabik köklərin müasir Azərbaycan dili ilə paralellik keyfiyyəti də məhz onların semantik mühiti ilə bağlıdır. Göytürk dilində *yağ-* monosillabik kökü birləşmək, toplanmaq, qoşulmaq mənasında işlənmişdir: "Udızmağa uluğu şa derti. *Yağıl* tidi. *Yağmısı* bən ertim". [Tonyukuk abidəsi, Qərb tərəfi, 5] (Aparanların böyüyü şad idi. Birləş, qoşul, (toplan) dedi. Bir-

ləşəni (qoşulanı) mən idim). Bu nümunədə *toplanmaq, birləşmək, qoşulmaq, çoxluq yaratmaq* mənasındakı *yağ* kökünü Müasir Azərbaycan dilindəki *yığmaq* sözü ilə müqayisə etmək olar. *Yığmaq* sözü əsasında düzələn *yığılmaq, yığışmaq, yığcamlaşmaq* kimi sözlərdə də toplanmaq, qoşulmaq, birləşmək anlayışları ifadə olunur və bu cəhətdən *yağ*- monosillabı müasir Azərbaycan dilində aktiv işlənən *yığmaq* sözü və onun müvafiq derivatları ilə paralellik yaradır. *Tir*- monosillabik kökü də Göytürk dilində yağ kökünün mənasına uyğun olaraq toplanmaq, cəmləşmək, çoxalmaq kimi məna çalarlıqlarına malikdir: "Yarıs yazıda on tümən sü tirilti-tir" [Tonyukuk abidəsi, Qərb tərəfi, 36] (Yarış Yazıda yüz minlik qoşun *toplaşdı*,- deyir). Cümlədəki *tirilti* sözünün yığılmaq, toplaşmaq mənası Azərbaycan dili üçün yad deyildir. Azərbaycan dilində Göytürk dilindəki *tir*- sözünün məna variantı onun fonetik variantı olan *dər*- kökündə öz təcəssümünü tapır. *Dər*- kökünün Azərbaycan dilindəki toplamaq, yığmaq, cəmləmək, artırmaq mənası məhsul dərmək, meyvə *dərmək, pambıq dərmək* ifadələrində, həmçinin, topluluq bildirən *dərnək* sözündə ifadə olunur. *Dər*- kökünün xüsusi olaraq *yığılmaq, toplanmaq* və *cəmlənmək* mənası "Kitabi-Dədə Qorqud"un mətnindəki dərilmək və dərnək sözlərində də ifadə olunur. "İç Oğuz, Daş Oğuz bəgləri Bayındır xanın söhbətinə *dərilmişdi*" [6, 74]; "Bir gün yolu bir *dərnəkə* uğradı, qondular" [6, 75].

Göytürk dilindəki *kob*- kökü də *yağ*- və *tir*- köklərinin sinonimi kimi toplanmaq, yığılmaq, çoxalmaq mənalarında işlənmişdir: "Ida, taşda kalmısı *kobranın* yeti yüz boltı". [Tonyukuk abidəsi, Qərb tərəfi, 4] (Kolda (kosda) daşda qalmışları *toplanıb* (birləşib, cəmlənib) yeddi yüz oldu). *Kob*- kökü müasir Azərbaycan dilində həmin fonetik tərkib üzrə işlənmir. Lakin onun *köp*(mək) fonetik variantında çoxalmaq, artmaq, böyümək anlayışları ifadə olunur. Həmin kökün əsasında oxşar məna çalarlığı bildirən *köpük, köpəşik, köpdürmək* kimi derivativ variantlar formalaşmışdır. Göytürk dilinin məna zənginliklərini təcəssüm etdirən bu sözlər özlərinin semantik mühiti çərçivəsində Azərbaycan dilindəki müvafiq adekvatlarla leksik-semantik paralellik nümayiş etdirirlər.

Göytürk dilində bu tipli xüsusi mənalıqla səciyyələnən sözlərin geniş leksik-semantik potensialı vardır. Bu da həmin dilin məna zənginliklərinin göstəricisi kimi xüsusi bir maraq doğurur. Göytürk dilində həmçinin, xüsusi mənalılıqla səciyyələnən və özünəməxsus şəkilçi tərkibi üzrə formalaşan sözlər də vardır ki, onların yaratdığı zəngin məna çalarlığı təsvirlərin canlı, emosional, yaddaqalan şəkildə çatdırılması üçün üslub baxımından öz orijinallığı ilə diqqəti cəlb edir. Hərçənd Göytürk yazıları bədii nümunələr deyil, epitafi xarakterli yadigarlardan ibarətdir. Göytürk dilində işlənmiş həmin nümunələrə dair müvafiq mətnlərdə işlənmiş *görmədük, esidmədük* kimi sözləri misal göstərmək olar: "Közın *görmədük*, kulakın esidmədük ilərki kün to (ğsıkıŋa) biri-gərü (Tabğaq)ka, kırığaru… (kün batsıkıŋa, yırağaru tün ortasıŋaru… sarığ altunıŋ, örüŋ, kümüşin, kırğalığ kutayan əkinlik isigtin, özlən atın, adğırın, kara kisin". [Bilgə Xaqan abidəsi, Şimal tərəfi, 11] (Gözü görməz, (hissetməz, etinasız), qulağı eşitməz (duyğusuz) xalqımı Şərqə, Gündoğana, Cənuba (Tabğaça), Qərbə

(Günbatana) Şimala (Gecə ortasına)… sarı qızılını, parlaq gümüşünü, qıraqlı (kəsilməmiş) ipəyini, əkinlik taxılını, cins at və ayğırını, qara samurunu…).

Mətndən aydın olduğu kimi, burada işlənən nə *görmədük* və *esidmədük* sözlərinin kökü olan *gör-* və *esid* (eşid) tərkibləri, nə də sözün sonuna qoşulan *-dük* şəkilçisi müasir Azərbaycan dilindəki fonetik oxşarlarının semantik paralleli deyildir. Yəni *görmədük* və *esidmədük* (eşitmədik) sözləri müasir mənadakı şühudi keçmiş zaman anlayışını bildirmir. Mətndəki *gör* və *esid* (eşit) sözləri məcazi məna üzrə dərk etməyən, etinasız olan, düşünməyən, ətrafda baş verənlərdən xəbərdar olmayan anlayışını bildirir. Bu da Göytürk dövründə mental təffəkkürün necə çevik xarakter daşıdığının əyani təsdiqidir. Sözün *-dük* şəkilçi hissəsinə gəlincə onu demək lazımdır ki, bu şəkilçi müasir Azərbaycan dilində sifət düzəldən və ya lazımlılıq anlayışı bildirən derivativ vasitələr kimi şərh olunan şəkilçilərin eyni hesab edilmir [3, 99; 4, 69]. Bunlar özlərinin derivativ-semantik xüsusiyyətlərinə görə müasir Azərbaycan dilindəki inkar bildirən *-maz* (-məz) şəkilçisinin paraleli kimi təsəvvür yaradır və *görməz, bilməz* sözlərinin semantik mühiti ilə eyniləşir. Göründüyü kimi, Göytürk dilinin söz tərkibi özünün ifadə etdiyi məna mühitinə görə zəngin ənənələr yaratmış və bu ənənələr müasir Azərbaycan dilinin müvafiq ifadə vasitələrində leksik-semantik paralelliyini nümayiş etdirir.

İstifadə edilən ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, Azərbaycan Elmlər Akademiyası nəşriyyatı, 1964, 480 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, Şərq-Qərb, 2006, 712 s.
3. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, Azərtədrisnəşr, 1963, 275 s.
4. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı, Elm, 2007, 280 s.
5. Xudiyev N. Qədim türk yazılı abidələrinin dili. B., Elm və təhsil, 2015, 596 s.
6. Kitabi-Dədə Qorqudun izahlı lüğəti, Bakı, Elm, 1999, 204 s.
7. Rəcəbli Ə. Qədim türk yazısı abidələrinin dili. I h., Bakı, Nurlan, 2006, 648 s.
8. Rəcəbli Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. B., Yazıçı, 1993, 400 s.
9. Yusifov M. Linqvistik tipologiya. Bakı, Elm və təhsil, 2017, 184 s.

А. Гусейнова

Параллели с азербайджанским языком взаимодействия с Гойтурским языком имеют особые осмысленные слова образованные соответствующием производными

Резюме

Гойтурк приходит на ум как богатая коммуникативная среда со своими лексико-семантическими и производными чертами. В дополнении к нормативным значениям слов в этом языке, метафорические значение также имеют богатые перспективы развития. В то же время Гойтуркский язык имеет функциональное присутствие словеных формул, сформированных как производные инструменты. Некоторые слова, используемые в Гойтуркском язык имеют особое значение, которое фонетически отличается от современного азербайджанского языка. Однако значение текста, которое они воражают на современном азербайджанском языке, показывает их следы в соответствующих прилагательных. Хотя некоторые слова имеют формальную структуру, подобную азербайджанскому языку. Они отличаются своим номинативным значением. В то же время семантический параллелизм слов этого типа сохраняется в азербайджанском языке.

В процессе речи используемые окончании из-за своих производных и семантических особенностей отличается по своему значению схож с современным азербайджанским языком.

Гойтурк обладает богатыми свойствами развития благодаря своим производным свойствам. Методы и правила на этом языке смогли сохранить ориентаьные следы на современых языках, включая Азербайджанским, которые время от времени не терели своего наследия и традиций. В то время как некоторые из морфологических инструментов словаря Гойтурка имеют схожую функциональность с совренным Азербайджанским языком, их слова считаются устаревшим. Другая часть окончании структурно похожа на современный Азербайджанский язык, по из-за их функций других окончании. В обоих случаях слов образует производно-семантические параллели с соответствующими взаимодействиями в современном Азербайджанском языке. Исследование и анализ слов Гойтурского языка интересны и важны с точки зрения этимологиической реконструкции и реабилитации.

Ключевые слова: деривация, специфические значение, семантический параллельность, многозначность, лексический потенциал

A. Huseynova

Parallels with the Azerbaijani language of interaction with the Goytur language have special meaningful words formed by the corresponding derivatives

Summary

Goyturk comes to mind as a rich communicative medium with its lexical-semantic and derivative features. In addition to the normative meanings of words in this language, metaphorical meanings also have rich development prospects. At the same time, the Goyturk language has a functional presence of word formulas formed as derivatives. Some words used in the Goyturk language have a special meaning, which is phonetically different from the modern Azerbaijani language. However, the meaning of the text that they are hostile in the modern Azerbaijani language shows their traces in the corresponding adjectives. Although some words have a formal structure similar to the Azerbaijani language, they differ in their nominative meaning. At the same time, the semantic parallelism of words of this type is preserved in the Azerbaijani language.

In the process of speech, the ending used due to its derivatives and semantic features differs in its meaning in similarity to the modern Azerbaijani language.

Goyturk has rich developmental properties due to its derivative properties. Methods and rules in this language were able to preserve oriental traces in modern languages, including Azerbaijani, which from time to time did not rub their heritage and traditions. While some of the morphological tools of the Goyturk dictionary have similar functionality with the modern Azerbaijani language, their words are considered obsolete. The other part of the ending is structurally similar to the modern Azerbaijani language, due to their functions of the other ending. In both cases, the words form derivative-semantic parallels with the corresponding interactions in the modern Azerbaijani language. The study and analysis of the words of the Goyturk language is interesting and important in terms of etymological reconstruction and rehabilitation.

Key words: derivation, specific meanings, semantic parallelism, polysemy, lexical potential

Məqalənin redaksiyaya daxil olma tarixi:08.09.2019
Çapa hazırlnma tarixi:08.01.2020
Filologiya elmləri doktoru, professor Mübariz Yusifov tərəfindən çapa tövsiyə olunmuşdur

MUSTAFA GÜNAYDIN
Bakı Dövlət Universiteti
ORCID ID: 0000-0002-1979-0992
mustafagunaydin2003@gmail.com

TÜRKMƏN TÜRKCƏSİ VƏ TÜRKİYƏ TÜRKCƏSİNDƏKİ İL, AY, GÜN ADLARINI BİLDİRƏN SÖZLƏR

Xülasə:

Oğuz qrupu türk dillərinin areal leksikasına forma və mənaca fərqli və ya formaca eyni, mənaca fərqli müxtəlif sözlər daxildir. Bu sözlər əhalinin həyat tərzi, təsərrüfat formaları, məşğuliyyət sahələri, məişətlə və adət-ənənələrlə bağlı meydana çıxmışdır. Areal leksikanın zənginləşməsinin əsasında söz yaradıcılığı prosesi dayanır. Ədəbi dillərdə müxtəlif qrammatik üsulların vasitəsilə yaranan neologizmlər daim lüğət tərkibinin yenilənməsinə və zənginləşməsinə səbəb olur.

Türk dillərinin lüğət tərkibinin əsası ad bildirən sözlərdən ibarətdir. Qədim türk leksikası cüzi dəyişikliklərlə müasir dillərin lüğət tərkibində mühafizə olunur. Bununla yanaşı, inkişaf nəticəsində hər bir dilin öz daxili imkanları hesabına yeni sözlər yaranır və digər türk dillərindən fərqlənir. Oğuz qrupu dillərinin lüğət tərkibində də bir sıra fərqlər özünü göstərir, qədim sözlər müxtəlif şəkildə arxaikləşmiş, yeni yaranan sözlər də forma və mənaca fərqlənmişdir.

Bu məqalədə Oğuz qrupu türk dillərindən olan Türkmən türkcəsi və Türkiyə türkcəsindəki il, ay, gün adlarını bildirən sözlər araşdırılmışdır. Bu araşdırma ilə Türkmən türkcəsində istifadə edilən il, ay, gün adları təyin olunmuş, bu adlar təsnif edilmiş və Türkiyə türkcəsiylə qarşılaşdırılmışdır. Beləliklə, illərə, aylara, günlərə verilən adlar kontekstində lüğətdə görülən iki türk ləhcəsi arasındakı ortaqlıqlar müəyyən edilmişdir. Bu araşdırma ilə Türkmən türkcəsi və Türkiyə türkcəsindəki zəngin leksika ortaya qoymağa çalışılmışdır.

Açar Sözlər:Oğuz qrupu türk dilləri, Türkmən türkcəsi, Türkiyə türkcəsi, areal leksika, il, ay, gün adlarını bildirən sözlər.

Giriş:Türk dilləri arasında diferensiyasiya prosesləri başa çatdıqdan sonra müstəqil inkişaf yoluna qədəm qoymuş, dildə fərdi cəhətlər yaranmağa başlamışdır. Uzun yüzilliklər cəmiyyətdə gedən sosial-siyasi, mədəni-iqtisadi inkişaf nəticəsində dildə dəyişikliklər baş vermiş; qədim türk sözləri tədricən arxaikləşmiş, neologizmlər vasitəsilə lüğət tərkibi zənginləşmişdir. Bu proses alınma sözlər, dialektizmlər və dilin daxili imkanları hesabına yaranmış mürəkkəb quruluşlu sözlərin vasitəsilə intensivləşmişdir.

Tarix boyu dilin leksik quruluşunun inkişafı həm dildaxili, həm də dilxarici amillərlə şərtlənir. Bir tərəfdən, dildaxili faktor kimi söz yaradıcılığı imkanlarının səciyyəsi, leksik-semantik qruplar arasındakı sistemli əlaqələr, sintaktik münasibətlər və sözün üslubi məqamları, digər tərəfdən isə dilxarici amil kimi mədəni, ictimai-siyasi proseslərin yeniləşməsi nəticəsində dilə kənardan yeni söz və terminlərin axını mühüm əhəmiyyət kəsb edir. Bununla da uzun tarixi inkişaf nəticəsində türk dillərinin hər birinin fərdi leksikası formalaşmışdır.

Araşdırma:Oğuz qrupu türk dilləri yaxın qohum dillər olsa da, onların arasında ortaq sözlərlə yanaşı, hər birinin fərdi leksikası da mövcuddur. Bu leksika dilin lüğət tərkibinin bütün sahələrini-ümumişlək sözləri, məhdud dairədə işlənən sözləri (dialektizmlər), peşə-sənət leksikası, terminlər, ictimai-siyasi leksika, idman leksikası, hərbi leksika, jarqon və arqo leksikasını əhatə edir.

Oğuz qrupu türk dillərinin areal leksikasına forma və mənaca fərqli və ya formaca eyni, mənaca fərqli müxtəlif sözlər daxildir. Bu sözlər əhalinin həyat tərzi, təsərrüfat formaları, məşğuliyyət sahələri, məişətlə və adət-ənənələrlə bağlı meydana çıxmışdır. Areal leksikanın zənginləşməsinin əsasında söz yaradıcılığı prosesi dayanır. Ədəbi dillərdə müxtəlif qrammatik üsulların vasitəsilə yaranan neologizmlər daim lüğət tərkibinin yenilənməsinə və zənginləşməsinə səbəb olur.

Türk dillərinin lüğət tərkibinin əsası ad bildirən sözlərdən ibarətdir. Qədim türk leksikası cüzi dəyişikliklərlə müasir dillərin lüğət tərkibində mühafizə olunur. Bununla yanaşı, inkişaf nəticəsində hər bir dilin öz daxili imkanları hesabına yeni sözlər yaranır və digər türk dillərindən fərqlənir. Oğuz qrupu türk dillərinin lüğət tərkibində də bir sıra fərqlər özünü göstərir, qədim sözlər müxtəlif şəkildə arxaikləşmiş, yeni yaranan sözlər də forma və mənaca fərqlənmişdir.

Bu məqalədə Oğuz qrupu türk dillərindən olan Türkmən türkcəsi və Türkiyə türkcəsindəki il, ay, gün adlarını bildirən sözlərdən 193 ədədi araşdırılmışdır. "Türk Dil Kurumu Türkçe Sözlük", "Tükmence-Türkçe Sözlük" və "Bolşoy Russko-Turkmenskiy Slovar" (1986-1987) lüğətlərindən istifadə edərək il, ay, gün adlarını bildirən sözlər A-dan Z-yə düzgün sıralanmışdır. Türkiyə türkcəsində mənaca Türkmən türkcəsiylə tam qarşılığı olan il, ay, gün adlarını bildirən sözlər aşağıdakı cədvəldə göstərilmişdir. Beləliklə, illərə, aylara, günlərə verilən adlar kontekstində lüğətdə görülən iki türk ləhcəsi arasındakı ortaqlıqlar müəyyən edilmişdir. Bu araşdırma ilə Türkmən türkcəsi və Türkiyə türkcəsindəki zəngin leksika ortaya qoymağa çalışılmışdır.

İl, Ay, Gün Adlarını Bildiren Sözler:

Türkiyə türkcəsi	Türkmən türkcəsi
ağustos	avgust

ahir	soñkı, ahırkı
ahiren	soñkı vagtlarda
akşam	agşam
altın devri	altın asır
altın saat	altın sagat
an	göz açıp-yuması salım
antik çağ	antiklik
aralık	dekabr
arife	öñ yanı, öñüsırası
artık yıl	dolı yıl
asır	asır
ati	gelcekki, gelcek, gelcekdeki
ay	ay
ay yılı	ay hasabınıñ yılı
bahar	yaz, bahar
bayram	bayram
bugün	bu gün
Buzul Çağı	buzluk dövri
Cilalı Taş Devri	neolit, daş asırınıñ has soñkı dövri
cuma	anna, anna güni
cumartesi	şenbe
çağ	çag
çarşamba	çarşenbe
çeyrek	bir zadıñ dörtden biri
dakika	minut
deminki	yakın vagtda bolan
devre	dövür
doğacak	gelcek
doğum günü	doglan güni
dönem	period
dönüm noktası	özgeriş
Dördüncü Zaman	dördülenci dövür
dün	düyn, öten gün
dünden	geçeni gözlep vagt yitirmek
dünkü	düynki
ebedi	bakı, ebedi
ebediyen	ömürlik, ömür, bakı
ebediyet	bakılık, ebedilik
ebet	bakılık, ebedilik

ecel	ölüm
ekim	oktyabr
ergeç	iru-geç
erken	ir, ir bilen, irden
ertesi	indiki, soñkı, gelcekki
eski	könelen, köneleşen
eskiden	öñ, bireyyem, bir-vagt
esna	göz açıp-yuması salım
evvel	öñ, öñürti
evvela	öñ,ozal
evveliyat	baş, başlanyan vagtı
evvelsi	iñ ızkıñ önüñdeki
eylül	sentyabr
eyyam	vagt
ezel	bakılık, ebedilik
ezeli	bakı, ebedi, ömürlik, ebedilik
fasıl	pasıl, mövsüm
fecir	ir, seher, dañ
ferda	ertirki gün
fi tarihinde	bir vagt
gâh	kevagt, kemahal
gece	gice
gece gündüz	gice ve gündiz
geceleyin	gice, gicesine
geceli gündüzlü	gice ve gündiz
gece yarısı	yarı gice
geç	giç
gelecek	gelcek, gelcekki, indiki
gücük ay	fevral
gün	gün
günbegün	günde, her gün
gündüz gözüyle	yagtıka, garañkı düşmenke, iñrik garalmanka
gündüz	gün
günlü	seneli, senesi bellenen, vagtı goylan
günlük	gündiz, gündizki
gün orta	günortan
güz	güyz
güzün	güyzde
hafta	hepde

hafta başı	hepdeniñ başı
haftalık	hepdelik
hafta sonu	hepdeniñ ahırı
hal	hezirki vagtda
hâlâ	şu vagta çenli
hâlen	hezir, indi, şu vagt
haziran	iyun
hemen	şu vagtıñ özünde, şol vagtıñ özünde, hezir
henüz	yañıca
her daim	hemişe
her dem	her-minut, her minutda, minut-sayın, minut-ma-minut
her zaman	hemişe
hicri tarih	musulman yıl hasabı
İkinci Zaman	mezozoy erası
ikindiüstü	agşama yakın
ikindi vakti	agşama yakın
ilelebet	ömürlik
ilkbahar	yaz, bahar
İlk Çağ	antiklik
ilkgüz	sentyabr
ilk kânun	dekabr
ilk teşrin	oktyabr
ilkyaz	yaz, bahar
iş günü	iş güni
kadim	gadımı
kânunuevvel	dekabr
kânunusani	yanvar
kasım	noyabr
kış	gış
kronoloji	hronologiya
kuşluk vakti	nahar, günorta, naharı, öylen damagı
lahza	göz açıp-yuması salım
mart	mart
mayıs	may
mazi	geçen, öten, öñki
mevsim	mövsüm
mezozoik	mezozoy erası
miladi	hristian yıl hasabatı boyunça

milat	doglan güni, hristianlarıñ gış bayramçılıgı
müebbet	bakı, ebedi, ömürlik, ebedilik
mühlet	möhlet
münteha	öñsüz-soñsuz, uzın
nevbahar	yaz, bahar
nisan	aprel
ocak	yanvar
ortaçağ	orta asırlar
öğle	günortan
öğlen	günortan
öğleüstü	günortanlar çemesi
öğle vakti	günortan
öğün	paylık biçilen yalı
önce	öñ, berde, öñürti
öngün	öñ yanı, öñüsırası
paleozoik	paleozoy, paleozoy erası
pazar	yekşenbe
pazartesi	duşenbe
periyot	dövür, zaman
periyodik	vagtal-vagtal bolyan, dövürleyin
perşembe	penşenbe
Rumi takvim	grigorian kalendarı, grigorian yıl hasabı
sabah	dañ, ertir, seher, saba
salı	sişenbe
saniye	sekunt
saniyelik	bir sekuntlık
seher	seher
sene	yıl
seneidevriye	yıllık
sezon	mövsüm, dövür
sıra	vagt
son	ahır, soñ
sonbahar	güyz
son kânun	yanvar
sonra	soñra
süre	möhlet, vagt, müddet
süreklilik	dovamlılık, vagt, möhlet
süreksiz	gısga vagtlı, dovamsız
süreksizlik	gısga vagtlılık, dovamsızlık

süresiz	möhletsiz
şafak	seher, dañ
şimdi	indi
şubat	fevral
tan	seher
tarih	tarıh
tarihli	senesi bellenen, vagtı goylan
tarih öncesi	tarıhdan ozalkı
tarihsel	tarıhı
temmuz	iyul
teşrin	oktyabr
teşrinievvel	oktyabr
teşrinisani	noyabr
tün	agşam
Üçüncü Zaman	üçülenci dövür
vade	möhlet, vagt, müddet
vakit	vagt
Yakın Çağ	teze dövür
yarın	ertirki
yaş	yıl
yaz	yaz
Yeni Çağ	teze dövür
yeni yıl	teze yıl
yerel saat	yerli vagt
yıl	yıl
yılbaşı	teze yıl
yıl dönümü	ençeme yıllar
yıllık	yıllık
Yontma Taş Devri	paleolit, daş asırıñ gadımı dövri
yüzyıl	yüz yıllık dövür, asır
yüzyıllık	yüz yıllap dovam edyen
zaman	vagt
zaman aşımı	könelik, köp vagt geçenlik
zamane	dövrüñ talabına layıklık, dövrebaplık, hezirki zamanlık
zamansız	öz vagtında del, öz möhletinde bolmadık
zevali saat	günortan

Nəticə: Bu məqalədə Oğuz qrupu türk dillərindən olan Türkmən türkcəsi və Türkiyə türkcəsindəki il, ay, gün adlarını bildirən sözlərdən 193 ədədi araşdırılmışdır. Yuxarıda göstərilən il, ay, gün adlarını bildirən sözlərdən Türkiyə türkcəsi ilə ortaq olanlar "akşam, asır, ay, bahar, bayram, bugün, çağ, dün, ebedi, gün, güz, mart, son, sonra, tarih, yaz, yıl, yıllık, yüzyıl, yüzyıllık" sözləridir. Türkmən türkcəsində istifadə edilən il, ay, gün adlarını bildirən sözlər təyin olunmuş, bu sözlər təsnif edilmiş və Türkiyə türkcəsiylə qarşılaşdırılmışdır. Beləliklə, il, ay, gün adlarını bildirən sözlər kontekstində lüğətdə görülən iki türk dili arasındakı ortaqlıqlar müəyyən edilmişdir. Bu araşdırma ilə Türkmən türkcəsi və Türkiyə türkcəsindəki zəngin leksika ortaya qoymağa çalışılmışdır.

Ədəbiyyat

1.ARNAZAROV Seyitnazar, SÖYEGOV Muratgeldi. Örnekli Türkmence Gramer, Kurgan Edebiyat Yayınları, Ankara/Aşkabat, 2017.
2.AXUNDOV Ağamusa. Azərbaycan Dilinin İzahlı Lüğəti, Şərq-Qərb Nəşriyyat Evi, Bakı, 2006.
3.ALTAYEV S. , ATAYEV G. , AÇILOVA G. , AGSAKOV K. , GAYIBOVA K. , GAFUROVA H. , KULIYEV A. , MESGUDOV V. , MIRADOVA S. , HOCAMGULIYEV M. Bol'şoy Russko-Turkmenskiy Slovar I-II T. , Akademiya Nauk Turkmenskoy SSR İnstitut Yazıka i Literaturı imeni Mahtumkuli, Moskva, 1986-1987.
4.ALTAYLI Seyfettin. Azerbaycan Türkçesi Sözlüğü, Türk Dil Kurumu Yayınları, Ankara, 2018.
5.AYDIN Erhan. Türk Dilinde Zaman Adları, Yayımlanmamış Doktora Tezi, Ankara, 2002.
6.ÇAKMAK Cihan. Türkmen Türkçesi Konu Çözümlemeli Söz Varlığı, Yayımlanmamış Yüksek Lisans Tezi, İzmir, 2010.
7.ÇENELİ İlhan. Türkmen Türkçesi Sözlüğü, Türk Dili Araştırmaları Yıllığı, Belleten 30-31 (1982-1983), Ankara, 1986.
8.DEVELLİOĞLU Ferit. Osmanlıca-Türkçe Ansiklopedik Lugat, Aydın Kitabevi, Ankara, 1999.
9.ERCİLASUN Ahmet Bican. Türk Lehçeleri Grameri, Akçağ Yayınları, Ankara, 2012.
10.EKER Süer, ÖLMEZ Mehmet, ÖLMEZ Zuhal, TEKİN Talat. Türkmence-Türkçe Sözlük, Simurg Yayınları, Ankara, 1995.
11.ERGİN Muharrem. Türk Dil Bilgisi, Bayrak Yayınevi, İstanbul, 1998.
12.GELDİYEV Gurbandurdı, KARAYUNUSOĞLU Yaşar. Karşılaştırmalı Türkmen Atasözleri (Türkmence-Türkçe), Türk Dil Kurumu Yayınları, Ankara, 2017.
13.GENCAN Tahir Nejat. Dilbilgisi, Türk Dil Kurumu Yayınları, İstanbul, 1975.
14.HASDEMİR Şeyma. Tarama Sözlüğünde Geçen Zaman Adları, Bartın Üniversitesi Edebiyat Fakültesi Dergisi, Cilt:3, Sayı:2 (s.39-61), Bartın, 2018.

15.Kara Mehmet. Türkmen Türkçesi Grameri, Etkileşim Yayınevi, İstanbul, 2012.
16.KOÇ Nurettin. Açıklamalı Dilbilgisi Terimleri Sözlüğü, İnkılap Kitabevi, İstanbul, 1992.
17.KOÇ Nurettin. Yeni Dilbilgisi, İnkılap Kitabevi, İstanbul, 1990.
18.KOMİSYON. Derleme Sözlüğü, Türk Dil Kurumu Yayınları, Ankara, 1975.
19.KOMİSYON. Karşılaştırmalı Türk Lehçeleri Sözlüğü, Kültür Bakanlığı Yayınları, Ankara, 1992.
20.KOMİSYON. Tarama Sözlüğü, Türk Dil Kurumu Yayınları, Ankara, 1988.
21.KOMİSYON. Türkçe Sözlük, Türk Dil Kurumu Yayınları, Ankara, 1983.
22.ORAZOV Aşır. Türkmenistan Türk Edebiyatı, Türkiye Dışındaki Türk Edebiyatları Antolojisi 10. Cilt, Kültür Bakanlığı Yayınları, Ankara, 1998.

M.Gunaydın

Words of year, month, day and time names
in turkmen turkish and turkey turkish

Summary:

The Oghuz group of Turkish languages includes different words that are different in form and meaning or similar in meaning. These words have arisen in relation to the lifestyle of the population, forms of economy, occupations, household and traditions. Based on the enrichment of the area lexicology, the process of word formation begins. The neologisms that have arisen through the use of various grammatical methods in literary languages are constantly updating and enriching the vocabulary.

The basis of the composition of the dictionary of the Turkish languages is the pronoun. Ancient Turkish lexicon is preserved in the dictionary of modern languages with slight modifications. At the same time, as a result of development each language creates new words at the expense of its internal capabilities and differs from other Turkish languages. The Oghuz group also shows some differences in the composition of the Turkish languages, the ancient words differed in various ways, and the newly formed words differed in form and meaning.

This article explores words of year, month, day and time names in Turkmen Turkish and Turkey Turkish of Oghuz group Turkish languages. In this study, the year, month, day and time names were determined that used in Turkmen Turkish, these names were classified and they were compared with Turkey Turkish. So associations were determined that are seen in vocabulary as part of names that gives to year, month, day and time between two Turkish languages. This study sought to reveal the rich vocabulary in Turkmen Turkish and Turkey Turkish.

Key words:The Oghuz group of Turkish languages, Turkmen Turkish, Turkey Turkish, area lexicology, words of year, month, day and time names.

М.Гунайдын

Слова, выражающие год, месяц, день на туркменском и турецком языках

Резюме:

Ареальная лексика тюркских языков Огузской группы включает в себя различные слова, которые похожи по форме и значению или похожи по форме, но различны по значению. Эти слова возникли в отношении образа жизни населения, форм экономики, занятий, быта и традиций. На основе обогащения словарного запаса начинается процесс словообразования. Неологизмы, возникшие благодаря использованию различных грамматических методов в литературных языках, постоянно обновляют и обогащают словарный запас.

Основой композиции словаря тюркских языков являются слова, обозначающие имена. Древнетюркская лексика сохранилась в словаре современных языков с небольшими изменениями. В то же время в результате развития каждый язык создает новые слова за счет своих внутренних возможностей и отличается от других тюркских языков. Огузская группа также показывает некоторые различия в составе тюркских языков, древние слова стали архаизмами, а новообразованные слова различались по форме и значению.

В этой статье было исследовано слова, выражающие год, месяц, день на туркменском языке тюркских языков огузской группы и на турецком. Названия года, месяца и дня, использованные в этом исследовании туркменского языка, были идентифицированы, классифицированы и сопоставлены с турецким языком. Таким образом, в контексте названий года, месяца и дня, были обнаружены связи между двумя тюркскими словами, найденными в словаре. Это исследование помогает выявить богатый словарный запас на туркменском и турецком языках.

Ключевые слова:Тюркские языки огузских групп, Туркменский язык, турецкий язык, ареальная лексика, слова, выражающие названия года, месяца, дня.

Məqalənin redaksiyaya daxil olma tarixi:25.08.2019
Çapa hazırlnma tarixi:29.01.2020
Filologiya elmləri doktoru, professor Məhərrəm Məmmədov tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNARƏ QURBANOVA
ADU
Mingəçevir, Dilarə Əliyeva 21mirzoyeva_86@mail.ru

İNGİLİS DİLİNDƏ GƏNCLƏRİN İSTİFADƏ ETDİKLƏRİ SLƏNQLƏRİN LEKSİK- SEMANTİK QRUPLARI

Xülasə

Slənq sosial və ya peşə qrupların dili olub ədəbi dilə zidd olan və danışıq dilində işlənən sözləri, ədəbi dil normasına uyğun olmayan danışıq dilinin bir variantıdır. Slənqlərin leksik tərkibindən danışarkən qeyd etmək lazımdır ki, slənq daimi inkişaf edən dinamik sistem yaradır. Slənqlər sistemində işlədilən slənq tez bir zamanda ya yeni slənqlə əvəz olunur, ya da istifadədən çıxır unudulur. Gənclərin istifadə etdikləri slənqləri araşdırmaq məhz bu səbəbə görə bir az çətindir, belə ki, gənclərin istifadə etdikləri slənqlər qısa müddət ərzində yaranır və tez bir zamanda istifadədən çıxır. Lakin bəzi slənqlər vardır ki, onlar onilliklərlə dil sistemində işlənir. Bu çətinliklərə baxmayaraq, gənclərin istifadə etdikləri slənqlərin təxmini lüğətlərini hazırlamaq mümkündür. Hər bir slənqin izahı həmin ölkənin gənclərinin mentalitet anlayışını anlamağa imkan verir. Slənq dilin dinamik və ayrılmaz sistemidir. Bundan əlavə, slənq gənclərin özünü ifadə etmək üsuludur. Nəinki müasir dövrümüzün gəncləri, həmçinin əvvəlki dövrlərin gəncləri də slənqlərdən istifadə etmişlər. İnternetin inkişafı, kompyuter texnologiyalarının gündəlik həyatımıza daxil olması müasir slənqlərin çoxalmasına səbəb oldu. Slənqlərin yaranmasının digər səbəbi isə dilin lüğət tərkibinin zəif olmasıdır. Yeniyetmələr slənqlərin köməyi ilə öz yaşıdları ilə ünsiyyət qurur və özlərindən yaşca böyüklər arasında dil baryeri qururlar. Slənqlərin semantik xüsusiyyətlərinə əsasən gənclərin istifadə etdikləri slənqlər 16 semantik qruplara ayrılır: “insan”, “pul”, “narkotik”, “cinsi”, “problemlər”, “geyim”, “avtomobil”, “yemək”, “dələduzluq”, avaraçılıq”, “ölüm”, “sevgi”, “dostluq”, “şənliklər”, polis”. Qeyd etmək lazımdır ki, bu semantik qruplar özləri də yarımqruplara ayrılır. Gənclər tərəfindən istifadə olunan slənqlərin araşdırılan bu leksik- semantik qrupları tərkibində ən çox sayda slənqlər olan qruplardır. Ən az slənq isə bu semantik qruplara aiddir: “problemlər”, “geyim”, “avtomobil”, “yemək”, “fırıldaqçılıq”, işsizlik”, “ölüm”, “məhəbbət”, “dostluq”, “şənliklər”, “polis”. Beləliklə, slənqlərin paradiqmatik mənalarının ümumi xüsusiyyətlərinə görə gənclərin işlətdikləri slənqləri 16 semantik qrupa ayrılır. Bu semantik qruplar isə yarımqruplara ayrılır. Bu qruplara aid olan slənqlər gənclərin maraqlarını əks etdirir.

Açar sözlər: dilçilik, slənq, leksik- semantik qruplar, danışıq dili, dilin lüğət tərkibi

Slənq- qəbul olunmuş ədəbi dil normalarından uzaq olan danışıq dilinin ekspressiv və emosional çalarlı lüğət tərkibidir. Bu termin ən çox ingilis dilində istifadə olunur. Slənqlər danışıq dilində istifadə olunan sözlərin 1/3 hissəsini təşkil edir. Slənq termininin yaranma tarixi haqqında bir sıra fərziyyələr mövcuddur. Belə bir fərziyyə var ki, "slənq" sözü "beggars' language " və ya "rogues' language" (həbsxana dili) ifadəsinin qısaltmasıdır. Bu ifadələrdəki birinci sözün son şəkilçisi ilə ikinci söz birləşir və ikinci sözün sonuncu hecası düşür. Dilin lüğət tərkibi ədəbi dil və ədəbi olmayan dil olaraq iki qrupa bölünür. Ədəbi olmayan dilə peşə, sənət bildirən sözlər, vulqarizmlər, jarqonizmlər və slənqlər aiddir. Peşə, sənət bildirən sözlər eyni peşə, sənət ətrafında birləşən kiçik insan qruplarının istifadə etdikləri sözlərdir. Vulqarizmlər aşağı 129ocial təbəqədən olan insanların (məhbuslar, narkotik maddə satıcıları, evsiz-eşiksizlər və s) istifadə etdikləri kobud sözlərdir. Jarqonizmlər ümumi maraqlar üçün birləşən 129ocial qrupların istifadə etdikləri anlaşılmayan məxfi sözlərdir. Slənqlər dil normalarının pozulduğu sözlərdir. Slənq terminin ingilis dilindən tərcüməsi belədir: Slənq 129ocial və ya peşə qrupların dili olub ədəbi dilə zidd olan və danışıq dilində işlənən sözləri, ədəbi dil normasına uyğun olmayan danışıq dilinin bir variantıdır.

Slənqlərin araşdırılması məsələsi ilə E.Partric, V.Firman, İ.R.Qalperin, İ.V.Arnold kimi rus və ingilis dilçiləri məşğul olmuşlar. E.Partric qeyd edirdi ki, 1850-ci ilə qədər slənq anlayışı "vulqar dil" kimi başa düşülürdü, lakin XX əsrin 2-ci yarısında bu termin "danışıq dili" bildirən bir termin kimi qəbul edilməyə başlandı. İ.V.Arnoldun fikrincə isə, slənq anlayışına danışıq dilində istifadə olunan sözlər və bədii ədəbiyyatda işlənən kobud, məzəli və ya emosional məna çaları olan sözlər aiddir.

İ.R.Qalperin "Slənq" termini haqqında" məqaləsində slənqləri qeyri-müəyyən xüsusiyyətlərinə əsaslanaraq onların mövcud olmasını inkar edir. O belə hesab edirdi ki, slənqlər leksika və frazeologiyanın elə bir layıdır ki, canlı danışıq dilində danışıq neologizmləri kimi yaranır və asanlıqla hamı tərəfindən qəbul edilmiş ədəbi danışıq dilinə keçə bilirlər. Qalperin slənq anlayışını ayrı və müstəqil kateqoriya kimi qəbul etmirdiş O təklif edirdi ki, slənq ingilis sözü olan jarqon sözünə sinonim kimi işlənsin. Məşhur dilçi İ.R.Qalperin slənq haqqında söyləmişdir ki, slənq termini dedikdə asanlıqla hamı tərəfindən başa düşülən, ədəbi danışıq dilinə keçə bilən və canlı danışıq dilində istifadə olunan dilin lüğət tərkibidir. [3]

Müxtəlif lüğətlərdə eyni bir sözün həm slənq, həm də loru söz kimi göstərildiyinə görə İ.R.Qalperin slənqi ayrı bir kateqoriya kimi öyrənilməsinin əleyhinə idi və slənq terminin "jarqon" sözünə sinonim kimi işlədilməsini təklif edirdi.

Slənqlər çox ifadəli, bəzən istehzalı, gündəlik həyatda istifadə olunan sözlərdir. Slənqlər ayrı-ayrı 129ocial qrupların nümayəndələrinin lüğət tərkibində yaranmış, bu 129ocial qrupların məşğuliyyətini əks etdirən sözlər və frazeoloji birləşmələrdir. Slənqlər əsasən 14-15 yaşlarından 24-25 yaşlarına qədər olan gənclərə aid olan emosional çalara malik olan lüğət tərkibidir. Hamı tərəfindən istifadə olunan bu sözlər öz emosionallığını qoruyub saxlayır. Gənclərin özünəməxsus aləmi var. Sirr deyil ki, hər bir yeniyetmə fikirlərini ifadə etmək tərzinə görə seçilmək istəyir. Bu yaş həddinə aid olan yeniyetmə-

lər emosiyalarının dayanıqsızlığı, hamı kimi olmaq istəmələri ilə digər yaş qruplarından fərqlənmək və öz düşüncələrini fərqli şəkildə çatdırmaq istəyirlər. Gənclərin istifadə etdikləri slənqlərin yaranmasının səbəbi məhz budur.

Slənqlərin leksik tərkibindən danışarkən qeyd etmək lazımdır ki, slənq daimi inkişaf edən dinamik sistem yaradır. Slənqlər sistemində işlədilən slənq tez bir zamanda ya yeni slənqlə əvəz olunur, ya da istifadədən çıxır unudulur. Gənclərin istifadə etdikləri slənqləri araşdırmaq məhz bu səbəbə görə bir az çətindir, belə ki, gənclərin istifadə etdikləri slənqlər qısa müddət ərzində yaranır və tez bir zamanda istifadədən çıxır. Lakin bəzi slənqlər vardır ki, onlar onilliklərlə dil sistemində işlənir. Bu çətinliklərə baxmayaraq, gənclərin istifadə etdikləri slənqlərin təxmini lüğətlərini hazırlamaq mümkündür. Hər bir slənqin izahı həmin ölkənin gənclərinin mentalitet anlayışını anlamağa imkan verir. [4] Slənq dilin dinamik və ayrılmaz sistemidir. Bundan əlavə, slənq gənclərin özünü ifadə etmək üsuludur. Nəinki müasir dövrümüzün gəncləri, həmçinin əvvəlki dövrlərin gəncləri də slənqlərdən istifadə etmişlər. İnternetin inkişafı, kompyuter texnologiyalarının gündəlik həyatımıza daxil olması müasir slənqlərin çoxalmasına səbəb oldu. Slənqlərin yaranmasının digər səbəbi isə dilin lüğət tərkibinin zəif olmasıdır. Yeniyetmələr slənqlərin köməyi ilə öz yaşıdları ilə ünsiyyət qurur və özlərindən yaşca böyüklər arasında dil baryeri qururlar.

Slənqlərin leksik- semantik xüsusiyyətlərinə əsasən gənclərin istifadə etdikləri slənqlər 16 semantik qruplara ayrılır: "insan", "pul", "narkotik", "cinsi", "problemlər", "geyim", "avtomobil", "yemək", "dələduzluq", avaraçılıq", "ölüm", "sevgi", "dostluq", "şənliklər", polis". Qeyd etmək lazımdır ki, bu semantik qruplar özləri də yarımqruplara ayrılır. "İnsan" semantik qrup aşağıdakı yarımqruplara ayrılır: "bədən üzvləri", "cinsiyyət", müsbət və mənfi xüsusiyyətlər", "peşələr".

"Bədən üzvləri" yarımqrupunu araşdırarkən belə məlum olur ki, ən çox slənq bu yarımqrupa aiddir: *mədə- basket, cinsiyyət orqanı- banana, cock, dick, gun, hammer, meat, pipe, prick, schlong, stick, tube və s;qadın sinəsi- boobs, globes, hangers, headlights, humps, knockers, lollies, milkers, tits və s.; arxa- behind, booty, cheeks, keyster, moneymaker, pooper, seat, tush və s.* ; *baş- brain box, coco, napper, noodle, nut, pimple, thinker; yumruq- bunchof fives; ağız- cakehole, yap; dişlər- chewers, chompers; üzmap, pan, mug, puss*; *bığ- mouser; çeçələ barmaq- pinky; sızanaq- plukes, zits; ayaqlar- puppies; ağıl- smarts, upstairs; ürək- ticker. Məsələn,*

I'm going to drill a bloody big hole in your brainbox.- Mən sənin başında böyük qanlı dəlik açacam. [9,78]

Shut your cakehole!- Ağzını yum [5,45]

*The forty-three-year- old woman went on and on about eating dinner and having the chompers suddenly fall half out- 46 yaşlı qadın nahar etməyə davam etdi, qəflətən dişləri töküldü. [7,*38]

Gənclərin istifadə etdikləri slənqləri araşdırarkən məlum olur ki, cinsiyyət üzvlərinin sinonim slənqlərin sayı daha çoxdur. Bunun səbəbi isə odur ki, gənclər cinsi həyatla daha çox maraqlanırlar.

I simply idolize girls like you who have feline eyes, auburn hair, sensuous lips, huge knockers- Mən sadəcə olaraq pişik kimi gözləri, şabalıdı saçı, hissiyatlı dodaqları, iri sinəsi olan qızlara pərəstiş edirəm. [6, 65]

"Cinsiyyət" adlanan leksik- semantik yarımqrupa qadın və kişi cinsinə aid slənqlər aiddir. "Qız, qadın" cinsinə aid olan slənqlər bunlardır: *biddy, bimbo, chick, doll, mama (mami, momma, mummy), tootsie, whatshername və s.* Bu slənqlərin sayı iyirmi üçdür. Məsələn, *He must have been tripping or something when he thought he was in love with whatshername.- O ona aşiq olduğunu düşünəndə büdrədi və ya buna bənzər nəsə oldu. [15,*5] Kişi cinsinə aid olan slənqlər bunlardır: *blade, bloke, buster, chap, cookie, cove, daddy, dude, fella (fellow), GQ (Gentlemen's Quarterly Magazine), hubbie, johnny, kiddo, kipper, mate, nam, nigga, (man), pal, sport, stud, SWF (single white male), yob (boy), vato.* Məsələn,

Ədəbiyyat

1.Антрушина Г.Б., Афанасьева О.В., Морозова Н.Н. Лексикология английского языка. М.: Дрофа,2000.
2. Гальперин, И.Р. О термине «сленг»// Вопросы языкознания/И. Р. Гальперин. - 1956.-№6.-с. 1
3. A dictionary of American idioms (Ed. By Makkai A.): Barrows, 1987
4. American slang (ed. By Chapman R.Y.): Harper and row, 1987
5. Bea Paige, Skye MacKinnon. Hell's Weeping: A reverse harem. Peryton Press, 2018, 200p
6. Bill York. Fatal Encounter. iUniverse, 2001 408p
7. Bobby Hutchinson . Straight to the Heart. Kensington Publishing Corporation, 2003, 352p
8. Demetria R. Harper, MA. God, help me, İ keep falling!:The cries of of a young teenager's heart. AuthorHouse, 2011 64p
9. James F. Park. Loren Pell. Lulu.com, 2018, 158p
10. Longman Dictionary of Contemporary English. 6th edition. England: Longman, 2014.
11. Mary Frame. Imperfect Chemistry. Kinddle edition, 2014, 218 p
12. Neil Cross. Captured. Open Road Media Mystery & Thriller, 2015 268 p
13. Partridge E. A dictionary of Historical slang. – London: Penguin, 1972
14. ReShonda Tate Billingsley. The Motherhood Diaries 2: Humorous and Heartwarming Musings on Motherhood. Brown Girls Publishing, 2014 222p
15. Ryan Jo Summers. İt happened in the park. Satin Romance, an imprint of Melange Books, Llc; First Edition edition, 2017 118p
16. Stanley Evans. Seaweed on the street. Touch Wood Editions; Stated First Edition edition, 2010 192p

17. Terri Marie. Tides of Vengeance. CreateSpace Independent Publishing Platform; first edition, 2014 232p

G. Gurbanova

Lexico-semantic groups of English youth slang

Summary

Slang is a variant of the spoken language, whether it is the language of social or occupational groups, which is contrary to the literary language and is used in spoken language. Speaking of lexical composition of slang, it should be noted that slang creates a dynamically evolving system. Slang used in the syllabus will either be replaced by a new slider or forgotten soon. That is why it is a little difficult to investigate the slurs used by young people, as young people use slangs in a short period of time and quickly disappear. However, there are some tricks that have been used in the language system for decades. In spite of these difficulties, it is possible to make approximate dictionaries of slangs used by young people. The explanation of each slogan allows you to understand the mentality of young people in that country. Slang is a dynamic and integral system of language. In addition, skiing is a way for young people to express themselves. Not only the youth of our time, but also the youth of earlier times used slang. The development of the Internet, the introduction of computer technology into our daily lives has spurred modern slang. The other reason for the formation of slang is the poor vocabulary of the language. Teens communicate with their peers with the help of slangs and build a language barrier among older people. Based on semantic properties of slang, slangs used by young people are divided into 16 semantic groups: "human", "money", "drug", "sex", "problems", "clothing", "car", "eating", "fraud", "death", "love", "friendship", "party", “police”. It should be noted that these semantic groups are also divided into subgroups. These lexical-semantic groups studied by slangs used by young people are the groups with the highest number of slangs. The least slang refers to these semantic groups: "problems", "clothing", "car", "eating", "cheating", unemployment, "death", "love", "friendship", "parties", "police" ". Thus, due to the general features of the slang paradigmatic meanings, slangs used by young people are divided into 16 semantic groups. These semantic groups are divided into subgroups. Slangs belonging to these groups represent the interests of young people.

Key words: linguistics, slang, lexico- semantic groups, spoken language, vocabulary

Г. Гурбанова

Лексико-семантические группы английского молодежного сленга

Резюме

Сленг - это вариант разговорного языка, будь то язык социальных или профессиональных групп, который противоречит литературному языку и используется в разговорной речи. Говоря о лексическом составе сленга, следует отметить, что сленг создает динамически развивающуюся систему. Используемый в программе сленг будет либо заменен новым слайдером, либо скоро будет забыт. Вот почему немного трудно исследовать пятна, используемые молодыми людьми, поскольку молодые люди используют сленг в течение короткого периода времени и быстро исчезают. Однако есть некоторые приемы, которые использовались в языковой системе десятилетиями. Несмотря на эти трудности, можно составить приблизительные словари сленга, используемого молодыми людьми. Объяснение каждого лозунга позволяет понять менталитет молодых людей в этой стране. Сленг - это динамичная и целостная система языка. Кроме того, катание на лыжах - это способ самовыражения молодежи. Не только молодежь нашего времени, но и молодежь более ранних времен использовали сленг. Развитие Интернета, внедрение компьютерных технологий в нашу повседневную жизнь стимулировало современный сленг. Другая причина образования сленга - плохой словарный запас языка. Подростки общаются со сверстниками с помощью сленга и создают языковой барьер среди пожилых людей. Основываясь на семантических свойствах сленга, сленги, используемые молодыми людьми, делятся на 16 семантических групп: «человек», «деньги», «наркотики», «секс», «проблемы», «одежда», «мАшина», «еда», «мошенничество», приключения. «Смерть», «любовь», «дружба», «вечеринка», полиция. Следует отметить, что эти семантические группы также подразделяются на подгруппы. Эти лексико-семантические группы, которые изучают сленги, используемые молодыми людьми, являются группами с наибольшим количеством сленга. Наименьший сленг относится к этим семантическим группам: «проблемы», «одежда», «машина», «еда», «обман», безработица, «смерть», «любовь», «дружба», «вечеринки», «полиция» Таким образом, из-за общих особенностей парадигматических значений сленга, используемые молодыми людьми сленги делятся на 16 семантических групп. Эти семантические группы делятся на подгруппы.

Ключевые слова: лингвистика, сленг, лексико-семантические группы, разговорный язык, состав словаря

Məqalənin redaksiyaya daxil olma tarixi:23.11.2019

Çapa hazırlnma tarixi:21.01.2020

Filologiya elmləri doktoru, professor Çingiz Qaraşarlı tərəfindən çapa tövsiyə olunmuşdur

НАРГИЗ КАРИМОВА
Преподаватель кафедры иностранных языков
Мингечевирский Государственный Университет
nara_modest@list.ru

ОСОБЕННОСТИ ФРАЗЕОЛОГИЗМОВ С КОМПОНЕНТОМ «ДЕНЕЖНАЯ ЕДИНИЦА» В СОВРЕМЕННОМ НЕМЕЦКОМ ЯЗЫКЕ И ОТРАЖЕНИЕ В НИХ НАЦИОНАЛЬНЫХ ЧЕРТ ХАРАКТЕРА

Резюме

Hazırda elmi-texniki tərəqqinin inkişafı təbii olaraq təlimdə texniki vasitələrin tətbiqinə ciddi zərurət və geniş imkan yaratmışdır.Təhsilin informatlaşması-təhsilin keyfiyyətini yüksəltmək məqsədilə İKT-nin intensiv tətbiqinə əsaslanır, təhsildə mövcud vəziyyətin dəyişməsinə, onun yeniləşməsinə, bütövlükdə təhsilin məzmun və forma etibarilə texnoloji baxımdan innovativ xarakter almasına xidmət edir.Müasir informasiya cəmiyyətində şagird və tələbə lazımi məlumatı axtarmaq, seçmək, təhlil etmək, yeni informasiya yaratmaq, bu əsasda mövqe formalaşdırmaq, qərar qəbul etmək və qərarı həyata keçirmək kimi səriştələrə yiyələnə bilir.İndi hər bir müəllimin vəzifəsi təhsilalanlara öyrənməyi öyrətmək, onlara yardımçı olmaq, bələdçi (fasilitator) rolunda çıxış etmək, informasiya mənbələri ilə tələbə arasında vasitəçi funksiyasını yerinə yetirməkdir. Unutmaq olmaz ki, təlimin yeni texnoloji proseslə aparılmasında müəllim təşəbbüskarlığı və fərdi nümunəviliyi, problemə yaradıcı yanaşması ən vacib şərtlərdəndir.**B.Kumaravadiveli qeyd edir ki**, Müəllim öz təşəbbüs və qənaətlərini aktiv tərəfin-təhsilalanların fikir və fəaliyyətləri ilə birləşdirdikdə, başqa sözlə, düzgün ümumiləşdirilmə apardıqda, tədrisi interaktiv (birgəfəaliyyət, əməkdaşlıq, qarşılıqlı kollektiv iş) səmtə istiqamətləndirdikdə təlimin texnoloji səmərəsi daha üstün olur.Texnoloji prosesə sistem halında yanaşmaqla həm təhsilalanların idrakının formalaşmasına, fəaliyyət çevrəsinin genişlənməsinə, həm də müəllim novatorluğunun məkan və zaman daxilində yeni keyfiyyətlərlə görünməsinə əlverişli şərait yaradılmış olur.(**3-p.276**)

Pedaqoji təhsilin informatlaşması istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

1. Müəllim hazırlığında İKT-nin, yeni təlim üsulları və texnologiyaların tətbiqi.

2. Pedaqoji ixtisaslar üzrə təhsilalan şagird və tələbələrin biliyinin cari və yekun qiymətləndirilməsi üzrə yeni üsulların, texnologiyaların, İKT vasitələrinin tətbiqi.
3. Pedaqoji təhsil müəssisələrində distant təhsil formasının tətbiqi.
4. Pedaqoji təhsil müəssisələrinin kompüterləşdirilməsi, elektron təhsilin həyata keçirilməsi.

..İnnovasiyalardan istifadə müasir təhsil sistemində beynəlxalq standartları səciyyələndirir. E-vasitələrdən istifadə üçün ilk növbədə müəllim İKT-yə dair biliklərə malik olmalı və onlardan istifadə edə bilməlidir. Müasir dərsi şərtləndirən əsas cəhətlərdən ən əsası dilöyrənənlərin fəallığıdır ki, bu zaman interaktiv (fəal) təlim metodlarından istifadə etmək məqsədə çatmaqda əsas vasitəyə çevrilir.Bu metodlar fonunda iş formaları müəyyənləşdirilir:

1. fərdi,2cütlərə,3böyük və kiçik qruplarla iş.

Beləliklə, müasir dərsdə haqqında bəhs etdiyimiz bu məsələlər bir-biri ilə sıx əlaqədə olub, biri digərini tamamlayır. Bunların əsasında isə təlim nəticələri, məzmun standartları, təlim strategiyaları dayanır.

Ədəbiyyat

1.Krashen S.D. Principles and Practicein Second Language Acquisition. Pergamon Press Inc. 1982, 202 p.
2.Kumaravadivelu B.Towards a postmethod pedagogy. Quarterly,2001. p.537-560
3.Kumaravadivelu B.Understanding Language Teaching. From Method to Postmethod. London. Tylor&Francais e-Library, 2008, 276 p.

S.Baguirov

The use of constructive learning methods and innovative methods in English lessons

Summary

The article deals with the effective ways of organizing and conducting modern English lessons and working out effective ways of listening skills. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners` ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. The article is devoted to the audio and video materials in modern methodology. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in methodology. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently.

The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate worldwide education system. One of the main goals of language learning is to acquire the ability to communicate effectively. It will make the process of teaching oral speech more effective.

Key words:strategy, oral speech, contest, english, semantical

С.Багирова

Использование конструктивных методов обучения и инновационных методов обучения на уроках английского языка

Резюме

В данной статье рассматриваются вопросы эффективные пути организации и проведения современные английские уроки. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранным языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно – функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будеть содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль упражнении. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путем внедрения и использавание современных информационна-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Ключевые слова:стратегия устная речь, конкурс, английский, семантически

Məqalənin redaksiyaya daxil olma tarixi:23.11.2019
Çapa hazırlnma tarixi:21.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Rəfiq Cəfərov tərəfindən
çapa tövsiyə olunmuşdur

IRADA İSGENDARZADE
Azerbaijan State Pedagogical University
G.Aliev 92.
Irada@yahoo.com

THE USE OF NEW METHODS OF TEACHING ENGLISH IN THE MODERN LINGUISTICS SYSTEM

Summary

This article is based on linguistic structures. They are pairing of meaning and form. Any particular pairing of meaning and form is a saussurean sign. Linguistics focusing on structure attempt to understand and rules regacding language use that native speakers know (not always consciously).

All linguistic structures can be broken down into components parts that are combined according to (sub) conscious rules. On the level of structure (know morphology) the word "tenth" is made up linguistic form. Although most speakers of English are consciously aware of the rules. Linguistic is focused on the words and sentences. Linguistics has many sub-fields concerned with particular aspect.

The theory that elucidates on these, as propounded by generative theory. One major debate in linguistics concerns the very nature of language. Some linguistic hypothesize that there is a module. Some theories in linguistics are grammar theories. They are called "functional" theories. Linguistics is primarily descriptive. Linguistic describe and explain features of language without making subjective judgements.

Key words: linguistics, language, speech, morphology, theory, methods.

Human language is the most familiar of subjects, but most people do not devote much time to thinking about it. The basic fact we start with is this: I can make some gestures that you can perceive and almost instantaneously you come to have an idea about what I meant. Not only that your idea about what I meant is usually similar to the idea of the student sitting next to you (the finite connectivity of linguistic structure of linguistic structure stabler," Using our commousense notion of sentence (which will be refined with various technical concepts later), we can expend any sentence you choose to a new, longer one. In fact the number of sentences is unlimited even if restrict our attention to "sensible" sentences, sentences that any competent speaker of the language could understand (barring memory lapses, untimely deaths, etc).

This argument is right, but there is a stronger point that we can make. Even if we restrict our attention to sentences of reasonable length, say to sentences with lezs than 50 words or so, there are a huge number of sentences. Anderson, Staphen R. "A morphous morphology, Cambridge University (1-1992, p.11-12). Of the words, 44 %

occur only once. If you lord at sentencesof words, then an even higher proportion occur just once. Since most sentences in an average day have more than three words, it is safe to conclude that most of the sentences you hear, you will only ever hear once in your life. How can people understand so many sentences, when most of them are so rave that they will only be heard once if they are heard at all? Our understanding of exactly how thiscould work took a great leap early in this century when mathematicians noticed our ability to do this is analogous to the simpler mathematical task of putting small number or sets together to get larger ones. (Linguistics. Halle, Morris and Alec Marantiz,(2- 1993, p.51-52).

New sentences are meanings of their basic parts and how they are combined. This is where the emphasis on basic units comes from; we are assuming that the reason you understand a sentences is not usually that you have heard in and figured it out before. Rather, you understand the significance of combining those parts in various ways. We analyze a language as having some relatively small number of basic units, together with some relatively new number of ways putting these units together.

This system of parts and modes of combinations is called the qramman of the language (Understanding Morphology, Haspelmath, Martin, 2002,3- p.34-35). In fact, human languages seem to require compositional analysis at a number of levels; speech sounds are composed from basic articulatory features; morphemes from sounds; words from morphemes; phrases from words. We will zil all this later.

The semantic compasitionality is perhaps the most intriguing though. Meaningful productivity is explained by compositionality (“The hand book of Morphology, Spenser, Andrew and Arnold”, 1998, London,4-p.53-54). Linguistics is the scientific study of language. It involves analyzing language form, language meaning and language in context. The earliest activies in the documentation and descuption of language linguistics traditionally analyse human language by observing an interplay between sound and meaning.

Phonetics is the study of speech and non-speech sounds, and delves into their acoustic and articulatory propersties. The study of language meaning, on the other hand deals with how languages ancode relatious between entities, properties, and other aspects of the world to convey process and assign meaning. (O`Grady, William, Golin Achibald. Mark Aronoff and Ganie Rees Miller “Contemporary linguistics” Bedford Boston, 2010,. In the eary 20th century, Ferdinand de Saussure distinguished between the notions of langue and parole in his formulation of structural linguistics. Linguistics also deals with the social, cultural, historical and political factors that influence language, through which linguistics and language-based context is often determined. Research on language through the sub-branches of historical and evolutionary linguistics also focus on how languages change and groq, particularly over an extended period of time (Halle, Morris and Alec Marantiz. “Linguistics. We know that linguistics, such as a dialect is a variety of language that is characteristic of a particular group among the language speakers.

The group of people who are the speakers of a dialect are usually bound to each other by social identity. This is what differentiates a dialect from a register or a discourse, where in the latter case, cultural identity dose not always play a role. ("The finite connectivity of linguistic structure" Stabler, Edword,. Dialects are speech varieties that have their own grammatical and phonological rules, linguistic features and stylistic aspects, but have not been given an official status as a language.

Dialects often move on to gain the status of a language due to political and social reasons. Differentiation amongst sialects (and subsequently, languages too) is based upon the use of grammatical rules syntantic rules, and stylistic features. Uspencer, Andreww and Arnold "The Handbook of Morphology, 1998, London, Universal grammar, also takes into account general formal structures and features that are common to all dialects and languages, and the template of which pre-exists in the mind of an infant child. This idea is based on the theory of generative grammen and the formal school of linguishics (O`Grady, William, John Archibald, Mark Aronoff and Ganue Rees Miller "Contem porary Linguishis, Bedford Boston, We may as individuals be rather found of our own dialect. This should not make us think, through, that it is actually any better than any other dialect. Dialects are not good or bad, nice or nasty, right or wrong – they are just different from one another, and it is the mark of a civilized society that it tolerates different dialect just as it tolerates different races, religions and sexes. The lexicon is a catalogue of words and terms. Although the term "linguist" in the sense of a student of language" dates from 1641, the linguistics" is first attested in 1847 (Halle, Morris and Alec marantiz" Linguistics" .

Linguistics is a multi-disciplinary field of research that combines tools from natural sciences, social sciences and the humanitaries. Many linguists, such as David Crystal conceptualize the field as being primarily scientific. While some theories on linguistics focus on the different varieties that language produces, among different sections of society, others focus on the universal properties that are common to all human languages. ("The finite connectivity of linguistic structure, Stabler, Edward, London,. The theory of variation thegefore would elaborate on the different usages of popular languages like French and English across the globe as weel as its smaller dialects and regional permutations writhin their national foundaries. The theory of variation books at the cultural stages that a particular language undergoes, and these include the following, i.e. pidgin stage in a language is a stage when communication occurs through a grammatically simplified neans, developing between two or more groups that do not have a language in common. Typically it si a mixture of languages at the stage when there occurs a mixing between a primary language with other language ("Haspel math, Martin" Understanding morphology, London, Discourse is branch of linguistics. Discourse analysis can examine or expose these ideologies. It influences genre, which is chosen in response to different situations and finally, at micro level, discourse influences language as text (spoken or written) at the phonological or lexico-grammatical level.

Литература

1.Anderson, Stephen R. A.Morphous Morfology, Cambridge University.1992.p.48-49.
2.Halle Mprris and Alec Maraztiz 1993. Linguistics, London.p.51-52.
3.Haspeltmath, Martin, 2002. Understanding Morphology, London. P.34-35.
4.Spencer, Andrew and Arnold "The Haudbook of Morphology, 1998.p.53-54.

İ.İsgəndərzadə

Müasir dilçilik sistemində İngilis dilinin tədrisi prosesində yeni metodlarlardan istifadə edilməsi

Xülasə

Məqalədə dilçilik haqqında çox geniş məlumat verilmişdir. Dilçilik elminin tarixini, adətən, qədim dövrlərdən izləmək mümkündür. "Dil haqqında yeni təlim"in əsas müddəalarından biri elmi dilçiliyin böyük nailiyyətlərindən olan müqayisəli – tarixi diçiliyi tamamilə qəbul etmirdi. Həmin təlim dillər arasındakı inkaredilməz yaxınlığı bu dillərin eyni mənşədən olmaları kimi deyil, tamamilə fərqli bir mövqedən izah edirdi. Məlumdur ki, Stabler frazeologiyanı bir elm kimi ayıran ilk alimlərdəndir.

Söz yaradıcılığının müstəqil bir sahə kimi müəyyənləşdirilməsi və nəzəri cəhətdən izah edilməsi də ilk növbədə ilk növbədə Stablerin adı ilə bağlıdır. Nəzəri dilçilik, şərti olaraq ümumi və xüsusi dilçiliklərə bölünür. İngilis və fransız mənbələrindən linqvistika işlərsə də o, dilçiliyin sinonimi kimi başa düşülür. Strukturalizimdə daxili və xarici dilçilik fərqləndirilsə də, linqvistika ümumi və nəzəri dilçiliyin bir hissəsi kimi başa düşülür.

XX əsrin ortalarından bu yana linqvistika çağdaş, sinxron, daxili struktura yönəlikli bir elm kimi götürülür və bütün səviyyələrdə dil qanunauyğunların aydın və formal təsviri metodlarla tədqiq edir. Umumiyyətlə, dil fəaliyyətdə olarkən onun vahidləri cümlə yaradır və mənalı informasiya ifadə etməyə yönəlir. Deməli, dil vahidləri ünsiyyət vasitəsi olan dilin varlığını, onun əsasını təşkil edir. Vahidlərdən kənarda dil ola bilməz.

Dilin ən başlıca vasitəsi isə sözdür. Sözlər isə dilçilikdə öz əksini leksikologiyada tapır. Hər bir elmin anlayışlarını təsnif etmək əsasında onun anlayışlar sistemi müəyyənləşir. Dilçilik elminin də əsrlər boyu anlayışlar sistemi yaranıb formalaşmışdır.

Açar sözlər: linqvistika, dil, nitq, morfologiya, nəzəriyyə, metodlar.

I.Isgendarzade

Использование новых методов преподавания Английского языка в современной лингвистической системе

Резюме

В этой статье лингвистика в широком смысле слова подразделяется: теоретическая лингвистика, прикладная лингвистика, практическая лингвистика. Теоретическая лингвистика исследует языковые законы и формулирует их как теории. Можно говорить не только и «языках», но и о «языку» вообще, поскольку языки мира имеют много общего. Общую лингвистику изучает общие черты всех языках.

Частную лингвистику изучает отдельный язык, группу родственных языков или пару контактирующих языков. Практическая лингвистика в отличие от научной охватывает виды ненаучной деятельности. Каждому из направлений практической лингвистики соответствует его отражения. Одноязычная лингвистика описательная лингвистика ограничивается описанием одного языка. Сравнительная лингвистика сравнивает языки друг с другом.

А так же лингвистика языка изучает язык как код, то есть систему объективно существующих социально-закрепленных знаков. В составе лингвистики выделяют разделы в соответствии. Лексикология тоже изучает индивидуальные свойства отдельных слов. Единицами морфологии принято считать морфему и слова в их взаимоотношениях. Единицами синтаксиса принято считать структуру таких конструируемых единиц языка. Язык, изучаемый лингвистом – это язык – объект, а язык, на котором формируется теория.

Ключевые слова: лингвистика, язык, речь, морфология, теория, методы.

Məqalənin redaksiyaya daxil olma tarixi:11.12.2019
Çapa hazırlnma tarixi:21.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Kəmalə Mehdixanlı tərəfindən
çapa tövsiyə olunmuşdur

EMİL İSAZADƏ
ADU
Rəşid Behbudov 138
isazadeemil96@gmail.com

ALMAN DİLİNDƏ FRAZEOLOGİZMLƏRİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN TƏRCÜMƏ YOLLARI

Summary

Məqalədə alman dilində işlənmə tezliyi ilə seçilən sabit ifadələrin səciyyəvi xüsusiyyətlərinin, spesifik əlamətlərinin, onların dildə işlənmə imkanlarının və dildaxili linqvistik rəngarəngliklərinin öyrənilməsi nəzərdə tutulur. Eyni zamanda dildə frazeologizmlərin yaranması, onların dilin milli-mədəni spesifikası ilə bağlılığı və başqa dillərə tərcümə yolları tədqiq və təhlil olunur. Məqalədə alman dilində işlənən frazeologizmlərin forma və məzmun zənginliyi, leksik-semantik xüsusiyyətləri də müəyyənləşdirilir və kəsb etdiyi məna çalarları araşdırılır. Araşdırmalar göstərir ki, frazeologizmlərin əksəriyyəti söz birləşmələri və cümlə səviyyəsində məcazlaşma prosesi keçən, dildə semantik bütövlük qazanan və hazır şəkildə işlədilən sabit ifadələrdir. Ümumiyyətlə, frazeologizmlərdə ekspressivlik, üslubi və emosional çalarlıq yüksək səviyyədə olur və bu onlarda müxtəlif şəkildə öz ifadəsini tapır. Alman dilndə bütün sabit ifadələr üçün metaforik olaraq məna dəyişməsi, bütün komponentlərin hamısının birlikdə vahid məna ifadə etməsi, sabitlik, dəyişilməzlik və xalqın tarixi ilə bağlılıq kimi səciyyəvi xüsusiyyətlər xarakterikdir. Dildə frazeologizmlərin sabitliyi onların komponentlərinin əvəz edilməzliyi və məna vahidliyi ilə bağlıdır. Sabit ifadələrin başqa dillərə tərcüməsinin sözbəsöz tərcümə, dəqiq ekvivalent tərcümə, ekvivalent qeyri-dəqiq tərcümə və təsviri yolla tərcüməsi kimi yolları ayırd edilir. Sabit ifadələrin əmələ gəlməsi və inkişafı ilə bağlı gəldiyimiz qənaəti belə yekunlaşdırmaq olar ki, frazeologizmlər dilin daşıyıcısı olduğu olan xalqın mədəni-milli dünyagörüşünü əks etdirir. Onlar xalqın tarixi ilə əlaqəli olub, əsasən atalar sözləri, məsəllər və dilin daxili imkanları hesabına yaranır və dildə əsrlər boyu yaşayır.

Açar sözlər: sabit ifadələr,frazeologizmlər,qanadlı sözlər,metaforik köçürmə,frazeologizmlərin tərcümə yolları

Frazeologiya sabit ifadələrin ümumi məcmusu və dilçiliyin ən mühüm sahələrindən biri olaraq söz birləşmələrinin tədqiqi ilə məşğul olur. Məhz bu nöqteyi-nəzərdən də sabit söz birləşmələrinin ümumi məcmusu olan frazeologiya problemi ilə tarixən bir sıra tədqiqatçılar araşdırmalar aparmış, onu müxtəlif aspektdən öyrənməyə çalışmışlar.

Alman dilçilərinin frazeologiya ilə bağlı əsərlərinin təhlili göstərir ki, onlar frazeologizmlərin mənşəyi və məna çalarlarının öyrənilməsi sahəsində geniş tədqiqat

işləri aparmışlar. Lakin həmin tədqiqat əsərlərində frazeologizmlərin elmi-nəzəri təhlili, o cümlədən də sabit ifadələrin xarakterik xüsusiyyətləri, struktur əlamətləri, cümlə daxilindəki sintaktik rolu, sərbəst sintaktik söz birləşmələri ilə qarşılıqlı əlaqələri və xüsusən də başqa dillərə tərcümə yolları və imkanları haqqında əsaslı fikirlər verilməmişdir(3, 174; 2, 183).

Rus dilçilərinin, xüsusən də V.V.Vinoqradov və A.A.Şaxmatovun sabit söz birləşmələri ilə bağlı əsərlərinin təhlili göstərir ki, onlar frazeologiyanın nəzəri məsələlərinin tədqiq və təhlilinə böyük diqqət yetirmişlər. V.V.Vinoqradov rus dilçilik ədəbiyyatında sabit söz birləşmələrinin xüsusi təsnifatınıvermişdir. O, araşdırmalar nəticəsində bütün frazeologizmləri məna vahidliyi və metaforik köçürülmə dərəcəsinə görə 3 qrupa bölmüşdür: 1) frazeoloji vahidlər, 2) frazeoloji qovuşmalar (calaşmalar), 3)frazeoloji birləşmələr(5, 174-175; 9, 279).

Dilçilik ədəbiyyatında frazeologi birləşmələrin əsas struktur növlərinin müəyyənləşdirilməsi barədə fikir ayrılığı Ş.Ballinin adı ilə bağlıdır. O, frazeoloji birləşmənin məna vəhdətini əsas əlamət kimi qəbul edir. Ş.Balli frazeoloji birləşmələrin struktur oxşarlıq prinsipinin pozulmasında da sabit predikativ söz birləşmələrinin frazeoloji birləşmə kimi qəbul edilməsini qeyd etmişdir (4, 22-23).

Qeyd etmək istərdik ki, dilçilik ədəbiyyatında frazeologiya ilə bağlıbu kimi məsələlərin öyrənilməsində və xüsusən də sabit söz birləşmələrinin elmi-nəzəri aspektdən araşdırılmasında V.V.Vinoqradov Ş.Balli və A.A.Şaxmatov kimi dilçilərin fikirlərinə istinad etmiş və onların frazeologiyayadair fikirlərini özünəməxsus bir tərzdə daha da təkmilləşdirmişdir.

V.V.Vinoqradovun fikrincə, frazeoloji bitişmələr hər şeydən əvvəl metaforik köçürülməsi, tam semantik məna kəsb etməsi, bölünməzliyi və sabit ifadələrin ayrı-ayrı elementlərinin ümumi məna bütövlüyü ilə seçilir. Onlar struktur baxımdan sabit söz birləşmələri kimi xarakterizə olunur, lakin mənasına görə vahid bir məfhum ifadə etməsi ilə diqqəti cəlbedəndir. Frazeoloji birləşmələr isə sintaktik baxımdan asanlıqla tərkib hissələrinə ayrıla bilir və onların komponentlərindən birini digər sinonimləri ilə əvəz etmək olur. Lakin bu proses frazeoloji vahidlər və frazeoloji qovuşmalarda mümkün deyildir (6,140-141).

İngilis dilində frazeologizmlərin tədqiqi və təhlilini aparan rus dilçisi A.Kunin frazeologiyanı yalnız bütün komponentlərinin mənası tam dəyişmiş sabit ifadələr deyil, komponentlərindən birinin öz leksik mənasını saxlayan frazeologizmlər kimi xarakterizə edir (8, 29).

Ə.Hacıyeva qeyd edir ki, frazeologizmlər ikili xarakter daşıyır: bir tərəfdən, onlarda bəzi arxaik qrammatik cəhətlər mühafizə olunur, digər tərəfdən, bu vahidlər dilin leksik-semantik layında daim dəyişikliyə uğrayan bir sahə kimi dili həm qrammatik, həm də semantik cəhətdən inkişaf etdirib möhkəmləndirir(1, 18).

Qeyd etmək istərdik ki, dildə sabit ifadələrin, frazeologizmlərin əmələ gəlməsi və inkişafı, bir qayda olaraq, dilin milli-mədəni spesifikası, onun təbiəti, xarakterik xüsusiyyətləri, dilin daşıyıcısı olan xalqın yaşam tərzi və adət və ənənələri ilə əlaqə-

ləndirilir. Ona görə də, frazeologizmlərin spesifikxüsusiyyətlərinin, səciyyəvi əlamətlərinin və başqa dillərə tərcümə yollarının öyrənilməsi üçün ilk öncə onların yaranma yollarının, inkişaf üsullarının daha geniş şəkildə araşdırılması və xalqların milli xüsusiyyətlərinin tarixi aspektdən öyrənilməsi tələb olunur.

Tarixən həm alman həm də əcnəbi dilçilik ədəbiyyatında frazeologizmlərin struktur-semantik baxımdan bölgüsünə böyük önəm verilmişdir. Bu bölgüyə görə frazeologizmlər aşağıdakı qruplara ayırd edilmişdir: söz cütlükləri, idiomlar, qanadlı sözlər və atalar sözləri.

Söz cütlükləri iki eyni nitq hissəsinə məxsus olan sözün birlikdə işləndiyi sabit ifadələr hesab edilir. Onlar struktur baxımdan digər frazeoloji qruplardan əsaslı şəkildə fərqlənir. Alman dilində söz cütlükləri arasında əlaqələndirici vasitə kimi *und* bağlayıcısından, *für* və *um* sözönülərindən istifadə edilir. Bundan başqa onlar oyfonik vasitələr, alliterasiya və qafiyə uyğunluğu ilə düzəlir. Məsələn: ***K**isten und **K**asten, bei **N**acht und **N**ebel; mit **Ach** und Kr**ach**; mit S**ack** und P**ack**, ausser R**and** und B**and*** və s.

İdiomlar donmuş, tamamilə sabitləşmiş söz qrupları kimi anlaşılır. Onlar sərbəst sintaktik söz qruplarından əmələ gəlir, metaforik köçürmə nəticəsində tamamilə yeni bir məna ifadə edir. Məhz bu səbəbdən də idiomları təşkil edən sözlərin ümumi məcmusu onun komponentləri ilə eyniyyət təşkil etmir. Məsələn: *auf der Bärenhaut liegen –veyil-veyil gəzmək, tənbəllik etmək; durch die Lappen gehen -əkilmək, kimdənsə qaçmaq; die Augen in die Hand nehmen –bir kəsə baxmaq, göz qoymaq*və s.

Qanadlı sözlər dedikdə, ayrı-ayrı sözlər deyil, həm də söz birləşmələri nəzərdə tutulur. Qanadlı sözlər strukturuna görə müxtəlif dillərdə heç də həmişə uyğun gəlmir. Belə ki, onların struktur fərqliliyi hər bir dilin xarakterik xüsusiyyətlərindən asılı olaraq dəyişə bilər. Alman dilində qanadlı sözlər müxtəlif mənbələrdən yarana bilir. Onlar hər şeydən əvvəl hər hansı yazıçı, alim, siyasətçi və fərdi şəxslərin işlətdiyi aforizmlərdən, çağırış, şüar, dərinmənalı ifadə, kəlam və hakimanə sözlərdən və eləcə də müxtəlif səpgili mətndən götürülmüş çıxarış, yəni sitatdan yarana bilir. Məsələn: Şekspir yaradıcılığından götürülmüş *to be or not to be = alman dilində: sein oder Nicht sein= rus dilində: быть или не быть; alman dilində: Sturm im Wasserglase=rus dilində: буря в стакане воды* və s.

Qanadlı sözlərin ən xarakterik xüsusiyyətlərindən biri də onların yaradıcılarının və mənbələrinin məlum olması ilə bağlıdır. Dildə müxtəlif çalarları və rəngarəngilikləri ilə müəyyən nüansları özündə ehtiva edən, əməlgəlmə mənşəyinə görə siyasi, ədəbi, tarixi, xəlqi, mifik və diniqanadlı sözlər ayırd edilir. Atalar sözləri sabit ifadələrdən məzmun və struktur baxımdan fərqlənməklə bərabər, dildə donmuş, bərkimiş, xalqın danışıq tərzində dövr edən hikmətli kəlamlar kimi, əsasən cümlə formasında mövcud olur və bitmiş fikri ifadə edir. Məsələn: *j-m ein Dorn im Auge sein- birisinin gözünə tikan olmaq (tikan kimi batmaq); Man schmiedet das Eisen, solange es heiss ist- dəmiri isti-isti döyərlər; Von schönen Worten wird man nicht satt- halva-halva deməklə ağız şirin olmaz*və s.

Alman dilində sabit ifadələrin varlığını şərtləndirən əsas xüsusiyyətlər onların ilk öncə struktur qapalılığı ilə bağlıdır. Bununla belə, frazeologizmlər üçün xarakterik olan əsas amillərdən biri də onların dildə hazır şəkildə mövcudluğu və semantik baxımdan bütövlüyüdür. Ümumiyyətlə, dildə sabit ifadələrin komponentləri arasındakı semantik bağlılığın dərk olunmasını çətinləşdirən əsas amillərdən biri də onların idiomluq əlaməti ilə bağlıdır, yəni sabit ifadələrin mənası ilə onun ayrı-ayrı komponentlərinin mənası arasında uyğunsuzluq vardır. Məhz bu səbəbdən də bütün dillərdə, o cümlədən də alman dilində sabit birləşmələrin sözbəsöz tərcümə oluna bilməməsi onların dildə varlığını şərtləndirən ən mühüm faktorlardandır. Bu səbəbdən də alman dilndə ifadəsi müxtəlif üsullarla həyata keçirilən bütün sabit ifadələr üçün aşağıdakı səciyyəvi xüsusiyyətlər xarakterikdir:

1. metaforik olaraq məna dəyişməsi;
2. bütün komponentlərinin hamısının birlikdə vahid məna ifadə etməsi;
3. sabitlik, yəni möhkəmlik;
4. xalqın tarixi ilə bağlılıq.

1.Yuxarıda qeyd etdiyimiz kimi, alman dilində sabit ifadələrin əksəriyyəti üçün metaforik köçürmə xarakterik bir haldır. Tam və yaxud qismən metaforik köçürmə nəticəsində atalar sözləri və qanadlı sözlər istisna olmaqla, frazeologizmlərin əksəriyyətində ümumi vahid məna yaranır. Məsələn: *Es ist mir einerlei; egal; es ist mir Wurst*.Bu sabit ifadələrdə metaforik köçürmə nəticəsində yeni bir məna əmələ gəlmişdir. *Nəyəsə, kiməsə laqeyd, etinasız, fərqsiz yanaşmaq;*və yaxud *mənim üçün kolbasanın hansı tərəfindən kəsməyin fərqi yoxdur* mənasında metaforik olaraq fikir nəzərdə tutulur.

2. Alman dilində frazeologizmlər üçün səciyyəvi olan xüsusiyyətlərdən biri də onların bütün komponentlərinin hamısının birlikdə vahid məna ifadə etməsi ilə xarakterizə olunur. Bu halda frazeoloji söz birləşmələri müxtəlif cümlə üzvləri kimi də təqdim edilir: *den Mund halten; die Schnauze halten; das Maul halten* və s. cümlənin mübtədası kimi *die schöne Marianne, ein ausserordentlich schönes Frauenzimmer*, *woran* ***der Zahn der Zeit*** *schon seit zwanzig Jahren kaut…;* cümlənin təyini kimi *der Pastor, schon wieder* ***aus dem Konzept gebracht,*** *antwortete ärgerlich;*xəbərin bir hissəsi kim "***Eine harte Nuss***, *Escherich...*" *– Es gibt keine Nuss, die so hart ist... "*və s.

3. Frazeologizmlərin ən mühüm səciyyəvi xüsusiyyətlərindən biri də onların sabit, möhkəm olması və dildə əsrlər boyu yaşamasıdır. Frazeologizmlərin sabitliyi onların komponentlərinin əvəz edilməzliyi və məna vahidliyi ilə bağlıdır. Frazeologizmlərin şifahi və yazılı nitqdə geniş şəkildə işlədilməsi, yayılması onların stabilliyinə və eləcə dəhəyati əhəmiyyətli məfhumları ifadə etməsinə təsir edir. Məsələn: *Fuss fassen- ayaqları üstdə möhkəm dayanmaq; auf freien Füssen setzen- azad etmək; auf grossem Fuss leben- varlı həyat keçirtmək; mit j-m auf gutem Fuss stehen-*bir kəslə yaxşı münasibətdə olmaq;*j-m den Kopf waschen- bir kəsi şiddətli danla-*

maq; den Kopf oben behalten- ruhdan düşməmək; j-m den Kopf zurechtrücken- bir kəsin başına ağıl qoymaq və s.

4. Dil ictimai kateqoriya kimi xalqın tarixi ilə əlaqəli olub, onunla birlikdə inkişaf edir. Hər bir xalqın inkişaf xüsusiyyətləri, onun adət və ənənələri həmin xalqın dilinin lüğət tərkibində əks olunmuşdur. Ümumiyyətə, sabit ifadələrdil abidələri kimi xalqın uzun illərdən bəri mövcud olan müxtəlif adət və ənənələrini itirməsinə baxmayaraq hər bir xalqın dilində əsrlərləyaşayır. Məsələn:*zu Kreuze kriechen- hörmətdən düşmək, alçalmaq*. Bu sabit ifadə alman dilində tarixən katolik dini adət və ənənələri ilə bağlı olaraq yaranmışdır. Bu sabit ifadənin məğzi isə ondan ibarətdir ki, möminlər, yəni dindarlar Yas cüməsində (Karfreitag) gecə saat 12-dək yevangel kilsələrində günahlarından və təqsirlərindən azad olmaq üçün ibadət etməkləTanrıya yalvarıb xahiş edirlər.Həmin gün İsa Məsihin çarmıxa çəkilməsi günü kimi xatırlanır. Həm də həmin gün İsa Məsihin ölüm saatlarında Tanrıya xüsusi ibadətə toplantı vacib sayılır. Digər bir sabit ifadə, *unter die Haube bringen- ərə vermək, ərə getmək*; bu sabit ifadə qədim alman dilində adət və ənənələrə görə ərə gedən qadınların örtük bağlamaları ilə bağlı olaraq yaranmışdır; *Ein gosses P schreiben- qadağan etmək, mane olmaq;*bu sabit ifadə alman dilində taun xəstəliyi və ondan az da qorxulu olmayan qara çiçək xəstəliyi ilə əlaqədar olaraq yaranmışdır və ona əsaslanır ki, xəstəliyə yoluxmuş evin qarşısında giriş qadağandır kimi **P** hərfi yazılmışdır.

Frazeologizmlərin başqa dillərə tərcüməsinin əsas özəllikləri onun tərkibindəki söz birləşmələrinin xüsusiyyətləri ilə sıx bağlıdır. Təbii ki, burada əsas məqsəd sabit ifadələrin məna məzmununun verilməsindən, müvafiq ekvivalentinin tapılmasından və bəzən də onun tərcüməsindən ibarətdir. Dilçilik ədəbiyyatında sabit ifadələrin başqa dillərə tərcümə edilməsinin qeyri-mümkünlüyü haqqında fikirlər də mövcuddur. Frazeologizmlərin tərcümə olunmamazlığı bir qədər mübahisəli məsələlərdəndir. Əgər frazeologizmlərin sözbəsöz tərcüməsindən, frazeologizmlərdə işlənən sözlərin hərfi tərcüməsindən bəhs edilərsə, onda sözsüz ki, onların başqa dillərə tərcüməsi tamamilə anlaşılmazlıq, dildə dolaşıqlıq və mənasızlıq yaratmış olar. Ümumiyyətlə, "tərcümə" termini çox geniş bir məfhumdur. Ona görə də frazeologizmlərin başqa dillərə tərcüməsi zamanı onun bədiiliyi, obrazlılığı, milli səciyyəvi xüsusiyyətləri qorunub saxlanılmalıdır. Bu nöqteyi-nəzərdən də elmi-nəzəri mənbələrdə alman dilindəki sabit ifadələrin başqa dillərə tərcüməsinin dörd yolu qeyd edilir:

1. sözbəsöz (hərfi) tərcümə (bunu kalka yolu ilə tərcümə də adlandırmaq olar);
2. dəqiq ekvivalent tərcümə;
3. qeyri-dəqiq ekvivalent tərcümə;
4. təsviri yolla tərcümə.

1. Frazeologizmlərin sözbəsöz (hərfi) tərcüməsi, əsasən qanadlı sözlər üçün xarakterikdir. Məsələn: *Man sieht nicht auf die Goschen, sondern auf die Groschen- Ağza yox, cibə baxırlar.*Qeyd eymək istərdik ki, bu qanadlı sözdə *Goschen* (ağız), *Groschen* (cib) mənasında işlənmişdir. Və yaxud *O, Zeiten! O, Sitten! – Ah o günlər, o zamanlar (dövrlər)* və s.

2. Frazeologizmlərin başqa dillərdə verilməsinin ən yaxşı yolu dəqiq ekvivalent tərcüməsidir. Frazeologizmlərin bu yolla digər dillərə tərcüməsində onların ən münasib ekvivalenti seçilib tapılır və bu zaman onların təkcə mənasına deyil, həm də tərcümə olunan söz birləşməsinə daha müvafiq olan və ondan semantik baxımdan fərqlənməyən, mənbə dilin öznəməxsus xüsusiyyətlərini özündə ehtiva edən sözlərə üstünlük verilir. Belə halda frazeologizmlərin tərcüməsi zamanı onların tərcümə olunduğu dildə ekvivalentinin olub-olmaması və yaxud kalka yolu ilə başqa dildən götürülməsi qətiyyən əhəmiyyət kəsb etmir. Məsələn: *auf grossem Fusse leben- varlı həyat keçirmək; in die Augen fallen- gözə çarpmaq; j-m den Kopf warm machen- bir kəsi qızışdırmaq; sich die Augen aus dem Kopfe sehen- gözlərini xarab etmək* və s.

3. Frazeologizmlərin başqa dillərə tərcüməsində bəzi hallarda qeyri-dəqiq ekvivalent tərcümə yolundan da istifadə edilir. Qeyri-dəqiq ekvivalent tərcümədə heç də həmişə sabit ifadələrin səciyyəvi xüsusiyyətləri verilmir. Məsələn: *Eulen nach Athen tragen-lazımsız bir iş görmək; auf der Bärenhaut liegen- veyil-veyil gəzmək, tənbəllik etmək* və s.

Sabit ifadələrin digər yollarla tərcüməsi mümkün olmadıqda təsviri yolla tərcüməsindən istifadə edilir. Bu halda sabit ifadələrin mənbə dildəki obrazlılığı, emosionallığı, ekspressivliyi, özünəməxsusluğu və milli səciyyəliliyiitir (7, 124). Ona görə də bütün dillərdə frazeologizmlərin bir dildən digər dilə tərcüməsi zamanı yuxarıda qeyd etdiyimiz milli səciyyəvi xüsusiyyətlər özünü büruzə verir. Alman dili də frazeologizmlərləzəngin bir dil olub, mahiyyətinə, üslub çalarlarına və üslubi rəngarəngliklərinə görə diqqəticəlbedəndir. Məsələn: *etwas um ein Butterbrot kaufen- su qiymətinə almaq, dəyər-dəyməzinə, müftə almaq; Schwein haben- bəxti gətirmək; die Katze im Sack kaufen-bir şeyi yoxlamadan almaq, gözüyumulu bazarlıq etmək, əlinə keçəni almaq* və s.

Araşdırmalar göstərir ki, ayrı-ayrı dillərdə sabit ifadələrin əksəriyyətinin ekvivalentləri mövcuddur. Lakin onların müəyyən bir hissəsi dil sisteminin- leksik, qrammatik və semantik səviyyələrində müxtəlif şəkildə təzahür edir. Ona görə də sabit ifadələrin dil sisteminin müxtəlif səviyyələrindəki fərqliliyi intralinqvistik və ekstralinqvistik amillərlə bağlıdır. Bununla belə, dildə sabit ifadələrlə bağlı aparılan təhlillər belə bir nəticəyə gəlməyə əsas verir ki, onların əksəriyyəti tarixən semantik təkamül nəticəsində yeni məna kəsb edərək, müxtəlif məna çalarları ifadə etmişdir.

İstifadə edilmiş ədəbiyyatın siyahısı:

1. Hacıyeva Ə.H. Müxtəlifsistemli dillərdə somatik frazeoloji birləşmələr. Filol. elm. dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2009
2. Borchardt-Wustmann-Schoppe. Die sprichwörtlichen Redensarten im deutschen Volksmund nach Sinn und Ursprung erläutert, 7. Aufl., Leipzig 1955
3. Richter A. Deutsche Redensarten, Leipzig 1889

4. Балли Ш. Французская стилистика. М., Издательство иностранной литературы. М., 1961
5. Виноградов В.В. Основные понятия русской фразеологии как лингвистической дисциплины.// Труды юбилейной научной сессии ЛГУ, Л., 1946
6. Виноградов В.В. Об основных типах фразеологических единиц в русском языке. Избранные труды по русской лексикологии и лексикографии. М., 1977
7. Ковалева Л.В. О некоторых лексико-семантических соответствиях фразеологизмов русского и немецкого языков // аспекты лексического значения. Воронеж, 1982
8. Кунин А.В. Английская фразеология. М.: Дубна «Феникс», 2005
9. Шахматов А.А. Синтаксис русского языка. М., 1941

E.N. Isazade

The characteristic features of the phraseologisms in german and their ways of translation

Summary

The article deals with the investigation of the characteristic features of the set-expressions, their usage, frequency andintralanguage variety. At the same time the origin of the phraseologisms, their association with the national-cultural specification of the language, their ways of translation into other languages are investigated and analyzed. The formation and the great context of the phraseologisms, their lexical-syntactic features and meanings are defined and studied.According to the investigation the majority of the phraseologisms are the set-expressions which have passed the process of figurativeness in the level of the word combinations andthe sentence, have acquired the semantic completeness. Generally the expressiveness, the stylistic and emotional shades in the phraseologisms are in the high level and they are expressed in different ways. The changing of the meaning metaphorically, the expression of all the components as one unit, stability, the connection with the history of the people are the characteristic features of the phraseologisms in the German language. The stability of the phraseologisms in the language is connected with thenon-substitution of the components and the unity of the meaning in the language. In the theoretical sources the following four ways are distinquished for the translation of the set-expressions into other languages: word by word translation, exact equivalent translation, inexact translation and descriptive translation. Thus the set-expressions reflect the natural-cultural outlook of the people who speak in any language. They have been connected with the history of the people and are mainly created on the account of the provebs, sayings and the opportunity of theintralanguage and they have been used in the language for ages.

Key words: set-expressions, phraseologisms, winged words, metaphorical moving, the ways of translation of the phraseologisms

Исазаде Э.

Характерные особенности фразеологизмов
в немецком языке и способы их перевода
Резюме

В статье рассматривается изучение характерных особенностей, специфических признаков, возможностей использования в языке и лингвистического разнообразия устойчивых выражений, отличающихся частотой использования в немецком языке. В то же время изучаются и анализируются способы возникновения фразеологизмов в языке, их связь с национально-культурной спецификой языка и перевод на другие языки. В статье также изучаются богатство формы и содержания, лексико-семантические особенности фразеологизмов, используемых в немецком языке, и исследуются оттенки смыслов, которые они приобретают. Исследования показывают, что большинство фразеологизмов-это устойчивые выражения, которые проходят процесс моделирования на уровне словосочетаний и предложений, приобретают смысловую целостность в языке и используются в готовом виде. В целом, в фразеологизмах экспрессивность, стилевые и эмоциональные оттенки являются очень яркими, что по-разному в них отображается. Для всех устойчивых выражений в немецком языке характерны такие специфические черты, как метафорическое изменение смысла, выражение всеми компонентами единого значения, стабильность, неизменяемость и связь с историей народа. Стабильность фразеологизмов в языке связана с неизменяемостью их компонентов и единством смысла. Различают такие способы перевода устойчивых выражений на другие языки, какдословный перевод фразеологизмов (калькирование),метод фразеологического эквивалента, метод неполного фразеологического эквивалента и перевод описательным способом. Вывод, который мы делаем относительно формирования и развития устойчивых выражений, можно обобщить, сказав, что фразеологизмы отражают культурно-национальное мировоззрение народа, носителя языка. Они связаны с историей народа, возникают в основном за счет пословиц, притч и внутренних возможностей языка и живут в языке веками.

Ключевые слова: устойчивые выражения, фразеологизмы, крылатые выражения, перенос метафор, способы перевода фразеологизмов.

Məqalənin redaksiyaya daxil olma tarixi:25.12.2019
Çapa hazırlnma tarixi:24.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Yusifov tərəfindən
çapa tövsiyə olunmuşdur

KƏMALƏ YUSİFOVA
ADU
elxankamal@mail.ru
Təbriz küç 134

MÜASİR İNGİLİS DİLİNDƏ SUAL CÜMLƏLƏRİNDƏKİ EKSPRESSİVLİK

Xülasə

Müasir ingilis dilində ekspressivlik sual cümlələrində böyük əhəmiyyət kəsb edir. Tədqiqatlar nəticəsində aydın olmuşdur ki, sual cümlələrinin ümumi, xüsusi, alternativ və ayırıcı növləri cümlədəki ekpressivliyin ifadə edilməsinə görə bir-birindən fərqlənir. Emosional-ekspessivlik ifadə olunan cümlələrin quruluşu sual cümlələrinin quruluşu ilə eyniyyət daşısa da, burada əsas məqsəd sual vermək deyil, danışanın hiss-həyəcanını və emosional durumunu nəzərə çatdırmaqdır. Bu tip cümlələr emfatik intonasiya ilə tələffüz edilərək həmsöhbətinə sadəcə öz emosional vəziyyətini göstərmək, lakin ondan heç bir cavab almamaq məqsədini daşıyır. Cümlənin sonunda qoyulan sual işarəsinin yalnız sual verərək məlumat almaq xarakteri deyil, həmçinin güclü ekspressivlik xarakterinə malik olması da aşkarlanmışdır. Bununla bağlı olaraq, həmçinin cümlələrin sonunda qoyulan nida işarəli sual-nida cümlələri də forma baxımından sual bildirsə də, məzmunca danışan şəxsin fikrinə, yaxud rəftarına qarşı öz emosional münasibətini bildirir. Belə cümlələr əsasən ritorik sual cümləsi olub, demək olar ki, qarşı tərəfdən qətiyyən cavab gözləmir. Bu zaman danışan şəxs öz hiss-həyəcan və emosiyalarını sadəcə olaraq sual formasında ifadə edir. Ekspressiv sual-nida cümlələri əsasən *what (whatever)* sual əvəzliyi, *how (however), why* sual zərfləri ilə, yaxud da güclü intonasiya ilə başlanır. Belə cümlələrin xəbəri həm təsdiqdə, həm də inkarda ola bilər. Belə cümlələr adətən insanların əhval-ruhiyyəsini, sevincini, kədərini, sevgisini, nifrətini ifadə edib emosional prizmadan dəyərləndirilərək ekspressiv formada göstərilir. Ekspressiv sual cümlələrinin əsli və törəmə növlərini ayırd etmək olar. Əsli sual cümləsi ekspressivliyi nitq prosesi zamanı adresatdan aldığı informasiya ilə ötürür. Belə cümlələr müvafiq situasiyalara uyğun ekspressiv çalarlar ilə müşahidə olunur. Törəmə sual cümləsi isə əmr və nəqli cümlələrin sual tərkibləri ilə transpozisiyası əsasında meydana gəlir. Bu tərkib isə nitqə xüsusi intensiv ekspressiv çalarlıq verir.

Açar sözlər:ritorik suallar, sual-nida cümlələri, sual-əmr cümlələri

Ekspressivlik latın dilindəki “expressio” sözü olub, ifadə etmə mənasını bildirir. Ekspressivlik adresantın nitq predmetinə subyektiv prizmadan yönəlmiş emosional bir münasibətidir. O, danışanın nitqin məzmununa münasibətinin subyektiv ifadə

vasitəsi kimi kommunikativ aktda çıxış etmək qabiliyyətini təmin edən dil vahidlərinin semantik-üslubi əlamətlərinin cəmidir.Ekspressivlik yalnız ətraf mühitin təsiri altında insanda yaranan emosiyaları, hiss-həyəcanları göstərmək üçün deyil, həmçinin nitqi daha obrazlı, daha təsirli etmək üçün adresata xüsusi bir təsir gücü nümayiş etməyə yönəlmişdir.

Nitqin ekspressivliyi qeyri-adiliyi ilə səciyyələnir. Belə ki, bu ekspressivlik leksik vahidlərin qeyri-adi üslubi sayəsində meydana çıxır. Ekspressivliyi kommunikativ kateqoriya olaraq hər hansı bir situasiyada leksik vahidin qüvvətli şəkildə ifadəsi kimi də anlamaq mümkündür.

Ekspressivlik danışanın nitq predmetinə subyektiv prizmadan yönəlmiş emosional bir münasibətidir. Ekspressivlik yalnız ətraf mühitin təsiri altında insanda yaranan emosiyaları, hiss-həyəcanları göstərmək üçün deyil, həmçinin nitqi daha obrazlı, daha təsirli etmək üçün adresata xüsusi bir təsir gücü nümayiş etməyə yönəlmişdir.

Nitqin ekspressivliyinin müasir konsepsiyasının banisi olan Ş.Balli ekspressivliyi üslubi problem olaraq tədqiq etmişdir. Onun konsepsiyasında intellektuallıq və affektivlik bir-birini tamamlamayan, bir-birinə zidd olan münasibətlərdə özünü büruzə verir. Ş.Balli ekspressivliyi nitqdəki ifadəlilik, obrazlılıq, təsvirlilik kimi izah etmişdir (1, 23).

B.P.Konetskaya, V.N.Teliya kimi dilçilər ekspressivliyin sözlərin strukturuna daxil ola bilməsi faktını qeyd edərək dil sistemində söyləmin ekspressivliyinə imkan yaratmaq üçün bir sıra vasitələrin mövcudluğunu vurğulamışlar. B.P.Konetskaya ekspressivliyə həm nominativ, həm də stilistik prizmadan yanaşaraq onun kommunikativ funksiya ilə üzvi surətdə bağlılığını xüsusi şəkildə nəzərə çatdırmışdır (4, 69).

V.N.Teliya isə ekspressivliyi nitqin koqnitiv aspektində olan bir kateqoriya kimi müəyyənləşdirərək onu danışanın deyilən söyləmə münasibətini assosiativ-obrazlı təsəvvürü kimi canlandırır (8, 52).

V.V.Vinoqradov isə ekspressivliyin qrammatik vasitələri olaraq arzu, əmr kimi modal məna çalarlı sintaktik tərkiblərin kommunikasiyada ekspressiv səciyyəyə malik olmasını qeyd etmişdir (3,26).

Nəticə etibarilə, ekspressivlik tədqiqatçılar tərəfindən adresantın adresata yönəltdiyi emosional münasibətin dil vasitəsilə ötürülməsi kimi izah edilir.

Müasir ingilis dilində ekspressivlik sual cümlələrində böyük əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, sual cümlələri sual məqsədilə işlədilən cümlələr olub adresantın sual cümləsi vasitəsilə başqasından müəyyən bir məsələni öyrənmək, müəyyənləşdirmək, bir məsələyə aid onun münasibətini bilmək və s. istəyir. Sual cümlələri özünəməxsus quruluşa, intonasiyaya malik olub, sual əvəzlikləri və zərfləri ilə təqdim olunur. Tədqiqatlar nəticəsində aydın olmuşdur ki, sual cümlələrinin ümumi, xüsusi, alternativ və ayırıcı növləri cümlədəki ekpressivliyin ifadə edilməsinə görə birbirindən fərqlənir. Sual cümlələrinin növü haqqında dilçilərin müxtəlif baxışları mövcuddur.

Sual cümlələrinin özünəməxsus əlamətlərinə görə Q.V.Berkaş aşağıdakı növlərini göstərir: formal əlamətinə görə əvəzlikli və əvəzliksiz suallar, məntiqi əlamətinə görə isə kopulyativ və predikativ suallar (2,10).

R.L.Reyqand ingilis dilində sual cümlələrinin üç növünü ayırd etmişdir: vasitəsiz sual, əsil vasitəsiz nitqdə olmayan sual və onları yarımnövlərə bölən sual-təkrar (7, 4).

Xüsusi sualların beş növünü ayırd edən V.P.Nikolayev aktual üzvlənmə nöqteyi-nəzərindən sual cümlələrinin daha iki növünü – müntəzəm surətdə oppozisiya təşkil edən əvəzlikli və alternativ sual növlərini qeyd etmişdir (5, 9).

Sual cümlələri hər hansı bir kontekstdə ikinci dərəcəli rol oynayır. Bu onunla izah olunur ki, sual cümlələri danışan şəxsin həmsöhbətin ifadə etdiyi fikrə, yaxud onun rəftarına olan emosional-ekspressiv münasibət bildirir. Emosional-ekspessivlik ifadə olunan cümlələrin quruluşu sual cümlələrinin quruluşu ilə eyniyyət daşısa da, burada əsas məqsəd sual vermək deyil, danışanın hiss-həyəcanını və emosional durumunu nəzərə çatdırmaqdır. Bu tip cümlələr emfatik intonasiya ilə tələffüz edilərək həmsöhbətinə sadəcə öz emosional vəziyyətini göstərmək, lakin ondan heç bir cavab almamaq məqsədini daşıyır.

Sual cümlələrindəki ekspressivlik danışanın daxili həyəcanını əks etdirir. Danışanın daxili nitqindəki, fikrindəki ekspressivlik dinləyicisi olmadığına görə bəzən xarici nitqindəki ekspressivlikdən özünü daha qabarıq şəkildə göstərir.

Deməli, cümlənin sonunda qoyulan sual işarəsinin yalnız sual verərək məlumat almaq xarakteri deyil, həmçinin güclü ekspressivlik xarakterinə malik olması da aşkarlanmışdır. Bununla bağlı olaraq, həmçinin cümlələrin sonunda qoyulan nida işarəli sual-nida cümlələri də forma baxımından sual bildirsə də, məzmunca danışan şəxsin fikrinə, yaxud rəftarına qarşı öz emosional münasibətini bildirir. Belə cümlələr əsasən ritorik sual cümlələri olub, demək olar ki, qarşı tərəfdən qətiyyən cavab gözləmir. Bu zaman danışan şəxs öz hiss-həyəcan və emosiyalarını sadəcə olaraq sual formasında ifadə edir.

Məlumdur ki, ritorik suallara aid olan sual-nəqli tipli cümlələr sual cümləsinin geniş bir diapazonda işlənən, ünsiyyət zamanı adresata, yaxud partnyora güclü təsir etmə imkanı ilə seçilir. Vasitəli ifadə üsulu ilə xarakterizə olunan ritorik sualların verilməsindəki əsas məqsəd suallara cavab almaq deyil, əksinə, cavab verməklə onları təsdiqləməkdir.

Ünsiyyət prosesində zəngin ekspressiv imkanları olan, məntiqi əsası hökm, psixoloji əsası isə emosiya olan ritorik sual cümlələrinin adresata güclü təsir etmə qüvvəsinə malik olduğunu İ.R.Qalperin belə izah etmişdir: ”Müxtəlif modal məna çalarları ifadə etmə gücünə görə ritorik suallardan əsasən publisistika üslubunda və xüsusilə də emosiyaların tüğyan etdiyi natiqlikdə istifadə edilir” (9, 246).

Ekspressiv sual-nida cümlələri əsasən *what (whatever)* sual əvəzliyi, *how (however), why* sual zərfləri ilə, yaxud da güclü intonasiya ilə başlanır. Belə cümlələrin xəbəri həm təsdiqdə, həm də inkarda ola bilər. Xəbəri inkarda olan sual-nida

cümlələrindəki ekspressivlik xəbəri təsdiqdə olan sual-nida cümlələrindəki ekspressivlikdən daha emosional səslənir. Buna səbəb belə kontekstlərdə inkarlığın avtomatik şəkildə nitqə ekspressivlik ötürərək danışanın həyəcanını göstərməklə emosionallıq ifadə etməsidir. Belə cümlələr adətən insanların əhval-ruhiyyəsini, sevincini, kədərini, sevgisini, nifrətini ifadə edib emosional prizmadan dəyərləndirilərək ekspressiv formada göstərilir.

Mrs. Arbuthnot: What should I have done in honest households? My past was ever with me...(10, 83)

Ritorik sualları məntiqi nöqteyi-nəzərindən tədqiq edən P.S.Popov qeyd etmişdir ki, "ritorik sual kateqorik hökm üstəgəl nida ilə eyni gücə malikdir." Lakinfikrimizcə, P.S.Popovun bu fikri ilə tam razılaşmaq mümkün deyil. Çünki dilin ümumi kommunikativ paradiqması nöqteyi-nəzərindən yanaşdıqda aydın olur ki, ritorik suallar həm nida, həm də nida tipli olmaya bilər (6,22).

Ritorik suallara xas olan emosional ekspressivlik özünün semantik-sintaktik strukturunun tərkibləri arasındakı əlaqənin nəticəsində meydana gəlir. Bu, həm suallıq və nəqliliyin sintaktik semləri arasındakı, həm də təsdiqliyin və inkarlığın sintaktik semləri arasındakı əlaqədir. Deməli, ritorik suallarda təsdiqliyin və inkarlığın qarşılaşdırılması özünü daha qabarıq şəkildə göstərir. Bu quruluşdakı emosional ekspressivlik həmin qarşılaşdırmaya əsaslanır.

Gerald: Respect him? Idespite him! He is infamous! (10, 85)

Nida ritorik suallarda ekspressivlik yaradan tərkiblərin mənalarını müəyyənləşdirmək üçün geniş kontekstə ehtiyac duyulmur. Belə ki, güclü ekspressivlik kəsb edən sual-nida cümlələrində daxili kontekst kimi məntiqi vurğunun qoyulması ilə, qüvvətli intonasiya ilə, sintaktik quruluşuna görə sual formasında olan, lakin yazılı nitqdə sonunda nida işarəsi qoyulan hər hansı bir cümlədəki nəqli mənanı sual formasında tam aydın şəkildə ifadə etmək mümkündür.

Lady Hunstanton:Isn't it nice and old fashioned?!(10,75)

Sual-nida cümlələrinin yaranmasında "really", "indeed" modal sözlərinin sərbəst şəkildə söz-cümlə formasında işlənməsinə da rast gəlirik. Belə ki, bu modal sözlər sual-nida cümləsi yaradıb əldə edilmiş məlumatı daha da aydınlaşdırmağa xidmət edir. Bu zaman qəbul olunmuş, heç də yeni olmayan informasiyanın dəqiqliyinə bir daha tam şəkildə inanmaq üçün verilmiş sual ekspressivlik yaradır. "Really", "indeed" modal sözlərindən sonra nida işarəsinin qoyulması ilə isə həmin söz-cümlələrin sual deyil, sırf modallıq çaları ifadə etməklə yüksək ekspressivlik yaratmasının şahidi oluruq.

Lord Illingworth: I have never done anything else.

Mrs. Allomby: Really?! I have not noticed it (10, 19).

Lady Hunstanton: Really! What a remote topic! But very improving, I have no doubt (10, 61).

Nida işarəsini tələb edən güclü emosional intonasiya sual-əmr cümlələrinin meydana çıxmasına səbəb olur. Belə cümlələr yüksək gərginlik göstərən ekspressiv-

lik yaradır. Sual-əmr cümlələri formaca sual cümlələrinə oxşasa da, məzmunca arzu ifadə edir. Bu cümlələr adi əmr cümlələrindən daha emosional və ekspressiv səslənir. Sual-əmr cümlələri həmçinin cavab almaq məqsədi ilə verilən sual cümlələrindən də leksik, qrammatik və intonasiya baxımından fərqlənir. Belə cümlələr reallıq baxımından müxtəlif yanaşmalarla təzahür edir. Sual-əmr cümlələrindəki inkarlıq özünəməxsus bir funksiyanı yerinə yetirməklə cümləni emosionallıq və ekspressivlik baxımdan gücləndirir. Belə cümlələrə verilən cavabda məsələyə razılaşma, yaxud da rədd etmə təhriki duyulmaqla yanaşı, problemə aydınlıq da gətirmək mümkündür. Bu mümkünlük isə özünü ekspressiv şəkildə büruzə verir. İnkar formasında işlənən sual-əmr cümlələri adresatı hər hansı bir işi görməyə vadar etdiyi halda, təsdiq formasında olan sual-əmr cümlələri isə onu bu işdən uzaqlaşdırır.

Aparılan tədqiqatın nəticəsində ekspressiv sual cümlələrinin əsli və törəmə növlərini ayırd etmək olar. Əsli sual cümlələri ekspressivliyi nitq prosesi zamanı adresatdan aldığı informasiya ilə ötürür. Belə cümlələr informasiya almaq xarakteri ilə yanaşı, müvafiq situasiyalara uyğun ekspressiv çalarlar ilə müşahidə olunur. Törəmə sual cümlələri isə əmr və nəqli cümlələrin sual tərkibləri ilə transpozisiyası əsasında meydana gəlir. Bu tərkib isə nitqə xüsusi intensiv ekspressiv çalarlıq verir.

İstifadə edilmiş ədəbiyyatın siyahısı

1. Балли Ш. Французская стилистика. М., Издательство иностранной литературы. М., 1961
2. Беркаш Г.В. Логико-грамматическая природа вопроса и ее реализация в авопросноответных структурах английской диалогической речи:Автореф. дис. канд.фил.наук., М., 1969, 30 с.
3. Виноградов В.В. Избранные труды. Лексикология и лексикография. М., Наука, 1977, 244 с.
4. Конецкая В.П. Введение в сопоставительную лексикологию германских языков. М., Высшая школа, 1993, 201 с.
5. Николаев В.П. Взаимосвязь реплик в диалогических группах со специальными вопросами в современном английском языке:Автореф. дис. канд.-фил.наук., Одесса, 1982, 23 с.
6. Попов П.С. Предложение и суждение. В кн. Вопросы синтаксис современного русского языка. М. 1950, с. 15-28
7. Рейганд Р.Л. Вопросительное предложение в английском языке:Автореф. дис. канд.фил.наук., М., 1961, 36 с.
8. Телия В.Н. Механизмы экспрессивной окраски языковых единиц // Человеческий фактор в языке. М., Наука, 1991, с. 36-67
9. Galperin I.R. Stylistics. Moscow, “Higher School”, 1977, 322 p.

Bədii ədəbiyyat
10. Oscar Wilde, A woman of no importance, Penguin Books, 1996

K.Yusifova

The expressiveness in interrogative sentences in modern english

Summary

The expressiveness has a great importance in interrogative sentences in Modern English. As a result of the investigation the kinds of interrogative sentences as general, special, alternative and tag differ from one another according to their expression in the sentence. Though the structure of the sentences denoting emosional-expressiveness are the similar with thestructure of the interrogative sentences, the main aimhere is not to ask the question but to denote the speaker's feelings and emotions. Such kinds of sentences do not need repliesand they are pronounced with emphatic intonation.It has been determined that the question mark which is put at the end of the sentence is not characterised only by asking the questions for getting the information but also has a great expressiveness. Though the exclamation mark which is put at the end of the interrogative-exclamatory sentence denotes the question from the point of view of the form, it expresses its emotional attitude to the speaker's thought from the point of view of the context. Such kinds of sentences are mainly the rhetorical questions which do not expect the answer from the partner. In this case the speaker shows his/her emotions simply in the interrogative form. Expressive interrogative-exclamatory sentences usually begin with the interrogative pronoun *what (whatever),* the interrogative adverbs*how (however), why* and with a strong intonation. The predicates of these sentences can be either in the affirmative or in the negative form. Such kinds of sentences generally express the men's mood, joy, sorrow, regret, indignant, surprise. The expressive interrogative sentences may be primary and secondary. The primary interrogative sentences indicate the expressiveness by getting the information from the speaker during the communication. Such kinds of sentences denote different expressive colours appropriate to various situations. The secondary interrogative sentences have been derived from the transposition of the interrogative consructions of the imperative and declarative sentences. This construction gives a special intensive expressive colour to speech.

Key words: rhetorical questions, interrogative-exclamatory sentences, interrogative-imperative sentences

К.Юсифова

Выразительность в вопросительных предложениях
в современном английском языке
Резюме

В современном английском языке выразительность в вопросительных предложениях имеет большое значение. Было установлено, что такие виды вопросительных предложений, как общие, специальные, разделительные и альтернативные различаются только по интонации.Несмотря на то, что структура предложений, обозначающих эмоционально-экспрессивность, аналогична структуре вопросительных предложений, основная цель заключается не в том, чтобы задать вопрос, а в том, чтобы выразить чувства и эмоции говорящего. Такие предложения не требуют ответа и произносятся с эмфатической интонацией. Было установлено, что вопросительный знак в конце предложения используется не только с целью получения информации, но и длябольшей выразительности. Восклицательный знак, который ставится в конце восклицательно-вопросительного предложения, хотя и обозначает вопрос с точки зрения формы, но выражает эмоциональное отношение к мысли говорящего с точки зрения контекста. Такого рода предложения - это в основном риторические вопросы, которые не нуждаются вответе. В таких предложений говорящий выражает свои эмоции с помощью вопроса. Выразительные вопросительно-восклицательные предложения обычно начинаются с вопросительного местоимениячто (как бы то ни было), вопросительного наречия (однако), почему и сильной интонацией.Предикаты этих предложений могут быть как утвердительные, так и отрицательные.Такие предложения обычно выражают настроение говорящего - его радость, горе, сожаление, возмущение, удивление.Выразительные вопросительные предложения могут быть первичными и вторичными.Первичные вопросителные предложения указывают на выразительность, получая информацию от говорящего во время общения.Такие предложения выражают различные оттенки, соответствующиеразличным ситуациям. Вторичные вопросительные предложения были получены в результате транспонирования конструкций императивных и декларативных предложений. Эти конструкции придают речиособую выразительность.

Ключевые слова: риторические вопросы, вопросительно-восклицательные предложения, императивные вопросительные предложения.

Məqalənin redaksiyaya daxil olma tarixi:26.11.2019
Çapa hazırlnma tarixi:21.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent İradə Nuriyeva tərəfindən
çapa tövsiyə olunmuşdur

TAMİLƏ MƏMMƏDOVA
ADU
Təbriz küç 134
tamiala@mail.ru

ALMAN DİLİNDƏ MƏİŞƏT LEKSİKASI VƏ ONUN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Araşdırmalar göstərir ki, alman dilində məişət terminləri sistemli olaraq tarixən inkişaf dövründə bir neçə mərhələ keçmişdir. Onlar alman dilinin ayrı-ayrı inkişaf dövrlərində müxtəlif xarakterli leksik prosesləri əhatə etmişdir. Həmin leksik vahidlər alman dilində mövcud olan məişət leksikası kimi leksik qata xas olan semantik proseslərdən tam şəkildə uzaqlaşa bilməmişdir. Məhz bu səbəbdən də onların çoxmənalılıq, sinonimlik, omonimlik kimi xüsusiyyətləri məhdud çərçivədə yaranmış və dildə özünəməxsus tərzdə işlənmişdir. Alman dilində məişət terminlərinin əmələ gəlməsində ayrı-ayrı sözlərin mənalarının genişlənməsi, eləcə də xüsusiləşməsi müxtəlif yollarla- metaforikləşmə, metonimiyalaşma və müxtəlif terminoloji mənalarla reallaşmışdır. Qeyd etmək lazımdır ki, alman dilində məişət leksikasına daxil olan sözlər konkret əşya və hadisə proseslərinin adlarını bildirir. Alman dilinin lüğət tərkibinin hərtərəfli təhlili göstərir ki, məişət leksikasına aid edilən sözlər realiləri adlarını bildirən leksik vahidlər olaraq, konkret əşya və hadisələri ifadə etməklə, dilin stabil (dəyişməz) söz ehtiyatına məxsusdur və əsasən dialektlərdən ədəbi dilə keçir və dildə yüz illər boyu yaşayır, inkişaf edir və onu zənginləşdirir. Bununla belə, alman dilinin lüğət tərkibində vətəndaşlıq hüququ qazanmış latın, yunan və xüsusən də fransız dillərindən çoxsaylı alınmalar üstünlük təşkil edir. Alman dilinin inkişafı və zənginləşməsində alınma sözlərlə yanaşı, alman xalqının tarixən qonşusu və təmasda olduğu digər xalqların milli-mədəni xüsusiyyətləri, geniş inkişaf dinamikası və qarşılıqlı dil münasibətləri bütün səviyyələrdə öz əksini tapmışdır. Mövcud lüğətlərin təhlili göstərir ki, alman dilində məişət leksikası ilə bağlı işlənən alınma məişət terminlərinin tərkibi müxtəlifçeşidli, geniş, əhatəli və rəngarıngdir.

Açar sözlər: xalq təbabəti leksikası, yemək, geyim, məişət əşyaları, təhsil və dinlə bağlı işlənən leksik terminlər

Dünyanın dil mənzərəsinin araşdırılması koqnisiya ilə sıx bağlıdır. Dilin bütün söz və söz birləşmələri onun lüğət tərkibini bütövlükdə təsvir və təqdim etdiyinə görə, söz daima dilçilik elmlərinin əsas tədqiqat obyekti kimi araşdırmalara cəlb edilmişdir. Əks etdirmə nəzəriyyəsinə əsaslanaraq sözün bir məfhum kimi geniş və müfəssəl şəkildə izahını dil, təfəkkür və obyektiv gerçəklik kateqoriyaları arasındakı

əlaqələrlə vermək mümkündür. Təfəkkür nəzəriyyəsi obyektiv gerçəkliyi əks etdirir. Bu əks etdirmə dillə sıx bağlıdır. Məhz bu nöqteyi-nəzərdən də dilin təfəkkürsüz, təfəkkürün də dildən kənarda mövcudluğu mümkün deyildir. İnsan obyektiv gerçəkliyi duyğu orqanlarının köməyi ilə qavrayır. Ona görə də yalnız insanın praktik fəaliyyəti sayəsində onun şüurunda obyektiv gerçəkliyin əşya və predmetləri ilə bağlı məfhumlar formalaşır.Məhz bu nöqteyi-nəzərdən də biz məqalədə alman dilində işlənmə tezliyi ilə diqqəti cəlb edən məişət terminlərinin dilin lüğət tərkibindəki mövqeyinin, əmələ gəlmə yollarının və dildə işlənmə məqamlarının elmi şəkildə təhlil olunmasına daha çox diqqət yetirmişik. Alman dilində işləkliyi ilə seçilən məişət terminlərinin ekstralinqvistik və intralinqvistik xüsusiyyətlərinin təhlili bilavasitə alman xalqının tarixi, məişəti, yaşam tərzi, dilinin tarixi, maddi mədəniyyəti, başqa dillərlə və xalqlarla əlaqəsi haqqında tam və dolğun məlumat əldə etməyə imkan yaradır. Dilin leksik sisteminə semantik sahənin məcmusu kimi yanaşsaq, onda bütün dillərdə məişət leksikasının yaranmasını və inkişaf yollarını cəmiyyətdə baş verən sosial-iqtisadi dəyişikliklərdən irəli gəldiyini və birbaşa dilin daşıyıcısı olduğu xalqın tarixi inkişafı ilə sıx bağlı olduğunu anlamaq mümkün olar. Yuxarıda qeyd etdiyimiz faktları nəzərə alsaq, alman dilində məişət əşyalarının, kulinariya terminlərinin, dini klerikal leksikanın, xalq təbabəti və eləcə də dərman bitkilərinin, mərasim və adət-ənənə realilərinin, bayram günlərinin, peşə, sənət, dövlət quruluşu və vəzifə adlarının, meyvə, tərəvəz adlarının və b. semantik xüsusiyyətlərini zəngin dil materialları ilə əlaqəli şəkildə öyrənmək və izləmək dilçilik nöqteyi-nəzərindən mühüm əhəmiyyətə malikdir. Araşdırmalar göstərir ki, yeni doğulan körpənin nitqindəki ilk istifadə etdiyi sözlərin tərkibində məişət leksikası mühüm yer tutur. Bu nöqteyi-nəzərdən yanaşdıqda, insanların malik olduğu leksik sərvətlər müxtəlif dövrlərin məhsulu olub, dil daşıyıcılarının yaşam tərzinin inkişafı ilə bağlı dildə özünə yer tapır. Dilin bütün leksik laylarında xalqın malik olduğu adət-ənənələr və həyat tərzinin izləri özünü büruzə verir. V.M. Şanski müasir rus dilinin leksikologiyası sahəsində apardığı tədqiq və təhlillərə istinad edərək yazır: ”Gündəlik istifadə olunmayan və nitq prosesi üçün zəruriliyini itirmiş sözlər passiv lüğət fonduna aiddir” (6, 142). Azərbaycan dilinin mərasim leksikasını araşdıran tədqiqatçı Ş.M.Süleymanovun fikrincə, məişət leksikası ilə bağlı sözlər etnoqrafik, yaxud etnomədəniyyət leksikasının ən qədim laylarından biri sayılır (4, 7).Cəmiyyətdə gedən sosial-iqtisadi dəyişikliklər, ictimai-siyasi hadisələr də məişət terminologiyasına öz təsirini göstərməklə bərabər, dildə yeni leksik vahidlərin yaranmasına, onların inkişafına, müxtəlifçeşidli məna çalarları kəsb etməsinə, təkmilləşməsinə və dilin aktiv söz bazasında işlənmə tezliyi ilə seçilməsinə gətirib çıxarır. Məsələn, *Führerprinzip*(n) (rəhbərlik prinsipi)- Bu prinsipə görə Almaniya ərazisində əsas qanunları rəhbər, yəni Hitler tək qəbul edir, onun tabeçiliyində olanlar isə ona şərtsiz itaət edirlər; *Gestapo*(f) (gizli siyasi polis idarəsi)- Nasist hakimiyyəti dövründə gizli siyasi polis idarəsi kimi Hitler hakimiyyətə gələndən sonra işğalçılıq siyasətində və insanların həbs edilməsində bir alət idi. *SS* (f) (Schutzstaffel)- Alman

faşistlərinin terror təşkilatı; *Reichstag (m)*- Almaniyada 1933-cü ilə qədər seçilən, faşizm dövründə isə təyin edilən parlament və bu parlamentin binası və s.

Geyim bildirən leksik vahidlər: *Naziuniform (f)*- faşistlərin geyindiyi hərbi geyim; *Taufkleid (n)*-xaç suyuna salma mərasimində suya salınan şəxsin geyindiyi ağ paltar; Dirndlkleid *(n)*- önlüklü al-əlvan paltar və s.Dövlət quruluşu və vəzifələrlə əlaqədar işlənən leksik vahidlər: *Bundesamt (n), Bundesbahn (f), Bundesbank (f), Bundeskanzler (m), Bundesland (n), Bundesminister (m), Bundespost (f), Bundesrat (m), Bundestag (m), Nationalrat (m)*- parlamentin milli üzvü və s.Təhsillə bağlı işlənən leksik vahidlər: *Grundschule (f)*- şagirdlərin 6 yaşından təhsil almağa başladıqları və dörd il oxuduqları məktəb; *Hauptschule (f)*-bu məktəb ibtidai təhsildən sonra 5 illik məktəb hesab olunur. Bu məktəb şagirdlər üçün məcburidir və onlara sənət məktəbinə daxil olmağa imkan verir; *Realschule (f)*-bu məktəbi bitirdikdən sonra şagirdlər sənət məktəbinə gedə bilərlər. İbtidai təhsildən sonra 6 illik məktəb. Bu məktəb şagirdlərə orta təhsil verir; *Gymnasium (n)*-İbtidai sinifdən sonra 9 illik məktəb. Məhz gimnaziyanı bitirdikdən sonra şagirdlər kamal attestatı alır və ali məktəbə daxil olmaq hüququ qazana bilirlər; *Gesamtschule (f)*- şagirdlərin istədikləri fənndən təhsil ala bildikləri məktəb. Bu təhsil ibtidai sinifdən sonra 10 il davam edir. *Fachoberschule (f)*- bu təhsil gimnaziyanın bir növü hesab olunur. Bu təhsil növündə şagirdlər təcrübi təhsil də ala bilirlər (2, 53). Alman xalqının etiqad etdiyi dinlə bağlı işlənən leksik terminlər: *Abendmahl (n)*- İsa Məsihin tərəfdarları ilə birgə şam yeməyi yediyi və əsir götürüldüyü vaxt; *Altar (m)*- İsa Məsihin ölümünü xatırladan un və sudan hazırlanan dəyirmi nazik xəmir məmulatı; *Beichtvater (m)*- günahları qəbul edən keşiş, tövbə atası; *Bischof* (m)- ali ruhani rütbə sahibi; *Christabend (m)*- Məsih gecəsi; Dom (m)- böyük əraziyə və xor dəstəsinə malik əzəmətli kilsə; *Kapelle (f)*-ayrıca fəaliyyət göstərən balaca kilsə; *Kaplan (m)*- Kapellan, ev keşişi; *Kirchenschiff (n)*- kilsənin içərisində kilsə üzvləri üçün otaq; *Münster (m)*- böyük xoru olan əzəmətli kilsə; *Patenkind (n)*- dini ruhda tərbiyə olunan uşaq və s. Almaniyada bayramlar və onlarla bağlı işlənən leksik vahidlər: *Advent (m)*- Bu bayram xristian dünyasında İsa Məsihin dünyaya gəlişinə hazırlıq kimi qəbul edilir; *Dreikönigsfest (n)*- Bu bayram İsa Məsih anadan olduqdan sonra ona baş çəkən və hədiyyə verən üç kahinin xatirəsi münasibətilə 6 yanvarda qeyd edilir; *Fasching (m)*- Pəhriz gecəsi; *Gründonnerstag (m)*- Hüzn cümə axşamı. Bu mərasim adının yaşıl rənglə heç bir əlaqəsi yoxdur; *Johannistag (m)*- Yəhya günü. Katolik kilsəsində Yəhyanın doğum günü; *Ostern (n)*- Bu bayram kilsə bayramı olub, İsa Məsihin dirilməsi münasibətilə qeyd edilir; *Pfingsten (n)*- Kilsənin doğum günü kimi qeyd olunur. Müqəddəs ruhun izharı bayramı; *Weihnachten (f)*- müqəddəs gecə, milad və s.Almanların milli yemək və içki adları ilə bağlı işlənən leksik vahidlər: *Apfelbettelmann (m)*- alma, limon şirəsi və qabığı, şəkər, qara çörək, kərə yağı, darçın, kişmiş və badamdan hazırlanan şirniyyat növü; *Apfelstrudel (m)*- alma piroqu; *Apfelmus (n)*- alma cemi; *Apfelreis(m)*- almalı düyü; *Brezel (f*)- üç tərəfi hörülmüş, yəni səkkiz formasını almış şirniyyat növü; *Brotsuppe (f)*- çörək şorbası; *Semmelknödel (m)*- bulka xəmir külçəsi və s. Bu kimi sözlər

sahə terminologiyasının araşdırılmasına imkan verməklə onun elmi cəhətdən öyrənilməsini zəruri edir. Ona görə də məqalədə məişət terminlərinin əmələ gəlməsinin linqvistik əsasları etnolinqvistik səpgidə öyrənilir, həmin terminlərin yaranmasını zəruriləşdirən dildaxili və dilxarici faktorlar araşdırılır, onların dilin fonetik-orfoqrafik normalarına uyğunlaşdırılması prosesi aşkar edilərək alman dilində işlənmə xüsusiyyətləri müəyyənləşdirilir. Eyni zamanda məişət terminlərinin ümumi semantik incəlikləri, onların dildə kəsb etdiyi leksik və üslubi rəngarəngliklər, yəni leksik-semantik köçürmələr, metaforlaşma və metonimləşmə prosesləri tədqiq və təhlil edilir. Qeyd etmək lazımdır ki, rus və alman dillərinin materialları əsasında tədqiqat aparan rus dilçisi P.P.Burkova kulinariya terminlərini üç qrupa bölmüşdür: 1) beynəlxalq peşəkar kulinariya terminləri (*macaroni, chocolate, pudding, jam* və s.); 2) bütün dillərdə milli uyğunluğu olan kulinar baza anlayışlı terminlər (*to cook-cuire, to glaze-glacer* və s.); 3) yalnız konkret milli mətbəx üçün səciyyəvi olan və buna görə də başqa dillərə tərcümə olunmayan terminlər (ingilis dilində: *hotdog*; fransız dilində: *julienne*; türk dilində: *halva* və s.) (5, 15).Almaniyanın yerləşdiyi coğrafi ərazi və mühiti alman dilində mövcud olan məişət terminlərinin formalaşmasına təsir göstərən amillərdən ən başlıcası və prioriteti hesab etmək olar. Belə ki, Almaniyanın hər bir əyaləti məhz həmin ərazinin (bundeslandın) tipik məhsullarından hazırlanmış xüsusi məişət leksikasına malikdir. Bu fakt özünü, xüsusən alman kulinariyasında- mətbəxində, yeməklərin hazırlanmasında açıq şəkildə büruzə verir. Müxtəlif dini bayramlarla bağlı mətbəx-kulinariya terminləri, istər yeməklər, istərsə də içkilər Almaniyanın ayrı-ayrı əyalətlərində həmişə diqqət mərkəzində olmuş və həmin terminlər alman dilinin lüğət tərkibinin müxtəlif semantik qruplarında cəmləşmişdir. Alman xalqının digər xalqlarla ictimai-mədəni, siyasi və iqtisadi əlaqələrinin genişlənməsi məişət sahəsində də yeni terminlərin, sözlərin yaranmasına şərait yaratmış və bu proses bu gün də davam etməkdədir. K.Maradi fransız xalqının zəngin mətbəxi ilə bağlı apardığı araşdırmalarına görə fransız mətbəxinin yaranmasının tarixini dörd dövrə bölür: XIV-XVI; XVII-XVIII; XIX və XX əsrlər (8, 6). K.Maradinin fikirlərinə istinad edərək, qeyd etmək istərdik ki, fransız xalqının zəngin, çoxçeşidli kulinariya terminləri nəinki alman mətbəx leksikasının, həmçinin bir sıra dillərin, o cümlədən də Azərbaycan dilinin kulinar terminoloji sistemində də çoxsaylı kəmiyyət göstəriciləri ilə üstünlük təşkil edir. Qerhard Vahrinqin "Deutsches Wörterbuch" adlı irihəcmli, C.Cəfərovun, 2-ci nəşri Ç.Qurbanlının redaktəsi ilə hazırlanmış "Almanca-Azərbaycanca lüğət" və A.O.Yazdaninin "Almanca-Azərbaycan türkcəsində" sözlükləri əsasında apardığımız təhlillərə əsasən, alman dilinin məişət terminlərini kəmiyyət göstəricilərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar: latın, fransız, ingilis, italyan, slavyan, ərəb və s.Latın dilindən din, təhsil, hüquq, tibb, kulinariya, hərb, ticarət, ev əşyaları ilə bağlı leksik alınmalar: *Kloster, Mönch, Nonne, Kreuz, Münster, opfern, Schule, Zensur, Examen, Abiturient, Auditorium, Disziplin, schreiben, Tafel, Kreide, Meister, Magistrat, Titel, Justiz, Appelation, Advokat, Prozess, Fieber, Wein, Käse, Kohl, Kampf, Mauer, Fenster, Pforte, Markt, Münze, kaufen, Tisch, Kessel, Pfanne*

və s.;Fransız dilindən kulinariya, hərb, dəb və s. ilə bağlı alınmalar: *Bouillon, Borschtsch, Sauce, Filet, Julienne, Kotelett, Frikadelle, Frikandeau, Entrecote, Mayonnaise, Omelette, Pavillon, Armee, Garnison, Parade, Bataillon, Kommandeur, Mode, Form, blond, elegant* və s.; İtalyan dilindən musiqi, memarlıq, bank və hərbi terminologiya ilə bağlı alınmalar: *Oper, Sopran, Konzert, Bass, Fuge, Tenor, Korridor, Calerie, Fassade, Bank, Bankrott, Lombard, Dukaten, Soldat, Panzer, Granate* və s.; İngilis dilindən sənaye, ticarət, maliyyə, kulinariya, dəb, idman və geyim terminologiyası ilə bağlı alınmalar: *Export, Import, Scheck, Prozent, Banknote, Fussball, Sport, Trainer, Box, Whisky, Sandwich, Punsch, Pudding, Picknick, Sweater, Boston, Schal, Frack* və s.;Slavyan dillərindən kənd təsərrüfatı, hərb, kulinariya, yer və şəhər adları ilə bağlı alınma məişət leksikası: *Gurke, Quark, Peitsche, Steppe, Grenze, Dolch, Dolmetsch, Grabow, Treptow, Kamin, Chemnitz, Leipzig, Pommern, Wollin, Lübeck* və s. Ərəb dilindən kulinariya, islam dini ilə bağlı: *Kaffee, Zucker, Tasse, Islam, Koran, Talisman, Fakir, Harem* və s. alınmalar alman dilinin lüğət tərkibinə daxil olmuşdur.Qeyd etmək istərdik ki, alman dilinin lüğət tərkibi nəinki yalnız yeni sözlər, sözdüzəltmə yaradıcılığı yolu ilə, həmçinin alınma sözlər, həm də söz mənasının dəyişməsi yolu ilə zənginləşir. Alman dilində söz mənasının dəyişməsi konteksdən asılı olaraq mənasını dəyişən və yeni məna-məzmun kəsb edən sözlər, frazeoloji birləşmələrdə mücərrəd məna ifadə edə bilən konkret sözlər, metaforik olaraq işlənən sözlər, müəyyən sözlərlə birləşərək mənasını dəyişən ifadələr vasitəsilə reallaşır. Araşdırmalara əsasən, alman dilində məişət leksikasının öyrənilməsində bəzi məqamlar mövcuddur ki, bu da alman xalqının qonşu xalqlarla müxtəlifsəpgili əlaqəsindən irəli gəlir.

İstifadə edilmiş ədəbiyyatın siyahısı:

1. Almanca-Azərbaycanca lüğət. C.Cəfərovun redaktəsi ilə. 2-ci nəşrini hazırladı: Ç.Qurbanlı, Bakı: „Şərq-Qərb“ 2007
2. Pirnəzərova G.M., Qurbanlı Ç.H. Alman realilərinin azərbaycanca lüğəti və şərhi. Dərs vəsaiti. Bakı, 2013
3. Yazdani A.O. Almanca-Azərbaycan Türkcəsində Sözlük (Deutsch-Aserbaidschan-Türkisches Wörterbuch), Berlin 2012
4. Süleymanov Ş.M. Azrbaycan dilinin mərasim leksikası. Bakı, “Elm”, 2003, s. 7-8)
5. Буркова П.П. Кулинарный рецепт как особый тип текста (на материале русского и немецкого языков): Автореф. дис. канд. филол. наук. Ставрополь, 2004
6. Шанский Н.М. Лексикология современного русского языка. М., «Наука»,1972. С.142).
7. Wahrig G. Deutsches Wörterbuch. 6., neu bearbeitete Auflage. Bertelsmann Lexikon Verlag GmbH, 1997, 1420 S.

8. Maradi K. Les changements du langage culinaire. 2003

T.Mammadova

Lexical-semantic characters of everyday german

Summary

According to the investigation everyday terms in German have systematically passed some stages in the historical way of development. They have involved the lexical processes in various characters in different developed periods. Those lexical units could not fully avoid the semantic processes referring to the lexics like everyday lexics existing in German.That is why their features like polysemantics, synonymy, homonymy have been limitedly created and have been specially used in the language. The enlarging and the specification of the meaning of different words have been realized by various ways – metaphor, metonomy and other terminological meanings in order to create the everyday terms in the German language. It should be noted that the words referring to the everyday lexics in German denote the name of concrete things and phenomena. According to the thorough detailed analysis of German vocabulary being the lexical units denoting the names of realies, the words referring to the everyday lexics express the concrete things and phenomena belong to the stable vocabulary and are generally transformed to the literary language from the colloquial speech. They develop, enrich the language and are used for a long time. Besides them, numerous loan words from Latin, Greek and especially from French which are universally recognition are superiority in the German language. Not only the loan words but also the national-cultural features of other peoples, their great developed dynamics and mutual language relations have been reflected in all levels in the development and enriching of the German language.

Key words: the lexics of folk medicine, meal, clothes, home things, the lexical terms referring to the education and religion

Т.Мамедова

Бытовая лексика на немецком языке и ее лексико-семантические особенности

Резюме

Исследования показывают, что бытовые термины в немецком языке систематически в период исторического развития проходили несколько этапов в период исторического развития. В отдельные периоды развития немецкого языка они охватывали лексические процессы различного характера. Эти лексические единицы не смогли полностью отойти от семантических процесссов, присущих лексическому слою, как существующая в немецком языке бытовая лексика. Именно поэтому их многозначность, синонимичность, омонимичность были созданы в ограниченных рамках и были разработаны в своеоб-

разном стиле языка. В образовании бытовых терминов немецкого языка расширение, а также интерпретация значений отдельных слов осуществлялось различными способами: метафоризацией, метонимизацией и различными терминологическими значениями. Следует отметить, что слова, вошедшие в бытовую лексику немецкого языка, обозначают конкретные предметы и названия событий. Всесторонний анализ словарного состава немецкого языка показывает, что слова, относящиеся к бытовой лексике, как лексические единицы, обозначающие имена реалий, выражая конкретные вещи и события, принадлежат к стабильному (неизменяемому) запасу слов языка и в основном переходят от диалектов к литературному языку и живут, развиваются и обогащают язык на протяжении сотен лет. Однако, в лексиконе немецкого языка преобладают многочисленные заимствования из латинского, греческого и, в частности, французского языков, ставшие полноправными языковыми единицами. Наряду со словами, заимствованными в результате развития и обогащения немецкого языка, в языке нашли отражение национально-культурные особенности, широкая динамика развития и взаимные языковые отношения немецкого народа с историческими соседями и другими входившими в контакт народами. Анализ существующих словарей показывает, что в немецком языке содержание терминов бытовой лексики разнообразно, широко, всеобъемлюще и красочно.

Ключевые слова: лексика народного медицина, еда, одежда, бытовое предметы, лексические термины с связом образование и религия.

Məqalənin redaksiyaya daxil olma tarixi:04.12.2019
Çapa hazırlnma tarixi:21.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Yusifov tərəfindən
çapa tövsiyə olunmuşdur

ÇINARƏ NƏRIMANOVA,
chquliyeva.beu@edu.az
İRADƏ MƏMMƏDOVA,
imemmedova@beu.edu.az
Bakı Mühəndislik Universiteti ,
120 Həsən Aliyev Absheron, Bakı 0101

GENDER VƏ TƏHSİL: TƏHSİLDƏ GENDER BƏRABƏRLİYİNİN ƏHƏMİYYƏTİ

Xülasə

Gender bərabərliyi insan hüquqlarının vacib hissələrindən biridir. Bu, Birləşmiş Millətlər Təşkilatının (BMT) dəyərlərinin də əsas hissəsidir. Eyni zamanda kişi və qadınların bərabər hüquqlarını qorumaq, qadınların insan hüquqlarını təşviq etmək hər bir ölkənin milli mənsubiyyət dəyərləridir. BMT İnsan Hüquqları üzrə Ali Komissarlığının 2000-ci ildə Minilliyin İnkişaf Məqsədləri razılaşdırıldığından, dünyada qadın bərabərsizliyinin azaldılması istiqamətində gerçək irəliləyiş əldə edildi, lakin milyonlarla qız və qadın dünyanın hər yerində gender ayrıseçkiliyinin nəticələri ilə qarşılaşmaqda davam edir. Onlar kişilərlə eyni hüquqlara, gender əsaslı zorakılığa, həyatı boyunca güclərini azaldan cinsi və reproduktiv sağlamlıq xidmətlərindən məhrum olan sosial və iqtisadi vəziyyətlərə mane olan siyasi qanunlarla qarşılaşırlar. Həqiqətən bərabər insan hüquqlarına nail olmaq üçün iqtisadiyyata, siyasətə, sosial normalara və məişət həyatına təsir edən güc dinamikasını və sosial məzmunu tam şəkildə anlamaq vacibdir. Qadınların bunları etməli olduqları haqqda ənənəvi görüşləri aradan qaldırmaq üçün zərər verən müəyyən stereotipləri məhv etmək və daha çox onları şəxsiyyət kimi görmək önəmlidir. İnsan hüquqları ilə yanaşı, gender bərabərliyi də davamlı, dinc və firavan dünyaya qovuşmağın vacib elementidir. Bərabər hüquqları təmin etməklə davamlı iqtisadiyyatlara və qoruyucu cəmiyyətlərə, bəşəriyyətə və bütövlükdə dünyaya töhfə verə bilərik. Tədqiqatlar göstərir ki, inkişaf etməkdə olan ölkələrdə sağlamlığa, gəlirə, insan kapitalına və səlahiyyətlərin artırılmasına səbəb olan keyfiyyətli təhsil iqtisadi inkişafa təsir edən güclü faktordur və buna görə də siyasət quruculugunda mühüm rol oynamalıdır.

Bu məqalənin əsas məqsədi gender bərabərliyi və bu məsələnin təhsildə əhəmiyyətini araşdırmaqdır. Bununla yanaşı, araşdırmada aşagadakı sualların cavabları təhlil edilmişdir: təhsilin gender bərabərliyində niyə vacib olduğunu başa düşmək: təhsildə gender bərabərliyinin təşviqi baxımından nəyin edilə biləcəyini bəzi ölkələrdən öyrənmək:

gender bərabərliyi baxımından araşdırma və təhsil siyasəti baxımından bəzi tövsiyələr vermək. Tədqiqat metodologiyası keyfiyyətə əsaslanır, belə ki, sənədli məzmun təhlilindən istifadə edərək bəzi ölkələrin təhsildə gender bərabərliyi məqsədini necə həyata keçirdiklərini, qarşılaşdıqları problemlər və vacib nailiyyətləri anla-

maq mümkün edəcək. Bundan başqa, bəzi beynəlxalq, Avropa və milli hesabatlar təhlil ediləcəkdir. Məqalədə gender bərabərliyi məsələsində Azerbaycanın vəzıyyəti də işıqlandırılmışdır.

Açar sözlər: Gender bərabərliyi, təhsil, təhsil siyasəti, inklüziv dil, tədris proqramları

Tarix boyu həm kişilər, həm də qadınlar davranışlarına, seçimlərinə və gözləntilərinə təsir edən mədəniyyət və cəmiyyət tərəfindən formalaşan sosial rollara sahib olmuşlar. Bir sıra tədqiqat perspektivləri Qərb mədəniyyətindəki gender fərqlərini izah etməyə çalışmışlar. Mütərəqqi bir yanaşma çərçivəsində cəmiyyət irəlilədikcə bu qavrayışların da dəyişəcəyi müdafiə olunur. Kişilərin və qadınların sosial rollarına Qərb cəmiyyətlərində uzun əsrlər boyu hakim olan bir patriarxal cəmiyyətin təbiəti təsir göstərmişdir. Proqressiv yanaşma çərçivəsində cins və ya gender fərqlərinin mədəni bir fenomen, dominant mədəniyyətin hakim fikirlərinin bir refleksi olduğu başa düşülür. Bu o deməkdir ki, təhsil vasitəsilə sosial stereotipləri dəyişdirmək və cinslər arasında bərabərliyi təşviq etməklə ikili olan stereotip normalarını dəyişdirmək mümkündür. Bu mülahizələri nəzərə alaraq bu tədqiqatın aşağıdakı məqsədlərini sadalaya bilərik:

- Təhsilin gender bərabərliyində niyə vacib olduğunu başa düşmək,
- Təhsildə gender bərabərliyinin təşviqi baxımından nələrin edilə biləcəyini bəzi

ölkələrdən öyrənmək,

- Azərbaycan təhsil sistemini gender bərabərliyi baxımından araşdırmaq və təhsil

siyasəti baxımından bəzi tövsiyələr vermək.

Tədqiqat metodologiyası keyfiyyətə əsaslanır belə ki, sənədli məzmun təhlilindən istifadə etmək bəzi ölkələrin təhsildə gender bərabərliyi məqsədini necə həyata keçirdiklərini, qarşılaşdıqları problemləri və vacib nailiyyətləri anlamağı mümkün edəcək. Bu tədqiqatda bir sıra beynəlxalq, Avropa və milli hesabatlar təhlil ediləcəkdir.

Təhsildə gender bərabərliyi bir çox ölkələrdə narahatlıq doğurduğu üçün bununla bağlı geniş tədqiqatlar mövcuddur. Cəmiyyətin bir çox sahəsində gender bərabərsizliyinin hələ də mövcud olması faktı danılmazdır. Əslində isə son tədqiqatlar iqtisadi fəaliyyətin yüksək dərəcədə gender əsaslı olması faktını ortaya çıxardı. Vaughan gender əsaslı cəmiyyətin bəzi cəhətlərini müəyyənləşdirir:

- əksər iqtisadi fəaliyyət sahələrində eyni işi görən kişi və qadınların əmək

haqqları arasında hələ də əhəmiyyətli dərəcədə boşluqlar mövcuddur,

- demək olar ki, bütün ölkələrdə səsvermə hüququna sahib olmalarına

baxmayaraq, qadınların siyasətdə iştirakı bərabərlikdən hələ də uzaqdır belə ki, qadınların siyasi rəhbərliyi ələ alması və ya yüksək siyasi vəzifə tutması nisbəti daha azdır,

- gender əsaslı zorakılıq, dünyada son zamanlar yaşanan qarşıdurmalar, qeyri sabitlik və kütləvi miqrasiya halları xüsusilə əhəmiyyətli bir mövzudur [17.s.243]

Təhsildə gender bərabərliyinin necə inkişaf etdirə biləcəyinə dair araşdırma müxtəlif meyarlara söykənə bilər [13.s.200].Biz bu məqalədə yalnız iki meyarı müzakirə edəcəyik.

- Qız və oğlanların əsas təhsilə rəsmi, qeyri-formal və ya alternative yanaşmalarda iştirak edə bilmək üçün bərabər imkanların təklif olunduğu bərabərliyin əldə edilməsi. Hadisələri kənardan izləməkdənsə şəxsən iştirak edərək məqsədə nə dərəcədə çatıb çatmamağı daha aydın görmək olar.
- Təlim prosesində qız və oğlanlara qarşı bərabər diqqət və öyrənmək üçün bərabər imkanları yaradan bərabərlik. Bu o deməkdir ki, qızlar və oğlanlar cinsiyyət ayırımı edilməyən eyni tədris planından istifadə edirlər. Tədris prosesindəki bərabərlik həm də bütün şagirdlərin stereotiplərdən və cinsi qərəzdən uzaq olan tədris metodlarına və materiallarından istifadəsi deməkdir [3.s.185]

Bundan əlavə, tədris prosesindəki bərabərlik o deməkdir ki, oğlan və qızlar bütün akademik və məktəbdənkənar fəaliyyətlərdə öyrənmək, araşdırmaq və bu kimi digər bacarıqlarını inkişaf etdirmək azadlığına sahib olmalıdırlar. Təhsilə giriş baxımından bir sıra vacib nailiyyətlər əldə edilmişdir. Təhsilin bəzi səviyyələrində gender bərabərliyi istiqamətində mühüm bir irəliləyiş var: Daha əvvəl qeyd edildiyi kimi, təhsil sistemləri fərqli cəmiyyətlərdə mövcud olduğu üçün ordakı bərabərsizlikləri əks etdirir. Beləliklə, gender qərəzini aradan qaldırmaq üçün olan bütün qanunvericiliyə baxmayaraq təhsildə gender bərabərliyi araşdırmasında məktəb materiallarının gender stereotiplərini (istər dildə, istərsə də məzmunda) necə dəstəkləyəcəyini və əbədiləşdirə biləcəyini nəzərdən keçirmək lazımdır. Ancaq gender əsaslı tədris proqramları, təlim və tədris materialları olmadan buna nail olmaq mümkün deyil.

Təhsildə gender bərabərliyi mövzusuna Avropa ölkələri tərəfindən də fərqli formalarda müraciət olunmuşdur. Artıq təhsil sistemlərinin inkişafında gender bərabərliyi perspektivinlərini qəbul edənlər olsa da bəziləri bu sahədə hələ ilk addımlarını atmaqdadırlar. Gender bərabərliyinin əksər Avropa ölkələrinin məktəb kurikulumlarına ayrıca və ya fənlərarası bir mövzu kimi daxil edilməsinə səy göstərilmişdir. Cari təhsil praktikasında gender mövzuları ilə bağlı araşdırma baxımından Avropa ölkələrinin diqqət yetirdiyi bəzi vacib mövzular vardır [6.s.85]. Bu araşdırma, gender qərəzlərindən uzaq olan tədris materiallarında inklüziv dilin əhəmiyyətinə diqqət yetirir. Qarşıya qoyulan maneələrin mahiyyətini başa düşmək üçün bəzi ölkələrdən nümunələr verilir. Əksər ölkələrin tədris materiallarında (məktəb kitablarında, tədris kitablarında, tədris proqramlarında) hələ də gender stereotiplərinin bəzi nümunələri mövcuddur. Yalnız İsveç və Norveç təhsil sektorunda cinsi ayrı-seçkiliyə qarşı açıq aşkar təbliğatlar apararaq gender bərabərliyini təhsil sisteminin hədəflərindən biri kimi təqdim etdilər [3.s.10]

UNESCO bütün nəşrlərdə (qanunvericilikdə, tədris planlarında, dərsliklərdə və tədris materiallarında) yer alması üçün bir neçə mövzu tövsiyə etmişdir. Onlardan bəziləri aşağıdakılardır:

- Bütün nəşrlərdə cinsiyyəti nəzərə almayan neytral dildən istifadə edilməlidir;
- İstifadə olunan bütün şəkillər (məsələn, fotoşəkillər, illüstrasiyalar və ya hətta kitabın cildi) gender balanslı olmalıdır (kişi və qadınların bərabər təsviri) və gender stereotiplərini təbliğ etməkdən çəkinməlidir;
- Təhsil materiallarında qadın görünməzliyini inkar etmək üçün qadın və qızların aktiv rollarını əks etdirən bütün şəkillər reklam edilməlidir;
- Rəsmi sənədlərdə və dərsliklərdə kişi mərkəzli gender bərabərliyinin təşviqi baxımından diqqət yetirilməlidir.

Dilin təkcə insanların düşüncə tərzini əks etdirmədiyini, eyni zamanda həmçinin insanların düşüncə tərzini də formalaşdırdığını bilmək vacibdir.

Tədqiqatlar genderə əsaslanmayan sərbəst dilin istifadəsinin gender stereotiplərinin azalmasında və gender bərabərliyinin təşviqində çox vacib olduğunu göstərdi [10.s.70]. Bu mənada İsveç modeli gender bərabərliyi siyasəti baxımından, həmçinin təhsilin oynadığı vacib rolu başa düşmək baxımından xüsusilə vacibdir. O, həm də qadın və kişilərin eyni hüquq və vəzifələrə sahib olduqları daha yaxşı cəmiyyətin qurulmasında gender bərabərliyinin təməl mövzu olduğunun göstərilməsinin yaxşı bir nümunəsidir. Qeyd edilməlidir ki, təhsildə gender bərabərliyinin təşviqi 90-cı illərin sonlarından bəri İsveçin təhsil siyasətində göndəm olmuşdur. Gender bərabərliyi təhsil sistemində əsas məqsəddirsə bu dəyişikliklər vaxt alsa da zəruri bir məsələdir [9.s.200]. Əlbətdə ki, gender bərabərliyini hədəfləyən bir təhsili təşviq etmək bir çox maneə və problemlərlə qarşılaşacaq. İsveç Təhsil və Elm Nazirliyinin hesabatında [4.s.152]. İsveç təhsil sistemində gender bərabərliyini təşviq etmək üçün bəzi tədbirlər göstərilmişdir. Bunun üçün atılan ilk addım təhsil sisteminin bütün səviyyələrində baş verə biləcək ayrı-seçkilik və digər təhqiramiz münasibətləri istisna edən qanunvericilik yaratmaq idi. Hesabat məruzəsinə əsasən atılan bu addımlar təhsil siyasətində cinsiyyət, etnik mənsubiyyət, din və ya digər etiqad və əlilliklə əlaqəli ayrı-seçkilik xarakterli müraciətlərin aradan qaldırılması yolunda atılmışdır. [16.s.20]. Atılan digər vacib addımlardan biri də tədris planında gender bərabərliyinin açıq şəkildə təbliği idi. Bu, gender əsaslı stereotipləri aradan qaldırmaq üçün məktəb materiallarının diqqətlə təhlili demək idi [5.s.93]. Ən sonuncu vacib məsələ isə gender bərabərliyi mövzularına toxunan müəllimlərin hazırlığını inkişaf etdirmək və bu prosesə məktəb işçiləri və valideynləri cəlb etmək idi. İsveç təhsil rəhbərləri üçün gender bərabərliyini tematik bir prioritet halına gətirən bir neçə stolüstü kitabçalar və təlimatlandırıcı sənədlər nəşr edilmişdir. Öyrənmə materialları ilə bağlı araşdırma bir çox digər Avropa ölkələrində narahatlıq doğurdu.

Azərbaycanda təhsil və gender bərabərliyi məsələsi

Azərbaycanda təhsil cəmiyyətin və dövlətin inkişafının əsasını təşkil edən, strateji əhəmiyyətə və üstünlüyə malik fəaliyyət sahəsi kimi qəbul edilir. Azərbaycanda təhsil sistemi demokratik, dünyəvi xarakter daşıyır və onun əsasını milli və beynəlxalq dəyərlər təşkil edir. Bütün vətəndaşların 9 illik məcburi ümumi təhsil almaq hüququ vardır. Bu, Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının Təhsil Qanununda təsbit edilmişdir. Təhsil altı -on beş yaş arası uşaqlar üçün pulsuz və məcburidir. Azərbaycanda əsas təhsil üç yerə bölünür: ibtidai təhsil, ümumi orta və tam orta təhsil. Azərbaycanda müstəqillik əldə olunduqdan sonra ümumi təhsilin bərpası, təkmilləşdirilməsi və inkişafı üzərində xeyli işlər görülmüşdür. Təhsil islahatları aparmaq üçün bir sıra proqramlar və layihələr həyata keçirilmişdir. Bununla əlaqədar olaraq Dünya Bankı ilə birgə İkinci Təhsil Sektorunun İnkişafı (2009-2016) adlı layihə planlaşdırıldı hansı ki, ümumi təhsil kurikulumunun həyata keçirilməsini, müəllimlərin, tələbələrin və təhsil idarəçilərinin yeni ümumi təhsil-tədris planının reallaşdırılmasında uğurla iştirak etdiyi növbəti tədris islahatlarının aparılmasını dəstəkləyən və təhsil keyfiyyətinin yaxşılaşdırılması üçün tələbə qiymətləndirməsindən istifadə etməklə Azərbaycanda yeni qiymətləndirmə sisteminin yaradılmasını, APL1-in tərəfindən dəstəklənən ənənəvi dəyərlərin əsasında yeni təhsil islahatlarının inkişafını təmin etmək üçün xidməti müəllim hazırlığını müasirləşdirərərək yeni tədris materialları və məktəb kitabxanalarını inkişaf etdirdi.Azərbaycan Dövlət Statistika Komitəsi tərəfindən 1990-2018-ci illər arasında məktəbəqədər, orta məktəblərdə və ali təhsil müəssisələrində oğlan və qız şagirdlərin təmsil olunması ilə bağlı açıqlanan rəsmi statistikanın təhlili göstərir ki təhsildə qadının iştirakı müsbət nəticələr göstərir. Bununla yanaşı son illər təhsil siyasətində aparılan islahatlara baxmayaraq, oğlanların qızlarla nisbəti hələ də yüksəkdir. Belə ki, 1990-cı ildə 1349489 məktəblidən 663046-ı qız, 686443-ü isə oğlan idi. 2018-ci ildə 1549367 məktəblidən 733081-i qız, 816286-sı oğlan idi. Bu gender bərabərsizliyi məsələnin hərtərəfli araşdırılmasına ehtiyac duyan regional, sosial, dini dəyişkənlərdən asılıdır.Təhsildə gender bərabərliyinin təşviqinin əhəmiyyətində qarşımızda bir neçə məqsəd dayanır. Belə ki, ilk məqsəd “Təhsilin gender bərabərliyində niyə vacib olduğunu başa düşmək” idi. Araşdırmanın ikinci məqsədi isə - "Təhsildə gender bərabərliyinin təşviqi baxımından nəyin edilə biləcəyini öyrənmək" idi. Təhsildə gender bərabərliyinin məqsədi gender bərabərliyi haqqında effektiv qanunvericilik yaratmaq, eyni zamanda qəbul edilmiş və tətbiq olunan məktəb sistemində mühüm dəyişikliklərin edilməsini nəzərdə tutmaq idi. Bunu edərkən əmin olmaq lazımdır ki, gender bərabərliyinin tətbiqi cinsi həssaslığa malik olmalı və bütün cinslərə ünvanlanmalıdır. Digər ölkələr təhsildə gender bərabərliyi prosesi üzərində işləsələr də Azərbaycanda da göstərildiyi kimi, qanunvericilikdəki inkişaflara baxmayaraq hələ də daha ciddi bir yanaşmaya ehtiyac vardır. Bu tədqiqatın üçüncü məqsədinə toxunmaqla "Azərbaycan təhsil sisteminin gender bərabərliyi baxımından təhlili, eyni zamanda tədqiqat və təhsil siyasəti baxımından bəzi tövsiyələr verilməsi" məsələsində bir çox istiqamətdə görülməli çox iş olduğunu başa düşmək mümkün oldu. Bu proqramlar

bütün səviyyələr üzrə hər fənndən olan məktəb müəllimlərini cəlb edə bilər. Yuxarıda göstərilən tövsiyələr üzrə bəzi araşdırmalar hələ də gender kimi təhsilə aid mövzularla maraqlanan tədqiqatçılar tərəfindən aparılmalıdır [3.s.17].

Ədəbiyyat

1. Maria Helena Esteves (2018) Gender Equality in Education: A Challenge for Policy Makers, University of Lisbon
2. PEOPLE: International Journal of Social Sciences ISSN 2454-5899 Available Online at: http://grdspublishing.org/ 904 https://www.globalpartnership.org/content/policy-brief-advancing-gender-equalityeducation-across-gpe-countries
3. Båvner, P (2004). Equity in Education: Country Analytical Report – Sweden. OECD Report: https://www.oecd.org/education/school/38697408.pdf
4. Bloomberg, R. (2008). The invisible obstacle to educational equality: gender bias in textbooks. Prospects, 38, 345-361 https://doi.org/10.1007/s11125-009-9086-1
5. Eurydice (2010). Gender Differences in Educational Outcomes: Study on the Measures Taken and the Current Situation in Europe. Brussels: Education, Audiovisual and Culture Executive Agency (doi: 10.2797/3598)
6. Myers, K. (2007). Gender watch: …still watching. Stoke-On-Trent: Trentham
7. SADEV (2010). Gender equality in and through education. Karlstad: Swedish Agency for Development Evaluation https://www.oecd.org/derec/sweden/48350382.pdf
8. UNESCO (2003) Gender and education for all: The leap to equality. Paris: UNESCO Publishing http://unesdoc.unesco.org/images/0013/001325/132550e.pdf
9. UNESCO (2015). Education for All 2000–2015: Achievements and challenges. EFA GlobalMonitoring Report. Paris: UNESCO http://unesdoc.unesco.org/images/0023/002322/232205e.pdf
10. PEOPLE: International Journal of Social Sciences ISSN 2454-5899 Available Online at: http://grdspublishing.org/ 905
11. Dollar, David and Roberta Gatti (1999). “Gender Inequality, Income, and Growth: Are Good Times Good for Women?” Policy Research Report On Gender and Development Working Paper Series, No.1 Development Research Group/PREMN, The World Bank.

Ч. Нариманова
И. Мамедова

Гендер и образование: важность гендерного равенства в образовании

Резюме

Гендерное равенство является важной частью прав человека. Это также ключевая часть ценностей Организации Объединенных Наций (ООН). В то же

Məqalədə müasir ingilis dilində sözlərin leksik-qrammatik mənaları araşdırılır. Dilin morfemləri həm ayrılıqda, həm də daha böyük dil vahidlərinin tərkibində leksemlərdə birləşərək ünsiyyətə daxil olurlar. Ənənəvi dilçilikdə sözləri qruplarda və ya siniflərdə qruplaşdırırdılar, yəni isim, sifət, say və s. Bu qruplaşmalar müəyyən əlamətlər əsasında həyata keçirilirdi və bu əlamətlər ümumi ad altında kateqoriyalarda birləşdirilirdi. Məsələn: ismin halı, kəmiyyət, feilin zamanları, şəxs və kəmiyyət kateqoriyalarını fərqləndirirdilər. Dildə olan hər bir sözün öz mənası vardır. Sözün forması və mənası arasındakı əlaqə ixtiyari hesab edilir. Bu da işarələyənlə işarələnən arasında birbaşa əlaqə olmadığını göstərir. Əks halda eyni reallıqlar müxtəlif dillərdə eyni cür səslənərdi. Sözün bir neçə mənası da ola bilər ki, bu da bir söz = bir məna formulunun doğru olmadığının göstəricisidir. Sözlər cəmiyyətin dilə olan ehtiyacının ödəmək üçündür və dildə olan sözlər bir-birlə bağlıdır. Bunlar ya tarixi qohumluğu, ya da müasir dildə semantik və fonetik oxşarlığa əsaslanır. F.Veysəlli yazır ki, hər bir sözü onunla semantik cəhətdən bağlı olan sözlərlə bir sırada qoymaq olar. Sözlər forma etibarı ilə qruplaşdırıla bilərlər. Burada əsas əlamət kimi sözün strukturu götürülür. Məlum olduğu kimi, quruluşuna görə sözlər sadə, düzəltmə və mürəkkəb ola bilər. Sözlər həmçinin fəal və qeyri-fəallığa görə də bölünə bilər.Fəal sözlər daha çox və tez-tez işlədilən sözlər hesab edilir.Geniş mənada bu və ya digər sözün işlənməsi məqamdan, ətraf mühitə münasibətdən və danışanın intellektual səviyyəsindən asılıdır. Sözlərin sintaqmatik planda seçilməsi və birləşmədə işlədilməsi çox mühüm məsələ hesab edilir. Bu zaman sözlər arasında leksik həmrəylik olmalıdır.Qeyri-fəal sözlər isə yalnız konkret danışıq məqamında və danışanın elmi səviyyəsindən asılı olaraq reallaşır.Sözlər bəzən bir-birinə elə qovuşur ki, onlar bütöv cümlə təsiri belə bağışlaya bilirlər.

Açar sözlər: söz, məna, leksik, qrammatik, isim, sadə, düzəltmə, mürəkkəb sözlər

Xüsusilə ingilis dilində belə hallara tez-tez rast gəlmək olur. Bu zaman bir neçə isim ardıcıl gəlir və bir cümlənin yükünü daşıyır**. F.Veysəlli** yazır ki, "sözün yekdil tərifi hələ də dəqiq deyildir. O yazır: "Yazılı dildə bunu çox asanlıqla təyin edirlər.

Burada çap vərəqində boşluqlar arasında gələn hər bir vahidi söz adlandıranlar az deyildir"(1-s.14-18)..

Məlum olduğu kimi, canlı danışıq yazılı formada çevikliyi və gözlənilməz birləşmələrin yaranması ilə səciyyələnir. Yazılı formanı olduğu kimi şifahi danışığa cəlb edə bilmərik. Burada danışıq aktının ardıcıllığı, yəni kontinuum gözlənilməlidir . Yazılı dilin danışıqda dəyişikliyə uğraması da mümkündür. Məlumdur ki, söz semantik vahiddir və onun konkret mənası vardır. Bundan əlavə, söz fonetik cəhətdən formalaşmış bütövdür və onun özünün vurğusu olmalıdır. Söz, həmçinin başqa vahidlərdən ayrı şəkildə də işlədilə bilər. Belə iddia edilir ki, söz təklikdə də mənaya malik dil vahididir. Cəmiyyətin dilə olan ehtiyacının ödəmək üçündür və dildə olan sözlər birbirlə bağlıdır. Bunlar ya tarixi qohumluğu, ya da müasir dildə semantik və fonetik oxşarlığa əsaslanır. F.Veysəlli yazır ki, hər bir sözü onunla semantik cəhətdən bağlı olan sözlərlə bir sırada qoymaq olar . Sözlər forma etibarı ilə qruplaşdırıla bilərlər. Burada əsas əlamət kimi sözün strukturu götürülür. Məlum olduğu kimi, quruluşuna görə sözlər sadə, düzəltmə və mürəkkəb ola bilər. F.Veysəlli yazır ki, sözün yekdil tərifi hələ də dəqiq deyildir . O yazır: "Yazılı dildə bunu çox asanlıqla təyin edirlər. Burada çap vərəqində boşluqlar arasında gələn hər bir vahidi söz adlandıranlar az deyildir. Yazılı dilin danışıqda dəyişikliyə uğraması da mümkündür. Məlumdur ki, söz semantik vahiddir və onun konkret mənası vardır. Bundan əlavə, söz fonetik cəhətdən formalaşmış bütövdür və onun özünün vurğusu olmalıdır. Söz, həmçinin başqa vahidlərdən ayrı şəkildə də işlədilə bilər. Belə iddia edilir ki, söz təklikdə də mənaya malik dil vahididir Lakin F.Veysəlli bu fikirlə razılaşmır. Göründüyü kimi, nümunələrdəki sözlər həm isim, həm də sifət kimi işlədilmişdir. Steel və cotton sözləri həm isim, həm də sifət kimi işlədilə bilər. İndi isə isimlərin sifət kimi işlənməsini nəzərdən keçirdək: bus stop 'avtobus dayanacağı', shoe polish 'ayaqqabı rəngi', bread shop 'çörək mağazası' və s. Bu kimi sözlərin mövqelərini də müəyyən etmək lazım gəlir. Burada diqqət verilməli məsələlərdən biri odur ki, ingilis dilində istənilən isim digər bir ismin əvvəlində işlənərək sözönlərini əvəz edə bilər. Məsələn: bus stop = a stop for buses, shoe polish = a polish for shoes və s. Bu cür sözönü ilə əvəz olunan sözlərin siyahısını artıra bilərik. Məsələn: bus stop girl, bus stop girl inquiry, bus stop girl inquiry row və s. İngilis dilində bir neçə sinifə aid olan sözlər çoxdur. Məsələn: love 'sevmək; sevgi' və work 'işləmək; iş' kimi sözləri götürək. Bu sözlər hər isim, həm də feil kimi işlənə bilir. Yaxud: safe 'təhlükəsiz' və choice 'seçim' sözlərini götürək. Bu sözlər sifət və isim kimi işlədilə bilər. Yaxud: round 'dəyirmi, yumuru, dairəvi, girdə və s.' sözü. Bu söz situasiyadan asılı olaraq isim, sifət, feil, sözönü və zərf kimi işlənə bilər. Məsələn: A round of toast 'dəyirmi tost', a round of ball 'yumuru top', to round the Horn 'buynuzu firlatmaq', round the mulberry bush 'tut ağacının başına dolanmaq', Make it go round! 'Kef et; boş ver!' Beləliklə, sözün sadəcə olaraq vahid mənalar ifadə etməsini iddia etmək düzgün deyildir. Digər tərəfdən, ingilis dilində sit down 'əyləş' və stand up 'ayağa dur' söz birləşmələrini mənaca tərkib hissələrinə bölmək mümkün deyildir. Çox idiomlar və frazeoloji birləşmələr var ki, on-

ların mənasının ayrı-ayrı komponentlərdən ibarət olduğunu demək olmaz. Belə olduqda **L.Blumfildin** "söz ən kiçik sərbəst formadır" tərifi özünü doğrultmur. Çünki heç vaxt ayrılıqda işlənən formalar ən kiçik sərbəst formada ola bilməzlər (**2, s.45).** İsimlər də adətən iki formada mövcud olur. Məsələn: cat –cats 'pişik-pişiklər', bag-bags 'çanta-çantalar' və s. Lakin brother 'qardaş' sözünün cəmdə iki forması vardır: brothers 'qardaşlar', brethren 'əqidə qardaşları' və s. Beləliklə, məlum olur ki, sözlərin tərkibində elə elementlər var ki, onların hər biri öz qrammatik mənalarını qoruyub saxlaya bilir. Sözlərin tərkibində olan element, yaxud fleksiya sintaksisə xidmət edir. Ənənəvi dilçilikdə və qrammatikada məna əsas götürülür və sözlər səkkiz qrupda ümumiləşdirilir: isim, əvəzlik, sifət, feil, bağlayıcı, sözönü, nida, zərf. Ənənəvi qrammatika adətən "nitq hissələri"-nin təqdimatı ilə başlayır. "Nitq hissələri" termini müasir qrammatika kitablarında "söz sinifləri" (word classes) adı altında təqdim edilir.Deonisusun bölgüsü bütövlükdə morfologiyaya əsaslanırdı. Sözün mənasının fərqləndirilməsində funksiya da vacib rol oynayır. Yəni sözün mübtəda, tamamlıq, təyin və s. kimi funksiyalarda olması da onun hansı sinifə aid olmasını şərtləndirən amillərdən hesab edilir. **O.Musayev** müasir ingilis dilində ismə aid olan qrammatik əlamətləri aşağıdakı kimi müəyyən etmişdir (**3-s17**) İsim aşağıdakı bir sıra şəkilçilər vasitəsilə düzəldilə bilər: -er (-or), -ness, -ment, -hood, -ism, -ance, -ing və s. Məsələn: writer 'yazıçı', sailor 'dənizçi', government 'hökumət', darkness 'qaranlıq', girlhood 'qızlıq', heroism 'qəhrəmanlıq', attendance 'davamiyyət', the writing 'yazı' və s. 2) İsimlərin qarşısında adətən müəyyənlik və ya qeyri-müəyyənlik artikli işlədilə bilər. Məsələn: An ocean 'okean', a lake 'göl', a woman 'qadın', a boy 'oğlan', the world 'dünya', the universe 'bəşəriyyət' və s. L.V.Kauşanskaya yazır ki, ismə aid olanın artikillə işlənmə səbəbinə görə, bəzən ancaq sözün qarşısında işlənmiş artikl onun isim olmasını bildirir . Məsələn: A five is a mark. 'Beş qiymətdir'. The apple is on the table. 'Alma stolun üstündədir'. 3) İsim əşyalılıq bildirdiyi üçün onun qarşısında əlamət və ya keyfiyyət bildirən təyin işlənə bilir. Məsələn: A deep ocean 'qərin okean', a new blouse 'yeni köynək', a beautiful woman 'gözəl qadın', a kind man 'mehriban insan' və s. 4) İsim (sayıla bilən) tək və cəm formada işlənə bilir. Məsələn: A chair – chairs 'stul-stullar', a girl-girls 'qız-qızlar', a glass- glasses 'bardaq-bardaqlar' və s. 5) İsim sözönü ilə işlənir. Məsələn: Of the garden 'bağçanın', to school 'məktəbə', in the street 'küçədə', in the park 'parkda', on the wall 'divarda', at the table 'stolun yanında', near the desk 'partanın yanında' və s. 6) O.Musayev yazır ki, isim cümlədə mübtəda, tamamlıq, predikativ, təyin, zərflik (sözönü ilə birlikdə) funksiyasında işlənə bilir . İngilis dilində isimlər morfoloji quruluşuna və mənasına görə müəyyən qruplara bölünür ki, bunlar da ismin təsnifi kimi qəbul edilir. Müasir ingilis dilində isimlər aşağıdakı kimi təsnif edilir.

Ədəbiyyat:

1.F.Veysəlli:"Dilçiliyə giriş".Bakı."Elm"nəşr.1994.səh:14-18.
2.Blumfild J. Outlines of English Lexicology . M.,2006,pag:45.

3.O.Musayev:”İngilis dilinin grammatikası”.1967.səh:17.

К.Велиева

Группировка слов в английском языке с различными значениями, различая письменные и устные речи

Резюме

В статье рассматриваются лексико-грамматические средства слова в современном английском языке. В нем говорится, что слова используются для обеспечения потребностей общества, а слова на языке связаны друг с другом. Они основываются либо на исторической относительности, либо на сходстве семантического и фонетического. В статье говорится, что слова могут быть сгруппированы по форме. Структура слов используется в качестве основного знака в этом случае. Наблюдаемые слова, такие как существительные, делятся на несколько групп в соответствии с их морфологической структурой. Они следующие простые, производные и составные. В статье исследуется каждый из этих разделений на основе мнений разных лингвистов, таких как О.Мусаев, Л.В.Каушанская, Р.Ковнер, А.Гусейнов и других. Такие лингвисты, как Б.С.Хаймович, Б.И.Роговская, рассматривают категорию числа существительных как родственную систему из одного или нескольких объектов. Однако эти авторы ссылаются на орфографические и арифметические правила количественной категории существительных, они никогда не говорят о классификацию простых существительных, таких как женщина, стул, дерево, книга и т. д.; Нижеследующее относится к производным существительным, таким как рабочий, свобода, перевод, ремонт и т. д.; Составные существительные состоят из двух или более систем. Примеры к ним могут быть показаны следующим образом: яблоня, синий колокольчик, письменный стол и т.д. дополнительном лексическом значении абстрактных существительных и существительных, обозначающих материалы во множественном числе. В современном английском языке существительные могут быть классифицированы следующим образом: простые существительные, производные существительные и составные существительные. Следующие примеры могут проиллюстрировать классификацию простых существительных, таких как женщина, стул, дерево, книга и т. д.

Ключевые слова: слово, значение, лексический, грамматический, существительное, простой, производный, комплекс

K.Velieva

Grouping of words in muslim English with different meanings, differentiating written and oral

Summary

The article deals with the lexical-grammatical means of words in modern English. It states that words are used to provide the need of the society, and the words that are in the language are related to each other. This is shown either on the historical relativeness, or on the similarity of semantic and phonetic. The article states that words can be grouped according to their form. The structure of words is used as a main sign in this case. The words such as the nouns are observed to be divided into some groups according to their morphological structure. They are the following simple, derivative, and compound. The article investigates each of this division basing on the opinions of different linguists such as O.Musayev, L.V.Kaushanskaya, R.Kovner, A.Huseynov and others. The linguists such as B.S.Khaymovich, B.I.Rogovskaya consider the category of number of nouns as a related system of one or more than one objects. However, these authors refer to the spelling and arithmetic rules of the quantitative of the category of nouns, they never speak about the additional lexical meaning of abstract nouns and the nouns denoting materials in the plural form. In modern English nouns can be classified like the following: simple nouns, derivative nouns, and compound nouns. The following examples can illustrate the classification of the simple nouns such as a woman, a chair, a tree, a book etc.; The following refers to the derivative nouns such as a worker, freedom, translation, repair, etc.; The compounds nouns consist of two or more systems. The examples to them can be shown like the following: apple tree, blue bell, writing table, etc.

Key word, meaning, lexical, grammatical, noun, simple, correction, compound words

Məqalənin redaksiyaya daxil olma tarixi:28.12.2019
Çapa hazırlnma tarixi:29.01.2019
Filologiya elmləri doktoru, professor Hüseynova Tamilla tərəfindən
çapa tövsiyə olunmuşdur

LEYLA EMİNOVA
XALİDƏ ZAMANOVA
Azərbaycan Texniki Universiteti
H.Cfvid 25.
leyla.xalidə@.gmail.ru.

İNGİLİS DİLİNDƏ İNVERSİYA HADISƏSI STİLİSTİK-SİNTAKTİK HADİSƏ KİMİ VƏ ONUN SADƏ CÜMLƏ TƏRKİBİNDƏ MÜVAFİQ NİTQ HİSSƏLƏRİ İLƏ ƏVƏZLƏNMƏSİ

Xulasə

Məqalə müxtəlifsistemli dillərin söz sırasına və bununla bağlı mətn əlaqələrinə həsr olunmuşdur. İngilis dilində nəqli cümlələr sabit söz sırasına malikdir. Hər bir cümlə üzvü müəyyən mövqelərdə yerləşir və söz sırasının pozulması mənanın dəyişməsinə, yaxud cümlədə mənasızlığa gətirib çıxarır.İngilis dilində cümlədə söz arası,mübtəda, xəbər,tamamlıq zərflik qaydaları düzülüşü üzrə formalaşır.İngilis dilində sual cümlələrinin inversiyası geniş yayılmışdır.Belə cümlələrin xüsusi intonasiyası və kommunikativ məqsədi olur.@

Məlum olur ki, sözlərin sıralanması və bu xüsusda meydana çıxan inversiya hadisəsi məsələsi həmişə dilçilərin diqqət mərkəzində olmuşdur.Söz sırası mətnin təşkilində həm qrammatik,həm də üslubi funksiya daşıyır.Başqa sözlə,söz sırası həm bilavasitə əlaqələrin yaranmasında,komponentlərin bir-biri ilə qrammatik əlaqəsinə kömək edir,həm də emosionallığa xidmət edir.Azərbaycan dilçiliyində S.Cəfərov, O.Musayev, R.Xəlilov, Ş.Yusifli, Ə.Cavadov, M.Bayramov; ingilis dilçiliyində M.Lazarkeviç, T.Koblens və başqaları bu problemlə bağlı araşdırmalar aparmışlar. Onlar belə nəticəyə gəlmişlər ki, hər bir dil hadisəsi kimi, cümlədə sözlərin sıralanması da müəyyən qanunlar əsasında baş verir.

Bilirik ki, mətn cümlələr vasitəsilə reallaşır. Söhbət təkcə mətnin reallaşmasından getmir, əsas məsəslə mətndəki mövzunun qavranılmasından gedir. Bununla yanaşı,mebahisəli məsələlər də mövcuddur: bu da ondan ibarətdir ki, dildə vahid sıra sisteminin qanunauyğunluğu müəyyənləşmədiyi üçün hansı cümlənin birinci sıraya,hansı cümlənin isə çevrilmə olduğudəqiq göstərilməmişdir, yəni araşdırma bir tərəfli aparılmışdır. Beləliklə bir dil hadisədi kimi sıralanmanın məzmun və mahiyyəti açılmamış,sintaktik vahidlərin sıralanmasından təcrid edilmiş şəkildə söhbət getmiş, bizcə sıra bir sistem kateqoriya kimi nəzərdə tutulmamışdır.

Açar sözlər: söz sırası,inversiya,mətn əaqələri,sıralanma qanunları,presuppozisiya

Insanların bir-birinə söylədiyi fikrin maddi varlıq şəkli olan cümlə dinləyiciyə çatmaq üçün müxtəlif mərhələlərdən keçir. Dilin səslərdən başlayaraq cümləyə doğru inkişafında səslərlə səslərin, köklə şəkilçinin, şəkilçi ilə şəkilçinin, sözlərlə sözlərin, cümlələrlə cümlələri birləşməsindən müəyyən ardıcıllıq, sıralanma özünü göstərir. Dil vahidləri müəyyən qanunlar və qanunauyğunluq əsasında düzüldükdən,sıralandıqdan sonra insanlar arasında kommunikasiya imkanları formalaşır.

Dil vahidlərinin düzülüşünün, sıralanması spesifik qanunları,bunun aparıcı qüvvə olması haqqında geniş fikirlər mövcuddur. Məsələn, V.Yartseva yazır ki,sıralanma tanımları heç bir qrammatik qayda-qanunla məhdudlaşmır. Söyləmlərin yaranmasında mühüm rol oynayan sintaktik əlaqə vasitələri sözlərin cümlədə düzülüşündə heç bir rola malik deyil.Müəllif onu da göstərir ki, tipoloji istiqamətdə dil vahidlərinin düzülüşünün spesifik qanunları, bu qanunun nəticəsi kimi inversiya hələ müəyyən olunmamışdır.

Dilin daxili qanunlarına əsaslanan sıra ilə,həmsöhbətlərin istəyindən aslı olaraq yaranan sırada (inversiyada) edilə biləcək dəyişiklik də bir-biri ilə qarışdırılmışdır.Bunlar gələcək təqdiqatlar da mütləq nəzərə alınmalıdır (1, s. 406)

Azərbaycan dilinin iltisaqi təbiəti ilə bağlı eyni kökdən həm isim həm sifət həm zərf həm də feil yaradıla bilir ki bu da cümlə strukturunda eyniköklü üzvlərin ardıcıl sıralamasına başqa sözlər ahəngdarlığına imkan yaradır.

Söz sırası üslubi cəhətdən pozula bilir bura canlı danışıq dilinin təsiri aydın görünür.

İngilis dilində nəqli cümlələr sabit söz sırasna malikdir.Hər bir cümlə üzvü müəyyən mövqelərdə yerləşir və söz sırasının pozulması mənasının dəyişməsinə yaxud cümlədə mənasızlığa gətirib çıxarır.

Ingilis dilində cümlədə söz sırası mübtəda,xəbər,tamamlıq,zərflik qaydaları düzülüşü üzrə formalaşır.

Bu dildə ifadə olunan cümlələrdə təyinin yeri sabit deyil.Təyin edə təzahür olunan hər hansı bir cümlə üzvünün qarşısında işlənə bilir.Məs: I bought an interesting book yesterday (Mən dünən maraqlı kitab aldım)

Həm ingilis,həm də azərbaycan dillərindəki cümlələrdəki söz sırasının müşahidə və müqayisə edsək,görərik ki (1) mübtəda (2) xəbər 3 (təyin) 4 (tamamlıq) 5 (zaman zərfliyi) sırası reallaşır. Bu sıra ingilis dilinə xasdır. Azərbaycan dili üçün isə 1 (mübtəda) 2 (zaman zərfi) 3 (təyin) 4 (tamamlıq) 5 (xəbər) sırası başlıca formal əlamətdır.

Tədqiqatların və faktik materialların nəticələri göstərir ki, müqayisə edilən dillərdə söz sırası iki əsas funksiyanı yerinə yetirir:

1) semantik-sintaktik funksiya;

2) üslub funksiya (2, s.300)

İnversiyanın üslubi rolu xüsusilə də türk dillərindən bəhs olunan tədqiqatlarda əsaslandırılmışdır. Üslubi məsələ aktual üzvlənmə ilə bağlı fikirlərin yaranması üslubda ekspressivliyin, emosionallığın yaranmasında bu hadisənin rolu,məntiqi vurğunun intensivliyi, əks sıra və sintaktik konstruksiyaların yaranması və s. bu istiqamətdə tədqiqatların obyekti ola bilmişdir.Ingilis dilinin materialları üzrə sözün sıralanması və mətndə yaratdığı semantik-üslubi cəhətlər öyrənilmişdir.

Semantik-sintaktik funksiya adı altında tutulan dillərdə söz sırası müqtəda və vasitəli tamamlığın yerini dəyişməsi ilə səciyyələnir və

cümlənin ümumi semantikası və sözünün sintaktik sırasında dəyişiklik baş verir. Məsələn:

Ingilis dilinə:Tom knew Brown knew Tom.

Azərbaycan dilində:Ovçu ayı öldürdü.Ayı ovçu öldürdü.

Q.Kazımov yazır ki,(3-s.163)söz sırası mətinin təşkilində hamam qrammatik həm də üslubi funksiya daşıyır.Başqa sözlə,söz sırası həm bilavasitə əlaqələrin yaranmasında, komponentlərin bir-biri ilə qrammatik əlaqəsinə kömək edir, həm də emosionallığa xidmət edir. Bir cəhəti də nəzərə almaq lazımdır ki, sintaktik bütövü təşkil edən hər bir komponentdə sözlərin sırası mətnin qurulma texnikasına daxil olduğu kimi hər bir komponentin sırası da bu prosesdə fəal sintaktik gücə malikdir. Ona görə də "sıra" anlayışını mətn sintaksisindən danışarkən həm sözlərin, həm də komponentlərin sırası kimi anlamaq lazımdır.

Ədəbiyyat:

1.Cavadov Ə.M. Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası. Bakı, "Elm, 1977, səh:406.
2.Xəlilov R. "Söz sırası", Azərbaycan bədii dilinin üslubiyyatı, Bakı, 1970, s.300.
3.Kazımov Q. Müasir Azərbaycan dili. "Təhsil", Bakı, 2007, s. 163,

Л.Эминова,
Х.Заманова

Инверция как стилистическо-синтактическое явление

Резюме

В статье исследовано процес инверции, которое выявляется в творчестве Азербайджанских ашугов и народных поэтов (но Дерелеязскому краю) Х1Х-ХХ веков и повышающий эмоциональность их произведений. Инверция производит в языке эмоциональность, экспрессивность и повышает художественность поэтических произведений.

В процессе инверции в предложении меняется порядок слов и в этот момент еще больше повышается чувственность и переживания. В текстах где наблюдается инверция исполняются энфатические, функционально-стилистические, ритмически-мелодические, архитектонические, структурно-грамматические, коммуникативные функции.

В статье исследовано процес инверции, которое выявляется в творчестве Азербайджанских ашугов и народных поэтов (по Дерелеязскому краю) XIX-XX веков и повышающий эмоциональность их произведений. Инверция производит в языке эмоциональность, экспрессивность и повышает художественность поэтических произведений. В процессе инверции в предложении меняется порядок слов и в этот момент еще больше повышается чувственность и переживания. В текстах где наблюдается инверция исполняются энфатические, функционально-стилистические, ритмически-мелодические, архитектонические, структурно-грамматические, коммуникативные функции.

Ключевые слова: порядок слов,инверсия, связи текстов, закон числения, презуппозисия

L.Eminova,
X.Zamanova

İnversion and textual connectionsin the Azerbaijani and English languages

Summary

This article deals with the word order of different languages and related to it textual connections. Narrative sentences in English have regular word order. Each member of sentence takes definite position and disruption of word order leads to the change of meaning or to the meaningless sentence itself.

Word order of the English sentence is following: subject, object, adverbial modifier. Interrogative sentences in English are formed by means of inverstion. Such sentences have special intonation and communicative aim.

Linguists are always interested in the case of word order and inversion.

Word order plays both grammatical and stylistic function in the text formation. In other words, word order helps both to form direct connections and grammatical and emotional connections between its components.

In Azerbaijani Linguistics S. Jafarov, O. Musayev, R. Khalilov, Sh. Yusifli, A.Javadov, M. Bayramov; in English linguistics M. Lazarkevich, T. Koblens and others investigate this problem. They came to the conclusion that word order also follows definite rules.

Text is realized by means of sentences. The basic issue is not the realization of text but realizing the main idea of the text. We also dealhere with some contraversial issues.

Key words: word order, inversion, textual connections, sequencing laws, presuppositions.

Məqalənin redaksiyaya daxil olma tarixi:24.11.2019
Çapa hazırlnma tarixi:12.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Rəfiq cəfərov çapa tövsiyə olunmuşdur

HAFİZƏ ABDİNOVA
Filologiya üzrə fəlsəfə doktoru,dosent
SEVİNC ŞAHLAROVA
Filologiya üzrə fəlsəfə doktoru,b\m.
Azərbaycan Kooperasiya Universiteti
Nəcəf Nərimanov 93.Bakı.
hafizə-sevinc.@com.ru.

SKANDİNAV MƏNŞƏLİ ALINMA SÖZLƏRİN İNGİLİS DİLİNDƏ ETİMOLOGİYASI VƏ TİPOLOJİ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Dilə yeni söz alınmasının əsas səbəbləri dilin leksikasında baş verən bir sıra yenilikləri və dil sistemlərində bir çox dəyişmələri doğuran səbəblərə uyğun gəlir.Başqa xalqlara məxsus anlayışların əxz edilməsində dilin özündə yeni adın yaranması üçün zəngin daxili imkan olmasına baxmayaraq sözün başqa dildən alınması üstün tutulur.Başqa dildən alınan hazır materialı dilin öz qanunlarına uyğun şəkildə dəyişdirib mənimsəmək resipirent dildə yeni sözün yaranmasından daha asandır.İngilis dilinə keçmiş alınma sözlərin dildə qəbul olunmasının səbəblərindən biri kimi yuxarıda göstərilən səbəb haqqında danişmaq olar.

Məlumdur ki, Britaniya adalarında German tayfalarının – Anqlar,Sakslar və Yutların hələ məskunlaşmadığı dövrdə bu tayfalar ilə Romalılar arasında ticarət əlaqələri mövcud olmuşdur.Bu səbəbdən onlar Romalı tacirlərdən ticari anlayışlarla bağlı,o cümlədən, onlar üçün yeni anlayışları adlandırmaq üçün külli miqdarda söz almışlar.

Bu sözlər Roma mədəniyyətini əxz etdirir və latın mənşəli sözlərdir.Bu cür alınmaların ingilis dilində tarixi daha qədim hesab olunur və bu sözlər Latın dilindən ingilis dilinə keçmiş sözlərin birinci səviyyəsini formalaşdırır.(1-s.145-148)

Açar sözlər: alınma sözlər,assimilyasiya,skandinav dilləri,dialektlər,tipologiya

Bu sözlər,əsasən,şifahi formada qəbul olunurdu və bu səbəbdən də sözdəki hərflərin sayı daha az olurdu.Məsələn: **vvine (Latın vinum),pepper(Latın piper), pear(latın pirum),cheese(Latın caseus), butter(Latın butyrum), etc.**

Bu ilk səviyyəya aid olan sözlərin digər bir qismi isə,400 ildən artıq Roma imperiyasının əsarəri altında olan Britaniya adalarına V əsrdə german tayfalarının gəlişindən sonra ingilis dilinə keçmiş Latın mənşəli sözlər hesab olunur.Bu alınmalar Romalıların quruculuq və tikinti işləri ilə əlaqədar işlətdikləri sözlərdir.Məsələn: **street(Latın strata vita),port(Latın piper),vvall(Latın vallum),camp(Latın cam-**

pus), etc. Coğrafi yer adlarından isə,muasir ingilis dilinə **chester(Latın castrum),** sonluğu

ilə bitən adlar məhz bu dövrdə alınmışdır.(2-s.18-20)

.Məsələn:**Manchester,Gloucester,Lancaster,etc.**Latın dilindən resipient dil olaraq İngilis dilinə keçmiş sözlərin ikinci səviyyəsini bütün ingilislərin xristianlığı qəbul etdiyi bir dövrdə,yəni VI-VII əsrlərdə alınmış sözlər yaradır.Dilə yeni idea və anlayışların gəlməsi məhz bu dövrdə dilə yeni sözlərin keçməsi də səbəb olmuşdur.Bu tip alınmalara aşağıdakılar daxildir: **angel,bishop,candle,monk,priest,saint, etc.**

Qalperin Latın mənşəli alınmaların bu səviyyəsini aşağıdakı kimi qruplaşdırır:

1. **Ev təsərrüfatında işlənən əşyaları ifadə edən sözlər:** anchor (Latın ancora),box (Latın buxus),butter (Latın butyrum),chalk (Latın calcum),dish (Latın discus),kettle (Latın catillus), etc.
2. **Geyim əşyaları ifadə edən sözlər:**cap (Latın cappa), sock (Latın soccus), etc.
3. **Uzunluq və çəki vahidlərinin ifadə edən sözlər:**circle (Latın circulus),mile (Latın millia),pound (Latın pondo),inch(Latın incia), etc.
4. **Heyvan,quş və balıq adları bildirən sözlər:**ass (Latın asinus),camel (Latın camelus),peacock (Latın pavo),turtle (Latın turtur), etc.
5. **Bitki adlarını bildirən sözlər:** palm (Latın palma),pear (Latın pirum),plum (Latın prunum),rose (Latın rosa),lily (Latın lilium),plant (Latın planta), etc.
6. **Dini anlayışları ifadə edən sözlər:** angel (Latın angelus),church (Latın cyriaca),clerk (Latın clericus),disciple (Latın discipulus),monk (Latın monachus),nun (Latın nonna),pope(Latın pepe), etc.

Xüsusi adları nəzərə almasaq , bu dövrdə ingilis dilinə Latın dilindən təxminən 400-450 söz daxil olmuşdur.(3-page123-140)

Norman işğalı dövründə ingilis dilinə Latın dilinin təsiri alınma sözlərin üçüncü səviyyəsinin yaranmasında öz əksini tapır.Bu alınmalar,əsasən, yazılı yolla alınmış və birinci səviyyədəki sözlər qədər geniş istifadə dairəsi qazana bilməmişlər,Bu cür daha çox elmi dilə aid edilirdi və sonluq morfemlərinə görə digər alınmalardan seçilirdi.Məsələn: 1) – ate sonluğu ilə bitən feillər - seperate, translate, exaggerate, congratulate, etc. 2) – ute sonluğu ilə bitən feillər – prosecute, constitute, execute, etc.

Məlum olduğu kimi, kommunikativ sərişte tələbələrdə şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi məqsədini daşıyır. Təlim materiallarının məzmunu bir stimul olaraq, öyrənilən dildə kommunikasiya prosesinin yaradılmasına tələbatın əmələ gəlməsinə səbəb olur və nəticə etibarilə, tələbələrin fəallığına səbəb olur. Müəllim tələbələrə dildən ünsiyyət vasitəsi kimi istifadə etmək qabiliyyətini aşılamaqda maraqlı olmalıdır. Tələbələrin xüsusi ehtiyac və tələbatlarının nəzərə alınması, təlim prosesinin dilin öyrənib-öyrədil-

məsi istiqamətində təşkil edilməsi tədrisdə vacib məsələ hesab edilir. Bu zaman dilöyrənənlərin maraq və ehtiyacları ön planda olmalıdır.

Yalnız intibah dövründə mütəxəssislərin qədim yunan mədəniyyəti ilə maraqlanmağa başladığı bir zamanda yunan mənşəli sözlər bir başa ingilis dilinin lüğət tərkibinə nüfuz etdi.Bu cür alınmalara aşağıdakıları aid etmək olar:**lexicon, myth, petal, sympaty, etc.**Bu dövrdə həmçinin klassik Latın dili vasitəsilə athlete,drama,gymnastics;fransız.dili vasitəsilə **astronomy, dialect, geograpy, geometry, idiom, theatre, tragedy, etc.** kimi sözlər də ingilis dilinə daxil oldu.hər hansı bir dildə yunan elementlərinin nə dərəcədə geniş yayıldığını anlamaq üçün hər hansısa bir elm sahəsinin hətta müəyyən qolunda bu dildən alınmış sözlərin hansı tezlikdə işləndiyini müşahidə etmək kifayətdir.Aşağıdakı söz və terminləri ingilis dilçiliyi yunan dilinə borcludur; **analysis, antonym, archaism, chorus, democracy, dialogue, epilogue, etymology, euphemism, neologism, epos, gymnastics, homonym, hyperbole, lexicology, metaphor, metonymy, polysemy, physics, philology, philosophy, rhythm, synonym, scheme, scene, tragedy, prologue, etc.**

Bu gün təhsildə müasir təlim texnologiyalarından istifadəyə xüsusi ehtiyac duyulur. Bu işin uğurla yerinə yetirilməsində audio və video vasitələrin də rolu az deyildir. Tədris materiallarından düzgün istifadə bu işin keyfiyyətini daha da artırır.

Bildiyimiz kimi, tələbələr dinləyib- anlama ilə bağlı problemlərlə az qarşılaşmır. Əgər tələbə dinlədiyi mətni başa düşmürsə bu onu həvəsdən salır. Dil səviyyəsinə uyğun olan qısa mətnlər isə tələbələr tərəfindən rahat mənimsənilir. Ekstensiv dinləmədən fərqli olaraq, intensiv dinləmə dərsdə həyata keçirilir. İntensiv dinləmə üçün istifadə olunan audiomateriallar müəllim tərəfindən seçilir. Bu zaman müəllim bir çox məsələləri diqqətdə saxlamalıdır. Burada əsas amil tələbələrin dil səviyyəsi ilə bağlıdır.

Məlumdur ki,german tayfaları anqlar, sakslar,yutlar V əsrdə Britaniya adalarına yürüş edərkən yerli xalqla – kelt tayfaları ilə qarşılaşdılar.. Bu prosesin davamli surətdə inkişafi aşagidaki üç istiqametde neticelendi: 1)skandinavizmler anglo-sakson menşeli sözleri lüget terkibinde sixişdirib çixardi: 2)skandinavizmler anglo-sakson menşeli sözlərin rəqabətinə davam gətirə bilmedi: Bu görə də bu dilden ingilis diline keçen sözlər əsasən gündəlik həyatda işlənən sözlərdir.(4-p.36-42).

Beləliklə, aparılan tədqiqatlardan aydın olur ki, ingilis dilinin lüğət tərkibi sözlərin mənşəyinə görə müxtəliflik təşkil edir. İngilis dili öz tarixi inkişaf prosesində külli miqdarda alınma söz qəbul etsə də, bu dilə xarakterik xüsusyyətlərini də qoruyub saxlaya bilmişdir.

Ədəbiyyat:

1.Abbasova B. Söz alma hadisəsinin əsasları. Bakı, 1995.səh:145-148.
2.Haugen. The analysis of linguistic borrowings. New York, 1956.page:18-20.
3.Galperin I.R. Stylistic. Moscow: Higher School, 1997.page:123-140

4.Антрушина Г. Б., Афанасьева О. В., Морозова Н. Н . Лексикология английского яэыка , Высшее образэование, Дрофа, 1999.page:36-42.

Х.Абдинова,
С.Шахларова

Этимология и типологические особенности скандинавской лексики в английском языке

Реэюме

В данной статье рассматривается появление эаимствованных слов в английском яэыке с исторической точки эрения. Иэвестно, что основная

причина для эаимствования новых слов – это появление новых понятий в словарном эапасе яэыка. В принятии нового понятия для соэдания новых определений также принимаются во внимание эаимствованные слова иэ других яэыков. Таким обраэом, некоторые заимствованные слова попали в английский язык после размещения германских племен на Ъританских островах,некоторые из латинского языка в VI-VII вв.,болшая часть во время скандинавский оккупации в IX- XI вв. а также из греческого языка в эпоху Возрождения, другой поток в XIV-XVI вв., и т.д.

В дополнении к поддержанию собственного национального характера языка, усвоению фонетических и грамматических правиил языка получателя, приводит к потери их “внешного вида”. Тем не менее, большинство из этих заимствованных слов уже сформировали особое место в словарном запасе английского языка и в сравнении с другими языками количество заимствованных слов различного происхождения в английском языке достаточно много.

Ключевые слова: заимствованные слова, ассимиляция, скандинавские языки, диалекты,типология.

Kh.Abdinova,
Shakhlarova

The etymology and typological features of scandinavian vocabulary in English

Summary

This article deals with the appearance of borrowings in English from the historical point of view. It is known that the main reason for acquiring new words is the appearance of new concepts in the vocabulary stock of the language. In the way of adoption of an unknown concept for the establishment of new definitions, the borrowing process of new words from other languages is also taken into account.

Thus, some loan words appeared in English after the placement of Germanic tribes on the British Isles, some of the Latin language from the VI-VII centuries, most during the Scandinavian occupation in the IX-XI centuries, as well as from the Greek language in the Renaissange period, another stream took place in the XIV-XVI centuries, etc. In addition to maintaining its own national character of the main language, mastering the phonetic and grammatical rules of the recipient language led to a loss in their "appearance".

Nevertheless, most of these borrowed words have already formed a special place in the English vocabulary and in comparison with other languages the amount of borrowings from different origins in the English language is considerably great.

Key words: Acquisition words, assimilation, Scandinavian languages. dialects, typology

Məqalənin redaksiyaya daxil olma tarixi:27.12.2019
Çapa hazırlnma tarixi:08.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Nuriyyə Rzayeva.çapa tövsiyə olunmuşdur

XURAMAN RƏFİYEVA
E-mail: xrefiyeva@gmail.com
ADPU-nun Şəki filialının
(Şəki şəh.,M.Rəsulzadə küç., 305)

AZƏRBAYCAN VƏ FRANSIZ DİLLƏRİNDƏ FEİLİ BAĞLAMANIN MÜQAYİSƏLİ TƏHLİLİ

Xülasə

Fransız dilinin nitq hissələri içərisində feil zəngin leksik semantik əlamətlərinə görə əhəmiyyətli yerlərdən birini tutur. Fransız dilində feilin şəxslənməyən formaları aşağıdakılardır :

1.Infinitif – Məsdər
2.Participe présent – Feili sifətin indiki zamanı
3.Participe passé - Feili sifətin keçmiş zamanı
4.Gérondif – Feili bağlama

1.Məsdər feilin ad formasıdır və şəxslərə görə heç vaxt təsrif olunmur. Bu forma hərəkəti icraçı ilə əlaqələndirmir.

Məs: **aller** - getmək
acheter - almaq
finir - qurtarmaq
voir - görmək

Fransız dilində məsdərin iki forması var:

1. **Infinitif présent - manger, écrire.**
2. **Infinitif passé - avoir mangé, avoir écrit.**

2.Participe présent - Feilin bu formasını düzəltmək üçün feili indiki zamanda, birinci şəxsin çəmində götürüb şəxs sonluğunu -**ant** ilə əvəz etmək lazımdır.

chantant - oxuyan
fermant -bağlayan

3.Participe passé – köməkçi feilin məsdər formasından və təsrif olunan feilin participe passé-dən düzəlir

manger, écrire.
avoir mangé, avoir écrit.

Aşağıdakı hallarda feillərin məsdər formasından istifadə olunur.

1.Modal feillərdən **(pouvoir,vouloir,devoir)** sonra**.**
2.Aimer, detester, apprendre (à), proposer (de) kimi feillərdən sonra

3.Bir sıra ifadələrdən sonra **puis-je, avant de, être difficile de, être obligé(e), avoir le temps (de), il faut.**
Məs: Il veut **entrer** à l'université. J'aime **manger** du poisson.
Puis – je **dire** un mot? Nous apprenons à **danser**

Açar sözlər: dil vərdişləri, qrammatik materialın mənimsənilməsi, oxu vərdişlərinə yiyələnmə, ana dili ilə xarici dildə feili bağlamanın oxşar və fərqli cəhətləri.

Fransız dilinin nitq hissələri içərisində feil zəngin leksik semantik əlamətlərinə görə əhəmiyyətli yerlərdən birini tutur. Fransız dilində feilin şəxslənməyən formaları aşağıdakılardır :

1.Infinitif – Məsdər
2.Participe présent – Feili sifətin indiki zamanı
3.Participe passé - Feili sifətin keçmiş zamanı
4.Gérondif – Feili bağlama

Feili bağlama feil bəhsinin maraqlı mövzularından biridir. **„Gérondif''**i öyrətməkdə məqsəd şagirdləri feili bağlamanın mahiyyəti qrammatik əlamətləri,üslubi imkanları ilə tanış etmək, nitq praktikasında ondan düzgün istifadə etmək bacarığı aşılamaqdır.

Fransız dilində feili bağlamanın özünə məxsus düzəlmə forması vardır. Fransız dilində feili bağlama feil kimi hərəkət ifadə edir.Cümlədə eyni zamanda baş verən iki hərəkət haqqında danışılarsa, onlardan biri **gérondif** vasitəsilə ifadə olunur. Feilin bu formasını düzəltmək üçün feili indiki zamanda, birinci şəxsin çəmində götürüb şəxs sonluğunu -**ant** ilə əvəz etmək lazımdır. -**ant** ilə əmələ gələn formanın qarşısına **„en''** ədatını əlavə etmək lazımdır.(5,s.193)

En chantant
En écoutant

Gérondif – Azərbaycan dilinə ,,araq ^{2} ,anda ^{2}, a^2 , ya^2 '' kimi və ya hərəkətin təkrarı tərcümə olunur.

Məs: **en** écriv**ant** – yazanda, yaza-yaza
en lis**ant** - oxuyaraq**,** oxuya-oxuya
en voy**ant** - görərkən, görə - görə
en ri**ant** - gülərək, gülə-gülə
en parl**ant** - danışaraq, danışa-danışa

Gérondif ya cümlənin əvvəlində, ya da xəbərdən sonra işlədilir.
Məs: Solmaz a répondu **en riant.** – Solmaz **gülə-gülə** cavab verdi. (1,s.172)
Azərbaycan dilindəki feili bağlamalar feil əsaslarına xüsusi şəkilçilərin artırılması yolu ilə düzəldilir.
Fransız dilində üç feil var ki,onların xüsusi düzəlmə forması var:
Etre - en étant**, avoir -** en ayant **,savoir** – en sachant.

Gérondif demək olar ki,həmişə feillə eyni zamanda işlənir.
Il aime bien chanter **en prenant** son bain.(c'est la même personne qui chante et qui prend son bain).

Zaman funksiyası : ''Gérondif''- in zaman funksiyasında hər iki hərəkət eyni zamanda baş verir.
Məs: On ne doit pas conduire **en utilisant** son téléphone portable : c'est très dangereux !

Bu cümlədə zaman funksiyası başqa funksiyalara əlavə olunur.

Səbəb funksiyası:

Tu vois bien, **en travaillant** un peu, tu as rèussi !(= parce que tu as travaillé)

Tərzi – hərəkət funksiyası:

En lisant les journaux spécialisés, **en mettant** une petite annonce à la boulangerie, **en allant** au service Logement Etudiant, tu trouveras quelque chose,c'est sûr!

Şərt funksiyası:

En mangeant moins du sucre et moins du beurre, tu maigriras.(= si tu manges.....).

Burda cümlənin əlaqəsini də fikirləşmək lazımdır.Mübtəda mübtəda olaraq qalmalıdır.Yoxsa iki mənalı ola bilər.
Müqayisə edək: **En sortant de chez lui,** un cycliste l'a renversé.
Qui est lui? Le cycliste ou la personne accidentée? Bu bilinmir.
Sintaksisə görə isə , c'est le cycliste qui, alors qu'il sortait de chez lui, a renversé le piéton. Bu məntiqə uyğundurmu ?
Ona görə də bu iki strukturu qarışdırmaq olmaz.
Il a vu Sophie **arrivant** à l'université.(= qui arrivait à l'université - hansı ki, universitetə gəlirdi)
Il a vu Sophie **en arrivant** à l'université (= au moment où il arrivait à l'université - universitetə gələndə)

Pronominal feillərin **Gérondif** formasını düzəldərkən qayıdış əvəzliyi əsas feilin mübtədasi ilə uzlaşır.
Je chantais en me lavant - Mən yuyuna - yuyuna mahnı oxuyurdum.
Gérondif cümlədə iki funksiyanı yerinə yetirir :

Tərzi hərəkət zərfliyi :

Il est entré en chantant - O,oxuya - oxuya içəri daxil oldu.
Comment est – il entré ? - O,necə içəri daxil oldu ?

1. Zaman zərfliyi :

Nous avons rencontré nos amis en arrivant à la campagne.- Kəndə gələndə biz dostlarımızla görüşdük.
Quand avez – vous rencontré vos amis ?-Siz nə vaxt dostlarımızla görüşdünüz ? (1,s.97)

Cümlədə feildən sonra işləndikdə tərzi hərəkət zərfliyi olur.
Il est entré en criant - O qışqıra – qışqıra içəri daxil oldu.
Comment est – il entré ? - O,necə içəri daxil oldu ?
Cümlənin əvvəlində yazılanda isə zaman zərfliyi olur.
En entrant,il a trouvé sa sœur dans la salon.-İçəri girəndə o,öz bacısını qonaq otağında gördü.
Quand est-ce qu'il a vu sa sœur dans la salon?- O,öz bacısını nə vaxt qonaq otağında gördü ?
''**Gérondif„ə** sual verərkən həm ''comment ? '' həm də **''**quand?„ suallarından istifadə olunur.

1.Tərzi hərəkət zərfliyi kimi işləndikdə - Quand ?
2.Zaman zərfliyi kimi işləndikdə - Comment ? (2,s.82)

Azərbaycan dilində feili bağlamaların həm feilə,həm də zərfə oxşarlığı və fərqli cəhətlərini,əsas feilə münasibətində əlavə hərəkət bildirir, məsdər və feili sifətdən fərqli olaraq hərəkətin tərzini və zamanını bildirir.Feili bağlamaların feilə aid xüsusiyyətləri,təsirli və təsirsiz olması,feilin məna növlərini bildirməsi, təsdiq və inkarda olması, feilə aid hərəkətin tərzini və yə zamanını bildirməsi,zərfin suallarına cavab verməsi və cümlənin zərfliyi olması şagirdlərin nəzərinə çatdırılmalıdır.

Azərbaycan dilində feili bağlama həm feilin ,həm də zərfin xüsusiyyətlərini daşıyır.Məs:
Atam kresloda oturub maraqlı kitab oxuyurdu.
Bu cümlədə *oxumaq* və *oturmaq* sözləri feildir. Oxuyurdu feili zaman və şəxs kateqoriyasına malik olduğu üçün müstəqil feildir,cümlənin xəbəridir.
Oturub feili zaman və şəxs ifadə etmədiyi,bitkin intonasiyaya malik olmadığı üçün əsas feildən (oxuyurdu) asılıdır.

Məsdər və feili sifət cümlənin tələbinə görə şəkilçi qəbul edib müxtəlif cümlə üzvü olduğu halda, feili bağlamalar ancaq cümlənin zərfliyi olur. Fransız dilindən fərqli olaraq *-ıb, -araq, -madən* şəkilçiləri hərəkətin tərzini, *-anda, -dıqda, -ınca, -ar, -maz, -dıqca* şəkilçiləri hərəkətin zamanını bildirir.

Məs: 1.Atam maşını sürüb getdi.
2.Vüsal işdən qayıdanda pilləkəndə Mürşüdə rast gıəldi.
En rentrant il achète du pain.- O qayıdanda çörək alır.
Quand achète – t – il du pain? - **En rentrant**
O çörəyi nə vaxt alır? - **Qayıdanda**

Bu misallardan göründüyü kimi feili bağlama birinci cümlədə zərflik, ikinci cümlədə zaman zərfliyi kimi işlənib. (3,s.204)
Fransız dilində isə ya tərzi hərəkət, ya da zaman zərfliyi kimi işlədilir.Hər iki formada ancaq feildən əvvəl *en ədatını* feilin axırını isə *-ant* ilə əvəz etmək lazımdır
Il est arrivé en courant.- O qaçaraq gəldi.(feili bağlama).

O, qaça – qaça gəldi.(tərzi – hərəkət zərfliyi)
Bu iki xüsusiyyətlə əlaqədar olaraq gérondif Azərbaycan dilinə həm feili bağlama, həm də tərzi – hərəkət zərfliyi kimi tərcümə olunur..

Feili bağlamalar cümlədə iki işi bir- birinə bağlayır, lakin hərəkətin icrasını və şəklini ifadə etmədiyi üçün əsas feildən asılı olur.Ana dilimizdə feili bağlamalar bitkinlik intonasiyasına malik olmadığından cümlədə söz və ya söz birləşməsi şəklində çıxış edib əlavə hərəkəti bildirir. (5,s.194)

İstifadə edilmiş ədəbiyyat

1.X.Həsənova,G.Məmmədova,X.İsmiyeva,F.Ağayeva - Le français pour tous - 2019
2.N. Mustafayev - Le français pour tous .Grammaire français, 2015
3. R.Ismayılov,M. Rəhimov- Manuel de français, 1981
4. T. Hüseynov – Fransız dili. Naxçıvan, 2011
5.Е.О. Костецкая, В.И. Кардишевский - Грамматика французского языка .Moskva, 1973

GHX .Рафиева

Сравнительный анализ деепричастие глаголов на азербайджанском и французском языках

Резюме

Французский глагол занимает одно из самых важных мест в словаре богатого словарного запаса. Неличные формы глагола на французском языке следующие:

1.Infinitif
2. Infinitif présent
3. Infinitif passé
4.Gérondif

Infinitif имеет две форме: présent-travailler,partir avoir travaillé,être parti.

Infinitif présent – выражает одновременность с действием ,обозначенным глаголом в личной форме, a Infinitif passé- предшествование этому действию, Infinitif présent

Il est content de vous voir .- Он рад вас видет

Il compte revenir le mois prochain.- Он рассчитывает вернутся в будущем месяце

Infinitif passé

Il est content de vous avoir vu.- Он рад, что видел вас ,

Il compte être revenu le mois prochain.- Он рассчитывает что (уже) вернется в будущем месяце.
На русский язык Infinitif passé обычно переводится придаточным предложением,
сказуемое которого выражено глаголом совершенного вида.
Ключевые слова: усвоение грамматического материала,овладение навыками чтения, сходные и разные особенности словесного связывания в родном и иностранном языках.

KH.Rafiyeva

Comparative analysis of adverbial verbs in Azerbaijani and French.

Summary

The French verb is one of the most important places in the dictionary of rich vocabulary. The non-personal forms of the verb in French are as follows:
1.Infinitive
2. Infinitive present
3. Past infinitive
4. Gerund
Infinitif has two forms: present -travailler, partir avoir travaillé, être parti.
Infinitif present - expresses simultaneity with the action indicated by the verb in personal form.
Il est content de vous voir -It's nice to see you
Il compte revenir le mois prochain. -He plans to return next month.
Past infinitive - precedence to this action
Il est content de vous avoir vu.- Glad to have seen you.
Il compte être revenu le mois prochain.- He expects to be back next month. Infinitif passé is usually translated into Russian by the subordinate clause.whose predicate is expressed by a verb of a perfect form.

Key words: mastering of grammatical material, mastering reading habits, similar and different features of verbal linking in the native and foreign languages.

Məqalənin redaksiyaya daxil olma tarixi:15.11.2019
Çapa hazırlnma tarixi:18.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Ulduz Mürşüdova.çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

FƏRMAN XƏLİLOV
AMEA Naxçıvan Bölməsi
E-mail: fermanhalilov@yahoo/com

NAXÇIVANIN ƏLYAZMALAR XƏZİNƏSİ

Xülasə

AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun fəaliyyətə başlamasının 15 ili tamam olmuşdur. Bu müddət ərzində Fondda bir sıra elmi-təşkilati işlər aparılmış və o, xalqımızın mənəvi xəzinəsi olan qədim əlyazma və çap kitablarının toplanılması, sistemləşdirilməsi, kataloqlaşdırılması, tədqiqi, nəşri və təbliğini həyata keçirən nüfuzlu bir elmi müəssisəyə çevrilmişdir. Burada aparılan tədqiqat işlərinin əsasını muxtar respublika ərazisindən toplanılmış əlyazma və çap kitablarının öyrənilməsi təşkil etmiş, araşdırmaların nəticələri müxtəlif müxtəlif elmi jurnallarda, həmçinin kitab və monoqrafiyalarda öz əksini tapmışdır.

Məqalədə fondun yaranması və keçdiyi 15 illik inkişaf yolu, fəaliyyətinin əsas istiqamətləri nəzərdən keçirilir.

Müəllif fondun fəaliyyəti ilə bağlı mövcud olan fakt və məlumatlara, hesabatlara, direktiv sənədlərə istinad edərək belə qənaətə gəlir ki, bu elmi müəssisənin qədim əlyazma və çap kitablarının toplanılması, qorunması, öyrənilməsi, nəşri və təbliğində özünə məxsus xidmətləri olmuşdur.

Açar sözlər: AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, qədim əlyazma və çap kitabları, elmi-təşkilati işlər, elmi əməkdaşlıq, fondun strukturu.

AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli sərəncamı ilə yaradılan AMEA Naxçıvan Bölməsinin tərkib hissələrindən biri kimi 8 aprel 2005-ci ildə fəaliyyətə başlamışdır. Artıq 15 ildir ki, Naxçıvan Muxtar Respublikasında əlyazmaşünaslıqla bağlı Azərbaycan Respublikasının dövlət siyasətini həyata keçirən fondun əsas məqsəd və vəzifələri qədim əlyazma və çap kitablarının toplanılması, sistemləşdirilməsi, kataloqlaşdırılması, tədqiqi, nəşri və təbliğidir. Fondun bu günədək keçdiyi inkişaf yolu və qazandığı elmi nailiyyətlər onun 15 illik fəaliyyəti haqqında söz açmağa imkan verir. Fondun ilk elmi əməkdaşları Şəmsi Pənah oğlu Əhmədov və Fəxrəddin Aydın oğlu Eylazov olmuşdur. Həmin il Naxçıvan MR Ali Məclisinin Sədri cənab V.Talıbov tərəfindən fondun arxivinə ilk əlyazma – M.T.Sidqinin Naxçıvanın axun-

du Hacı Molla Məhəmməd Naxçıvaniyə Azərbaycan dilində yazdığı 19 səhifəlik məktubunun avtoqrafının surəti hədiyyə edilmişdir.

Fond fəaliyyətə başlayandan iki ay sonra, yəni 13 iyun 2005-ci ildə elmi əməkdaşlar Şəmsi Əhmədov, Fəxrəddin Eylazov və Aynur Cəlilovanın iştirakı ilə onun ilk iclası keçirilmiş və iki məsələ diqqət mərkəzinə çəkilmişdir: Əlyazmalar Fondunun təşkili vəziyyəti və nəzərdə tutulan təşkilati işlər.

Bu iclasdan sonra fondda həyata keçirilən ən mühüm təşkilati işlərdən biri Bölmənin Rəyasət Heyətinin 19 oktyabr 2005-ci il tarixli qərarına əsasən Əlyazmalar Fondunu zənginləşdirmək məqsədilə muxtar respublikanın ərazisində mövcud olan qədim əlyazma və çap kitablarının toplanması, dəyərinin müəyyənləşdirilməsi və alınması üçün Əlyazmaların Qəbulu Komissiyasının yaradılması idisə, digəri bölmə rəhbərliyi tərəfindən bir sıra yerli təşkilatlara, Naxçıvandakı Türkiyə və İran konsulluqlarına, həmçinin Azərbaycan Xarici İşlər Nazirliyi vasitəsilə xarici ölkələrdəki bəzi səfirliklərimizə müraciət edilməsi idi. Bu müraciətlərdə əsas məqsəd xarici ölkələrin kitabxana, arxiv, institut, universitet, akademiya, muzey və fondlarında Naxçıvana aid materialların müəyyənləşdirilməsi və onların, yəni qədim əlyazma və çap kitablarının surəti, elmi ədəbiyyat, müxtəlif kataloqlar, kaset, disk və mikrofilmlərin əldə edilməsinə nail olmaq idi.

Fond yaranandan bu günədək onun arxivi və kitabxanasının zənginləşdirilməsi digər yollarla da – qədim əlyazma və çap kitablarının fond əməkdaşları tərəfindən hədiyyə olunması, muxtar respublikanın ərazisində yaşayan ayrı-ayrı sakinlər tərəfindən bağışlanılması, dəyəri ödənilməklə alınması, bəzi təşkilatların hədiyyə verməsi vəekspedisiyalar vasitəsilə həyata keçirilmişdir.

Hələ 2005-ci ilin əvvəllərində fondun əməkdaşları ilk ekspedisiyalarını Ordubad, Şərur, Kükü, Keçili, Mahmudoba, Badamlı, Bənəniyar, Dizə, Gənzə və başqa yerlərdə həyata keçirərək əlyazmaların mövcudluğunu müəyyənləşdirmək və onları əldə etmək üçün bir sıra işlər görmüşdülər. Həmin ildə fondun arxivinə 6 ədəd əlyazma daxil edilmişdir. 2006-cı ildə isə 38 adda əlyazma və çap kitabı əldə edilmişdir ki, bunlardan 33-ü satın alınmış, 5-i isə hədiyyə edilmişdir.

2007-ci ildə fondun əməkdaşı F.Eylazov AMEA M.Füzuli adına Əlyazmalar İnstitutuna ezam olunmuş, oradan 33 əlyazmanın mikrofilmini gətirmişdir. Bunların içərisində naxçıvanlı müəlliflərdən Ziya Ordubadi, Həlali Ordubadi, Fəqir Ordubadi, Qüdsi Vənəndi, Məhəmmədtağı Culfayi, Mirzə Mehdi Naxçıvaninin əsərləri də vardır.F.Eylazov 2007-ci ildə Əlyazmalar İnstitutundan fondun kitabxanası üçün 31 adda profilə uyğun müxtəlif kitab, monoqrafiya, metodik vəsait və bir sıra direktiv sənədlər də gətirmişdir.Naxçıvan MR Nazirlər Kabinetinin 10 iyul 2007-ci il tarixli 58 nömrəli qərarı və Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyinin 12 iyul 2007-ci il tarixli 123 nömrəli əmri ilə Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılan 105 qədim əlyazma və çap kitablarının fondun balansına daxil edilməsi də bu istiqamətdə atılan addımlardan biri idi.

2008-ci ildə isə Naxçıvan MR Ali Məclisinin Sədri cənab V.Talıbovun göstərişi əsasında C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyindən 69 nüsxə əlyazma və çap kitabı fondun balansına keçirilmişdir.

2005-2006-cı illərdə fondun üç şöbəsindən yalnız biri – əlyazmaların toplanması şöbəsi fəaliyyət göstərmiş, 2007-ci ildə əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri, 2016-cı ildə isə əlyazmaların mühafizəsi, gigiyenası və bərpası şöbələri işə başlamişdir.

Əlyazmaların toplanması şöbəsinin səmərəli fəaliyyəti nəticəsində fondda mühafizə edilən qədim əlyazma və çap kitablarının sayı 500-ü keçmişdir. Bunlar elmin müxtəlif sahələrinə – tarix, dilçilik, ədəbiyyatşünaslıq, nücum, fiqh, məntiq, riyaziyyat, tibb, coğrafiya, həmçinin bədii ədəbiyyata aid qiymətli materiallardır. Fondda qorunan bu materialların 90-dan çoxu əlyazma, qalanı isə daşbasma üsulu ilə və elektrik mətbəəsində çap olunan kitablardır. Buradakı Qurani-kərimin incə nəstəliq xətti ilə ərəbcə yazılmış bəzi ayələri və məşhur dua nümunələri toplanan çox kiçik formatlı əlyazma təxminən 500 il bundan əvvələ aiddir. Bundan başqa 1117 hicri-qəməridə (miladi 1705) müəllifi Abdulla Məhəmməd Nasiri olan 400 il bundan əvvəl yazılmış "Ehticac" adlı əlyazma (ərəbcədir) və 1224 hicri qəməridə (miladi 1824) çap olunan Hacı Molla Əbdülkərim ibn-Məhəmmədəli Xorasaninin "Ənisül-vaizin" kitabı (farscadır) fondda qorunan ən qədim əlyazma və çap kitabıdır.

Fondda qorunan ən qədim türkdilli kitab isə Əsgər ibn-Hüseyn bəy Ordubadinin sifarişi ilə katib Məşədi Hacı ağa Təbrizi tərəfindən üzü köçürülən M.Füzulinin Azərbaycan dilində olan "Leyli və Məcnun" poemasıdır. Əlyazmaya rəssamı naməlum olan 22 rəngli miniatür də daxil edilmişdir.

Fondda mühafizə olunan Nizami Gəncəvi, Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov, Sərraf Təbrizi, Mirzə Əli xan Ləli, Zünuzu, Məhəmmədbağır Xalxali, Mirzə Ələkbər Sabir və digər azərbaycanlı müəlliflərlə yanaşı Əbülqasım Firdovsi, Sədi Şirazi, Hafiz Şirazi, Qaani, Mirzə Həbib Şirazi, Nazim, Qumri, Hüseyn Qulpayqani, Namiq Kamal və başqa fars və türk klassiklərinin şeirləri və poemaları, həmçinin mənsur "İsgəndərnamə", "Kəlilə və Dimnə", "Əlfə leylətun və leylətin" ("Min bir gecə") kimi bədii əsərlər Şərq dünyasında öz dövrü üçün aktual mövzulara həsr olunan dəyərli sənət inciləridir.

Kitabların digər bir qismi isə vaxtilə mollaxana, mədrəsə və üsuli-cədid məktəblərində dərs vəsaitləri olmuşdur.

Əlyazmaların kataloqlaşsırılması, tədqiqi və nəşri şöbəsində fondun arxivində mühafizə olunan qədim əlyazma və çap kitablarının demək olar ki, hamısına ilkin elmi rəylər yazılmış, onların adı, müəllifi, katibi, tərcüməçisi, yazılma və çap olunma tarixi və yeri, xətti, həcmi, ölçüsü və məzmunu müəyyənləşdirilmişdir.

Şöbənin ən uğurlu işlərindən biri 2018-ci ildə "Farsdilli əlyazmalar və əski çap kitabları kataloqu"nu çapa hazırlaması və nəşrinə nail olmasıdır [1]. Kataloqa fondda qorunan farsdilli 48 əlyazma və 134 əski kitabın qısa təsviri verilmişdir. Elmin müxtəlif sahələrinə aid olan bu kitabların əksəriyyəti Naxçıvan Muxtar Respublikasının

ərazisindən – Şərur, Sədərək, Kəngərli, Babək, Culfa, Ordubad, Şahbuz rayonlarının ərazilərindən toplanılmışdır. Hazırda şöbədə fondda qorunan türkdilli əlyazmaların kataloqunun çapa hazırlanması işi başa çatdırılmaq üzrədir.

2018-ci ildən etibarən fondda tamamilə yeni bir istiqamətdə, yəni Naxçıvanın elm, mədəniyyət, ədəbiyyat və maarif xadimlərinin şəxsi arxivlərinin yaradılması istiqamətində işə başlanılmışdır.Lazımi cihaz və texniki avadanlıqlarla təmin olunan **əlyazmaların mühafizəsi, gigiyenası və bərpası şöbəsi isə** əlyazma və çap kitablarına müəyyən gigiyenik xidmət göstərməklə məşğul olmuşdur.

Fond fəaliyyətə başlayandan bu günədək əməkdaşlar müxtəlif aktual mövzularda səmərəli tədqiqat işləri aparmışdır. Araşdırmaların əksəriyyətinin əsas tədqiqat obyekti Naxçıvan ərazisindən toplanan və Fondda mühafizə olunan əlyazma və çap kitabları olmuşdur. Əsasən o əlyazma və çap kitabları tədqiqata cəlb edilmişdir ki, ya müəllifi, ya katibi, ya tərcüməçisi, ya naşiri, ya himayəçisi və ya sifarişçisi naxçıvanlı olsun. Başqa müəlliflərin də əlyazma və kitabları öyrənilmişdir. Məhəmmədhəsən Ordubadinin həyatı və əsərləri, Bayrək Quşçuoğlunun əlyazmaları, Mirzə Müslim Qüdsinin "Divan"ının filoloji təhlili, XV əsr Azərbaycan tərcümə abidəsi "Gülşəniraz"ın elmi-tənqidi mətni, Salik Ordubadinin yaradıcılığı, Müseyib Naxçıvaninin "Həqayiqi ət-tarix" əsəri, Mirzə Mehdi xanın üzü Naxçıvanda köçürülmüş "İxtisarname-ye ovliya-ye adəmiyyət" əlyazması, Əbubəkr ibn-Xosrov əl-Ustadinin "Münisnamə"si, Suli Fəqihin "Yusif və Züleyxa" əsərinin filoloji təhlili, Əli Əkbər ibn-Məhəmmədrza Dəllak Naxçivaninin "Muxtarnamə" əsərinin paleoqrafik xüsusiyyətləri, Heyran Xanımın "Divan"ı, Hatif İsfəhani Ordubadinin "Tibnamə" əsəri, Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhabəd-dümu", "Qürrətül-əbsar", "Məzahir ən-nur" əsərləri, Əliqulu Mirzayi Naxçıvaninin "Əqaid-e fəlsəfə" əsəri, Fazil Naxçıvaninin haşiyə və xülasə yazdığı "Böyük Qarabaddin" əsəri, Kazım Ordubadinin "Tibbə dair qeydləri", Orta əsr Azərbaycan təzkirələri, Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin protokolları, Fəzlullah Səid Təqi Firuzabadinin dövrü, mühiti və həyatı, Seyid Səbrinin əlyazmaları, Kərbəlayi Kazım Ordubadinin "Sərfi-Mir" əsəri belə tədqiqat işlərindəndir. Tədqiqata cəlb olunan əsərlər tarix, dilçilik, ədəbiyyat, məntiq, fəlsəfə, həndəsə, astronomiya elmlərini, təfsir və hədis sahələrini əhatə edir. Bu əlyazma və çap kitablarının öyrənilməsi onların aid olduğu dövrün ədəbi mühitini və mədəni inkişafının hansı səviyyədə olduğunu izləməyə imkan vermişdir.

Aparılan tədqiqat işlərində əlyazma və çap kitablarının mövzu və məzmunu, eyni zamanda paleoqrafik və orfoqrafik xüsusiyyətləri də öyrənilmiş, mühüm elmi nəticələr əldə edilmişdir. Fond əməkdaşlarının tədqiqatlarının nəticələrini əks etdirən Hatif İsfəhani (Ordubadi). "Tibnamə". Tərcümə edən F.Eylazov. (Naxçıvan, "Əcəmi" NPB, 2015, 240 s.), "Məhəmməd Naxçıvaninin Təbriz Milli Kitabxanasına hədiyyə etdiyi kitabların kataloqu". Tərcümə edən F.Eylazov. (Naxçıvan: Tusi, I c. 2014, 128 s., II c. 2017, 142 s.), "Farsdilli əlyazma və əski çap kitabları". Tərtib edənlər F.Xəlilov, F.Eylazov. (Naxçıvan: "Tusi" nəşriyyatı, 2018, 120 s.), Suli Fəqih. "Yusif və Züleyxa". Tərtib edən S.İbrahimov. (Bakı: "MBM" MMC, 2008, 476 s.),

Əbubəkr ibn-Xosrov əl-Ustad. "Munisnamə". Tərtib edən S.İbrahimov. (Bakı: ATU, 2008, 143 s.), F.Xəlilovun "Maarif fədaisi: Həsən bəy Qazıyev". (Naxçıvan: Əcəmi NPB, 2016, 88 s.), "Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər. (Naxçıvan: Əcəmi NPB, Birinci kitab 2017, 248 s., İkinci kitab 2019, 200 s.), Naxçıvan ədəbi mühitinin yetirməsi: Seyid Səbri. (Naxçıvan: Əcəmi NPB, 2018, 264 s.), S.İbrahimovun ""Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhabət-Dümu" əsərində fəlsəfi düşüncələr". (Bakı: ATU, 2009, 146 s.), "Naxçıvanın mənəvi, mədəni irsinə dair əlyazma mətnləri". (Bakı: Elm və təhsil, 2017, 336 s.), Nemətullah Naxçıvani: XV əsrin görkəmli təsəvvüf və təfsir alimi". (Naxçıvan: "Əcəmi" NPB, 2018, 104 s.), F.Eylazovun "Şirazinin "Gülşəni-raz" əsərində kamil insan surəti" (Bakı, ADPU, 2015, 186 s.), A.Cəlilovanın "Bayrək Quşçuoğlu". (Bakı: Səda, 2005, 200 s.) adlı kitab və monoqrafiyaları özünəməxsus elmi əhəmiyyətə malikdir.

2005-2019-cu illərdə Fond əməkdaşlarından F.Xəlilovun "Məmmədhüseyn Təhmasibin bir əlyazmasının izi ilə" / Məmmədhüseyn Təhmasib: taleyi və sənəti. (Naxçıvan: Əcəmi NPB, 2017, s. 47-55), "Mirzə Əli Möcüzün şəxsi fondu" / Cənubi Azərbaycan ədəbiyyatı: tədqiqlər. İkinci kitab. (Bakı: "ULU" İKF, 2016, s. 78-87), "AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda qorunan farsdilli əlyazmalar və çap kitabları" // AMEA Əlyazmalar İnstitutu. Əlyazmalar yanmır. Elmi məqalələr toplusu. (Bakı, 2018 № 2, s. 139-143), F.Eylazovun ""Şeyx Mahmud Şəbüstəri və onun "Glşəni-raz" əsəri haqqında" // AMEA Naxçıvan Bölməsi Xəbərlər. İctimai və humanitar elmlər seriyası. (Naxçıvan 2006, № 4, s. 214-218), "Məhəmmədhəsən Ordubadi və onun bir əlyazması haqqında" // AMEA Naxçıvan Bölməsi. Xəbərlər. İctimai və humanitar elmlər seriyası. (Naxçıvan, 2007, № 1, s. 188-190), ""Gülşəni-raz" əsərinin türkcəyə tərcüməsi və onun mütərcimi haqqında". AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. (Bakı, 2017, № 6, s. 374-381), S.İbranimovun "Əl-Ustadın "Munisnamə" əsəri haqqında". AMEA Naxçıvan Bölməsi. Xəbərlər. İctimai və humanitar elmlər seriyası. (Naxçıvan, 2007, № 1, s. 196-200), "Orta əsr əlyazma mətnlərində Naxçıvan mədəniyyətinə dair" // Dövlət və Din. İctimai fikir toplusu. (Bakı, 2011, № 2, s. 37-41), Ə.M.Naxçıvaninin ""Əqaide-fəlsəfə" kitabı haqqında" // Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, (Naxçıvan, 2013, № 2, s.124-130), Ş.Əhmədovun "Əlyazmalar mədəni irsimizin bir hissəsidir" // AMEA Naxçıvan Bölməsi. Xəbərlər. İctimai və humanitar elmlər seriyası. (Naxçıvan, 2006, № 2, s. 192-196), "Səməd Sərdarniyanın ""İrəvan müsəlmanlar yurdudur" kitabı haqqında" AMEA Naxçıvan Bölməsi. Xəbərlər. İctimai və humanitar elmlər seriyası. (Naxçıvan, 2006, № 4, s. 219-224), "Mirzə Müslim Qüdsinin "İrəvanın vəsfi" məsnəvisi haqqında". AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası. (Naxçıvan, 2007, № 1, s. 191-195), A.Cəlilovanın "Orta əsr təriqətləri və əhli-həqq şairi Bayrək Quşçuoğlu haqqında" // "Azərbaycan" jurnalı. (Bakı, 2006, № 10, s. 183-188), "Sufizmə bir baxış və Azərbaycan sufi şairi Bayrək Quşçuoğlunun türk sufi ədəbiyyatında yeri" // Folklor/edebiyat. Üç aylık kültür dərgisi. (Ankara, 2007, № 3, s. 67-75), C.Əliyevin "Naxçıvanda katiblik sənəti nümunələri" // AMEA

Naxçıvan Bölməsi. Xəbərlər. İctimai və humanitar elmlər seriyası. (Naxçıvan, 2008, № 1, 244-247), Z.Məmmədovanın "Salik Ordubadinin məhəbbət lirikası" // AMEA Naxçıvan Bölməsi. Xəbərlər. İctimai və humanitar elmlər seriyası. (Naxçıvan, 2007, № 1, s. 196-200), "Mətn anlayışı və mətnin oxunması" // AMEA Naxçıvan Bölməsi. Xəbərlər. İctimai və humanitar elmlər seriyası. (Naxçıvan, 2008, № 1, s. 248-25), N.İslamovanın "Əbu Mütənəbbi görkəmli ərəb şairi kimi"// Bakı İslam Universiteti. Elmi Axtarışlar. Elmi məqalələr toplusu II buraxılış. (2018, s. 138-143), "Sufilik və Baba Nemətulla Naxçıvaninin əsərlərində sufiliyin tərənnümü" // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Elmi Əsərlər. (Bakı, 2018, № 2 (7), s. 61-64), "Şərqdə lüğətçiliyin inkişafı və Cövhəri ilə Firuzabadinin əsərlərinin müqayisəsi" // AMEA Naxçıvan Bölməsi, Xəbərlər, (Naxçıvan, 2019, №1, s. 206-209), K.Vəliyevanın "Ərəb yazısı qədim paleoqrafiyanın əsası kimi" // "Naxçıvan" Universiteti. Elmi əsərlər (İqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika və psixologiya, riyaziyyat), (Naxçıvan, 2018, № 2, s. 113-116), "Kərbəlayi Kazım Ordubadinin "Sərfi-Mir" əlyazması haqqında" // AMEA Məhəmməd Füzuli adına Əlyazmzlar İnstitutu. Elmi əsərlər. (Bakı, 2018, № 2 (7), s. 46-53), "Azərbaycan və ərəb dillərində tibbi terminlərdə kök və ön şəkilçilərin müqayisəli şəkildə ifadə formaları" // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.Filologiya məsələləri. (Bakı, 2019, № 3, s. 118-123) adlı məqalələri isə fondda aparılan elmi araşdırmaların istiqamətləri haqqında daha ətraflı təsəvvür əldə etməyə imkan verir.Beləliklə, 15 illik fəaliyyətinə nəzər salarkən aydın olur ki, xalqımızın dəyərli mənəvi sərvətlərindən sayılan qədim əlyazma və çap kitablarının yorulmaz toplayıcısı, etibarlı qoruyucusu, səriştəli araşdırıcısı və təbliğatçısı olan AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu bu müddət ərzində üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirməyə nail olmuşdur [2].

Ədəbiyyat

1. Farsdilli əlyazma və əski çap kitabları". Tərtib edənlər F.Xəlilov, F.Eylazov. Naxçıvan: "Tusi" nəşriyyatı, 2018, 120 s.
2. F.Xəlilov. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Əlyazmalar Fondu. Naxçıvan: "Əcəmi" NPB, 2019, 64 s.

Farman Khalilov

The treasure of manuscripts of Nakhchivan

Резюме

15 years have passed since the beginning of the activity of Fund of Manuscripts of Nakhchivan Branch of ANAS. During this period, a number of scientific-organizational works were carried out at the fund and it has become an influential scientific enterprise carrying out the collection, systematization, cataloging, research, publication and promotion of ancient manuscripts and printed books, which are the spiritual

treasure of our people. The basis of the research work carried out here has been the study of manuscripts and printed books collected from the territory of the Autonomous Republic, the results of the research have been reflected in various scientific journals, as well as books and monographs.

The article reviews formation of the Fund and its 15-year development path, the main directions of its activities.Referring to the facts,information, reports and directives related to the fund's activities, the author concludes that this scientific institution has its own services in collection, protection, study, publication and promotion of ancient manuscripts and printed books.

Key words: Fund of Manuscripts of Nakhchivan Branch of ANAS, ancient manuscripts and printed books, scientific-organizational work, scientific cooperation, structure of the fund.

Фарман Халилов

Сокровищница рукописей Нахчывана

Summary

Фонду рукописей Нахчыванского отделения НАНА исполнилось 15 лет со дня основания. За это время в фонде был проведен ряд научно-организационных работ, и он стал влиятельным научным учреждением, осуществляющим сбор, систематизацию, каталогизацию, исследование, издание и пропаганду древних рукописей и печатных книг, которые являются духовным достоянием нашего народа. Основу исследовательской работы здесь составляет изучение рукописей и печатных книг, собранных на территории Автономной Республики, результаты исследований отражены в различных научных журналах, а также в книгах и монографиях.

В статье рассматриваются пути создания и 15-летнего развития Фонда, основные направления его деятельности.

Со ссылкой на имеющиеся факты и информацию, отчеты, директивные документы, связанные с деятельностью фонда, автор приходит к выводу, что это научное предприятие имеет свои собственные услуги в сборе, защите, изучении, издании и пропаганде древних рукописных и печатных книг.

Ключевые слова: Фонд рукописей Нахчыванского отделения НАНА, древние рукописные и печатные книги, научно-организационные работы, научное сотрудничество, структура фонда.

Məqalənin redaksiyaya daxil olma tarixi:29.12.2019
Çapa hazırlnma tarixi:25.01.2020
Filologiya elmləri doktoru, professor Əbülfəz Quliyev
tərəfindən çapa tövsiyə olunmuşdur

YEGANƏ HÜSEYNOVA
Filologiya üzrə fəlsəfə doktoru
yeganesabirhuseynli@gmail.com
Gəncə Dövlət Universteti
Heydər Əliyev prospekti

B. VAHABZADƏNİN YARADICILIĞINDA MİLLİ MƏNLİYİN DƏRKİ

Xülasə:

Türk dünyasının min illər boyu əvəzedilməz xəzinəsi olan folklor ədəbiyyatına, yazılı ədəbiyyat nümunələrimizə yazarlarımız bir örnək kimi həmişə müraciət etmişlər. XX yüzil Azərbaycan poeziyasına öz imzasını atmış Bəxtiyar Vahabzadə də əsrlər əvvəl yenilməz dövlət kimi tanınan göytürklərin dövlət başçıları haqqında müasir Azərbaycan dramaturgiyasının yeni qələbəsi hesab edilən "Özümüzü kəsən qılınc" əsərini qələmə alır.

Bəxtiyar Vahabzadə müxtəlif həyati problemləri və insani münasibətləri dərin humanizm mövqeyindən ümumiləşdirərək əsas mühakimə və münasibət predmeti kimi müəyyənləşdirir. “Özümüzü kəsən qılınc” əsəri əslində həyatın və zamanın həqiqətlərini, bəzi hallarda ziddiyyət və təzadlarını dolğun fəlsəfi mühakimələrlə əks etdirməsi baxımından da xüsusi maraq və əhəmiyyət kəsb edir.

"Özümüzü kəsən qılınc" əsərində şair, hadisə və süjet planında geniş həyat həqiqətlərinə münasibət bildirir, cəmiyyətdə baş verən hadisələrə fəal müdaxilə nəzərə çarpan yaradıcılıq faktı kimi maraq kəsb edir. Ümumiyyətlə, milli mənliyin dərki və milli mənə qayıdış Bəxtiyar Vahabzadə yaradıcılığının əsas xüsusiyyətlərindəndir. “Özümüzü kəsən qılınc” əsərində əsas dəyər verilən məsələ qəhrəmanların öz elinə, xalqına, vətəninə, mənsub olduqları cəmiyyətə olan münasibətləridir. Əsər qədim türk xalqlarının tarixi keçmişini, zəngin dövlətçilik ənənələrini özündə əks etdirir. Burada türklərin minillik tarixi keçmişindən söz açılsa da, şair minilliklər əvvəl baş verən hadisələrə yeni baxış bucağından yanaşmışdır. Başımıza gələn faciələri və onları doğuran səbəbləri məharətlə açıb göstərmişdir. “Kitabi-Dədə Qorqud” dastanında və Şairin “Özümüzü kəsən qılınc” əsərində Azərbaycan milli mənəviyyatı üçün xarakterik olan vətəndaş obrazı öz əksini tapmışdır. Ədəbiyyatşünas Ramazan Qafarlı yazır ki: “Kitabi-Dədə Qorqud” yeganə əsərdir ki, millətin əlindən zorla alınıb, “həbs edilib”. Onu dilinə alanlar da türmələrdə çürüdülüb”. Türk xalqının əlindən alınıb “həbs edilən” bu dastana Bəxtiyar Vahabzadənin 1998-ci ildə yenidən müraciət etməsi heç də təsadüfi deyildir. Şair əsərdə Vətən tarixini öyrənməyin vacibliyini nümayiş etdirmişdir. Bəxtiyar Vahabzadə əsəri oxuyan hər bir kəsi türk birliyinə səsləyir.

Açar sözlər: Mifologiya, folklor, Türk, millət, Vahabzadə.

Türk dünyasının min illər boyu əvəzedilməz xəzinəsi olan folklor ədəbiyyatına, yazılı ədəbiyyat nümunələrimizdə yazarlarımız bir örnək kimi həmişə müraciət etmişlər. XX yüzil Azərbaycan poeziyasına öz imzasını atmış Bəxtiyar Vahabzadə də əsrlər əvvəl yenilməz dövlət kimi tanınan göytürklərin dövlət başçıları haqqında müasir Azərbaycan dramaturgiyasının yeni qələbəsi hesab edilən "Özümüzü kəsən qılınc" əsərini qələmə alır.

Şairi düşündürən mövzu və problemlər son dərəcə genişdir, konseptualdır, cəmiyyətə ünvanlanmışdır. Burada azadlıq və istiqlal məfkurəsi bütün əzəmət və genişliyi ilə boy göstərir, qəhrəmanları daim haqq-ədalət uğrunda çarpışır, yenilik axtarır. Ünumiyyətlə, şair nəinki "Özümüzü kəsən qılınc" əsərində, demək olar ki bütün əsərlərində hadisələrə yeni bir baxış və münasibət müstəvisində dəyər və qiymətləndirməyi zərurətə çevirir. Bəxtiyar Vahabzadə müxtəlif həyati problemləri və insani münasibətləri dərin humanizm mövqeyindən ümumiləşdirərək əsas mühakimə və münasibət predmeti kimi müəyyənləşdirir. "Özümüzü kəsən qılınc" əsəri əslində həyatın və zamanın həqiqətlərini, bəzi hallarda ziddiyyət və təzadlarını dolğun fəlsəfi mühakimələrlə əks etdirməsi baxımından da xüsusi maraq və əhəmiyyət kəsb edir.

"Özümüzü kəsən qılınc" əsərində şair, hadisə və süjet planında geniş həyat həqiqətlərinə münasibət bildirir, cəmiyyətdə baş verən hadisələrə fəal müdaxilə nəzərə çarpan yaradıcılıq faktı kimi maraq kəsb edir. Ümumiyyətlə, milli mənliyin dərki və milli mənə qayıdış Bəxtiyar Vahabzadə yaradıcılığının əsas xüsusiyyətlərindəndir. "Özümüzü kəsən qılınc" əsərində əsas dəyər verilən məsələ qəhrəmanların öz elinə, xalqına, vətəninə, mənsub olduqları cəmiyyətə olan münasibətləridir. Əsər qədim türk xalqlarının tarixi keçmişini, zəngin dövlətçilik ənənələrini özündə əks etdirir. Burada türklərin minillik tarixi keçmişindən söz açılsa da, şair minilliklər əvvəl baş verən hadisələrə yeni baxış bucağından yanaşmışdır. Başımıza gələn faciələri və onları doğuran səbəbləri məharətlə açıb göstərmişdir. "Kitabi-Dədə Qorqud" dastanında və Şairin "Özümüzü kəsən qılınc" əsərində Azərbaycan milli mənəviyyatı üçün xarakterik olan vətəndaş obrazı öz əksini tapmışdır. Ədəbiyyatşünas Ramazan Qafarlı yazır ki: "Kitabi-Dədə Qorqud" yeganə əsərdir ki, millətin əlindən zorla alınıb, "həbs edilib". Onu dilinə alanlar da türmələrdə çürüdülüb" (4, səh.19). Türk xalqının əlindən alınıb "həbs edilən" bu dastana Bəxtiyar Vahabzadənin 1998-ci ildə yenidən müraciət etməsi heç də təsadüfi deyildir. Şair əsərdə Vətən tarixini öyrənməyin vacibliyini nümayiş etdirmişdir. Bəxtiyar Vahabzadə əsəri oxuyan hər bir kəsi türk birliyinə səsləyir.

"Özümüzü kəsən qılınc" əsəri 1450 il bundan əvvəl güclü bir dövlət kimi tanınan göytürklərin dövlət başçıları haqqında yazılmışdır. Bu əsərlə Bəxtiyar Vahabzadə son dərəcə təzadlı konfliktlərin bədii və obrazlı həlli vasitəsi ilə böyük bir tarixi dövrün ibrətamiz inikasını yaratmışdı. Əsərdə müəllifin qələmə aldığı bütün hadisələr oxucunu sonuna qədər dərin bir həyəcan içərisində saxlayır və onu düşünməyə, bu mürəkkəb və çətin hadisələrin həll edilməsi üçün yollar axtarmağa, çıxış yolu tap-

mağa çağırır.“Özümüzü kəsən qılınc” əsərində xeyir və şər qarşı-qarşıya qoyulur, hər iki tərəfin mübarizəsi böyük bir hadisəyə çevrilir, burada hadisələrin gedişatı həyacan doğurur. Oxucu böyük maraq və səbirsizliklə xeyrin şər üzərində təntənəsini gözləyir.Xalqın tarixi taleyi, bu taleyi özlərində, mübarizələrində əks etdirən insanların xarakteri və əməlləri, nəcib insani xüsusiyyətləri görkəmli şairin dramaturgiyasının əsas fəlsəfi-estetik düşüncələridir. B.Vahabzadə dramaturgiyası mövzu cəhətdən tarixi və müasir həyatla bağlı olan pyeslər silsiləsinə şamil edilə bilər. Burada tarixilik və müasirlik vəhdət halında çıxış edir. Bu da böyük şairimizin milli dramaturgiyanın zəngin ənənələrini yaşatmaq əzmini göstərir. Əsər Bəxtiyar Vahabzadənin türk birliyinə səsləyən ideyalarının çağırışıdır. Vahabzadənin kamil cəhətlərindən biri də odur ki, şair əsərlərində tarixi müasirlik qədər yaşada bilir. Keçmişə görə əzab çəkmək, ona bu günün gözüylə baxmaq- Bəxtiyarın mövzu dairəsinin genişliyindən, mürəkkəbliyindən xəbər verir.

B.Vahabzadənin “Özümüzü kəsən qılınc” əsəri tarixi yaddaşımıza müraciət edərək oxucunu milli-mənəvi kimliyimiz və dəyərlərimiz üzərində düşüncələrə çəkir. Bu əsər müasir Azərbaycan vətəndaşını milli müstəqillik və bütövlük idealları ətrafında səfərbər etmək ideyası üzərində qurulub. Dünyanın təzadları, bir-birini təkzib edən ictimai-siyasi hadisələr, real gerçəkliklər də Bəxtiyar Vahabzadənin lirikasını, o cümlədən epik yaradıcılığını, dramatik kolliziyalarla, qarşıdurma və ziddiyyətlərlə yadda qalan dramaturgiyasını, vətəndaşlıq qayə və yanğısı ilə qələmə alınan publisistik düşüncələrini ciddi narahat edən mövzu və problemlərə çevrilməsi heç də təsadüfi deyil. Dünyada baş verən dəyişiklikləri iti fəhmlə və intiusiya ilə qavramaq cəhdi onun qəhrəmanına xas olan başlıca əlamətlərdəndir. Məsələn, vaxtilə Azərbaycan cəmiyyətində qəliblənmiş standartları, ətalət və gözləmə mövqeyini şair həssaslıqla duyur və ona qarşı çıxaraq xalqı dəyişən dövrün və zamanın sınaqlarından dözüm və mətanətlə, ağlın və milli düşüncənin köməyi ilə çıxmağa çağırırdı.Yüksək vətəndaşlıq qayəsi, dünyanın və bəşəriyyətin bu günü və gələcək taleyi üçün nigarançılıq hissləri Bəxtiyar Vahabzadənin əsərlərində milli sərhədləri aşan mahiyyəti barədə geniş təsəvvür yaradır. Bu doğru qənaətdir ki, “Bəxtiyar Vahabzadənin narahatlığı – milli-ictimai məsuliyyətin təzahürüdür və buna fərdi-psixoloji əlamət kimi baxanlar tamamilə yanılırlar...” (1, 9).

Bəxtiyar Vahabzadə bütün yaradıcılığı boyu sərt həyat həqiqətlərini, ictimai-məfkurəvi mahiyyəti ilə seçilən mətləbləri özünəməxsus kəskinliklə, gərgin dramatizmlə epik təhkiyənin münasibət müstəvisinə çıxarmağa üstünlük verir. Belə bir yaradıcılıq xüsusiyyəti şairin bütün əsərlərinə sirayət edən mühüm yaradıcılıq məziyyətləri kimi üzə çıxır. Tarixi sənədlər əsasında yazılan, 2 hissədən və 12 şəkildən ibarət olan pyesdə tarixi şəxsiyyət olan Gur Şadın Birinci Göytürk dövlətinin istiqlalı uğrunda mübarizəsindən söz açılır. “Özümüzü kəsən qılınc” (“Göytürklər”) faciəsində Bumin Xaqanla onun qardaşı İstemi Xaqanın hakimiyyətlərindən sonra zəifləmiş, dağılmaq təhlükəsi qarşısında qalmış Göytürklər dövlətinin ikinci dəfə yüksəlişi diqqət hədəfində olur.Şair göstərir ki, Göytürk dövləti təhlükə qarşısındadır. Əsərdə

köhnə düşmənləri çinlilər qohumluq əlaqəsindən istifadə edərək, Çulu xaqanın çinli zövcəsinin əli ilə Göytürk dövlətini içindən parçalayıb dağıtmaq üçün min hiyləyə əl atırlar (tarixə nəzər saldıqda görərik ki, yenilməz türk birliyi həmişə ocağına gətirdiyi qadınlar tərəfindən pozulub). Belə bir şəraitdə çox təəssüflər olsun ki, bu ağır, dövlətin müqəddəratı həll olunan bir zamanda göytürklər yumruq kimi bir olub, vətəni, dövləti göz bəbəyi kimi qorumaq əvəzinə, saray əhli arasında parçalanma baş verir, ölkənin müstəqilliyi, türkün şərəfi, ləyaqəti tamamilə unudulur. Yadların böyüklüyünə, ucalığına həmişə həsrətlə baxan türk özündən uzaqlaşır və özünə yadlaşan türk getdikcə cılızlaşır, kiçilir və asanlıqla düşmən tərəfindən məğlubiyyətə uğradılır. Şair bir daha sübut edir ki, türk özünə qayıdanda böyük və qüdrətli olur, dövlət müstəqilliyini qoruyub saxlaya bilir. Əslində Bəxtiyar Vahabzadə tarixə müraciət etməklə, bu günümüzlə səsləşən məqamlara, müstəqillik uğrunda çarpışmalara əngəl olan yaxın tarixin hadisələrinə də ayna tutur.. Doğma qardaşı Çulu Xaqanın meyidi üstündə hakimiyyətə gələn Qara Xaqan xalqa arxalanmayan bir hakimiyyətin zəif, gücsüz olmasının fərqində deyil. Məğlubiyyətlərə son qoyan Gur Şad isə Bumin və İstemi xaqanların qurduqları səltənətin yolunda sıravi döyüşçü kimi vuruşmağı xaqanlıqdan üstün tutur. Əsərin əsas ideyası da elə özümüzü kəsən gözəgörünməz qılıncların kimlərin əlində olduğunu üzə çıxarmaqdır. Göytürk dövlətini dağıtmaq üçün Çin imperiyasının əl atdığı üsullar qılıncdan daha təhlükəli və kəsərlidir. Bunun məhz fitnəkarlıq, hiylə, riyakarlıq, xəyanət, siyasətdən ibarət olması pyesdən də, yaxın tariximizin hadisələrindən də bizə yaxşı bəllidir. Millətin qanını, dinini, dilini, əlifbasını dəyişməklə, düşüncəsini, mədəniyyətini dəyişmək, onu özünə yadlaşdırmaq bu günümüzlə çox səsləşir.“Özümüzü kəsən qılımc” əsərində Bəxtiyar Vahabzadə Azərbaycan cəmiyyətinin olduqca aktual mənəvi – psixoloji problemlərini qələmə alır. Tarixə müraciət B.Vahabzadə üçün həmişə öndə olan məsələlərdən olmuşdur. Əslində “Özümüzü kəsən qılımc” əsərində qaldırılan problemlər Dədə Qorqud dövründən üzü bu yana şairin yaşadığı dövrün, zamanın problemidir, şair tarixə bu günün gözü ilə baxır, müasir insanın dünyayabaxışı ilə səciyyələndirir. Qeyd etməkdə haqlı olarıq ki, əsərə şair M. F. Axundzadənin verdiyi “resept” ilə yanaşmışdır. Şübhəsiz ki, keçmiş Sovetlər Birliyində gedən ictimai-siyasi proseslər kimi, bütün dünya miqyasında baş verən bir çox səciyyəvi hadisələr də B.Vahabzadənin ciddi və həyəcanla izlədiyi problem məsələlər sırasına daxil idi. Bəxtiyar Vahabzadə Türkiyədə nəşr olunan kitabına yazdığı “Qızım, sənə deyirəm gəlinim, sən eşit” adlı ön sözdə qələmə alır ki: “On doqquzuncu yüz ildə yaşamış böyük ədibimiz Mirzə Fətəli Axundzadə demiş ki, əgər mövcud quruluşu açıq tənqid edə bilmirsənsə, zaman və məkanı dəyişdir, ürək sözünü yaz, anlayan anlayacaq. Mən uzun illər böyük ədibimizin bu məşhur resepti əsasında yazmış, totalitar sistemə bu yolla öz etirazımı bildirmişəm” (3, 485). Bəzən ciddi senzura nəzarəti şəraitində bu məsələləri olduğu kimi vermək çətinliyi ilə üzləşməsinə baxmayaraq, B.Vahabzadə baş təsvir edilən hadisələrin coğrafiyasını başqa ərazilərə köçürməklə , ilini neçə yüz illər arxaya çəkməklə özünün dediyi kimi, vəziyyətdən çıxır, gizli yollarla, işarə və rəmzlərlə oxşar situasiyaları elə öz yaşadığı “xalqlar həbs-

xanası”nda təsvir etməyə müvəffəq olurdu.Yuxarıda qeyd etdiyimiz kimi belə əsərlərdən biri də “Özümüzü kəsən qılımc”dır. Yüz illər bundan əvvəl bir tarixə işıq salan bu əsər bütövlükdə müasir milli keçmişimizin möhtəşəm bir abidəsi kimi həllini taparaq, çağdaş mədəniyyətimizin bir parçasına çevrilmişdir. Tarixi şəxsiyyətlərə bədii-tarixi münasibət, tarixin qaranlıq səhifələrinin yeni nəslə yenidən çatdırılması və tanıdılıb öyrədilməsi təqdirəlayiq hadisələrdəndir. Azərbaycan tarixinin yeni səhifələrinin yazıldığı bir zamanda Bəxtiyar Vahabzadə bu əsəri ilə tarixə, soykökümüzə qayıdış etdi. “Özümüzü kəsən qılınc” pyesinin ilk tamaşasında iştirak edən Heydər Əliyev əsərə və tamaşaya yüksək qiymət vermişdi: “Tariximizi araşdırıb bu gün üçün əhəmiyyətli, dəyərli olan səhifələrini indiki və gələcək nəsillərə çatdırmağın özü xalq, millət, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Bu xidmətə görə mən Bəxtiyar Vahabzadəyə xüsusi təşəkkür edirəm və hesab edirəm ki, millətimiz, xalqımız, cəmiyyətimiz də bu təşəkkür sözlərimə qoşulacaqlar və daim ona minnətdar olacaqlar”(2). “Özümüzü kəsən qılınc” əsarətə, yadelli işğalçılara qarşı mübarizə aparan xalqın istək və arzularının təcəssümüdür. Əqidə bütövlüyü, vətənpərvərlik, mənəvi yenilməzlik əsərdə olduqca aktual və müasir planda verilmişdir. Əsərdə cərəyan edən hadisələr müasir dövrümüzlə səsləşərək 1988-ci ildən üzü bəri xalqımızın qarşılaşdığı fəlakət və faciələri, xalqımıza, torpağımıza edilən haqsızlıqları, erməni təcavüzünü göz önünə gətir.

Böyük söz ustadı Bəxtiyar Vahabzadə xalqımızın yüz illər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin yaşadılması naminə yorulmadan yazıb, yaradıb. Şair azərbaycançılıq məfkurəsinə dərindən bağlı olan və özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına töhfələr verib. Bəxtiyar Vahabzadə sözün əsl mənasında son nəfəsinə qədər vətənin, əqidənin və bədii sözün əsgəri olub. Şairin yaradıcılığının əsasını xalqın azadlığı, müstəqil dövlətçilik, vətəni qorumaq, tarixə ehtiram, gələcəyə inam təşkil edir. Qılıncdan da kəsərli olan fəlsəfi dramatik pyesi “Özümüzü kəsən qılınc” əsəri bu gün ədəbiyyatımızın zirvəsində dayanan əsərlərdəndir.

Qaynaqlar

1. Cəfərov N. Bəxtiyar Vahabzadə. Bakı: Azərbaycan, 1996, 80 s.
2. Milli birliyi, dövlətçiliyimizi qorumağa səsləyən əsər. /Xalq qəzeti. Bakı: 14 aprel 1998, № 96
3. Vahabzadə Bəxtiyar Əsərləri: 11 cilddə, IX c., (Məqalələr, ədəbiyyat və sənət), Bakı: Azərbaycan, 2005, 784 s.
4. Vahabzadə Bəxtiyar Əsərləri, 12 cilddə, Bakı-2009, “Elm” nəşriyyatı, IX cild,828 səh.

Yegana Huseynova

The understanding of national identity in B.Vahabzadeh'work
Summary

The beginning of human culture, the first one goes through mythology. Mythology is the essence of man, in general, of peoples. When a people have folklore and this folklore existing this people is happy. The existence of folklore is the existence of the people that it depends on. It is impossible to speak of an ancient folklore.

Turk's heroism and thinking brains. Bakhtiyar Vahabzadeh, who was prominent poet of the 20th century Azerbaijani poetry also writed the work "The Sword cutting Ourselves" which is about the heads of state of Göyturks, known as the mighty state centuries ago and which is new victory of contemporary Azerbaijani drama where the subject and problems of the poet are very broad and addressed to the society. In the work, freedom and independence ideologies show all the splendor and magnitude, the heroes are constantly fighting for justice, looking for innovation. The work of "The Sword cutting Ourselves" is of particular interest and importance in terms of reflecting the truths of life and time, in some cases contradictions and contradictions with full philosophical judgments. The poet in the "The Sword cutting Ourselves", reflecting on the broad realities of life on the plan of the event and plot, and the active intervention in the events of the society is of a considerable fact of creation. In general, the sense of national identity and the return to national understanding is one of the main features of creative works of Bakhtiyar Vahabzade. The main issue in the work of "The Sword cutting Ourselves", is the heroes' relationships to their own people, their people, their homeland, to the community they belong to.

Key words: Mythology, folklore, Turkish folk, Vahabzadeh.

Й.Гусейнова

Понимание национальной идентичности
в творчестве Бахтияра Вахабзаде

Наши писатели всегда ссылались на образцы фольклорной и письменной литературы, которые на протяжении тысячелетий были незаменимым бесценным сокровищем тюркского мира. Бахтияр Вахабзаде, оставивший свою подпись в азербайджанской поэзии XX века, также пишет новую книгу «Меч, режущий нас самих», новый триумф современной азербайджанской драматургии об известных много веков назад главах османских государств.Бахтияр Вахабзаде обобщает различные жизненные проблемы и человеческие отношения из глубин гуманизма и определяет их как

предмет суждения и отношения. «Меч, режущий нас самих» представляет особый интерес в том, что он отражает реальности жизни и времени, а в некоторых случаях противоречия с философскими суждениями.

В произведении «Меч, режущий нас самих» поэт выражает свое отношение к более широким жизненным реальностям, как в событии, так и в сюжете, как активное вмешательство в общественные события как факт творческой деятельности. Вообще, восприятие национальной идентичности и возвращение к национальному мне - одна из главных черт творчества Бахтияра Вахабзаде. Главная ценность произведения «Меч, режущий нас самих» - это отношение героев к своей нации, своему народу, своей родине и обществу, к которому они принадлежат. Работа отражает древнюю историю древнетюркских народов, богатые традиции государственности. Хотя в нем говорится об истории тюркского тысячелетия, поэт по-новому взглянул на то, что произошло тысячи лет назад. Он умело раскрыл трагедии и причины, которые их вызвали. В эпосе «Китаби-Дада Горгуд» и в поэме «Меч, режущий нас самих» отражен образ гражданина, характеризующий национальный характер Азербайджана. Литератор Рамазан Гафарли пишет, что «Китаби Дада Горгуд» - единственное произведение, которое было насильственно захвачено и «арестовано» у нации. Те, кто говорил об этом, также сгнили в тюрьме. Обращение Бахтияра Вахабзаде к этой эпопее турецкого народа вновь в 1998 году не случайно. В своем творчестве поэт продемонстрировал важность изучения истории Родины. Бахтияр Вахабзаде всех, кто читает произведение, призывает к турецкому единству.

Ключевые слова: Mifalogiya, фольклор, турецкий, нация, Вагабзаде

Məqalənin redaksiyaya daxil olma tarixi: 27.12.2019
Çapa hazırlnma tarixi:18.01.2020
Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur

KÖNÜL MƏHƏRRƏMOVA
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
konulmeherremli7@gmail.com

HÜSEYN CAVİD FƏLSƏFƏSİNİN ÖYRƏNİLMƏ TARİXİNDƏN

Xülasə

Görkəmli Azərbaycan şairi Hüseyn Cavid həmçinin filosof və mütəfəkkir kimi tanınır. Onun bədii əsərləri müxtəlif məsələlər üzrə fəlsəfi ideyalarla zəngindir və bu ideyalar müxtəlif tədqiqatçıların diqqətini cəlb etmişdir. Bu tədqiqatçılardan bəziləri bəşəriyyət və iblis, dünyadakı şər qüvvələrin mənbəyi, onlara qarşı mübarizə aparmaq və onların mövcud olmadığı yeni cəmiyyət yaratmaq yolları barədə fikirləri əhatə edən "İblis" faciəsinə diqqət yetirmişlər.

Bəzi tədqiqatçılar H.Cavidin bədii əsərlərini, eləcə də onun fəlsəfi ideyalarını Cibran, İqbal, Qöte, Nitsşe, Cəfər Cabbarlı və başqaları ilə müqayisə edirlər. Məhəbbət, gözəllik, münaqişə və mübarizə, müharibə və sülh kimi məsələlər H.Cavidin ən çox təhlil edilən fikirlərindəndir. H.Cavidin bəzi tədqiqatçıları onun fəlsəfəsi ilə o qədər çox maraqlanırlar ki, onların fikrincə, Cavid yazıçıdan çox filosof olmuşdur. Hüseyn Cavidin fəlsəfi ideyaları uzun müddət araşdırılmış olsa da, müxtəlif tədqiqatçıların bu mövzuya yanaşmaları arasında böyük fərqlər var. Xüsusilə, Sovet dövründə və müasir Azərbaycan ədəbiyyatşünaslığı və fəlsəfəsindəki yanaşmalar bir-birindən çox fərqlənir.

Açar sözlər: Hüseyn Cavid, fəlsəfə, gözəllik, münaqişə, mübarizə, müharibə, sülh

Söz sənətimizə ümumbəşəri düşüncə tərzi ilə yeni poetik nəfəs gətirən Hüseyn Cavid yaradıcılığının fəlsəfi səciyyəsinə görə ədəbiyyat tariximizdə seçilən ədiblərdəndir. Ona görə də H.Cavid yaradıcılığında irəli sürülmüş fəlsəfi fikirlər və onların qaynaqları daim tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu mühüm məsələyə bir çox araşdırmalar həsr olunmuş, ayrı-ayrı kitab və məqalələrdə münasibət bildirilmişdir.

Bir qisim tədqiqatçıların fikrincə, Hüseyn Cavidin fəlsəfi fikirlərini daha geniş aspektdə ilk dəfə ortaya qoyan əsəri "Şeyx Sənan" faciəsidir. Belə ki, məhz bu pyes onun filosof sənətkar kimi tanınmasına səbəb olmuşdur (5, s.67).

H.Cavid fəlsəfəsinə həsr olunmuş əsərlər içində fəlsəfə elmləri doktoru, professor Səlahəddin Xəlilovun "Cavid fəlsəfəsi (1-ci kitab: "İblis"də fəlsəfi motivlər)" (1996) və "Cavid fəlsəfəsi (2-ci kitab: Klassik Şərq və müasirlik)" (2009) kitabları xüsusilə diqqəti cəlb edir.

Birinci kitabda H.Cavidin "İblis" faciəsinə diqqət yetirilmiş, həmin pyesdə verilmiş fəlsəfi mülahizələr yaxın mövzuda yazılmış digər səhnə əsərləri ilə müqayisə

edilmişdir. Burada müəllif H.Cavid fəlsəfəsinin Nitşe fəlsəfəsi ilə eyniləşdirilməsinin əleyhinə çıxır. Onun razılaşmadığı məqamlardan biri də tədqiqatçıların bir çoxu tərəfindən irəli sürülən "İblis insanın özündədir" fikridir. Müəllif haqlı olaraq qeyd edir ki, H.Cavid heç də insanı İblislə eyniləşdirməklə pessimizə yol vermir, bu mülahizə onun yazdıqlarını öz fikir süzgəcindən keçirib öz məqsədlərinə uyğunlaşdıran tədqiqatçıların fikridir.

İkinci kitabda H.Cavid yaradıcılığında Şərq fəlsəfi fikri ilə yaxınlıq təşkil edən məqamlar araşdırılmış, filosof şairimiz H.Cavidin düşüncələri görkəmli Şərq mütəfəkkir və ədiblərinin fəlsəfi konsepsiyaları ilə müqayisə olunmuşdur. S.Xəlilov H.Cavid fəlsəfəsini F.Əttar, İbn Ərəbi kimi görkəmli sufi mütəfəkirlərinin ideyaları ilə müqayisə etmişdir. O, Hüseyn Cavidlə Xəlil Cübranı müqayisə edərkən hər ikisinin gözəlliyi özünə səcdəgah seçməsinə və hər ikisinin eyni mövzulara ("həqiqət və güc", "peyğəmbər", "iblis") toxunmasına əsaslanmışdır (11, s.64, 70). Bu oxşarlığı nəzərə alan ərəb və Azərbaycan alimləri də bu günümüzdə H.Cavid və Cübran Xəlil yaradıcılığının müqayisəsinə həsr olunmuş elmi araşdırmalara önəm verərək bu mühüm mövzunu hətta xüsusi dissertasiya işinin tədqiqat obyekti kimi gündəmə gətirirlər. Omanın Sultan Qabus Universitetinin doktorantı Rəşad Həsənovun "Hüseyn Cavid və Xəlil Cübran yaradıcılığında qadın obrazlarının müqayisəsi" mövzusunda doktorluq dissertasiyası üzərində işləməsi də bu iki qüdrətli sənətkarın ideya, mövzu yaxınlığının bariz göstəricisidir.

Tədqiqatçı H.Cavid və Məhəmməd İqbal arasındakı yaxınlığı isə mistik təcrübə və elmi-fəlsəfi təfəkkür arasında əlaqə yaratmaqda, eləcə də Şərq ənənələrini qoruyub-saxlamaqla Qərbə müraciət etməkdə görür (11, s.78). O, H.Cavidi Cəmaləddin Əfqani ilə müqayisə edərkən, bu görkəmli mütəfəkkirlərin hər ikisinin xalqın keçmişinə baxmağı, ondan ibrət götürməyi tövsiyə etdiyini göstərir (11, s.88).

S.Xəlilov iki dahi Azərbaycan dramaturqunu – H.Cavidlə C.Cabbarlını da müqayisə edir. Onun fikrincə, H.Cavid əvvəlcə filosof, sonra sənətkardır, C.Cabbarlı isə əksinə. C.Cabbarlı hadisələrdən mahiyyətə keçir. H.Caviddə isə bu keçid fərqlidir. Hər iksi sənətkarın yaradıcılığı üçün əsas olan isə fəlsəfi zonadır (11, s.92, 93, 97). Tənqidçi Aydın Talıbzadə də yazır ki, H.Cavid dramaturq olmaqdan əvvəl filosof idi (14, s.291). Onu da qeyd etməliyik ki, H.Cavid yaradıcılığının bu cəhəti heç də həmişə müsbət qarşılanmamışdır. Məsələn, vaxtilə Hənəfi Zeynallı Cavidi "fəlsəfəçiliyinə" görə tənqid etmişdr (17, s.39).

S.Xəlilov Hüseyn Cavid yaradıcılığının realistliyi məsələsinə də toxunmuş və yazmışdır: "Bizcə, o bir çox rəsmi realistlərdən daha çox realist idi. Belə ki, realizm heç də göz qabağında olanın surətini çəkmək deyil. H.Cavid min illərin dərinliyindən, yad ellərin uzaqlığından məhz öz mühitini, dövrünü, günün həqiqətlərini daha sərrast nişan alır, hədəfə daha düz düşürdü" (11, s.80). Həqiqətən də, realizm həmin an gördüklərini yaradıcılıqda əks etdirmək deyil. Realizm həmin hadisələrin səbəblərini və buna müvafiq olaraq da nəticələrini görə bilməkdir. Buna görə də əbədiyaşar H.Cavid yaradıcılığı çağdaş qiymətləndirmə bucağından baxdıqda onunla eyni dövr-

də, eyni ictimai-siyasi şəraitdə yaşamış bir çox ədibin irsindən daha müasir və realist görünür. "Sosialist realizm"inin tələbləri ilə yazılmış əsərlərin bir çoxu müasir dövrün təsəvvürlərinə uyğun gəlməyən yaradıcılıq nümunələri kimi aktuallığını itirib. Böyük sənətkar H.Cavidin əsərləri isə həmişəyaşardır, dahi söz ustadının hadisələrə verdiyi ictimai qiymət çağdaşlığını qoruyub-saxlayır, bu ölməz əsərlər bədii dəyərini itirmir.

Müşahidələrimiz onu deməyə imkan verir ki, H.Cavidin bədii yaradıcılığında irəli sürülən fəlsəfi fikirlərin Nitşe fəlsəfəsi ilə əlaqəsi məsələsinə tədqiqatçıların əksəriyyəti münasibət bildirib. Filologiya üzrə fəlsəfə doktoru, cavidşünas alim Azər Turan H.Cavidin müəllimi Rza Tofiq Bölükbaşının Nitşe fəlsəfəsi ilə maraqlandığını da qeyd etmişdir. Onun fikrincə, H.Cavid Nitşeni "mütəfəkkir xəyalpərəst" adlandıran və ona mənfi münasibət bəsləyən müəlliminin fikirlərini bölüşmürdü. Qeyd edək ki, bu zaman A.Turan H.Cavidin L.Tolstoy və F.Nitşe barədə yazdıqlarına əsaslanmışdır (15, s.113-114). A.Turanın fikrincə, H.Cavidin Nitşe fəlsəfəsinə münasibəti müsbət idi və bir sıra məqamlarda onunla razılaşırdı.

A.Talıbzadə də H.Cavidin dünyagörüşünü F.Nitşe ilə əlaqələndirmişdir: "Ümumtürk mədəniyyətinin və olsun ki, bütün müsəlman Şərqinin Nitşesi Cavid əfəndidir. Dramaturqun pyesləri Nitşe fəlsəfəsinin davranış, rəftar, münasibət güzgüsündə aşkarlanan modelidir. Maarifçiliyin axırıncı söykənəcəyi üstinsandır. Üstinsan İblisdən Allaha doğru uçurumlu bir yoldur" (14, s.289).

A.Turan onu da qeyd etməyi vacib saymışdır ki, H.Cavid F.Nitşenin "Zərdüşt belə deyirdi" əsərini 1914-cü ildə Əziz Şəriflə birlikdə oxumuşdur (15, s.115). Deməli, H.Cavid, həqiqətən də, Nitşe fəlsəfəsi ilə maraqlanmışdır.

Maraqlıdır ki, A.Turanın H.Cavidin F.Nitşe barədə yazdıqlarından müsbət qənaət hasil etdiyi yazısı M.Ağayev tərəfindən tamamilə əksinə mənalandırılmış və müəllif H.Cavidin F.Nitşe ilə razılaşmadığı, onun fikirlərini qəbul etmədiyini qeyd etmişdir. Onun fikrincə, insanlara mərhəmət hissi bəslədiyinə görə, H.Cavid F.Nitşeyə nəzərən, L.Tolstoya üstünlük vermişdir (2, s.139).

Tolstoy və Nitşe məsələsində H.Cavidin fikirlərini incələyən tədqiqatçılardan biri də professor Tahirə Məmmədir. Onun fikrincə, H.Cavid bu iki mütəfəkkirin düşüncə tərzi arasındakı fərqli xüsusiyyətləri izah etməklə yanaşı, onların, H.Cavidin təbiri ilə desək, "ruhşünas" kimi eyni olmasa da, yaxın mövqedən çıxış etdiyi nəticəsinə gəlir (12, s.22). Bunu H.Cavidin "Müharibə və ədəbiyyat" məqaləsində Nitşe haqqında yazdığı: "O, Tolstoyun düşündüyü nöqtəyə acı olmaqla bərabər, daha kəskin və həqiqi addımlarla ilərilləmək istər" (4, s.237) cümləsi də təsdiqləyir.

Ümumiyyətlə, H.Cavid və F.Nitşenin fəlsəfi fikirlərinin müqayisəsi barədə müxtəlif tədqiqatçıların gəldiyi nəticələr bir-birinə ziddir.

Tədqiqatçılarımız H.Cavid yaradıcılığında yalnız F.Nitşenin fəlsəfi ideyalarını deyil, başqa fəlsəfi cərəyanların da təsirini görmüşlər. M.Ağayev qeyd edir ki, "Cavidin dünyagörüşündə dialektika ünsürləri çox geniş yer tutur" (2, s.31). O, bu ünsürləri görkəmli ədibin həm varlıq, həm də idrak sahəsinə aid fikirlərində görürdü.

A.Talıbzadə yazır: "Hüseyn Cavid Azərbaycan maarifçiliyinin ekzistensional fəlsəfəsinin müəllifidir. Onun əsərlərindən maarifçiliyin intellektual üsyanı və fəlsəfəsi boylanır" (14, s.289). A.Talıbzadəyə görə, H.Cavidi hər zaman bəşəriyyətin uçurum yaşantıları maraqlandırmış, onun yaradıcılığında esxatoloji ovqat üstün olmuşdur. O, H.Cavid obrazlarının qarşılaşdığı ekzistensional problemlərə bunları aid edir: Allah, yoxsa iblis; ibadət, yoxsa üsyan; zöhd, yoxsa kef və s. (14, s.294). Buradan görünür ki, A.Talıbzadə öz tədqiqatlarında H.Cavid fəlsəfəsini Avropanın bir çox fəlsəfi cərəyanları ilə əlaqələndirmiş, Qərbin müxtəlif fikir cərəyanlarının: maarifçilik, nitsşeçilik, ekzistensionalizm və sairənin H.Cavid yaradıcılığına təsirinin, yaxud onlarla səsləşən məqamların ola biləcəyini ehtimal etmişdir. Ancaq fikrimizcə, H.Cavidin yaradıcılığını və irəli sürdüyü fəlsəfi fikirləri bunlarla məhdudlaşdırmaq, böyük filosof sənətkarın ideyalarında bu fəlsəfi fikir axınlarının rolunu həddindən artıq böyütmək olmaz.

Tədqiqatçıların diqqət mərkəzinə çəkdiyi məsələlərdən biri də H.Cavidin yaradıcılığında Sokrat, Platon, İbn Sina kimi bir çox görkəmli mütəfəkkirlərin adlarının çəkilməsidir. (2, s.29, 41). Fikrimizcə, H.Cavidin müxtəlif məsələlər barədə danışarkən İ.Kant, C.Lokk, H.Spenser kimi görkəmli filosoflardan misallar gətirdiyini əsas göstərən bu tədqiqatlar onun fəlsəfəyə marağının böyük olduğunu göstərmək istəmişlər (2, s.152). Bu tədqiqatlardan isə belə nəticəyə gəlmək olar ki, bəzi araşdırıcıların dediyi kimi böyük mütəfəkkir H.Cavidin fəlsəfi fikirlərinin formalaşmasında konkret filosofun yox, adları çəkilən şəxslərin hər birinin müəyyən rolu olmuşdur.

H.Cavidin fəlsəfi fikirlərini onun müasirləri və Azərbaycan romantik ədəbiyyatının nümayəndələri ilə müqayisə edən tədqiqatçıların da sayı çoxdur. Məsələn, M.Ağayev Cavidin dünyagörüşünün formalaşmasında A.Səhhət, M.Hadi və A.Şaiqin böyük təsirinin olduğunu yazmışdır (2, s.82).

A.Turan H.Cavidin yaradıcılığında Əli bəy Hüseynzadənin ifadə etdiyi türkləşmək, islamlaşmaq, müasirləşmək təliminin ədəbi inikasını görmüşdür (15, s.97).

H.Cavid yaradıcılığını və fəlsəfi fikirlərini Azərbaycan romantik ədəbiyyatının digər bir görkəmli nümayəndəsi M.Hadi ilə də müqayisə edən A.Turan belə bir nəticəyə gəlmişdir ki, bu iki böyük ədib arasında xüsusən Şərq-Qərb məsələsində böyük fikir ayrılıqları olmuşdur. Müəllifin fikrincə, M.Hadi Qərbi tərifləyərkən, Şərqi kəskin şəkildə tənqid edirdi və bu fikirlər H.Cavidlə üst-üstə düşmürdü (15, s.116-117).

H.Cavidin idrakla bağlı fikirləri də tədqiqatçıların diqqətini cəlb etmişdir. M.Ağayevə görə, H.Cavid idrak prosesinin özünü də, onun obyektini də sonsuz hesab etmişdir (2, s.33).

T.Məmməd də H.Cavid yaradıcılığında rasionalizm və sentimentalizmin uzlaşmasına, ağıl və hissin müvazi şəkildə mövcud olmasına toxunmuşdur. Tədqiqatçının fikrincə, H.Cavid dünyada baş verən hadisələrə həm intuitiv, həm də əqli yanaşmanın tərəfdarıdır. Əgər o, "Şeyx Sənan" əsəri ilə həqiqətin intuitiv mənimsənilməsinə əsaslanırsa, Arif obrazı ilə intuisiyaya əsaslanıb rasionallıqdan uzaqlaşanların faciəsi-

ni əks etdirir, "Peyğəmbər"də isə "nəzərdə tutduğu kamil ideyanı – əqllə intuisiyanın, əməllə mənəvinin vəhdətini əsaslandırır" (12, s.23).

Nəzakət Əzizova "H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı ("Şeyx Sənan", "İblis", "Peyğəmbər")" əsərində dramaturqun fəlsəfi fikirlərinə də toxunmuşdur. O, H.Cavidin "Şeyx Sənan", "İblis", "Peyğəmbər" əsərlərinə əsaslanmaqla onun "İnsan – İblis – Tanrı" konsepsiyasından danışmışdır (9, s.12-14). Qeyd edək ki, vaxtilə Baloğlan Şəfiyev də H.Cavidin "İnsan – Allah – İblis" konsepsiyasından söz açmışdı (13, s.153).

Müstəqil Ağayevin "Hüseyn Cavidin dünyagörüşü" adlı əsərində isə H.Cavidin fəlsəfi mülahizələri ilə yanaşı, onun ictimai fikirləri də nəzərdən keçirilir. Ancaq qeyd etməliyik ki, qənaətlərində əsasən Sovet hakimiyyəti illərində qəlibləşmiş fikirlərə əsaslanan tədqiqatçı əsərinin ilk fəsillərindən sonra qismən də olsa, müasir dövrdə meydana çıxan yanaşmalara da yer verir.

M.Əlioğlunun müxtəlif illərdə yazdığı məqalə və kitablarında da H.Cavidin fəlsəfi fikirləri nəzərdən keçirilmişdir. Görkəmli tənqidçi alim "Azər" poemasında ifadə olunan fəlsəfi fikirlərə münasibət bildirmiş (6, s.118), H.Cavidin əzilənləri mübarizəyə çağırdığını vurğulamış (6, s.97), onun məhəbbət və gözəllik anlayışlarına verdiyi yüksək qiymətə toxunmuş, H.Cavidin gözəllik dedikdə mənəvi gözəlliyi nəzərdə tutduğunu göstərmişdir (6, s.107-108).

H.Cavid yaradıcılığında panteist fikirlər və sufiyanə obrazlar görən tədqiqatçılar da var. Z.Əkbərov "Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi" adlı kitabında Şeyx Kəbiri "yarısufi, yarıpanteist görüşlü" insan obrazı adlandırır (5, s.44). Ancaq bu zaman Z.Əkbərovun bu qənaətə gəlməsinə səbəb olan Şeyx Kəbirin hansı fikirlərini nəzərdə tutduğu tam anlaşılmır. Sonradan o, Şeyx Sənanın da panteist kimi çıxış etdiyini göstərir. Hətta bu panteizmi Xaqani, Şəbüstəri, Nəsimi, Füzuli yaradıcılığı ilə bağlayır (5, s.45). Müəllifin müxtəlif dünyagörüşlərinə sahib bu ədibləri eyni bir fikir cərəyanına, həm də panteizmə aid etməsi maraqlıdır. Bu qənaətində irəli gedən tədqiqatçı alman filosoflarının panteizmi "ateizmin nəcib forması" adlandırdıqlarını da xatırladır (5, s.45). Deməli, tədqiqatçının buradakı məqsədi "Şeyx Sənan" əsərini Sovet dövrünün ideologiyasına yaxınlaşdırmaqdır.

B.Şəfiyev də Hüseyn Cavidin yaradıcılığında panteist fikirlər görür. O, Peyğəmbəri panteist filosof hesab edir və onun bu fikirdə olduğunu yazır: "Təbiətin ayrı-ayrı komponentlərini özlərində əks etdirənlər – təbiəti dərk edənlər allah olurlar" (13, s.142). O, Şeyx Kəbir obrazının da "panteistik və bir qədər skeptik dünyagörüşə" malik olduğunu yazmışdır (13, s.152). Nəzakət Əzizova da Şeyx Kəbirin panteist dünyagörüşünə sahib olduğunu göstərmişdir. O, H.Cavidin fikirlərini də "fəlsəfi-panteist" düşüncə adlandırır (9, s.40, 55).

Qeyd edək ki, H.Cavid irsini öyrənən heç də bütün tədqiqatçılar onun yaradıcılığında panteist fikirlərin olduğunu qəbul etmir. Məsələn, S.Xəlilov H.Cavid yaradıcılığında vəhdəti-vücud ideyalarının panteizmlə eyniləşdirilməsini tənqid edir və yazır

ki, H.Cavid panteist deyil (11, s.38). S.Xəlilov buna sübut kimi H.Cavidin Tanrını dünya ilə eyniləşdirmədiyini, ondan uca tutduğunu göstərir (11, s.40).

H.Cavidin dünyagörüşündəki ateizm məsələsi Sovet dönəminin sənətkarın yaradıcılığına yanaşma meyarları ilə bağlı idi. Həmin dövrün tədqiqatçıları böyük sənətkar H.Cavidin fəlsəfi ideyalarını hakim ideologiyanın tələblərinə, yaxud daha dəqiq desək, ateist dünyagörüşünə uyğunlaşdırmağa çalışırdılar. Təəssüf ki, bu fikir müstəqillik dövründə nəşr olunmuş bəzi tədqiqat əsərlərində də qalmışdır. Məsələn, M.Ağayev göstərir ki, "öz materializmini və ateizmini daha aydın şərh etmək üçün onun Xəyyam surətinə müraciət etməsi heç də təsadüfi deyildi" (2, s.40). Ancaq nəzərə almaq lazımdır ki, həmin əsərdəki fikirlərin heç də hamısı H.Cavidin öz dünyagörüşünün məhsulu deyil, bunların bir qismi onun öz əsərinə qəhrəman kimi seçdiyi Ömər Xəyyamın fikirləri idi.

M.Ağayev H.Cavidin "Dəniz tamaşası" və "Hər yer səfalı, nəşəli" adlı şeirlərində dünyada gördüyü bir mənzərəni cənnətlə müqayisə etməsini onun dinin müddəalarına qarşı çıxması kimi mənalandırır (2, s.156). Ancaq burada müqayisədən söhbət gedə bilər, yəni Cavidin təsvir etdiyi mənzərə o qədər gözəldir ki, yalnız cənnətə bənzədilə bilər. Yəni şair "cənnət" anlamından gördüyü füsunkar mənzərəni təsvir etmək üçün bir təşbeh kimi istifadə etmişdir.

M.Ağayev "Şeyx Sənan" əsərində "Birsə həqq, cümlə din də bir" cümləsini din əleyhinə çıxış kimi qiymətləndirir (2, s.164). Ancaq burada elə İslam dininin özündə də mövcud olan bir müddəanı görmək olar. Həqiqi din yeganədir, İslam dinidir və bütün müqəddəs kitablar da əslində məhz bu dinə əsaslanmışdır. N.Əzizova bu barədə yazır: "Bu hökm də İslam dininin sonuncu mütləq din olacağına işarədir" (9, s.52).

Bəzi tədqiqatçılar hətta bu sözləri bütün dinlər əleyhinə bir çıxış kimi qiymətləndirmişlər. Məsələn, M.Vəliyev yazır: "Sənan görür ki, din mahiyyətcə hər yerdə eynidir və din xadimlərinin mövqeyi, fikirləri də bir-birini xatırladır" (16, s.13). Maraqlıdır ki, müəllif eyni əsərində bu fikri təkzib edərək yazır: "Hiss olunur ki, müəllif dinlərin birləşməsi yolu ilə yer üzündəki rəzalət və haqsızlığın aradan qalxacağına qəlbən inanır" (16, s.18).

S.Xəlilov da bu fikrə öz münasibətini bildirir. Onun yazdığına görə, bu, H.Cavidin "vahid din konsepsiyası"nın əsasını təşkil edir (11, s.58). Müəllif bu konsepsiyanın əsas mənbələrindən birinin İbn Ərəbinin "Eşq tanrıçılığı" təlimi olduğunu göstərir (11, s.59). Fikrimizcə, H.Cavidin vahid din ideyasının əsasında məhz ilahi məhəbbət ideyası dururdu. S.Xəlilov da yazır ki, "dini vəhdət ideyası da əslində Qurandan gəlir" (11, s.61). Filologiya elmləri doktoru L.Əsgərzadə H.Cavid əsərlərində "məhəbbət dini" ideyasının təbliğ olunduğunu göstərir. Onun fikrincə, bu dini düşüncə tərzi "sufizmdən, hürufizmdən, panteizmdən də fərqlidir" (8, s.510).

M.Ağayevin fikrincə, Şeyx Kəbirin dilindən verilən "Allahı insanın öz qəlbində axtarması" müddəası dinə ziddir (2, s.166). Əslində, bu müddəanın da əsasında təsəvvüf ideyaları dayanır.

H.Cavidin "İblis", "Xəyyam", "Azər" kimi əsərlərində yalançı din xadimləri, onların insanlara zərər verməsi ifşa olunur. Ancaq bu heç də bəzi tədqiqatçıların göstərdiyi kimi, H.Cavidin ateizmi deyil (2, s.173). Bu vasitə ilə H.Cavid dinlərin özünə yox, onları əlində oyuncaq eləyən din xadimlərinə qarşı çıxır.

T.Məmməd H.Cavid yaradıcılığında din və fəlsəfənin bir-birindən ayrılmadığını göstərir və bu cəhətdən onu klassik Şərqin rasionalist filosofları ilə əlaqələndirir (12, s.22).

Z.Əkbərovun "Hüseyn Cavidin "Şeyx Sənan" əsəri" adlı tədqiqatında H.Cavidin fəlsəfi görüşlərinin ziddiyyətli olduğu və həmin qeyri-müəyyənliyin dramaturqun yaratdığı obrazların fikirlərində öz əksini tapdığı göstərilir (5, s.49). Ancaq onu da nəzərdən qaçırmaq olmaz ki, H.Cavid də özünün bir çox qəhrəmanları kimi həqiqət axtarışında idi və bu axtarışların yolu da məhz müxtəlif fikirləri anlamaqdan keçirdi.

Bu kimi fikirlər sonrakı dövrlərdə də müəyyən qədər davam etmişdir. Məsələn, M.Ağayev H.Cavidin və onun bəzi qəhrəmanlarının həqiqət axtarışları, dünyanın, həyatın mahiyyəti, cəmiyyətdəki haqsızlıqların səbəbi və s. kimi məsələləri bilməyin mümkünsüzlüyü barədə fikirlərini onun dünyagörüşünün məhdudiyyəti, daha çox idealist filosofların əsərləri ilə maraqlanması kimi cəhətlərlə izah etmişdir (2, s.26-29). Müəllif onun varlıq, həyat, təbiət barədə fikirlərinin sabit olmadığını, tez-tez dəyişdiyini də vurğulamışdır (2, s.30). Ümumiyyətlə, tədqiqatçıların nə üçün böyük mütəfəkkir ədibimiz H.Caviddən bütün həyatı və yaradıcılığı boyu eyni fikirlər çərçivəsində qalmağı, heç vaxt dəyişməməyi tələb etdiklərini anlamaq çətindir.

Bu məsələdə S.Xəlilovun H.Cavid fəlsəfəsini daha aydın şəkildə ifadə edən fikirləri təqdirəlayiqdir: "Dramaturgiya janrı H.Cavidə öz daxilindəki fikir plüralizmini, bəzən hətta bir-birini inkar edən mövqeləri ifadə etmək və seçim imkanını oxucunun ixtiyarına buraxmaq imkanı vermişdir. Məhz müxtəlif mövqelərdə duran obrazların dili ilə verilən fikirlər oxucuya hazır bir konsepsiya son nəticə deyil, fikirlərin, ideyaların mücadiləsi ilə tanış olmaq, müxtəlif fəlsəfi təlimlərin necə bir-birini rədd etdiyinin və necə ustalıqla bir araya gətirildiyinin şahidi olmaq şansı verir" (11, s.21-22).

H.Cavid bir çox əsərlərində insan üçün aydın olmayan gizli həqiqətlərdən, "pərdəli hikmətlər"dən danışır. Buna əsaslanan M.Ağayev kimi bir qrup tədqiqatçılar H.Cavidi aqnostisizmdə günahlandırır (2, s.40). Ancaq bunu H.Cavid dünyagörüşünün məhdud cəhəti kimi yox, onun idraka real yanaşması kimi qəbul etmək lazımdır. Nə qədər güclü zəkaya sahib olsa da, ayrıca bir fərd dünyadakı bütün hadisələrin, məfhumların sirrini anlaya bilməz.

M.Ağayev öz tədqiqatlarından birində H.Cavidin insanlar arasındakı bərabərsizliyin mənbəyini bilməməsini onun məlumatsızlığı ilə əlaqələndirir və yazır ki, marksizmin baniləri artıq bu sualın cavabını tapmışlar, yəqin ki, H.Cavid bundan xəbərsiz olmuşdur (2, s.69). M.Əlioğlu da bu cəhəti H.Cavid fəlsəfəsinin zəif tərəfi kimi qiymətləndirmiş və cavabın artıq H.Cavidə qədər verildiyini söyləmişdir (6, s.99). Fikrimizcə, bunu H.Cavidin həmin fikirlərdən xəbərsiz olmaması ilə yox, onlardan fərqli düşüncə tərzi ilə izah etmək olar.

M.Ağayev H.Cavidin "Yaşadan kainatı qüvvətdir" misrasında ifadə olunan fikri "marksist fikrin təsiri nəticəsi" kimi qiymətləndirir (2, s.69). Qəribədir ki, H.Cavidin ona məhdud görünən baxışlarını marksizmdən xəbərsizliyi ilə bağlayan tədqiqatçılar nədənsə onun yaradıcılığında bəyəndiyi fikirləri marksizmin təsiri kimi izah etmişlər. Bu iki fikir arasındakı ziddiyyət olduğu isə ortadadır.

Sovet dövründə H.Cavidin yaradıcılığı əleyhinə səsləndirilən ittihamlardan biri də onun əsərlərinin öz düşüncəsinin tələblərinə uyğun gəldiyi halda, "xalqın, zəhmətkeşlərin böyük əksəriyyətini düşündürüb məşğul edə bilməməsi"dir (1, s.91). Bu fikir müəyyən qədər haqlı da ola bilər, çünki dərin fəlsəfi problemlərin, ümumbəşəri ideyaların açılmasında H.Cavid yaradıcılığının hamı tərəfindən anlaşılmaması mümkündür. Ancaq yenə H.Cavidin sağlığında yazılan yazılara nəzər salsaq, onun əsərlərinin heç də tamaşaçı kütləsinin diqqətindən kənarda qalmadığını görmək mümkündür.

Bir mütəfəkkir kimi H.Cavid öz əsərlərində bir çox fəlsəfi mövzulara toxunmuşdur. Bu mövzular ayrı-ayrı tədqiqatçılar tərəfindən qruplaşdırılmışdır. Məsələn, görkəmli cavidşünas alim Zahid Əkbərova görə, "Şeyx Sənan" faciəsindəki fəlsəfi görüşlər "dini şübhəçilik, həqiqət axtarıcılığı, panteizm, insan və təbiətin gücü, məhəbbət, mərhəmət və vicdan fəlsəfəsi" kimi qollara ayrılır (5, s.68). M.Əlioğlu "Azər" poemasında ifadə olunan fikirləri belə xülasə edir: müharibə qırğınları, zülm və istibdad, istismar və köləlik və s. əleyhinə fikirlər (6, s.118).

T.Məmməd "Xəyyam" pyesindəki fəlsəfi fikirlərə toxunaraq, Xəyyamın Xacə Nizamdan yalnız bir əkin tarlası, bir bağça istəməsinin fütüvvətçilərin "hər kəsin öz sənəti ilə yaşaması" ideyası ilə bağlı olduğunu bildirmişdir (12, s.35).

H.Cavid yaradıcılığının fəlsəfi əsası kimi Azər Turan insan – bəşər – kosmos amilini götürür və onun yaradıcılığının "Quran və Turan düşüncəsinə" əsaslandığını göstərir (15, s.88).

H.Cavid yaradıcılığında tədqiqatçıların diqqət yetirdiyi fəlsəfi fikirlərdən biri də "yaşamaq üçün mübarizə etmək" fikridir (2, s.44). H.Cavid bir çox əsərlərində bu fikri təkrarlayır, insanları yaşamaq üçün mübarizə aparmağa, çarpışmağa səsləyir. S.Xəlilov da bu məsələyə toxunur və göstərir ki, H.Cavid yaradıcılığında gücə qarşı güc, özünümüdafiə məqsədilə işlədilən güc təbliğ olunur. O, bunu "Haqqa söykənən güc" adlandırır (11, s.81, 83). M.Əlioğlu da qeyd edir ki, H.Cavid "yazıqlığın", "biçarəliyin" və mənəvi qorxaqlığın qəti əleyhdarı olmuşdur. Onun fikrincə, belə xüsusiyyətlər insan üçün qeyrətsizlik və təhqirdir (6, s.97). M.Əlioğlu bunu H.Cavidin insan əzəmətinin daim qorunması tələbi ilə əlaqələndirir və əlavə edir ki, görkəmli ədib bu qüvvət və əzəməti mənəviyyatda görmək istəmişdir.

M.Ağayev "Şeyda" adlı əsərində H.Cavidin və onun yaratdığı obrazların inqilab tərəfdarı olduğunu göstərir və bu inqilabı 1917-ci ildəki inqilabla eyniləşdirir (2, s.48). Halbuki elə müəllifin əsərdən gətirdiyi sitatlar da "Şeyda" əsərindəki obrazların istədiyi inqilabın fərqli olduğunu göstərir:

Yəqindir ki, qocaman Şimal ayısının dərisi parçalansın.

Müstəbid rus zənciri üzərimizdən qalxsın və hər millət kəndi yurduna, kəndi hüququna qovuşsun (3, s.263).

Burada Raufun istədiyi inqilabın daha çox milli xarakter daşıdığı aydınlaşır ki, bu da 1917-ci ilin inqilabından (Oktyabr Sosialist inqilabından) tamamilə fərqlənir. Azadlıq aşiqi H.Cavidin müstəqillik, hürriyyət kimi ülvi amallarından qaynaqlanır. Məhz bu hürriyyət sevdası əyilməz ideoloq Hüseyn Cavidi "inqilab qatarına oturmağa" qoymayaraq qədim türk torpağı olan şaxtalı-sazaqlı Uzaq Sibir ellərinə aparan gedər-gəlməz ölüm qatarına yola salır.

M.Ağayev H.Cavidin bu əsərdə inqilabın qələbəsinə hədsiz sevindiyini göstərir (2, s. 49). Əslində, bu da müəllifin yox, obrazın dilindən deyilmişdir. Həmçinin əsərdə "söylənən sözlər doğru çıxarsa" sözləri vurğulanır. Əsərin hələ inqilab baş verməmiş yazıldığına diqqət edilsə, müəllifin yaratdığı obrazların idealı olan inqilabın sonradan verilən vədləri doğruldub-doğrultmaması, qoyulan tələbləri yerinə yetirib-yetirməməsi, yaxud onların istəyindən daha fərqli hadisələri həyata keçirməsinin də mümkünlüyü ehtimalını ortaya qoyur .

Hüseyn Cavid yaradıcılığında müharibə və sülh məsələləri də tədqiqatçıların diqqətini cəlb edir. Bu cəhətdən onun "İblis" pyesi ilə yanaşı, "Qüruba qarşı", "Hərb ilahı qarşısında", "Hərb və fəlakət" və s. şeirləri, "Müharibə və ədəbiyyat" məqaləsi əhəmiyyət daşıyır.

M.Ağayev H.Cavidin müharibələri pislədiyini, onların acı nəticələrindən danışdığını göstərir (2, s.91). O həmçinin H.Cavidin "Topal Teymur" dramında şair Kirmanşahinin dili ilə müharibəyə qarşı fikirlər söylədiyinə də diqqət yetirir (2, s.95).

M.Ağayev H.Cavidin "Azər" poemasında irəli sürülən "hərbə qarşı hərb" fikrini "Leninin və digər bolşeviklərin təsiri" kimi izah edir, onların "imperialist müharibəsini vətəndaş müharibəsinə çevirmək" fikri ilə bağlayır (2, s.97). Əlbəttə, bu həqiqətdən çox uzaq fərziyədir. Belə ki, H.Cavid məhz mövcud müharibəyə son qoyacaq, ədalətsizliyi dayandıracaq mübarizədən bəhs edir, onun daha çox qanların tökülməsi ilə nəticələnən vətəndaş müharibəsi istədiyini söyləmək qətiyyən düzgün deyil.

Görkəmli cavidşünas alim, professor Kamran Əliyev də H.Cavid yaradıcılığında müharibəyə münasibət məsələsinə toxunmuşdur. O, "Hərb ilahı qarşısında" şeirini "XX əsrin əvvəllərinə məxsus mütərəqqi ədəbi-ictimai fikrin müharibə dəhşətlərinə qarşı pamfleti" adlandırır və bu şeirə yüksək qiymət verir (7, s.57). S.Xəlilov yazır ki, H.Cavid ədalətsiz müharibənin əleyhinə olsa da, öz haqqını qorumaq üçün müharibəyə hazır olmağı da təbliğ edir (10, s.8). Bu fikir, həqiqətən, H.Cavidin bir sıra əsərlərində təsdiqlənir.

Bir çox tədqiqatçılar H.Cavid yaradıcılığının fəlsəfi əsası kimi məhəbbət ideyasını götürür. Məsələn, Z.Əkbərov "Şeyx Sənan" əsərində məhəbbət fəlsəfəsinin mühüm yer tutduğunu göstərir (5, s.72). L.Əsgərzadə H.Cavid yaradıcılığını Məhəmməd Füzuli ilə müqayisə edərək bu nəticəyə gəlir ki, onların hər ikisi "varlığın var olma səbəbini eşqdə görürdü" (8, s.509). T.Məmməd "Xəyyam" pyesində eşqin, sevdanın əsas götürüldüyünü qeyd edir və əsərdəki obrazların da bunun rəmzi ifadəçisi ol-

duğunu bildirir. O yazır ki, Sevda olanda Vəfa və Səfa da var, Sevda ilə birlikdə onlar da ölürlər (12, s.35).

H.Cavidin məhəbbətlə birlikdə gözəlliyə də yüksək qiymət verməsi tədqiqatçılar tərəfindən dəfələrlə qeyd olunmuşdur. M.Ağayev yazır ki, H.Cavidin fikrincə, gözəllik sevgi və məhəbbət doğurur, məhəbbət isə insanı saflaşdırır (2, s.143). M.Əlioğlu da yazmışdır ki, H.Cavid məhəbbət və gözəllik anlayışlarını daim vəhdətdə götürmüşdür (6, s.108).

H.Cavidin gözəllik anlayışını birtərəfli başa düşən tənqidçilər də olmuşdur. Məsələn, böyük şarin müasiri tənqidçi H.Zeynallı (1896-1937) yazırdı: "Bu surətlə Cavid nə yaratmaq istəsə yalnız incəlik və gözəllik xatirəsinə, yalnız bir gözəlin "süzgün" baxışlarına, "canlar alan" gülüşünə xidmət etmək xatirəsinə yaradır" (17, s.44). Burada müəllif H.Cavidin gözəllik anlayışını zahiri gözəlliklə, hətta daha da irəli gedərək qadın gözəlliyi ilə məhdudlaşdırır. M.Əlioğlu isə məhəbbət və gözəllik şairi H.Cavidin gözəllik anlayışını əxlaqi və ruhi gözəllik kimi mənalandırmışdır (6, s.107). Lakin, fikrimizcə, şair, dramaturq olmaqla yanaşı bir filosof da olan H.Cavid böyük sələfi Nizami Gəncəvi kimi gözəlliyi bütün aləmdə, eşqi isə bütün kainatda yaradılışın əsas səbəbi, hərəkətverici qüvvəsi sayır.

Görkəmli mütəfəkkir şair və dramaturq H.Cavidin yaradıcılığında fəlsəfi fikirlərin genişliyi və dərinliyi bu məsələyə dair çoxlu tədqiqatların yazılmasına və müxtəlif yanaşmaların meydana çıxmasına səbəb olmuşdur. Apardığımız tədqiqatlar nəticəsində söyləyə bilərik ki, H.Cavidin ilk əsərlərinin çap olunduğu dövrdən bu günədək onun fəlsəfi görüşlərinə olan münasibət ziddiyyətli olub, hər zaman kəsimində tədqiqatçılar onun fəlsəfi konsepsiyasını müəyyən baxış bucağı altında qiymətləndirməyə çalışıb. Azərbaycan öz dövlət müstəqilliyinə qovuşduqdan sonra bu sahədə aparılan tədqiqatlarda ədalətli mövqe, həqiqətə yaxınlıq, düzgün qiymətləndirmə tendensiyası özünü göstərsə də, hələ də Cavid fəlsəfəsi tam öyrənilmiş sayıla bilməz.

Ədəbiyyat

1. Ağayev Ə. Hüseyn Cavid və onun "Şeyx Sənan" əsəri / Cavidşünaslıq. IV (araşdırmalar toplusu). Bakı, 2012, s.84-93.
2. Ağayev M. Hüseyn Cavidin dünyagörüşü. Bakı: Təknur, 2005, 188 s.
3. Cavid H. Əsərləri. 5 cilddə. II cild. Bakı: Lider nəşriyyatı, 2005, 353 s.
4. Cavid H. Əsərləri. 5 cilddə. V cild. Bakı: Lider nəşriyyatı, 2005, 288 s.
5. Əkbərov Z. Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi.Bakı: Elm, 1977, 148 s.
6. Əlioğlu M. Məsləkqardaşları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, 160 s.
7. Əliyev K. Romantizmin poetikası. Əsərləri, 10 cilddə, II cild. Bakı: Elm və Təhsil, 2018, 312 s.
8. Əsgərzadə L. Füzuli ənənələri Hüseyn Cavid yaradıcılığında / Çağımızdan görünən orta əsrlər. AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi professor R.Azadəyə

həsr olunmuş II beynəlxalq elmi konfransın materialları. 15-16 dekabr 2014. Bakı: Elm, 2014, s.508-513.
9. Əzizova N. H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı (“Şeyx Sənan”, “İblis”, “Peyğəmbər”). Bakı: Elm, 2007, 153 s.
10. Xəlilov S. Cavid fəlsəfəsi (1-ci kitab: “İblis”də fəlsəfi motivlər). Bakı: Qanun, 1996, 112 s.
11. Xəlilov S. Cavid fəlsəfəsi (2-ci kitab: Klassik Şərq və müasirlik). Bakı: Nurlar, 2009,128 s.
12. Məmməd T. XX əsr Azərbaycan dramaturgiyasının poetikası.Bakı: Elm, 1999, 208 s.
13. Şəfiyev B. “Peyğəmbər” pyesi haqqında qeydlər / Cavidşünaslıq. IV (araşdırmalar toplusu). Bakı, 2012, s.140-155.
14. Talıbzadə A. Üsyan və cəza: fikir “kəndirbazı”nın aqibəti / Cavidşünaslıq. I (araşdırmalar toplusu). Bakı: Elm, 2007, s.288-300.
15. Turan A. Hüseyn Cavid. Bakı: Vektor, 2007, 288 s.
16. Vəliyev M. Məhəbbətin qüdrəti / Cavidşünaslıq. IV (araşdırmalar toplusu). Bakı, 2012, s.7-25.
17. Zeynallı H. Hüseyn Cavidin yazdığı “Peyğəmbər” haqqında mülahizələrim / Cavidi xatırlarkən. Bakı: Gənclik, 1982 s.14-51.

К.Магеррамова

Из истории изучения философии Гусейна Джавида

Резюме

Известный азербайджанский поэт Гусейн Джавид также известен как философ и мыслитель. Его литературные произведения полны философских идей по различным вопросам, и эти идеи привлекли внимание нескольких исследователей. Некоторые из этих исследователей обратили внимание на трагедию «Иблис», в которой содержатся мысли о человечестве и дьяволе, источник злых сил в мире, а также способ борьбы с ними и создания нового общества.

Некоторые исследователи сравнивают литературные произведения Джавида, а также его философские идеи с другими писателями и мыслителями, такими как Джебран, Икбал, Гете, Ницше, Джафар Джаббарлы и др. Такие идеи, как любовь, красота, борьба и вражда, война и мир, являются одними из наиболее анализируемых идей Джавида. Некоторые из исследователей Джавида настолько интересуются его философией, что, по их мнению, Джавид был скорее философом, чем писателем. Хотя философские идеи Гусейна Джавида были изучены в течение длительного времени, подходы нескольких исследователей к этой теме сильно различаются. Особенно, подходы

советского периода и современной азербайджанской литературной критики и философии довольно сильно отличаются друг от друга.

Ключевые слова: Гусейн Джавид, философия, любовь, красота, борьба, вражда, война, мир

K.Maharramova

From the history of the researches on Huseyn Javid's philosophy

Summary

Prominent Azerbaijani poet Huseyn Javid is also known as a philosopher and thinker. His literary works are full of philosophic ideas on various matters and these ideas caught the attention of several researchers. Some of these researchers paid attention to the tragedy Iblis which contain the thoughts on the mankind and devil, the source of the evil forces in the world, the way to fight against them, and to create a new society without them.

Some researchers compare Javid's literary works, as well as his philosophic ideas with other writers and thinkers such as Gibran, Iqbal, Goethe, Nietzsche, Jafar Jabbarly and etc. The ideas such as love, beauty, fight and struggle, war and peace are among the most analyzed ideas of Javid. Some of Javid's researchers are so interested in his philosophy that according to them, Javid was much of a philosopher than a writer. Although the philosophical ideas of Huseyn Javid have been explored for a long time, the approaches of several researchers to this topic differ extensively. Especially, the approaches in the Soviet period and in modern Azerbaijani literary criticism and philosophy are quite different from each other.

Keywords: Huseyn Javid, philosophy, love, beauty, fight, struggle, war, peace

Məqalənin redaksiyaya daxil olma tarixi:25.12.2019
Çapa hazırlnma tarixi:21.01.2020
Filologiya elmləri doktoru Gülbəniz Babaxanlı tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNARƏ CƏFƏROVA
BAAU
Ak.Həsən Əliyev, 135 A
c.gulnara88@gmail.com

F.KÖÇƏRLİ YARADICILIĞININ NƏZƏRİ-ESTETİK MƏZMUNU

Xülasə

Hələ qədim dövrlərdən başlayaraq şifahi şəkildə yaranan laylalar, oxşamalar və s. xalq nümunələri uşaq ədəbiyyatının ilkin məzmun və şəkilləri kimi formalaşmışdır. Klassik dövrdən maarifçilik dövrünədək bir çox ustad yazıçılar uşaq mövzusuna müraciət etmişlər. XIX əsrdən etibarən Azərbaycan ədəbiyyatında uşaq mövzusu xüsusi əhəmiyyət kəsb edir. Q.Zakir və A.Bakıxanovun yaradıcılığında maarifçilik mühüm yer tuturdu. Eyni zamanda, A. Şaiq, A.Səhhət, H. Cavid kimi Azərbaycan yazıçıları, romantikləri öz sənət əsərlərində uşaqlara xüsusi diqqət ayırırdılar. M.Ə.Sabir, C.Məmmədquluzadə, Ə.Haqverdiyev kimi sənətkarlar bu mövzuya mühüm əlavələr etmişlər. Bu gün Azərbaycan ədəbiyyatı zəngin bir uşaq ədəbiyyatının daşıyıcısıdır.

Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri olan Firudin bəy Köçərli ədəbiyyatımıza yeni dəyərlər gətirdi. Onun tənqidi görüşləri təkcə elmi və bədii ədəbiyyatı əhatə etmir, eyni zamanda, ədəbi prosesə öz təsirini göstərirdi. Qori müəllimlər seminariyasının məzunu Firudin bəy həyatının əhəmiyyətli dövrünü müəllimliyə həsr etdi və nəticədə uşaq ədəbiyyatına mühüm töhfələr verdi. Bu ədibin tərcüməçilik fəaliyyətinə də təsir göstərdi.

Açar sözlər: F.Köçərli, XIX ədəbi-nəzəri fikri, uşaq ədəbiyyatı, tənqid, tərcümə, pedaqoq

Giriş. XIX əsr Azərbaycan ədəbiyyatının inkişafında xüsusi mərhələ olaraq səciyyələnir. A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlıdan başlayan yeniləşmə M.F.Axundov, S.Ə.Şirvani, H.Zərdabi, M.Şahtaxtlı, M.Mahmudbəyov və başqalarının gördüyü gərəkli işlərlə səciyyələnir. Belə şəxslərdən biri də dövrünün görkəmli alimi Firudin bəy Köçərli idi. XX əsrin əvvəllərindən etibarən Azərbaycan ədəbiyyatşünaslığının inkişafında əvəzsiz xidmətləri olan F. Köçərlinin mükəmməl şəxsiyyət kimi formalaşması təbii ki, ilk növbədə, onun ailəsi, mühiti və təhsili ilə bağlı idi. Şuşa ədəbi mühiti deyərkən Molla Pənah Vaqif, Qasım bəy Zakir, Xurişdbanu Natəvan, Mirzə Sadiq Piran, Aşıq Pəri, Nəcəf bəy Vəzirov kimi görkəmli söz ustadları yada düşür. Belə bir elm və mədəniyyət ocağı olan Şuşa mühitinin kiçik nümayəndəsi təsadüfən dünya şöhrətli rus maarifçisi Çernyayevskinin diqqətini çəkməmişdi.

Firudin bəyin zəkasına güvənən Çernyayevski onun ailəsini zorla razı salaraq özü ilə Qori seminariyasına aparmaqla Azərbaycan mühiti üçün əvəzolunmaz bir inci hədiyyə etmişdi.

F. Köçərlinin Azərbaycan ədəbi tənqidinin inkişafında rolu. K.Əliyev "Firudin bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixində mövqeyi" məqaləsində görkəmli ədəbiyyatşünas F.Köçərlinin əbəbi fəaliyyətini bir abzasla belə ümumiləşdirir: "F.Köçərli Azərbaycan ədəbi tənqidinə nələr gətirdi? Birinci növbədə son dərəcə aydın və sadə yazmaq vərdişini nümayiş etdirdi. O, birmənalı şəkildə qeyd edirdi ki, tənqidçi, yaxud ədəbiyyatşünas alim sadə dildə və aydın yazmalıdır. Elə yazmalıdır ki, deyəcəyi əsas fikirləri oxucuya doğru və dürüst çatdıra bilsin. Bizcə, F. Köçərli tənqidinin bu vacib prinsipi onun müəllimlik peşəsindən irəli gəlir və məhz bunun nəticəsidir ki, sonralar F. Köçərli folklor nümunələrindən ibarət "Balalara hədiyyə" adlı kitabçanı nəşr etdirdi" (2, s. 5).

Ədibin yaradıcılığına nəzər saldığımızda görürük ki, o, xalq dilinə yaxın səlis və aydın dildə yazmağa çox böyük önəm verirdi. Firudin bəy Köçərlinin ədəbiyyata gəldiyi dövr müasir Azərbaycan dilinin formalaşması dövrü ilə bağlı idi. Romantiklər Osmanlı türkcəsində yazmağa üstünlük verdikləri halda, maarifçi realistlər daha çox xalq dilini formalaşdırmağa çalışırdılar. Köçərli də bu mənada realistlərin yazı tərzinə daha çox meyillilik nümayiş etdirməkdə idi.

O, eyni zamanda, Azərbaycan tənqidinin inkişafında mühüm addımlar atırdı. Əsası M.F.Axundov tərəfindən qoyulan Azərbaycan tənqidinin layiqli davamçılarından birinə çevrilən Firudin bəy dövrünün görkəmli alimləri Əli Nazim, Hənəfi Zeynallı və s. kimi şəxsiyyətlərlə ədəbiyyatşünaslığın inkişafına mühüm töhfələr bəxş etmişdir.

F.Köçərli tənqidçi kimi maraqlı fikirləri ilə diqqət çəkirdi. Xüsusən ədibin yaşadığı dövrdə Azərbaycan mətbuatı ictimai-siyasi düşüncənin formalaşmasında mühüm əhəmiyyət kəsb edirdi. Firudin bəy dövrü mətbuatı yaxından izləyir və bu proseslərə laqeyd qalmırdı. Məsələn, "Hörmətli "Şərqi-Rus" ruznaməsinə bir neçə sözlər" məqaləsində Firudin bəy bu qəzeti belə dəyərləndirirdi: "Lillahülhəmd bu günlərdə intizarını çəkdiyimiz "Şərqi-Rus" ruznaməmiz mərifət meydanına qədəm qoyub, elm və mədəniyyət bayrağını qaldırdı. Ətraf və əsnafdan idarəyə daxil olan təbriknamələr, nəzm və nəsr ilə ruznamənin tərifi-qəfləti tövsifi yuxusundan ayılmağımıza böyük bir dəlil və əlamətdir desək, xəta etmiş olmarıq. İyirmi beş il bundan irəli qəzetə haqqında həcv və föhşlərin indi mədh və tərifə təbdil olması, əlbəttə bizim üçün böyük bir mayeyi-iftixardır" (1, s. 298).

Firudin bəyin tənqidçi mövqeyi nümayiş etdirdiyi əsərlərdən biri də Nəriman Nərimanovun "Nadanlıq" əsəri olmuşdur. Ədibin fikrincə, əsərdə dramaturgiyanın əsas qanunlarına əməl edilmədiyi üçün faciəvi sonluq inandırıcı alınmamışdı (5, s. 94)

F. Köçərlinin təzkirə yaradıcılığı. F.Köçərlinin Azərbaycan ədəbiyyatı tarixində tutduğu mövqe onun yalnız tənqidçi görüşləri və uşaq ədəbiyyatı ilə yekunlaş-

mır. Belə ki, Azərbaycan ədəbiyyatı tarixinə göstərmiş olduğu ən böyük xidmətlərdən biri də onun "Azərbaycan ədəbiyyatı tarixi materiallarıdır". Ədib bu əsəri hazırlayarkən Azərbaycan ədəbiyyatındakı xronoloji ardıcıllığa xüsusi önəm verməyə çalışmışdır. O, bu əsərində Füzuli yaradıcılığına həssaslıqla yanaşmış, şairin Azərbaycan ədəbiyyatşünasılığındakı yerini və rolunu qeyd etmişdir. "Azərbaycan ədəbiyyatı tarixi materialları" ənənədə özünə möhkəm yer tutmuş təzkirə yaradıcılığı sahəsində irəli atılan bir addım idi. F. Köçərliyə kimi təzkirə yaradıcılığı orta əsrlərdən başlayaraq inkişaf etmiş, müəyyən nailiyyətlər qazanılmışdır" (2, s.7).

Köçərliyə qədər Azərbaycanda təzkirə ədəbiyyatı ənənəsi yetəri qədər inkişaf etsə də, bu ədəbiyyata yalnız fars dilində yazan şairlərin bədii nümunələri daxil edilirdi. "Əhməd Razi, Lütfəli bəy Azər, Mirzə Tahir Nəsrəbadi, Əlişir xan və b. təzkirəçilərin əsərlərində yalnız fars dilində yazan Azərbaycan şairlərinə yer verilimiş, ana dilində yazıb yaradan böyük sənətkarlar isə kənarda qalmışdır " (10, s. 6).

XX ərsin əvvəllərində Seyid Əzim Şirvani, Həsənəli xan Qarabağı, Mir Möhsün Nəvvab, Məhəmməd ağa Müctəhidzadə və Məhəmmədəli Tərbiyət kimi təzkirəçilər Azərbaycan dilində yazan son dövr şairlərinə xüsusi diqqət yetirsələr də, onların əsərlərində XVII-XVIII əsrin şairləri haqqında məlumat verilməmişdir. Lakin F. Köçərli onların sələflərindən və müasirlərindən fərqli olaraq , Azərbaycan ədəbiyyatı tarixini tam şəkildə əhatə etməyə çalışmışdır.

Firudin bəy Qori seminariyasında olarkən rus alimlərininin araşdırmalarını, onların tədqiqatlar zamanı istifadə etdikləri metodları dərindən öyrənmiş və bunu öz yaradıcılığında tətbiq etmişdir. Tarixdən məlum olduğu kimi, I Pyotrun öz ölkəsinin inkişafı üçün XVIII əsrdən etibarən Avropa elminə açdığı qapı az bir zamanda Rusiyada elm və mədəniyyətin inkişafında mühüm rol oynamışdı. Avropada təhsil alaraq vətəninə geri dönən rus ziyalıları burada tətbiq olunan yeni elmi araşdırma metodlarını rus elminin inkişafı üçün də tətbiq edirdilər. Bunu ədəbiyyat tarixi sahəsinə də şamil etmək mümkündür. Məsələn, XIX əsrin sonu XX əsrin əvvəllərində P.A.Yefremov, M.Qlazunov, N.K.Piksanov və s. kimi alimlər rus ədəbiyyat tarixini ardıcıl şəkildə toplamış, Rusiyada bioqrafik lüğət yaradıcılığının təməlini qoymuşdular. Firudin bəy də belə rus ziyalılarının metodlarını mənimsəyərək "Azərbaycan ədəbiyyatı" əsərini ərsəyə gətirmişdi.

"Azərbaycan ədəbiyyatı" əsərini işləyərkən Firudin bəy bu yöndə apardığı tədqiqatlarında tarixi-müqayisəli metoda xüsusilə üstünlük verir, ədəbiyyatımızı dünya xalqlarının ədəbiyyatı ilə qarşılaşdırmaqla Azərbaycan ədəbiyyatının zənginliyini bir daha qabardır, ədiblərimizin digər xalqların bir çox məşhur yazıçıları ilə eyni sırada durduğunu vurğulamağa çalışırdı. Xüsusən tənqidçi Firudin bəy Azərbaycanın ilk maarifçilərindən olan M. F. Azundzadə yaradıcılığını Molyer və Qoqolla müqayisə etmişdi.

A.Salmanov "Firudin bəy Köçərlinin mətnşünaslıq fəaliyyəti" məqaləsində bu haqda yazır: "F. Köçərlinin "Azərbaycan ədəbiyyatı"nı hazırlayarkən materialları toplama üsulunda (ziyalılara müraciət etməklə) V. Nikolskidən ("Yüz rus yazışı-

sı” kitabını nəşrə hazırlayan), kitabın tərtibində isə S. Venqerovdan (“Rus poeziyası kitabının tərtibçisi”) bəhrələndiyini, (təbii ki, bu əsərin tərtibində fərqlər də var idi) müşahidə edən akademik B. Nəbiyev də gerçəyə əsaslanır” (6, s. 154).

F.Köçərlinin ədəbi fəaliyyəti nəinki onun ölümündən sonra, eyni zamanda, yaradıcılığı dövründə də müasirləri tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycanın görkəmli tənqidçisi B. Nəbiyev bununla bağlı qeyd edirdi: “Köçərlinin ədəbiyyatşünaslıq sahəsindəki məhsuldar əməyi hələ müəllifin öz sağlığında dövrün şair və ədibləri, mütərəqqi ziyalıları tərəfindən dəfələrlə təqdir edilmişdir. Cəlil Məmmədquluzadə, Abbas Səhhət, Kazım oğlu (Seyid Hüseyn), Nəriman Nərimanov, Rəşid bəy Əfəndiyev və başqa yazıçılar da Köçərlini bir tənqidçi və ədəbiyyatşünas kimi yüksək qiymətləndirmiş, Zaqafqaziyanın rus mətbuatı onu oxuculara ədəbiyyatımızın görkəmli mütəxəssisi kimi təqdim etmişdir” (5, s. 28).

F. Köçərli yaradıcılığı və bütünlükdə ədəbi fəaliyyəti ilk dəfə Azərbaycanın görkəmli ziyalısı Mir Cəlal tərəfindən aparılmışdır. B. Nəbiyev bu haqda yazırdı: “Azərbaycanda ədəbi məktəblər (1905-1917)” adlı doktorluq dissertasiyasının (1946) “Realizm məktəbi” fəslində, o, Köçərlinin əsas tədqiqatını, bütün keçmiş məcmuələrindən fərqli olaraq “yalnız ədəbiyyatı öyrənmək deyil, həm də qiymətləndirmək təşəbbüsünü irəli sürən əsər” kimi qəbul etmiş, onun “Materiallar” adlandırılması ilə razılaşmamış, ədəbiyyatımızın tarixini şərh edən sistemli tədqiqat olaraq adlandırmışdı” (5, s. 31).

F.Köçərli yaradıcılığının nəzəri-estetik məzmunu. Köçərli yaradıcılığındakı estetizm yalnız Mir Cəlalın tədqiqatlarında deyil, H. Araslı yaradıcılığında da əks olunmuşdur. H. Araslının “XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi” əsərində ədib F. Köçərlinin Azərbaycan tarixi ilə bağlı tədqiqatlarına da müraciət etmiş, ədibin Füzuli poeziyası ilə bağlı fikirlərini xüsusilə qeyd etmişdir. H. Araslı bu haqda 1958-ci ildə Ədəbiyyat və incəsənət qəzetində dərc etdirdiyi “Füzuli irsinin öyrənilməsi tarixindən” adlı məqaləsində yazırdı: “Bu sətirlərdə Füzuli əsərlərini yarı yarımçıq başa düşüb mühakimə edən, quru hökmlər, mülahizələr söyləyən hər hansı bir şərqşünasın duya bilmədiyi bir həqiqət ifadə olunur. Bu sətirlər Füzulinin ecazkar şeirlərini dərindən hiss edən, onun qəlblərə etdiyi təsirin, mənəvi nüfuzunu yaşayan bir alimin doğru hökmü idi” (1, s. 51).F. Köçərli yalnız ədəbiyyat tənqidçisi, pedaqoq, eləcə də, pedaqoji fəaliyyətin bir hissəsi kimi uşaq ədəbiyyatı müəllifi olaraq fəaliyyətini yekunlaşdırmırdı. O, həmçinin, rus ədəbiyyatından nümunələr tərcümə etməklə müasir Azərbaycan ədəbiyyatına yeni tərcümə mədəniyyətini və üsullarını aşılayırdı. Onun ilk tərcümələri hələ İrəvəndа müəllimlik etdiyi dövrdən başlamışdı. Rus dilindən ilk tərcüməsi hesab edilən əsərlər isə uşaqlar üçün nəzərdə tutulan dahi rus yazıçısı Puşkinin “Balıqçı və qızıl balığın nağılı” və “Topçu və balıq” əsərləri idi.Qori seminariyası F. Köçərlinin bədii-estetik fikrinin formalaşmasında da mühüm rol oynayır. Bir tərəfdən rus maarifçilik ideyalarına dərindən yiyələnməsi onun ədəbiyyata xalqçılıq prizmasından yanaşmasına və dünyəvi dəyərlərə yiyələnməsinə səbəb olmuşdursa, digər tərəfdən Firudin bəyin pedaqoji fəaliyyəti onun yaradıcılıq fəaliyyə-

tində uşaq ədəbiyyatına əvəzsiz töhfələr verməsinin təməlini qoymuşdu.Buna təkan verən əsas səbəblərdən biri də Köçərlinin ana dilinə olan hədsiz sevgisi ilə bağlı olması idi. Bu isə onu pedaqoji fəaliyyətə, bunun davamı kimi isə uşaq ədəbiyyatına meyilliyinə gətirib çıxarmışdı. Muradovanın fikirlərinə görə F. Köçərli "Hələ kiçik yaşlarından doğma ana dilini sevməyə başlamışdır. O zaman Şuşa şəhərində tanınmış şairlərin təşəbbüsü ilə tez-tez şeir məclisləri təşkil olunurdu. Belə məclislərdə biri də Xurşidbanu Natəvan tərəfindən 1872-ci ildə himayəyə götürülmüş "Məclisi-üns" adlanan şeir məclisi idi. Bir neçə il davam edən bu məclisə Firudin bəyin atası Əhmədağa kişi də dəvət olunurdu." (7, səh.318).Bununla da Köçərli seminariyada "vəhşi tatar" ifadələri ilə təhqir olunan azərbaycanlıların miropyevlərdən müdafiəsində tək qalır. 1910-cu ildən etibarən hətta, tənəffüslərdə də ana dilində danışmaq azərbaycanlılara yasaq olunur. Hazırlıq sinfində oxuyan Ü. Hacıbəyov bir gün tənəffüsdə ana dilində danışdığına görə töhmət alır və qiyməti aşağı salınır. Bu kimi halların təkrarlanmasından qəzəblənən F. Köçərli direktordan bunun səbəbini soruşur. O isə: "onlara tatar dilində danışmaq qadağan edilmişdir "-dedi. Firudin bəy cavabında : "Əvvəla tatar dilində yox, Azərbaycan dilində danışıblar, öz dilində danışmaq qəbahət deyil. İkinci, zorla ruslaşdırma siyasətinizi nə Orta Asiyada, nə də Tatarıstanda həyata keçirə bildiniz. İndi də Qafqaz müsəlmanlarının canına daraşmısınız. Tələbələrimizlə Qızlar Seminariyasının tələbələri birləşib küçələrdə-

"Qoy məhv olsun rus çarı,
Qana həris hökmdarı" şərqisi oxuyurlar...

Bəsdirin! Bu siyasətinizdən əl çəkin! -deyib otaqdan çıxır." (11, s.14).

Bu elə bir dövr idi ki, artıq Çar Rusiyası zəifləməkdə idi. Ölkənin zəifləməsi onun aqressivləşməsinə səbəb olurdu. Bu, həyatın bütün sahələrində o, cümlədən, elm və təhsildə də özünü göstərirdi. Xüsusən Qafqazda vəziyyətə nəzarət etməyə çalışan Rusiyanın bu mövqeyi Qori seminariyasında da hiss olunmaqda idi. Günü-gündən vəziyyətin ağırlaşdığı seminariyada Firudin bəy hər vəchlə öz tələbələrini qorumağa və himayə etməyə çalışırdı. Onun ən böyük məqsədi isə seminariyanı Azərbaycana köçürmək idi. "Bu mühüm işə Azərbaycan maarifçiləri hələ 1884-cü ildə təşəbbüs göstərmişdilər. Seminariyanın müəllimi Səfərəli bəy Vəlibəyov həmin il aprelin 24-də çağırılmış pedaqoji şurada Azərbaycan şöbəsinin vəziyyəti haqqında fikrini yazılı surətdə bildirmişdi. O, tələb edirdi ki, Azərbaycan şöbəsi müstəqil olsun və Azərbaycanın hər hansı bir rayonuna köçürülsün. Lakin onun təklifi rədd edilir". (8, s.14)

1906-cı ildə Nəriman Nərimanov da "Qori seminariyası nerede olmalı" adlı məqaləsi ilə çıxış etsə də, müsbət cavab almır.

Firudin bəy Köçərli də çox çalışsa da, hansı qapını döysə də,ordan boş qayıdırdı. "Yay məzuniyyətində məktəbin bağlı olmasından, rus çarının yıxılmasından və gürcü knyazlarının başları hökümət qurmağa qarışdığından fürsət tapan Firudin bəy bir dəqiqəni belə fövtə vermir. Seminariyanın Azərbaycan şöbəsinə məxsus bütün dəftərxana ləvazimatını, müxtəlif avadanlıqları vaqona dolduraraq öz xərci ilə xəlvətcə Ağdama qaçırır. Qatar yerindən tərpənənədək Firudin bəy on dəqiqə içə-

risində on il qocalır". 1918-ci ildə seminariya Qazaxa köçürülür, Məşədi Ibrahim adlı təhsilə önəm verən bir ziyalı 17 otaqlı mülkünü Köçərliyə bağışlayır. Və o, seminariyanın ilk direktoru olur, ilk zəng isə 17 sentyabrda vurulur" (8, s.14).

Firudin bəyin bu fəaliyyəti təbii ki, uşaq ədəbiyyatının formalaşmasına da səbəb olurdu. Pedaqoji fəaliyyətin davamı kimi uşaq ədəbiyyatını inkişaf etdirməsi ədibin estetik görüşlərinin təməl prinsipi olaraq çıxış edirdi.

Firudin bəy uşaq ədəbiyyatına müraciət edərkən xalq ədəbiyyatının estetizmini əsas götürür, şeirlərin ritmi, oynaqlığı folklor yaradıcılığından qaynaqlanırdı.

Firudin bəy Köçərlinin müəmmalı ölümü. Bütün həyatını Azərbaycan xalqına və Azərbaycan ədəbi mühitinin inkişafına həsr edən Firudin bəy Köçərli sovet dövrünün xalqımız üçün ağır keşməkeşli bir dövrü ilə qarşılaşmış, onun bu fəaliyyəti türk dünyasının, o cümlədən, Azərbaycanın düşməni olan kommunist rejimi tərəfindən heç də xoş qarşılanmamışdır. Onun aradan götürülməsi planlı şəkildə düşünülmüş və dövrünün görkəmli ziyalısı bir çox Azərbaycan aydınları kimi sovet rejiminin qurbanına çevrilmişdir.

Onun verdiyi izahat heç bir inama layiq deyil...Müttəhim Köçərlinskinin şahidlərinin dindirilməsi haqqında ərizəni nəticəsiz qoymaq (rədd etmək) lazımdır ki, onun gələcəkdə azadlıqda qalması Qazax qəzasında əksinqilabi hərəkatın baş verməsinə, fəhlə və kəndlilərin günahsiz yerə qanının tökülməsinə səbəb ola bilər.

Qərara alınır: müttəhim Köçərlinski güllələnsin.

Hərbi müstəntiq: (adı və soy adı göstərilməyib)

Təsdiq edirəm" (6, s.23)

"Firudin bəyin Gəncə üsyanında günahlandırılaraq həbs edilməsi məntiqi cəhətdən doğru deyil. Birincisi ona görə ki, əgər belə olsaydı istintaqdakı dindirmələrin əksəriyyəti Gəncə üsyanına və üsyanın iştirakçılarına, rəhbərlərinə həsr edilərdi. İkincisi, çevrilişdən bir neçə gün sonra üsyanın olacağını müəyyənləşdirmək və qabaqlayıcı tədbirlər görərək onları zərərsizləşdirmək mümkün deyildi ..." (3, səh 13)

Nəticə. F. Köçərli millətinə, xalqına və vətəninə göstərmiş olduğu intəhasız bağlılığı və sevgisinə görə Sovetlər tərəfindən güllələnməyə məruz qalır. Lakin Firudin bəy məktəbi Azərbaycan ədəbiyatşünaslığında dərin iz qoyur. Xüsusən də ədibin estetik görüşləri Azərbaycan ədəbiyyatşünaslığına xüsusi rəng və kolorit gətirmiş olur.Onun istər tənqidi görüşləri, istərsə də tərcüməçilik fəaliyyəti ədəbiyyatşünaslığımızı zənginləşdirmiş, pedaqoji fəaliyyəti isə onu uşaq ədəbiyyatının yeni yöndə formalaşmasına təkan vermişdir.

Ədəbiyyat siyahısı

1. Azərbaycan mətbuat tarixi antologiyası. 2 cilddə, I cild. Bakı.: Elm və təhsil, 2010, 650 s.

2. Əliyev Kamran. Firudin bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixində mövqeyi // Firudin bəy Köçərli: şifahi və yazılı ədəbiyyat. Bakı.: Nurlan, 2013, 180 s.
3. Qasımov Cəlal. Firudin bəy Köçərlinin müəmmalı ölümü // Firudin bəy Köçərli: şifahi və yazılı ədəbiyyat Bakı.: Nurlan, 2013, 180s
4. Mustafayev M. Ədəbiyyatşünaslığımızın xan çinarı. Bakı.: Mütərcim, 2012, 200 s.
5. Nəbiyev Bəkir. Seçilmiş əsərləri. 5 cilddə.ə, I cild. Bakı.: "Çinar-Çap", 2009, 492 s.
6. Salmanov Aslan. Firudin bəy Köçərlinin mətnşünaslıq fəaliyyəti // Firudin bəy Köçərli: şifahi və yazılı ədəbiyyat Bakı.: Nurlan, 2013, 180 s.
7. Muradova P. "Firudin bəy Köçərli və ana dili" / "Filologiya məsələləri" jurnalı, 2013, N.6, səh. 318-325
8. "Azadlıq" qəzeti, 2011, 8 iyun/ Qori Seminariyasının ilk məzunlarından biri səh.14
9. "Ədalət" qəzeti, 2013, 27 fevral/ Qoridən gələn qatar səh.7
10. "Ədəbiyyat və incəsənət" qəzeti, 1958, 1 mart / Araslı H. "Füzuli irsinin öyrənilməsi tarixindən"
11. "Kaspi" qəzeti, 2010, 2 sentyabr/ Firudin bəy Köçərlinin Azərbaycan davası səh.12

Г.Джафарова

Теоретическо-эстетическое содержание творчества Ф.Кочарли

Резюме

В детская литература в Азербайджане всегда была в центре внимания мастеров поэзии и прозы, начиная с фольклора. От классического периода до периода просвещения, много гениальных мастеров частично затронули тему детей. С девятнадцатого века тема детей приобрела особое значение в азербайджанской литературе. Басня и дидактика в творчестве К.Закира и А.Бакиханова имело особое место. Также Азербайджанские писатели, романтики, такие как А.Шаиг, А.Саххат и Г.Джавид, уделяли особое внимание детям и их художественных произведениях. Особенно представители реализма М.А.Сабир, Дж.Мамедгулузаде, А. Хаквердиев уделяли большое внимание теме детей. Азербайджанская литература сегодня является носителем богатой традиции детской литературы. Один из видных деятелей Азербайджана, Фирудин бек Кочарли, привнес новые литературные ценности в нашу литературу. Его критика не только охватывает научную и художественную литературу, но и проявляется в прессе. Выпускник семинарии Гори, Фирудин бек посвятил важный период своей жизни педагогической деятельности и как

следствие, внес значительный вклад в детскую литературу. Это повлияло на его переводческую деятельность.

Ключевые слова: Ф. Кочарли, литературная деятельность XIX века, детская литература, критика, перевод, педагог

G.Jafarova

Theoretical-aesthetics of Kocharli creations

Summary

In children's literature in Azerbaijan has always been the focus of attention of masters of poetry and prose, starting with folklore. From the classical period to the period of enlightenment, many brilliant masters partially touched on the theme of children. Since the nineteenth century, the theme of children has gained particular importance in Azerbaijani literature. The fable and didactics in the work of K.Zakir and A.Bakikhanov had a special place. Also, Azerbaijani writers, romantics, such as A.Shaig, A.Sahhat and G.Javid, paid special attention to children in their work of art. Posted by M.A.Sabir, J.Mamedguluzadeh, A.Hackverdiev is a great addition to the subject. The Azerbaijani literature is visited by the wrong doers in the literature tradition of children.

One of the prominent figures of Azerbaijan, Firudin bey Kocharli, brought new literary values to our literature. His criticism not only covers scientific and fiction, but also appears in the press. A graduate of Gori's seminary, Firudin bey devoted an important period of his life to teaching and as a result, made a significant contribution to children's literature. This influenced his translation activities.

Keywords: F. Kocharli, literary activity XIX year, children's literature, criticism, translation, teacher

Məqalənin redaksiyaya daxil olma tarixi:
Çapa hazırlnma tarixi:
filologiya elmləri doktoru, professor Mahmud Allahmanli tərəfindən çapa tövsiyə olunmuşdur

HÜRZAD VƏLİYEVA
BAAU
Ak.Həsən Əliyev, 135 A
hurzad.1997@mail.ru

POL OSTERİN "QARANLIQDAKI ADAM" ƏSƏRİNDƏ DEKONSTRUKSİYA VƏ İNTERMƏTNLİK

Xülasə

Məqalədə postmodern ədəbiyyatın yaranma mexanizminə və Pol Osterin "Qaranlıqdakı adam" əsərində istifadə olunan postmodernist texnikalara aydınlıq gətirilmişdir. Bununla yanaşı, həm də Azərbaycan ədəbiyyatında olan postmodern ədəbiyyat nümunələri müqayisəli şəkildə təhlil olunmuşdur.

Postmodernizm XX əsrin 50-ci illərindən başlayaraq modernizmin inkarı şəklində ədəbiyyata gəlmişdir. Postmodernizmin kökləri poststurkturalizm və dekonstruksiya anlayışları ilə bağlıdır. Lakin poststrukturalizm sadəcə ədəbiyyatla bağlı olduğu halda postmodernizim ədəbiyyatla yanaşı həm də sənətin digər sahələri memarlıq, rəsm, heykəltaraşlıq və.s. də özünü göstərməkdədir. Postmodernizm modernizmin doğrularının yerinə öz doğrularını yerləşdirir və buna görə də modernizmlə iç-içə olaraq inkişaf edir. Postmodernizmin əsas inkişafı sosializmin dağılması ilə bağlıdır. Cəmiyyətin inkişafından fərdin inkişafına keçid əsas diqqət çəkən məqamlardandır. Modernizm gerçəkliyi olduğu kimi göstərdiyi halda, postmodernizm qurama dünya və xəyal anlayışlarını qabağa çəkir. Qurama və gerçəklik bir-birinin içərisində verilir.

Dünya ədəbiyyatında İtalo Calvino, Umberto Eco, Rolan Bart, Salman Rüşdü, Orhan Pamuk kimi postmodernistlər yaratdıqları mətn texnikaları ilə postmodern ədəbiyyatın inkişafına səbəb olmuşdurlar. Pol Oster modernizmden postmodernizmə keçid dövründə yazdığı "Nyu York şəhərinin trilogiyası", "Ay sarayı", "Qaranlıqdakı adam" əsərlərində postmodern mətn texnikasından geniş istifadə etmişdir. Pol Osterin "Qaranlıqdakı adam" əsərində paratekstuallıq, intertekstuallıq elementləri ilə yanaşı, metatəhkiyə elementləri olan pastiş, parodiya, kollaj və plagiatdan istifadə olunmuşdur.

Postmodern ədəbiyyatın əsasını təşkil edən dekonstruksiya, yəni əsas mətnin dağıdılıb yenidən qurulması nəzəriyyəsi də Pol Oster əsərlərinin əsasını təşkil edir. Dekonstruksiya Azərbaycan ədəbiyyatının da mühüm hissəsini təşkil edir. Misal olaraq göstərə bilərik ki, Kamal Abdullanın "Yarımçıq əlyazma" əsəri "Dədə Qorduq" və "Şah İsmayıl Xətai" dastanlarının dekonstruksiyası əsasında yaranmışdır. Eynilə İlqar Fəhminin "Qarğa yuvası" əsəri də "Koroğlu" dastanının dekonstruksiya olunub fərqli formada yenidən yığılması nəticəsində ortaya çıxmışdır.

Postmodern ədəbiyyatın əsas texnikalarından olan dekonstruksiya və intertekstuallıq anlayışları Pol Osterin yaradıcılığının əsasını təşkil etməkdədir.

Açar sözlər: Dekonstruksiya, intermətnlik, postmodernizm, Pol Oster

Giriş. Keçən əsrin ikinci yarısından təşəkkül tapmış postmodernizm ədəbiyyatda və digər incəsənət növlərində özündən əvvəlki tarixi, mədəni, milli qaydaların inkarı ilə formalaşmışdır.

Postmodernizm sözünə ilk dəfə, 1917-ci ildə almaniyalı filosof Panviz Rudolf tərəfindən yazılmış "*Avropa mədəniyyətinin böhranı"* əsərində rast gəlirik. Lakin Panviz bu sözü sadəcə olaraq, bir bənzətmə kimi istifadə etmiş, Nitşeni "postmodern insan" adlandırmışdır. Ədəbiyyatda postmodernizmə bir kateqoriya kimi, Federiko de Onizin 1934-cü ildə yazdığı mülahizələrində rast gəlinir (1,63). Mürəkkəb, qarışıq, tipoloji termin kimi postmodernizm akademik elmin tədqiqat sahəsi olaraq 1980-ci ildə formalaşır (9,13). Bu cərəyan 1970-ci ildən başlayaraq sənət və ədəbiyyatda geniş istifadə olunmağa başlayır. Başladan şəxs isə İhab Hassandır.

Postmodern ədəbiyyat Umberto Eco, Pol Oster, İtalo Calvino və.b postmodern yazarların əsərlərində intertekstuallıq, metatəhkiyə, kollaj, pastiş kimi mətn texnikaları ilə təzahür edir.

Pol Oster 50-ci illər postmoderen ədəbiyyatının ən görkəmli nümayəndəsi olmuşdur. *"Nyu York şəhərinin trilogiyası", "Qaranlıqdakı adam" , "Ay sarayı*" kimi əsərləri postmodern mətn texnikasına nümunə ola biləcək ən mükəmməl əsərlər hesab olunurlar.

Postmodern ədəbiyyatda dekonstruksiya və intermətnlik. Postmodern düşüncənin inkişafında Sossürün semiologiya və J.Derridanın dekonstruktualizm, başqa sözlə desək, "dağıtma" nəzəriyyəsi mühüm rol oynayır. Sossürün irəli sürdüyü nəzəriyyədə səs və ya simvolların birləşməsi göstərmə, anlam və qavramanın birləşməsi isə göstərilən adlanır. J.Derrida göstərilənlər arasında əsas mənaya diqqət çəkmək üçün "differance" terminini irəli sürür və yazı (logosentrisme), danışma (phonecentrisme) proseslərinin önəmini vurğulayır.

Dekonstruksiya haqqında ilk məlumatı J.Derrida 1967-də yayımladığı "Səs və Fenomen" adlı əsərində verir. Derrida qeyd edir ki, dekonstruksiya qərb təfəkküründən nəticəsi olaraq mətni təhlil etmə strategiyasını özündə birləşdirir. Dekonstruksiya bir cümlənin tərkibində olan sözlərin düzülüşünü, quruluşunu pozmaq, bir bütövü parçalamaq, başqa yerə daşımaq məqsədilə istifadə olunur. J. Derridanın fikirlərinə görə dekonstruksiya ayrılan parçaları yenidən birləşdirərək yeni bir mətn inşa edirək, onu yenidən bərpa etməyə çalışır (6,8).

Dekonstruksiya bir mətni dağıdarkən onu tamamilə məhv etmir, dağıdaraq yenidən qurmaq məqsədi güdür. Azərbaycan ədəbiyyatında Kamal Abdullanın "Yarımçıq əlyazma", İlqar Fəhminin "Qarğa yuvası" əsərləri nümunə olaraq göstərilə bilər.

Mətnlərarası əlaqə anlayışı bir termin kimi 1960-cı illərdən sonra işləklik qazanmağa başlamışdır. Mətnlərarası əlaqə iki və daha çox mətn arasındakı bağlılığı öyrənən nəzəriyyədir. İnsan ömrünün bədii-fəlsəfi şərhi kimi diqqəti cəlb edən vücudnamələr kimi mətnlərarası əlaqə də bir-biri ilə əlaqəli mətnlər kimi diqqəti cəlb edir. Bu əlaqə müxtəlif formul, qəlib, arxetip, motiv və s. vasitəsilə həyata keçirilir. *"Mətnlərarası əlaqə anlayışı ədəbiyyatşünaslıqla semiotika elmlərinin qovşağında formalaşmışdır. Elmi tədavülə isə Yuliya Kristeva tərəfindən daxil edilmişdir* (5,150).

Beləliklə, mətnlərarası əlaqə mətnlər arasında olan bağlılığı ifadə edən bir konsepsiyadır. Bu anlayış müxtəlif mətnlər arasında müxtəlif tipli bənzərlik, əlaqə və münasibətin mövcudluğunu ehtiva edir.

Bu nəzəriyyənin yaradıcısı Yuliya Kristeva hesab olunsa da, Ferdinand de Sössür, Mixail Baxtin kimi məşhur dilçi və ədəbiyyatşünasların bu konsepsiyanın formalaşmasında rollarını qeyd etmək lazımdır.

Bu metodun sistemləşdirilməsində və elmi mahiyyət qazanmasında əsas yer Jerar Jenetə məxsusdur. O, "Palimpsest: ədəbiyyatda ikinci dərəcə" adlı 1982-ci ildə işıq üzü görmüş əsərində bu nəzəriyyəni sistemləşdirmiş və mətnlərarası əlaqənin beş formasını müəyyənləşdirmişdir.

1.Mətnlərarasılıq (intertekstuallıq)
2.Yan mətnlərlə əlaqə (paratekstuallıq)
3. Ana mətnlə əlaqə (hipertekstuallıq)
4. Şərhedici mətnlə əlaqə (metatekstuallıq)
5. Janrlararası əlaqə (arxitekstuallıq) (7,535).

Ümumiləşdirsək qeyd edə bilərik ki, mətnlərarası əlaqə hər hansı bir mətnin diaxron və sinxron aspektdə digər mətnlərlə olan ortaq yönlərini araşdıran bir konsepsiyadır. Mətnlərarası əlaqənin forma və tipləri olaraq sitat, xatırlatma, mənimsəmə, parodiya, təqlid, əksetdirmə kimi müxtəlif üsullar qeyd edilir.

"**Qaranlıqdakı adam" əsərində postmodernizmin elementləri.** Pol Osterin "Qaranlıqdakı adam" əsərində postmodernizmin təməlini təşkil edən dekonstruksiya və intermətnlik anlayışları ilə yanaşı, pastiş, kollaj, oyun kimi postmodern elementləri də görmək mümkündür.

Postmodern ədəbiyyat dedikdə ağlımıza gələn ilk şey uydurma sənətidir. Digər postmodern yazıçılar kimi Pol Oster də oxucusunu öz əsərinin uydurma olduğuna inandıraraq, mətndəki kodları açmağa dəvət edir.

"Qaranlıqdakı adam" əsəri 1984-cü ildə "Pülitzer" mükafatına layiq görülmüş, 72 yaşlı kitab tənqidçisinin həyatı və paralel olaraq beynində uydurduğu hekayənin təsvirindən bəhs edir. Baş qəhrəman Avqust Brill həyat yoldaşı Sonyanı itirdikdən sonra avtomobil qəzası keçirir və bundan sonra qızı Miriam, nəvəsi Kayta ilə birlikdə yaşamağa başlayır. Avqust Brillin ailəsi olduqca çətin zamanlardan keçir. Brill əvvəlcə həyat yoldaşı Sonyanı xərçəngdən itirir, ardınca qızı Miriam öz həyat yoldaşından boşanır və nəvəsi Katyanın sevgilisi Titus İraqda dəhşətli şəkildə qətlə yetirilir.

Avqust Brillin beynində qurduğu hekayələr onun xatirələrdən qaçmaq üçün ən ideal variantı idi. Brill ancaq bu hekayələrlə ailəsinin qəribə taleyini düşünməkdən uzaqlaşırdı.

Pol Oster bu əsəri yaxın dostu, məşhur jurnalist David Grossman və onun ailəsinə həsr etmişdir. David Grossmanın 20 yaşlı oğlu Uri 2006-cı ildə müharibə zamanı öldürülür (13,1). Bu hadisədən dərindən təsirlənən P.Oster "Qaranlıqdakı adam" əsərində Titus obrazını yaradır. Titus 20 yaşlı bir gəncdir və o İraqdakı müharibədə tutularaq dəhşətli şəkildə öldürülür.

Romanda mətn içərisində mətn texnikasından istifadə olunur. Ouen Brik Avqust Brillin yaratdığı xəyali obrazdır. Dolayı yolla desək Brillin yaratdığı xəyali qatildir. Bodriyer deyirdi ki, "Mütləq həqiqət yoxdur. O hissələrə bölünüb və biz həmin hissələrlə oynayırıq". Qaranlıqdakı Adam əsəri Bodriyerin verdiyi bu tərifə uyğun gəlir. Əsərdə bir-birindən fərqli bir neçə hekayə var və biz bu hekayələrin hər birindən başqa bir nəticəyə gəlirik. Əsərdə birdən çox təhkiyəçi və birdən çox hekayə var. Avqust Brillin yaratdığı xəyali hekayə, Ouenin hekayəsi, Miriamın yazdığı bioqrafiya, Titusun hekayəsi və.s.

Qaranlıqdakı adam romanında iki paralel xətt var: birincisi Brillin öz xəyali qəhrəmanı Ouen Bricki yaratması və Ouenin başına gələn hadisələr. İkincisi Ouenin özünün də həyatı iki parelel xətdən ibarətdir. Ouenin özünün real dünyası və quyudan çıxdıqdan sonra düşdüyü müharibə mühiti.

Postmodern ədəbiyyatın oxucu ilə oynadığı ən böyük oyun əsəri istədyi zaman kəsib bu əsərin uydurma olduğunu tez-tez xatırlatmasıdır. Fikrimizcə Pol Oster bu əsərdə Brill vasitəsilə öz prototipini yaradır. Belə ki, dostu David Grossmanın oğlunu ölümündən dərindən təsirlənən Pol Oster bu əsəri yazır. Bir növ o da Brill kimi xatirələrdən uzaqlaşmaq üçün yazmağa üz tutur. P.Osterin yaratdığı obraz da itkiləri, əzabları haqqında düşünməmək üçün xəyali hekayələr qurmağa üz tutur.

Romanın içərisində yaranan bu yeni mətnlər birləşərək metatəhkiyəni ortaya çıxarır. Hər bir mətn ayrıca olaraq interməntlik təşkil edir.

Brill əsərə belə başlayır: "Onu quyuya salıram. Deyəsən yaxşı başlanğıcdır, hadisələri inkişaf etdirməyə imkan verəcək. Yatan adamı quyuya sal və oyanıb çıxmaq üçün çapalayanda nələr baş verəcəyini izlə..."(2,7). Yazıçı obrazı əsərini oxucu ilə birlikdə yazır.

Pol Oster postmodern yazıçı olsa da heç vaxt modernizmdən tamamilə qopmamışdır. Brill obrazında Kafkanın qəhrəmanlarında olan "məntiqin tənhalığı" izlərini görməkdəyik. Osterin qəhrəmanı da düşdüyü mühitdən çıxmaq üçün yalnız özünə sığınır, düşüncələrini yalnız özü ilə paylaşır.

Romanda istifadə olunan digər bir metatəhkiyə elementi "*kollajdır*". Kollaj XX əsrdə rəsm sənəti ilə bağlı olaraq başlayan sonradan ədəbiyyatda istifadə olunan bir üsuldur. İlk dəfə "kubist" rəssamlar tərəfindən istifadə olunan kollaj rəsm sənətinin fərqli sahələrində istifadə olunan hazır əşyaların (kağız, pul, şüşə qırıqları və.s) kətan üzərində birləşdirilməsidir. Kollaj texnikasında "Postmodern roman xronoloji ardıcıl-

lıqla nəql edilmir, əksinə, tədriciliyin yerinə, parçalılıq, bölünmüşlük, fraqmentallıq təqdir edilir. Bu fraqmentallıq əsərlərin içində qəzet xəbərləri, şeir, broşura, gündəlik kimi ünsürlərin girməsinə imkan yaradır. Postmodern roman bir-birindən fərqli olan mətnlər kollajı formasında qurulur. Postmodern mətn konkret bir təhkiyə növündə israr etməyi sevmir, romançı istədiyi növə rahatlıqla keçə bilər"(9,272). Kollaj bəzən müxtəlif sənət sahələrinin birləşməsini təmin edir. Pol Oster Qaranlıqdakı adam əsərində musiqi , film, incəsənət, ədəbiyyat kimi sahələri kollaj etmişdir. Brill və nəvəsi Katya hər gecə filmlərə baxır, filmdə istifadə olunan simvollar, rejisorların yaradıcılıq qabiliyyətləri haqqında mülahizələr söyləyirlər. "Mən adətən hekayəni və aktyorların keyfiyyətini müzakirə etmək istəyirdim. Lakin onun qeydləri filmin texnika aspektlərinə fokuslanırdı: kameraların qoyuluşu, montaj, işqlandırma, səs, və.s. Təkcə bu gecə ard arda üç xarici filmə baxmışıq – "Böyük İlluziya", "Velosiped oğrusu" və "Apunun dünyası" (2,21).

Postmodern ədəbiyyatda ən çox istifadə olunan üsullardan biri də pastişdir. Pol Oster "Nyu-York şəhərinin trilogiyası" əsərində öz həyat yoldaşı İrisin adı üzərində söz oyunu quraraq Siri adlı obraz yaradır. Pastiş nümunəsi olaraq verilən bu ünsürü Osterin qəhrəmanı Avqust Brill də istifadə edir. Brill gənclik dövründə sevdiyi qızı-Virciniya Bleyni əsərdə yaratdığı hekayədə Ouen Brickin məktəb illərində sevdiyi qız olaraq Virciniya Bleyn adı ilə yenidən canlandırır. Beləliklə əsər içərisində yazılan əsərdə pastiş nümunəsi yaranır.

Pol Oster yaradıcılığı boyunca Samuel Beckettden bəhrələnmişdir. Modernist ədəbiyyatın ən görkəmli nümayəndəsi olan Beckettin yazdığı novellalardan yeri gəldikcə istifadə edən yazıçı Qaranlıqdakı adam əsərində də paratekstuallıq elementindən istifadə edərək, Beckettin "Worstward Ho" novellasından bir cümləni əsərə əlavə etmişdir. "Özümlə bacarmıram. Hər dəfə yenidən uğursuzluğa düçar oluram, uğursuzluqlar uğurlarımdan daha çox olur. Amma bu o demək deyil ki, mən uğur qazanmaq üçün əlimdən gələni etmirəm." (2,7). Lakin onu da qeyd etmək lazımdır ki, Pol Oster bu sitatdan istifadə edərkən heç bir istinad verməmişdir. Bu da postmodernizmin "plagiat" üsulu hesab olunmaqdadır.

Əsərdə istifadə olunan digər bir paratekstuallıq elementi isə Brillin qızı Miriamın Nateniel Hotornun sonuncu övladı Rouz Hotorn haqqında yazdığı bioqrafiya idi. Miriam yazdığı bioqrafiyada Rouz Hotornun həyatı haqqında bütün bilgiləri toplayır və yazdığı əsəri oxuyub fikir bildirməsi üçün atasına verir. Miriamın yazdığı bu kitabın qaralama variantından haşiyəyə çıxaraq Brill bəzən qısa hekayələr danışır. Bu postmodern ədəbiyyatda paratekstuallıq elementidir.

Nəticə. Postmodern ədəbiyyat mürəkkəb strukturlu olmasına baxmayaraq Pol Oster yazdığı romanlarla birlikdə postmodernizmə qarşı olan önyarğını aradan götürə bilmişdir. "Qaranlıqdakı adam" əsəri intertekstuallıq və dekonstruksiya elementləri baxımından təqdirəlayiq əsər hesab oluna bilər. Bu romanı Pol Osterin ən yaxşı romanı adlandırmaq olarmı bu sual atındadır. Lakin qeyd edə bilərik ki, postmodernist texnikanın peşəkar işlədilməsi göz önündədir. İntermətnlik anlayışının paratekstual-

lıq qolu, metatəhkiyə elementləri romanın ən çox nəzərə çarpan elementləri hesab olunur. Modernizmin ənənələrindən qopmayan yazıçı modernist və postmodernist ünsürlərin sintezini verərək roman ənənəsinə yeni bir nəfəs gətirmişdir.

Ədəbiyyat
Azərbaycan dilində

1. Kamal N. Umberto Eko və postmodernizm fəlsəfəsi. Bakı: Qanun, 2012, 203 s.
2. Oster P. Qaranlıqdakı adam. Bakı: TEAS Press, 2017, 199 s.
3. Quliyev Q. Postmodernizm / Azərbaycan (Yazıçılar birliyinin aylıq ədəbi-bədii orqanı). Bakı: Azərbaycan nəşriyyatı, 2005, № 9, s.172-183
4. Quliyev Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları, Bakı: Çaşıoğlu, 2012, 344 s
5. Aktulum K. Metinlerarası ilişkiler.Ankara:Öteki,2000,296s
6. Küçükalp K.Yapısöküm//Dergipark,2004,N:3,s.2-8
7. Genette G. Palimpsests Literature in the second degree. Modern Fiction Studies,1998, 537s
8. file:///C:/Users/eRa/Downloads/postmodernizm%20jurnal.pdf
9. http://elibrary.bsu.az/yenii/kitabxana/1385540941.pdf
10. http://manera.az/edebiyyat/2741-postmodernizm-ve-onun-nezeri-estetik-prinsipleri-maneraaz.html
11. http://www.sosyalarastirmalar.com/cilt10/sayi52_pdf/1dil_edebiyat/aydogdu_yusuf.pdf?fbclid=IwAR3Om9CcivCRtKTtiQJZ-EOdyrn9muJY1IJh62V9P-ojmbftMVqXJakY7sU
12. https://en.wikipedia.org/wiki/David_Grossman

Х.Велиева

Деконструкция и интертекстуальность в фильме
Пола Остера «Человек во тьме»
Резюме

В статье разъясняется механизм постмодернистской литературы и постмодернистские приемы, которые Пол Остер использует в «Человеке во тьме». Кроме того, проведен сравнительный анализ примеров литературы постмодерна в Азербайджанской литературе.

Постмодернизм пришел в литературу в форме отрицания модернизма с 50-х годов 20-го века. Корни постмодернизма связаны с понятиями постструктурализма и деконструкции. Однако, в то время как постструктурализм - это просто литература, постмодернизм - это не только литература, но и другие области искусства, такие как архитектура, живопись, скульптура и так далее. также

проявляет себя. Постмодернизм ставит свои истины на место модернизма и, следовательно, развивается внутри. Основное развитие постмодернизма - крах социализма. Переход от развития сообщества к индивидуальному развитию является одним из наиболее важных вопросов. В то время как модернизм показывает правду, постмодернизм доминирует над концепциями мира и воображения. Игра и реальность даны друг в друге. Понятия деконструкции и интертекстуальности составляют важную часть постмодернизма. Постмодернисты, такие как итальянцы Кальвино, Умберто Эко, Ролан Барт, Салман Рушди, Орхан Памук, сыграли важную роль в развитии лидерства постмодерна. Пол Остер использовал постмодернистские текстовые приемы в своих работах над «Треугольником “Трилогии в Нью-Йорка», «Лунным дворцом», «Человеком во тьме», как он писал в отрывке от модернизма к постмодернизму. , «Человек во тьме» Пола Остера использует пасту, пародию, коллаж и плагиат с элементами метатекстуальности в дополнение к элементам паратекстуальности и интертекстуальности.

Деконструкция, которая является основой постмодернистской литературы, то есть теории разрушения основного текста, также является основой работ Пола Остера. Деконструкция также является важной частью Азербайджанской литературы. В качестве примера мы можем показать, что «Пропавшая рукопись» Камал Абдуллы была основана на деконструкции эпопей “Деде Коркут” и “Шах Исмаил Хатаи”. Точно так же произведения Ильгара Фахмина «Воронье гнездо» возникли в результате деконструкции и повторной сборки эпоса “Кёроглу”.

Деконструкция и интертекстуальность, одна из основных техник постмодернистской литературы, составляют основу их творчества.

Ключевые слова: Деконструкция, постмодернизм, интертекстуальность, Пол Остер

H. Valieva

Deconstruction and Intertextuality in Paul Auster's “Man in the dark”

Summary

The article explains the mechanism of postmodern literature and the postmodern techniques that Paul Oster uses in The Man in Darkness. In addition, a comparative analysis of examples of postmodern literature in Azerbaijan literature was carried out.

Postmodernism has come to literature in the form of a denial of modernism since the 50s of the 20th century. The roots of postmodernism are associated with the concepts of poststructuralism and deconstruction. However, while poststructuralism is just literature, postmodernism is not only literature, but also other areas of art, such as architecture, painting, sculpture and so on. also manifests itself. Postmodernism puts its truths in the place of modernism and, therefore, develops within. The main

development of postmodernism is the collapse of socialism. The transition from community development to individual development is one of the most important issues. While modernism reveals the truth, postmodernism dominates the concepts of peace and imagination. Game and reality are given in each other. The concepts of deconstruction and intertextuality are an important part of postmodernism.

Postmodernists, such as Italians Calvino, Umberto Eco, Roland Bart, Salman Rushdi, Orhan Pamuk, played an important role in the development of postmodern leadership. Paul Oster used postmodern textual techniques in his work on "The New York city trilogy", "The Moon Palace", and "Man in Darkness", as he wrote in an excerpt from modernism to postmodernism. Paul Oster's "Man in Darkness" uses pasta, parody, collage and plagiarism with elements of metatextuality in addition to elements of paratextuality and intertextuality.

Deconstruction, which is the basis of postmodern literature, that is, the theory of destruction of the main text, is also the basis of the work of Paul Oster. Deconstruction is also an important part of Azerbaijan's literature. As an example, we can show that the "Missing Manuscript" by Kamal Abdulla was based on the deconstruction of the epics "Dede Korkut" and "Shah Ismail Khatai". Similarly, Ilgar Fakhmin's works "The Crow's Nest" arose as a result of deconstruction and reassembly of the "Koroglu" epic.

Deconstruction and intertextuality, one of the main techniques of postmodern literature, form the basis of their work

Key words: Deconstruction, postmodernism, intertextuality, Paul Auster.

Məqalənin redaksiyaya daxil olma tarixi:26.09.2019
Çapa hazırlnma tarixi:25.01.2020
filologiya elmləri doktoru, professor Mahmud Allahmanli tərəfindən çapa tövsiyə olunmuşdur

ARZU ƏLİYEVA
Azərbaycan Milli Elmlər Akademiyası
Folklor İnstitutu
Aliyeva92a@gmail.com

ARXAİK FOLKLORDA QADINLARLA BAĞLI METAFORALAR VƏ ONLARIN PSİXOANALİTİK TƏHLİLİ

Qadın tarixin bütün mərhələlərində daim diqqət mərkəzində olmuş, zaman keçdikcə isə bir çox tədqiqatların araşdırılma və öyrənilmə obyektinə çevrilmişdir. Məqalədə arxaik folkor mətnlərində, xüsusən mif və inanclarda qadınlarla bağlı metaforalar psixoanalitik aspektdən araşdırılmaya cəlb edilmişdir. Məlumdur ki, tarixin ən qədim çağlarından qadın obrazlarının psixososial meyl və xarakterik cizgilərini öyrənmək üçün folklor mətnləri ən mötəbər mənbələr hesab edilir. Eyni zamanda milli düşüncənin bu erkən qatına nəzər salmaqla qadınlarla bağlı olan ilkin təsəvvürləri aydınlaşdırmaq mümkündür. Qeyd etmək olar ki, qadınların erkən dövrdən etibarən hansı spesifik xüsusiyyətlərə sahib olduğu miflərdə açıq şəkildə nəzərə çarpır. Məhz buna görə də qədim türk eposunda, törəniş və yaradılış dastanlarında, türkün dünyaya gəlmə rəvayətlərindəki qadın obrazların öyrənilməsinin ilkin yolu miflərdən başlayır. Dünyada qadınlarla bağlı olan tarixi-mədəni fikrə bələd olmadan milli şifahi xalq ədəbi nümunələrindəki obrazların etno-psixoloji mahiyyətini başa düşməyimiz imkansızdır.

Tədqiqatda Azad Nəbiyevin "Azərbaycan xalq ədəbiyyatı" adlı dərsliyində verilmiş türk mifologiyasının dörd əsas inkişaf mərhələsinin dövrləşdirilməsində ilk iki bənd əsas götürülmüş, orada əksini tapan qadın simalarının və onların timsalında təcəssüm olunan qadınlığın psixososial araşdırılması və təhlil bu istiqamətdə aparılmışdır:

1. Arxaik totemistik görüşlərlə bağlı olan, türk estetik düşüncəsinin mifologiyaya qədərki erkən yüksəliş mərhələsi ;

2. Türk etnosunun müəyyən tərəqqi meylinə yetməsi, özünəməxsus ərazi hüdudunu müəyyənləşdirməsi, kifayət qədər etik-estetik düşüncəyə yiyələnməsinin sonrakı dövründən başlayan mərhələ

Açar sözlər: Qadın, psixoanalizm, mif, Humay, Fatı, Ziqmund Freyd, Karl Qustav Yunq, Ağ Ana.

Giriş. Dünya sivilizasiyasının yaranmasında Şərq və Qərb mədəniyyətinin rolunu araşdıran tədqiqatçıların əsas diqqət mərkəzində qadınlar və onların tarixin erkən mərhələsindən bu günə qədər hansı kulturoloji, psixi və geneloji dəyişikliklərə məruz qalmaları durur. Tənqidçilərin gəldiyi qənaətlərə əsasən demək olar ki, sözügedən araşdırmalarda Qərbi Şərqdən üstün tutmaq, mədəni xalqlar sırasında yalnız Avropanı tədqiqat obyektinə çevirmək yalnış olan birtərəfli yanaşmanın göstəricisidir.

Məlumdur ki, milli özünəqayıdışda mifoloji biliklər əsas yolgöstərici obyektdir. Milli düşüncənin bu erkən qatına nəzər salmaqla, qadınlara aid ilkin mülahizələri sistemləşdirmək, tarixin ayrı-ayrı səhifələrində qadın obrazlarının psixososial meyl və istiqamətlərini öyrənmək mümkündür. Tədqiqatçıların da qeyd etdiyi kimi, "mif" erkən etnosun dünyanın yaranması, sonu və s. barəsindəki bədii düşüncəsidir. Dünyanın yaranması haqqında olan miflərə nəzər yetirəndə, ayrı-ayrı xalqların erkən düşüncəsi haqqında məlumat almaq mümkündür. Lakin bəzi mif modelləri də vardır ki, onlar bir çox dünya xalqları üçün ortaq mahiyyətli fikir məhsulu kimi diqqəti cəlb edir. İstər ümumtürk, istərsə də birbaşa Azərbaycan folklorundakı qadın obrazları və ya qadınlıqla bağlı olan modellər şifahi xalq ədəbiyyatınn bu erkən nümunələrində özünəməxsus xüsusiyyətlər ilə görünməyə başlayır. Qadınlara məxsus olan spesifik xususiyyətlərin, həmçinin həmin dövrün milli-bədii təfəkküründün öyrənilməsi üçün bu mətnlər əsas qaynaqlardan olmuşlar. Qadınların erkən dövrdən etibarən hansı spesifik xüsusiyyətlərə sahib olduğu miflərdə açıq şəkildə nəzərə çarpır. Məhz buna görə də qədim türk eposunda, törəniş və yaradılış dastanlarında, türkün dünyaya gəlmə rəvayətlərindəki qadın obrazların öyrənilməsinin ilkin yolu miflərdən başlayır. Erkən dövrdə yaranmış mətnlərə və şifahi xalq ədəbiyyatının ilkin qaynaqlarına əsasən, yuxarıda qeyd olunan ədəbi-tarixi mərhələlər çərçivəsində qadınların (qadın obrazlarının, qadınlıqla bağlı olan sujetlərin köməyilə) həyatdakı rolu və psixososial vəziyyətini araşdırmaq lazım gəlir. Araşdırma zamanı "mif" terminin elmdə Səfa Qarayevin qeyd etdiyi kimi iki mənada:

1. Mif şüur tipi kimi;
2. Mif mətn kimi,

başa düşüldüyünü nəzərə almaq lazımdır (6, s.180).

Mif şüur tipi kimi dedikdə biz unutmamalıyıq ki, "şüur" —psixika kimi beyinin funksiyasıdır və obyektiv aləmin insana xas inikasıdır. Şüur obyektiv aləmin beyində ideal inikasıdır ki, onun fərdi və ictimai formaları vardır. Fərdi şüur – bir insana xas olan ideyalar, baxışlar sistemidir. İctimai şüur isə müəyyən insan qrupuna xas olan ideyalar, baxışlar sistemidir. Şifahi xalq ədəbiyyatına aid olan, bir sıra mifoloji ruhlu əsərlərdəki qadınların davranış və yaşayış modelində mif mətn olmaqla qalmamış, eyni zamanda mifoloji şüur tipi kimi sərgilənmişdir. Təxminən 5 min ilə yaxın tarixi olan türk etnoslarındakı qadının dünyagörüş və baxışlarına aid məqamların böyük bir hissəsinə erkən söz sənəti qaynaqlarında rast gəlmək olar. Lakin qeyd etmək lazımdır ki, dünyada qadınlarla bağlı olan tarixi-mədəni fikrə bələd olmadan milli şifahi xalq ədəbi nümunələrindəki obrazların etno-psixoloji mahiyyətini başa düşməyimiz imkansızdır.

Qədim türk əsatirlərinin ayrılmaz hissəsi olan Azərbaycan mifologiyasınıda qadınlarla bağlı olan mifləri, sujetləri araşdırarkən ümumtürk yaradıcılığına müraciət etmək, onları əlaqələndirmək və aralarındakı qarşılıqlı təsirləri öyrənmək lazımdır. Tədqiqatçılar da təsdiq etmişlər ki, Azərbaycan mifologiyası qədim türk ədəbi qaynaqlarından bəhrələnib, ondan qopub ayrılan və azərbaycanlılara məxsus estetik

idealı ifadə edən mifik düşüncədir. Tədqiqatda Azad Nəbiyevin "Azərbaycan xalq ədəbiyyatı" adlı dərsliyində verilmiş türk mifologiyasının dörd əsas inkişaf mərhələsinin dövrləşdirilməsində ilk iki bənd əsas götürülmüş, orada əksini tapan qadın simalarının və onların timsalında təcəssüm olunan qadınlığın psixososial araşdırılması və təhlil bu istiqamətdə aparılmışdır:

1. Arxaik totemistik görüşlərlə bağlı olan, türk estetik düşüncəsinin mifologiyaya qədərki erkən yüksəliş mərhələsi ;

2. Türk etnosunun müəyyən tərəqqi meylinə yetməsi, özünəməxsus ərazi hüdudunu müəyyənləşdirməsi, kifayət qədər etik-estetik düşüncəyə yiyələnməsinin sonrakı dövründən başlayan mərhələ (7, s.168-169).

Arxaik totemistik görüşlərlə bağlı olan, türk estetik düşüncəsinin mifologiyaya qədərki erkən yüksəliş mərhələsi.

Qədim Türk mifologiyasına görə, yuxarıda Göy, aşağıda Yer yarandıqdan sonra onların arasında insan övladı yaradılmışdır. Günəş qədim türk xalqları işərisində ilahi məzmuna malik olmuşdur. Araşdırmalara əsasən demək olar ki, böyük türk xalqlarından olan atarlar və albanlar Günəşə sitayiş etmişdirlər. Hunlar isə elə hesab edirdilər ki, onların hökmdarlarını taxta gətirən güc Günəş olmuşdur. Bəzi xalqlar Günəşə abidə qoymuş, bəziləri məbəd tikdirmişlər. Eyni zamanda o, insanla, insani xüsusiyyətlərlə bağlı hesab olunmuş, kosmoqonik miflərdə Günəş müqəddəs, fövqəltəbii varlıq kimi xarakterizə edilmiş və bir növ obrazlaşdırılmışdır. Demək olar ki, obrazlaşdırılan bu güc çox zaman qadını, qadınlığı təmsil etmişdir. Qədim insanlar Günəşin yaradıcı, qoruyucu xüsusiyyətlərini primitiv də olsa dərk etmişlər və bu dərk etməni müəyyən xarakterdə izah etməyə çalışmışlar. Elə indinin özündə də Günəş türk xalqlarında və Azərbaycan xalqında işıq və istilik mənbəyi kimi həyat verən müqəddəs varlıq hesab olunur.

Tədqiqatlara istinad edərək demək olar ki, hətta bəzi şumer-türk və misir folklorunda dünyanın yaranması, dünya-yaradılış-qadın anlayışı haqqında olan bəzi miflərdə Günəş orta cinsə mənsub hesab olnur, yəni o hər hansı bir əks cinsə ehtiyac duymadan doğa bilmək xüsusiyyətinə sahib olmuşdur (11).

Freydin psixoseksual inkişaf nəzəriyyəsində cinsi eynilik konsepsiyası deyilən bir anlayış yoxdur. Doğrudur, qeyd etmək olar ki, onun bütün əsərlərində kişilik və qadınlıq xatırlanır, ancaq onların hər birinin özünəməxsus fərqlərdən ibarət xarakterlərinin olduğu nəzərə çarpır. Buradakı Günəş mifində isə "qadınlıq" simvolikdir, yəni, yeri gəldikdə o kişinin sərgiləyə bildiyi fəlsəfi mahiyyəti də ehtiva edə bilər. Bütün bunlar onu deməyə əsas verir ki, həm şifahi xalq yaradıcılığımızda, həm də yazılı ədəbiyyatımızdakı Günəş və Ay obrazları təsadüfi olmayıb, məhz mifoloji köklərə malikdir.

Biz Günəşin obrazlaşdırılıb qadınlığı ifadə etməsində olan rolundan danışarkən, onun obrazında qadının hansı duyğu və düşüncələrinin cəmləndiyini və ona qadının hansı xüsusiyyətlərinin aşılandığını görmək bizə önu deməyə əsas verir ki, "Günəş" yarada bilir, möhkəmliyi, daimiliyi və istiliyi təmsil edir.

"Yel və Gün" adlı mifdə (7, s.133) isə Yel və Gün adlanan iki qardaşın istəyini nəzərə alan, onlara yardım edən, onları anasına qovuşduran isə Su-Sən adlı bir qadın olur. Su-Sənin ağıllı planı ilə onlar anasına qovuşurlar. Burada adı çəkilən, eyni zamanda Yel və Günün bacıları kimi təqdim olunan "Su"nun eyni zamanda tanrılıq funksiyaları vardır və o bir qadını və ya qadınlığı təmsil edir.

"Yer-su" adlı mifdə (7, s.134) də Su tanrlıq funksiyasını icra edərək, Ağ ana libasında çıxış edir və öz hamilik səlahiyyətini yerinə yetirir. Qadınlıqla bağlı informasiya hər iki əsatirdə iştirak edən Su adlı obraz vasitəsilə verilir. Buradakı mental proseslər Su ilə bağlı olub "Su"ya qadının yardım etmək, yardımçı olmaq və himayə edə bilmək xüsusiyyətləri aşılanmışdır. Qədim Türk mifologiyasında Yer-Su (Yer-Sub) obrazı da mövcud olmuşdur-həmin obrazın funksiyası müəyyən qədər Tanrı-Umayın ilahi funkasiyasına uyğundur (3, s.14).

Freyd insan zehninin topoqrafik modelini verərkən onun üç qatdan ibarət olduğunu söyləyərək, aysberqə bənzətmişdir (9). Bu modeldə ən alt qat şüuraltı hesab olunurdu və insanın psixologiyası haqqında çox az məlumat verə bilirdi. Obrazlaşdırılmış Günəşi, Suyu Freydin bu aysberq bənzətməsindəki modelin ən alt qatı, qadınlığın ilkin başlanğıcı və qadın psixikasının ən erkən qatı hesab etmək olar. Çunki ədəbi mətlərdə Günəş bə Su qadınlığın ilkin əlamətlərini, onun gücünün ilk göstəricilərini və şüurunun xaotik şəkildə də olsa, təsvirini özündə əks etdirə bilir.

Türk etnosunun müəyyən tərəqqi meylinə yetməsi, özünəməxsus ərazi hüdudunu müəyyənləşdirməsi, kifayət qədər etik-estetik düşüncəyə yiyələnməsinin sonrakı dövründən başlayan mərhələsi.

Bilindiyi kimi panteon, Allahlar sistemidir. Bir çox xalqların mifoloji dünyagörüşündə zəngin panteon anlayışı vardır. Freydin dinin psixoloji köklərini araşdırması insanların bir Tanrının varlığı düşüncəsinə necə çatdıqlarını göstərmək üçündür. Eramızın I minilliyinin ortalarından etibarən artıq Tanrı obrazı tam formalaşmış və insanlar gözəgörünməz ilahi gücə malik olan Tanrıya kütləvi şəkildə ibadət etməyə başlamışlar. Türklərin Tanrı məhfumu konkret bir zamana və məkana sığmamış, kosmosun tərkibinə daxil edilməmiş, dünyanın, insanın və hadisələrin onun tərəfindən idarə olunduğuna inanılmışdır. Türklər Tanrını hər şeyə qadir bir qəhrəman saymış, onun şərəfinə mərasimlər keçirmiş, qurbanlar kəsmişlər (2, s.14). Göründüyü kimi, hələ qədim dövrlərdən də, bir az irəli getsək erkən orta əsrlərdən də bir Tanrı olduğuna inanan insan onu bir "kişi, igid, yenilməz ər" kimi təsvir etmişdir. Lakin ibadət olunan o Tanrının Humay adlı xanımı da olmuşdur ki, o da "doğum, artım" şüarı altında işıqlandırılırmışdır. Bu fikirlərdən belə belə bir qənaətə gəlmək olar ki, Azərbaycan folklorunda Tanrı dedikdə ilk olaraq səma nəzərə alınırsa və o, gözəgörünməz şəkildə təqdim olunursa, ikinci olaraq Humay obrazı nəzərdə tutulur. Humay bir sıra türk xalqlarının mifologiyasında xeyirxah ruh, körpələrin hamisi, gözəlliyin qoruyucusudur, bəzi xalqlarda, məsələn, xakaslarda eyni zamanda can alandır, ölüm mələyidir (7, s.138). Şifahi xalq ədəbiyyatında onun fərqli adlandırmalar, yəni "Ağ ana", "Qara ana", "Al arvad" da olmuşdur. Yerli xalq tərəfin-

dən yaradılan materiallarda da Humayın insan, quş-ruh variantlatında əksi, qadınlığı, nəslin artımına hami əlamətləri ilə yanaşı qara, bəd ruhları təmsil etmək funksiyalarının olması da diqqət çəkir.

"Dünyanın yaranması haqqında" (7, s.132) olan və yerli camaatın yaddaşında qalıb onlar tərəfindən söylənən başqa bir mətndə Allah ilkin olaraq bir insan yaradır və ona Humay adını verir. Humayın əsas vəzifəsi harda nə baş verdiyini Allaha danışmaq və Tanrını olanlardan xəbərdar etməkdən ibarət idi. Allah Humay vasitəsilə "Torpağı, Ağacı və dəryadakı Balıqları" yaradır. Yaxşılıq Tanrısı olan Humay (Imay, Ubay, Umay) qadın mifik obrazıdır. Ana Tanrı ve Həyat tanrısı kimi təsvir edilən mif yaxşılıqlar edən, doğulacaq uşaqları təyin edən bir qadın mövqeyindən çıxış edir. Eyni zamanda bəzi təsvirlərdə onun üç buynuzunun olmasından, ağ libaslı olub yerə qədər uzanan gümüşdən saçlarından, orta yaşlı olmasından, quş cildinə bürünə bilməsindən, həyat ağacının sahibi olub uşaqların qoruyucusu olmasından, yer üzünə bərəkət paylamasından, bəzən qəzəblənərək insanları qorxutmasından bəhs edilir. Uşaqları qorumadığı evlərdə sıxlıqla uşaq ölümləri yaşanar və bu təqdirdə ona Qara Humay deyə xitab edərlərmiş. Qədim türk mənbələri göstərir ki, xaqan və onun idarə etdiyi insanlar Tanrı ilə Humaya birlikdə ibadət edib, düşmən üzərində qalibiyyət üçün onlardan imdad diləyərmişlər. Göründüyü kimi, istər Tanrı şəklində, istərsə də cəmiyyətdə mövcud olan insan kimi "qadın" təbiət etibarilə qeyri-mükəmməl şəkildə təsvir olunmuş, onun davranışları isə real dünya ilə əlaqələdirilmişdir. Belə ki, mifoloji mətnlərin araşdırılmasında ən tanınmış alimlərdən olan Joseph Campellin "Min üzlü qəhrəman" adlı əsərinin "Qəhrəmanın macərası" adlı I bölümünün "Yetkinləşmə" hissəsində "Qadın Tanrı ilə qarşılaşma" və "Başdançıxarıcı qadın" başlıqları ilə verilmiş bölümlərində qeyd edilir ki, qadın mükəmməl gözəlliklərin sahibi, qəhrəmanların dünyəvi və qeyri-dünyəvi inkişafının təminatçısı kimi çıxış edir. Campell əsərində "yuxu evinin xanımı" barəsində danışarkən onu həm yaxşı, eyni zamanda "pis ürəkli" kimi obrazlara bölür, hansı ki biz bu bölgüyə prototürk mənşəli qadın obrazlarında da rast gəlirik:

1. hücum fantaziyaların yönəldildiyi, qarşı hücumdan qorxulan , əlçatmaz ana;
2. maneə törədici, qadağanedici, cəzalandıran ana;
3. Uzaqlaşmağa çalışan ana;
4. Varlığı təhlükəli bir arzu üçün tələ olan ana (kastrasyon kompleksi) (1, s.127).

Burada ana deyildikdə sırf status cəhətdən ana yox, qadın, yəni bacı, sevgili, gəlin nəzərdə tutulmalıdır, çünki elə Camplenin dediyi kimi, "Mifoloji ana fiquru, kosmosa, bəsləyən və qoruyan varlığın dişi yanlarını yükləməkdədir (1, s.130).

Humayda təcəssüm olunan obraz həm yaxşılıq edə bilən, eyni zamanda insanları özündən çəkindirə bilən qadın tipidir. Biz Humayı Freydin insan əqlinin topoqrafik modelinin ikinci qatına, yəni aysberqin suyun altında görünə bilən kiçik hissəsə bənzədə bilərik. Hansı ki, bura şüuraltından üstdəki qatdır və qadınların dolaşıq hisslərinin, həyatla bağlı istəklərinin təhtəlşüurdan öncə formalaşdığı və özlərini biruzə verdikləri məqam kimi anlaşıla bilər. "Günəş" lə bağlı olan əsatirlərdə daha

çox "yaxşılıq" ön planda idisə, Humayda "yaxşılıq və pislik" anlayışı paralel şəkildə hallanır və bu mif kimi yox, ideal olmayan düzləri ilə yanaşı səhvlərinin də olduğu insana-qadına daha çox yaxınlaşdırır.

"Tenqri"ilə bağlı miflərin rekonstruksiyaları çox olmuşdur, onlardan biri də Tenqrinin "Boz Öküz" lə (7, s.144) əvəzlənməsi olmuşdur. Boz Öküz ilk insanın-Oğuzun və onun xanımı Fatının yaradıcısı hesab olunur. Fatı Oğuz xanla olan izdivacından sonra yeddi oğul dünyaya gətirir və bununla da türklərin doğulması və yayılması başlayır. Fatıya, yəni Ana xatuna Boz Öküz tərəfindən yeddi oğlunun arvadlarını himayə etmək vəzifəsi verilir. Mifdə xanlar və xatunlar bərabər səlahiyyətli olub, eyni söz haqqına sahibdirlər. Günəşdən və Humaydan fərqli olarq Fatı insandır. Biz Fatı obrazında Freydin həm yaşam, həm də ölüm instiktlərini daşıyan enerji-libidonun yarandığını Oğuz xanla nigaha girərək türkləri dünyaya gətirməsində aydın görə bilərik. Freydin nəzəriyyəsində libido yalnızca cinsi faktorları yox, bioloji, ictimai, mədəni, yaradıcı faktorlara da təkan verən enerjidir. İnsanın şüurdan və qeyri-şüurdan ibarət olduğunu bildirən Yunqun fikrinə əsasən deyə bilərik ki, Fatı qadındır, o övlad dünyaya gətirərək bioloji borcunu yerinə yetirir, eyni zamanda, o, oğullarının həyat yoldaşlarını himayə edə bilən şüura sahibdir.

Dünyanın yaranması haqqında-Qədim türk mifoloji dünyagörüşünün ilk mükəmməl məhsullarından biri olan Dünyanın yaranması haqqında dastanı görkəmli türkoloq V.Radlov Altaydan yazıya almışdır və dastan yarandığı dövrdən sonra iki-üç min illik tarixdən sonra yazıya alınsa da, qədim ideya-məzmun xüsusiyyətlərini, demək olar ki, bütünlüklə qoruya bilmişdir. "Xaosdan kosmosa" məntiqinə əsaslanan həmin təsəvvür forması dünya xalqlarının çoxunda əks olunmuşdur.

Dünyanın yaranması haqqında qədim türk dastanında qadının yeri və rolu elə dastanın başlanğıcından nəzərə çarpır ki, bir zamanlar yalnız Tanrı Qara xan və su vardı. Qara xandan başqa görən, sudan başqa görünən yox idi. Ağ ana göründü. O, Qara xana "yarat" deyib, yenidən suya daldı" (5. s.505). Düzdür, qadınlığı təmsil edən Ağ ana Tanrı Qara xanla eyni statusa malik olmasa da, yəni yaratmaq iqtidarında olmasa da, Qara xana kainatı yaratmağın vacibliyini folklorda ilkin qadın motivlərindən olan Ağ ana deyir. Varlıq Ağ Ananın hökmü, Tanrının (ideyanın) iradəsi ilə yaranmışdır (3, s.26). Türklərin yaradılış miflərində görülən önəmli bir xüsusiyyət dünyanı yaradanların ümumilikdə qadın/dişi tanrı olmaları, ya da kişi tanrıya "yarat" əmrini/ilhamını verməkləri və ya dünyanı birlikdə yaratmalarıdır (8, s. 13). Tədqiqatçıların gəldiyi bu qənaətlər öz təstiqini "yaradılış" əsatirində tam şəkildə tapır. Erliklə olan mübarizədən sonra "Tanrı Qara xan göyün yeddinci qatında oturub, kainatı idarə etməkdədir. Ondan bir qat aşağıda Batı Ölgün Altun dağda qızıl bir taxt üstündə oturub. Göyün yeddinci qatında Gün ana, altıncı qatında Ay ata oturmuşdur" (5, s.506). Dastanın bu hissəsində isə bir zamanlar yeri olmayan, dəqiq ünvanı bilinməyən, sadəcə sudan çıxdığı ehtimal olunan qadın, artıq başqa bir qadınla əvəzlənmiş və "Gün ana" ya göyün yeddinci qatında yer verilmişdir.

Biz Çarlz Brennerin "Elementar psixoanaliz dərs kitabı"nda adı çəkilən və psixoanalizin əsas hipotezlərindən olan psixi determinizm (11) nöqteyi-nəzərindən yanaşsaq, deyə bilərik ki, dünyanın yaranması folklorumuzda ilk qadın miflərdən hesab olunan Ağ ananın Qara xana "yarat" deməsi təsadüfə yox, dünyanın yaranması ilə bağlı olan səbəb-nəticə əlaqəsinə söykənir. Yəni bütün hadisənin başlanğıcından öncə onu hərəkətə gətirən bir mövcudluq olmalıdır. Biz bunu dastandakı Ağ Ananın mövcudluğu ilə əlaqələndirə bilərik. Yuxarıda adları çəkilən bütün bu qadınlarla bağlı miflərdə və ya konkret olmasa da, qadınlığa aid edilən təsəvvürlərdə onların davranışları tam orjinal olmamaqla , öz dövrünün təfəkkür və teokratik qaydalarına sadiq olmaqla yanaşı hansı ictimai-kultroloji idrak mərhələlərindən keçdiyi barədə məlumat azlıq təşkil edir. Bütün bunlara baxmayaraq aydın olan odur ki, qadınlarla bağlı olan, onların psixososial təfəkkürünün kökündə prototürk-türk mifologiyası dayanaraq konkretlikdən ümumiliyə aparmış və qadını Tanrı mövqeyinə çatdırmışdır. Freydin "Supereqo" modelində əsas sistem : vicdan və eqo-ideal olmaqla iki hissəyə bölünür ki, bunlar iki əsas instiktin, yəni həyat (Eros) və ölüm (Taratos) adı altında birləşir (11). Eros həyat instikti olub doğumu, həyatı,çoxalmanı və cinsi münasibəti ehtiva etdiyi halda, Taratos ölümü, qətli qəddarlığı bildirir. Sözügedən miflərdə qadınına verilən güc yeni doğulan uşağı hifz etmək, kainatı işıqlandıra bilmək, Tanrıya "yarat" əmrini verə bilmək, yeri gəlsə insanlığı qaranlığa, zülmətə qərq edə bilmək iqtidarındadır. Bu səbəbdən demək olar ki, "Günəş", "Humay" və "Ağ ana"nın qadınlıqla bağlı olan əksər göstəriciləri həm doğum, həm də olum faktorlarını özündə əks etdirir.

"Yaradılış əsatirində" (4, s.45) ilk qadın-insan obrazı Eçedir. Əsatirdə Erlik Doğanay və Eçəni yoldan çıxardır, onlara qadağan olunmuş günbatan tərəfdəki meyvələrini yedirdir. Doğanay və Eçənin bədənini örtən tüklər tökülür, eybləri görünür, qaçıb gizlənirlər. Qaraxan onları çağıranda üzə çıxa bilmirlər. Qaraxan bu hadisədən sonra insanın dolanmaq üçün zəhmət çəkəcəyini bildir və insanın artımını da onların öhdəsinə buraxır (4. s.46-47). Beləliklə, Qara xan Eçəyə doğum təyin edir, ona doğum əzabı çəkməyi əmr edir, əbədi ömrünü alıb ölümlü edir və itaətdən çıxan bəndələrindən üz döndərir. "Yaradılış" dastanının bu hissəsində isə biz aydın şəkildə görə bilirik ki, eyni səhvi edib, Tanrının vədinə birlikdə xilaf çıxmalarına baxmayaraq cəzalandırılan qadındır. Yəni ağrını çəkəcək olan, uşaq dünyaya gətirməkdə bütün yükü çiyinlərinə alan qadındır. Doğrudur, əbədi həyat hər ikisinin əlindən alınmasına və hər ikisnin ölümlü olaraq təyin edilməsinə baxmayaraq, Tanrı Qara xan Eçeyə cəza verir. Psixoanalizdə əsas müddəalardan olan psixikanın şüurlu hissəsi adlandırılan tərəfi, yəni aysberqin ən üst qatını Eçe təmsil edir, yəni o şüura sahib olan insan/qadındır. Bu qadın bilərək və ya Erliyə inanaraq etdiyi səhvin cəzasını çəkir və ölümlü olaraq yaşadığı cəmiyyətdə bir qadın kimi əziyyətlərə qatlaşmağa məcbur olur.

Nəticə. Qeyd etmək istərdik ki, təhlilə cəlb olunmuş istər arxaik totemistik görüşlərlə bağlı olan, türk estetik düşüncəsinin mifologiyaya qədərki erkən yüksəliş mərhələsi, istərsə də türk etnosunun müəyyən tərəqqi meylinə yetməsi, özünəməxsus ərazi hüdudunu müəyyənləşdirməsi, kifayət qədər etik-estetik düşüncəyə yiyələn-

məsinin sonrakı dövründən başlayan mərhələsinə aid olan şifahi xalq ədəbiyyatına məxsus olan mətnlərdə "qadınlıq" daim diqqət mərkəzində olmuş və günümüzə qədər davam edən araşdırmaların tədqiqat obyekti kimi çıxış etmişdir. Məqalədə adları çəkilən "Günəş", "Su", "Ağ Ana", "Humay", "Fatı", "Eçe"-nin timsalında təcəssüm olunan "qadın-mif, qadın-obraz" anlayışlarının araşdırılması zamanı psixi determinizm nəzəriyyəsində hakim olan "səbəb-nəticə" əlaqələri, "supereqo" modelinin iki əsas instikti, yəni həyat (Eros) və ölüm (Taratos) məhfumları, zehnin topoqrafik modelindəki "aysberq" bənzətmələri əsas götürüldü.

Ədəbiyyat

1. Campell Joseph. Kahramanın sonsuz yolculuğu. Kabalcı yayıncılık, İstanbul, 2013, 458 s.
2. Cəfərov Nizami. Eposdan kitaba. Maarif, 1999, 220 s.
3. Cəfərov Nizami Qədim Türk ədəbiyyatı. Bakı:AzAtaM, 2004, 322 s.
4. Xəlilov Pənah. Türk xalqları və şərqi slavyanların ədəbiyyatı. Bakı, "Maarif", 1994, 431 s.
5. Quliyev Elman. Türk xalqları ədəbiyyatı. Bakı, 2011, 567 s.
6. Qarayev Səfa. Türk Mifoloji Düşüncəsində Dünyanın Yaradılışı (Monomifolojı Baxımdan Xaos-Kosmos) . Motif Akademi Halkbilimi Dergisi. Azerbaycan Özel Sayısı-II, 2011 iyul-dekabr, 180-186 s.
7. Nəbiyev Azad. Azərbaycan xalq ədəbiyyatı. Bakı, "Çıraq", 2009, 638 s.
8. Yakıcı Ali. Yaratılış destanından "Dede Korkut"a mitoloji bağlamlı Türk Edebiyatı metinlerinde kadın, Düşünce dünyasında Türkiz siyaset ve kültür dergisi, Say: 38, mart-aprel 2016, 9-22 s.
9. http://azkurs.org/ziqmund-freyd--bildiklerimiz-ve-bilmediklerimiz.html (Z. Freyd- Bildiklərimiz və bilmədiklərimiz).
10. http://alizadeh.narod.ru/meqaleler/11.html (A.Əlizadə- Qədim Misir ilahiyyatında dünyanın yaranması).
11. http://bilge.az/article/11832 (Psixoanalizin iki fundamental hipotezi**).**

А.АЛлиева

Метафоры для женщин и их психоаналитический анализ в архаическом фольклоре

Резюме

Женщины всегда были в центре внимания на всех этапах истории, и со временем они стали центром многих исследований и исследований. В статье обращается внимание на психоаналитический аспект женских метафор в архаичных фольклорных текстах, особенно мифы и верования. Хорошо известно, что фольклорные тексты считаются наиболее авторитетными

источниками для изучения психосоциальных тенденций и характерных черт женских персонажей из самой ранней истории. В то же время, взглянув на этот ранний слой национальной мысли, можно прояснить первоначальные идеи, связанные с женщинами. Стоит отметить, что женщины явно примечательны в мифах, которые женщины имели в свои ранние годы. Именно поэтому первый способ изучения женских персонажей в древнетюркских эпосах, рассказах о сотворении и творчестве, в легендах тюркского происхождения начинается с мифов. Невозможно понять этнопсихологическую природу изображений в национальных устных народных литературных примерах, не зная об исторических и культурных взглядах женщин во всем мире.

Исследование охватывало первые два этапа четырех основных этапов развития турецкой мифологии в учебнике Азада Набиева «Азербайджанская народная литература», посвященном психосоциальному исследованию и анализу женских персонажей и их воплощенной женственности:

1. Ранний подъем к мифологии турецкого эстетического мышления, связанной с архаичными тотемическими встречами;
2. Период от зарождения турецкого этноса до определенного прогресса, определения конкретной территории, приобретения достаточного этико-эстетического мышления.

Ключевые слова: женщина, психоанализ, миф, Хумай, Фати, Зигмунд Фрейд, Карл Густав Юнг, Белая мама.

A.Aliyeva

Metaphors related with women and their psychoanalytic analysis in archaic folklore

Summary

Women have always been in the spotlight at all stages of history, and over time, they have become the focus of many studies and studies. The article draws attention to the psychoanalytic aspect of women's metaphors in archaic folklore texts, especially myths and beliefs. It is well-known that folklore texts are considered the most authoritative sources for studying the psychosocial tendencies and characteristic features of female characters from the earliest history. At the same time, by looking at this early layer of national thought, it is possible to clarify the initial ideas associated with women. It is worth noting that women are clearly notable in the myths that women have had in their early years. That is why the first way to learn female characters in ancient Turkic epics, stories of creation and creation, in the legends of Turkic origin begins with myths. It is impossible to understand the ethno-

psychological nature of images in national oral folk literary examples without being aware of the historical and cultural views of women around the world.

The study covered the first two rounds of the four main stages of Turkish mythology development in the textbook by Azad Nabiyev's "Azerbaijan Folk Literature", which focused on psychosocial research and analysis of the female characters and their embodied femininity:

1. Early rise to the mythology of Turkish aesthetic thinking related to archaic totemistic encounters;

2. The period from the beginning of the Turkish ethnos to the certain progress, the determination of the specific territory, the acquisition of sufficient ethical-aesthetic thinking.

Keywords: Female, Psychoanalysis, Myth, Humay, Fati, Sigmund Freud, Carl Gustav Jung, White Mother.

Çapa tövsiyə etdi: dos. Almaz Hüseynova (filologiya elmləri namizədi, AMEA Folklor İnstitutu).

Məqalənin redaksiyaya daxil olma tarixi: 24.12.2019
Çapa hazırlnma tarixi:26.01.2020
Filologiya elmləri doktoru Almaz Hüseynova
tərəfindən çapa tövsiyə olunmuşdur

PƏRVANƏ QULİYEVA
Gəncə Dövlət Universitetini
Heydər Əliyev prospekti
parvana@mail.ruj

"ŞİFAHİ XALQ ƏDƏBİYYATINDA "KOROĞLU" DASTANI"

Xülasə

«Koroğlu» dastanı Azərbaycanda və eləcə də Yaxın Şərqdə müharibələr salnaməsi ilə zəngin olan tarixi bir epoxanın ədəbi abidəsidir. Dastan qədim mifik-əsatiri əfsanələrdən və «Dədə Qorqud» boylarından mayalansa da, onun məzmununda Səfəvilərin tənəzzülündən sonra xarici işğalçılara və yerli feodallara qarşı böyük və ardıcıl kəndli hərəkatının ardıcıl və tükənməz mübarizəsi durur. Məlumdur ki, XVI əsr və XVII əsrin əvvəlləri Yaxın Şərqdə, eləcə də Azərbaycanda feodal dövlətlərinin arasıkəsilməz müharibə apardığı dövrdür. 1602-ci ildən 1639-cu ilə qədər arası kəsilmədən davam edən bu müharibənin əslində döyüş meydanı Azərbaycan ərazisi olmuşdur. Bu dövrdə İran şahları ilə türk sultanları arasında gedən savaşlar nəticəsində Azərbaycan gah İran şahlığının, gah da Türkiyə sultanlarının əlinə keçmiş, o biri tərəfdən də daxili feodal çəkişmələrinin zülmü nəticəsində xalq kütləsi maddi və mənəvi cəhətdən məhrumiyyətlərə məruz qalmış, hər tərəfdən istismar edilmişdir. «Yaxın Şərqdə gedən bu qanlı müharibələr əhalinin amansız surətdə talan edilməsi, məhsuldar qüvvələrin vəhşicəsinə məhv edilməsi, on minlərlə sakinin əsir alınması və öldürülməsi, möhtşəm mədəniyyət abidələrinin – rəssamlıq, memarlıq əsərlərinin, qiymətli əlyazmalarının və s. tələf edilməsi ilə nəticələnən işdir».

Şifahi xalq ədəbiyyatında Koroğlunun adı ilə bağlı hadisələr əfsanəviləşərək öz əksini "Koroğlu" dastanında tapmışdır. Dastanla hadisə və şəxsiyyətlər silsiləsinin tarixilik xətti pozulmamış, Koroğlunun igid döyüşçü, gözəl qoşmalar müəllifi olan istedadlı şair və aşıq olması tarixi həqiqət kimi qorunub saxlanılmışdır.

Açar sözlər: folklor, xalq, dastan, qəhrəmanlıq, ədəbiyyat, tədqiqat, nümunə, milli

Türk xalqlarının şifahi düşüncəsində mühüm bir hissəni dastanlar təşkil edir. Onun öyrənilməsi, tədqiqi istiqamətdə günümüzə qədər xeyli işlər görülüb və indi də görülməkdədir. On doqquzuncu yüzillikdən bu yana xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqi sahəsində lazımi qədər ləyaqətli işlər görülüb. Düzdü, son dövrlərdə bu müqəddəs işə müəyyən haram əllər uzadılıb, özündən folklor düzəltmə işləri olub. Elə dastanlarımızın toplanması, nəşri və tədqiqində də bu cür hallar müşahidə olunur. Məsələn, "Koroğlu" dastanının son dövrlərdəki nəşrləri, ayrı-ayrı vari-

antlarının ortaya çıxması və s. Bunlar heç bir yaxşılıqdan xəbər vermir. Hətta onu da əlavə edək ki, son dövrün bir sıra tədqiqatlarında xalqın bu möhtəşəm abidəsinin köklərinin Azərbaycandan kənarda axtarışları başlanıb. Buna rəvac vermək, ictimaiyyətə təqdim etmək özlüyündə daha qorxuludur. Bu, bir növ xalqın milli-mənəvi mədəniyyətinə atılan çirkablardı. Mənəvi dəyərlərin zədələnməsidir. Ancaq bizim nəzərimizdə bunlar keçici, ötəri bir hadisədir. Bildiyimiz bir məsələ var ki, o da folklorun ləyaqət və müqəddəslik faktı kimi yaddaşlarda daşınmasıdır.

Mənəvi irsimizin möhtəşəm abidəsi, Azərbaycan poetik söz sənətinin - aşıq yaradıcılığının zirvəsi sayılan "Koroğlu" dastanının bu ilk variantı yüz əlli ildən artıqdır ki, respublika və dünya eposşünaslığının tədqiq obyektindədir. 160 ildən artıq bir dövrü əhatə edən həmin tarixi kəsim əksər qaynaqlarda bilavasitə Aleksandr Xodzkonun adı ilə bağlı düşünülmüş, onun Azərbaycan eposunun nəşri sahəsindəki xidməti gərəyincə dəyərləndirilmişdir.

"Kitabi-Dədə Qorqud dastanlarından sonra xalqımızın yaratdığı ən möhtəşəm abidə "Koroğlu" dastanıdır. İlk mətbuu məlumatdan ("Tiflis vərəqələri" (1830, № 68) bu günə qədər müxtəlif səviyyələrdə söz deyilmiş, bir-birindən fərqli qənaətlərlə həmişə diqqət mərkəzində olmuşdur. Dastanın nəşri məsələlərində də fərqlilik və ziddiyyət doğuracaq məqamlar kifayət qədərdir. Bu İ.Şopen, A. Xodzko, S.S.Penni, V.Xuluflu, H.Əlizadə, M.H.Təhmasib, F.Fərhadov və son dövrün digər nəşrlərində bu və ya digər dərəcədə özünü göstərməkdədi. Onu da əlavə edək ki, "Koroğlu" dastanı bir dastan olaraq formalaşma dövrünü başa vurmayıb. Bu gün də onun ayrı-ayrı qolları toplanıb nəşr olunur. [2,187]

Dünya qəhrəmanlıq-cəngavərlik eposları ilə eyni səviyyədə dayanan bəşəri mündəricəli ədəbi abidələrimizdən biri «Koroğlu» dastanıdır. Dastanın ilk müəllifi və əsas qəhrəmanı Koroğlunun şəxsiyyəti koroğluşünasların həmişə diqqət mərkəzində olmuş və mübahisə doğurmuşdur. Koroğlunun şəxsiyyəti ilə bağlı mübahisə doğuran ilk fikir budur ki, xalq qəhrəmanı Koroğlu şeir yazmışmı, yoxsa həmin şeirləri aşıqlar Koroğlunun dilindən söyləmişdir? İlk növbədə Koroğlu qəhrəman olmaqla yanaşı, həm də şair və yaradıcı aşıq olmuşdur. Qəhrəman və şair kimi tanışmış şəxslər isə Azərbaycan ədəbiyyatında çox olmuşdur. Elə Koroğlunun müasiri Şah İsmayıl Xətai həm dövlət xadimi, sərkərdə, qəhrəman və nəhayət, gözəl şair idi. Koroğlu surətində Xətainin bir sıra keyfiyyətlərini görmək mümkündür. Koroğlunun da qəhrəmanlığı və şairliyi bir-birini tamamlayır. Onun qılıncı nə qədər kəsərlidirsə, şairliyi də qılıncı qədər kəsərli və qüdrətlidir.

Koroğlu XVI əsrdə yaşamış, xalq üsyanının rəhbəri və sərkərdəsi, eyni zamanda şair və nəğməkar olmuşdur. Bu üsyanın səbəbləri İran və Türkiyə arasında gedən müharibələrlə əlaqələndirilsə də, əlbəttə, bu, həlledici amil olmamışdır. Koroğlunun, Giziroğlu Mustafa bəyin və Dəli Həsənin əvvəlcə ayrı-ayrı, sonra isə bir cəbhədə geniş xalq kütlələrinin hərəkatına rəhbərlik etmələrinin başlıca amilllərindən biri Şah İsmayıl səltənətinin tənəzzülündən sonra ilk növbədə onun tərəfdarlarına, ona yaxın olmuş azərbaycandilli tayfalara və nəhayət, səfəvilər siyasətini müdafiə edən

qızılbaşlara divan tutulması ilə bağlı idi. İ.P.Petruşevskinin də, İskəndər bəy Münşinin də həmin hadisələrə dair ardıcıl araşdırmalarından bəlli olur ki, Şah Abbasın yeritdiyi daxili siyasət ilk növbədə Şah İsmayıl səltənətinə qarşı yönəldilmişdir. Eyni münasibət türk sultanının apardığı siyasətdə də müşahidə olunur. Anadoluda başlayan Cəlali hərəkatı ilə Azərbaycanda təqib olu-nan qızılbaşların qiyama çağırış səsi tədricən bütün peşə və sənət adamlarını, muzdurları ayağa qaldırdı. Bu hərəkata rəhbərlik edən qəhrəman və müdrik şair Koroğlu intiqam hissləri ilə alovlanan pərakəndə iğtişaş və qiyamları ümumxalq üsyanına çevirib ideal bir cəmiyyət yaratmaq arzusunda idi. O, milliyyətindən, dinindən, dilindən, mənsub olduğu zümrədən asılı olmayaraq, «sinifsiz bir cəmiyyət» yaratmaq naminə vuruşurdu. Belə bir cəmiyyətin ilk bariz nümunəsini Koroğlu Çənlibeldə yaratmışdır. Əlbəttə, ilk bünövrəsini Koroğlu hərəkatı sonrakı inkişafı ilə elə bir vüsət aldı ki, onun davamçıları yeni-yeni şeirlər, aşıq havaları, nağıl və dastanlarla zənginləşdirdilər. [6, 157]

«Koroğlu» dastanı Azərbaycanda və eləcə də Yaxın Şərqdə müharibələr salnaməsi ilə zəngin olan tarixi bir epoxanın ədəbi abidəsidir. Dastan qədim mifik-əsatiri əfsanələrdən və «Dədə Qorqud» boylarından mayalansa da, onun məzmununda Səfəvilərin tənəzzülündən sonra xarici işğalçılara və yerli feodallara qarşı böyük və ardıcıl kəndli hərəkatının ardıcıl və tükənməz mübarizəsi durur. Məlumdur ki, XVI əsr və XVII əsrin əvvəlləri Yaxın Şərqdə, eləcə də Azərbaycanda feodal dövlətlərinin arasıkəsilməz müharibə apardığı dövrdür. 1602-ci ildən 1639-cu ilə qədər arası kəsilmədən davam edən bu müharibənin əslində döyüş meydanı Azərbaycan ərazisi olmuşdur. Bu dövrdə İran şahları ilə türk sultanları arasında gedən savaşlar nəticəsində Azərbaycan gah İran şahlığının, gah da Türkiyə sultanlarının əlinə keçmiş, o biri tərəfdən də daxili feodal çəkişmələrinin zülmü nəticəsində xalq kütləsi maddi və mənəvi cəhətdən məhrumiyyətlərə məruz qalmış, hər tərəfdən istismar edilmişdir. «Yaxın Şərqdə gedən bu qanlı müharibələr əhalinin amansız surətdə talan edilməsi, məhsuldar qüvvələrin vəhşicəsinə məhv edilməsi, on minlərlə sakinin əsir alınması və öldürülməsi, möhtşəm mədəniyyət abidələrinin – rəssamlıq, memarlıq əsərlərinin, qiymətli əlyazmalarının və s. tələf edilməsi ilə nəticələnən işdir». [3, 220]

Belə bir zülm və əsarətə dözə bilməyən yerli əhalinin bir qismi uzaq əyalətlərə gedir, Qızılbaş səltənətinə yaxın olan tayfaları isə yerli hakimlər kütləvi şəkildə öz yurdundan başqa yerlərə köçürürdülər. Müqavimət göstərmək istəyən tayfalar isə məhv edilirdi. Belə bir ərəfədə kəndli iğtişaşları tədricən xalq üsyanına çevrilir, mütəşəkkil şəkil alır, get-gedə ölkəni bürüyürdü. Bu üsyan həm yerli feodallara, həm də xarici qəsbkarlara qarşı ümumxalq hərəkatına çevrilirdi. Beləliklə, Yaxın Şərqin bəzi əyalətlərini və Azərbaycanı bürüyən bu xalq hərəkatına kəndlərdə yetişmiş mehtər, qəssab, dəmirçi, çoban və başqa peşə adamlarının sınanmış bacarıqlı, igid və cəsarətli oğulları başçılıq edir və tezliklə də el arasında şöhrət qazanırdılar. Onların şöhrəti və qəhrəmanlığı haqqında dövrün ozan-aşıqları nəğmələr qoşur, hekayələr söyləyir, el məclislərində yayırdılar.

Azərbaycan qəhrəmanlıq dastanlarında xalqın həyatı ilə bağlı tarixi hadisələrdən, onun haqq-ədalət və azadlıq uğrunda apardığı mübarizədən bəhs edilir. Belə dastanların qəhrəmanları xalq içərisindən çıxmış mərd və igid insanlar olur. Qəhrəmanlıq dastanları əsasən, xalq qəhrəmanları haqqında olan rəvayət və nəğmələr əsasında yaranır.

Koroğlu Azərbaycan xalqının ən sevmili dastan qəhrəmanlarından biridir. Koroğlu adı xalqımızın igidliyi, mübarizliyi, vətənpərvərliyinin simvoluna çevrilib. Ataanalar bu gün də övladlarına Koroğlu adı verir və bununla sanki övladlarının gələcəkdə Vətənini, elini sevən, torpağı uğrunda mərdliklə savaşan igid bir oğul olacağının təməlini qoyurlar. Koroğlu mahnılarda, qoşmalarda, bayatılarda ən çox səslənən addır.

Koroğlu dastanı haqqında araşdırmalardan məlum olur ki, o, yarı mistik xalq qəhrəmanıdır. Onun təqribən XVI əsrin II yarısı yaşadığı güman edilir. Koroğlu Cəlalilər hərəkatının başçılarından biri olub. XVI əsrin ortaları - XVII əsrdə Türkiyə şəhərlərini, Azərbaycan və s. əraziləri kəndli hərəkatı bürümüşdü. Azərbaycandakı cəlali dəstələrindən birinə Koroğlu başçılıq edirdi. Rəvayətə görə, Koroğlunun əsl adı Rövşən olmuşdur. Koroğlu və silahdaşları haqqında yazılı mənbələrdə məlumat çox azdır. Tədqiqatçıların bəziləri Koroğlunun Xorasanda, digərləri Anadoluda, əksəriyyəti isə Azərbaycan ərazisində fəaliyyət göstərdiyini qeyd edirlər.

Şifahi xalq ədəbiyyatında Koroğlunun adı ilə bağlı hadisələr əfsanəviləşərək öz əksini "Koroğlu" dastanında tapmışdır. Dastanla hadisə və şəxsiyyətlər silsiləsinin tarixilik xətti pozulmamış, Koroğlunun igid döyüşçü, gözəl qoşmalar müəllifi olan istedadlı şair və aşıq olması tarixi həqiqət kimi qorunub saxlanılmışdır. Dastanda adları çəkilən şəxsiyyətlərin (Giziroğlu Mustafa bəy, Kosa Səfər, Cəfər paşa, Hasan paşa və b.) əksəriyyəti tarixi simalardır. Koroğlunun əsas istinadgahı Çənlibel qalası olmuşdur. Bu gün də Azərbaycan ərazisində müxtəlif bölgələrdə "Çənlibel" adlı çoxlu qalalar mövcuddur. XIX əsrə aid mənbələrdə yaşayış məntəqəsi kimi Çənlibelin adı çəkilir.

A.Təbrizlinin "Tarixlər kitabı" əsərində cəlali dəstələrindən 20-dən çox başçısının, o cümlədən Koroğlunun adı xüsusi qeyd edilir. Koroğlunun vuruşmalardakı mərdlik və şücaəti, kasıbların dostu, zülmkarların düşməni olması onu xalq qəhrəmanına çevirmişdir.

Türk xalqlarının böyük əksəriyyətinin (türk, türkmən, özbək, qazax, başqırt, tatar, qaraqalpaq, Azərbaycan türkləri və b.) şifahi ənənəsində mövcud olan "Koroğlu" dastanı Tunadan Balkanlara, Sibirdən Suriyaya qədər geniş bir coğrafi arealda yayılıb. Yayılma miqyasına, həcminə və şöhrətinə görə "Koroğlu" yeganə dastandır ki, variant və versiyalarının sayı beş yüzdən çoxdur.

Türkiyədə "Koroğlu"nun ilk çapı 1887-ci ildə işıq üzü görüb. On beş səhifəlik bu nəşrdən sonra Koroğlu, dövrü və qəhrəmanın fəaliyyət göstərdiyi tarixi hadisələrlə bağlı bir çox araşdırmalar aparılmışdır. Bundan bir qədər əvvəl isə "Koroğlu" dastanının bir hissəsi erməni əlifbası ilə İstanbulda çap edilmişdir. 1897-ci ildə Aşıq Cə-

malidən yazıya alınmış "Giziroğlu Mustafa bəy", "Bolu bəy" qolları Tiflisdə nəşr edildi.

Azərbaycanda "Koroğlu" dastanının ilk nəşri 1913-cü ildə Orucov qardaşları mətbəəsində Rza Zaki tərəfindən çap edilmişdir. Bu nəsrlə olan nəşrin titul vərəqi farsca yazılıb. Dastanın 14 qoldan ibarət daha mükəmməl və qoşmalarla zəngin digər bir variantı 1941-ci ildə Hümmət Əlizadə tərəfindən nəşr edilmişdir.

"Koroğlu" dastanı Orta Asiyada da dəfələrlə nəşr edilmişdir. Orta Asiya versiyası dövri olduğundan hələ də tam şəkildə çap edilməmişdir. Əsasən də özbək Koroğlusu bir neçə nəslin qəhrəmanlıq salnaməsini canlandırdığından hər dövr müstəqil dastan kimi formalaşmışdır. Son zamanlarda Azərbaycanda "Koroğlu" dastanının yeni qolları toplanıb nəşr edilmişdir. Bunlardan "Qəhrəman Koroğlunun divlərlə görüşü", "Koroğlunun Tehran səfəri", "Misri qılıncın oğurlanması", "Mərcan xanımın Çənlibelə gəlməsi", "Zərnişan xanımın Çənlibelə gəlməsi", "Ağca quzu" qollarını göstərmək olar.

"Koroğlu" dastanının qısa nəşr tarixi göstərir ki, o, XIX əsrin başlanğıcından son dövrlərə qədər çox məşhur olmuş, variant baxımından ən çox yayılan dastan halına gəlmişdir. Ancaq həm ingilis, fransız, həm də ilk rus nəşrləri təhriflərlə doludur. Folklorluq baxımından bu nəşrlərin qüsurları çoxdur. Bunlara misal kimi şeir hissələrinin nəsrlə verilməsi, tərcümədə sərbəstlik, yersiz əlavələr kimi müxtəlif təhrifləri göstərmək olar. Çox təəssüflə demək lazımdır ki, Azərbaycan nəşrləri də arzu ediləcək səviyyədə deyildir. [1, 289]

Dastandan məlumdur ki, Koroğlunun bir əlində qılınc, bir əlində saz olub. Döyüşə sazla girib, döyüşdən sonra da qələbəsini sazı sinəsinə basaraq tərənnüm etməyə başlayıb. "Koroğlu" dastanındakı qoşmalar bu gün də böyükdən-kiçiyə hamının dilinin əzbəridir. Təsadüfi deyil ki, dahi Üzeyir Hacıbəyli "Koroğlu" dastanı motivləri əsasında "Koroğlu" operası yazmış, operanın üvertürası isə, demək olar ki, bütün dövrlərdə Azərbaycanı tanıtma himni kimi səslənmiş və səslənməkdədir.

Eposun meydanagəlmə amillərindən ilk dəfə əsaslı şəkildə bəhs açan türkmən alimi B.A.Karrıyevin gətirdiyi dəlillər bizdə və başqa ölkələrdə irəli sürülən qənaətlərin özəyini təşkil edir. Daha doğrusu, E.Muşeq, A.Təbrizi, Ö.Çələbi, İ.Şopen, A.Xodzko, S.S.Penn, İ.Petruşevski və b. Koroğlu haqqında söylədiklərinə onun tədqiqatında daha geniş şərh verilmiş, bu səbəbdən də tarixi məxəzlərdən gətirdiyi sitatlar sonralar dərslikləri bəzəmişdir.

Alim belə bir qənaətlə razılaşır: "Doğrudan da, XVII yüzildə böyük şöhrət qazanmış Koroğlu adlı şəxs yaşamışdır. Azərbaycan və türkmən variantlarında göstərilir ki, Koroğlu tuk (daha dəqiq desək, təkə) tayfasından çıxmış türkmən idi və onun atası sultan Murada xidmət etmişdir". H.Samuelyanın bu qənaətlərinin Arakel Təbrizinin (1670-ci ildə ölmüşdür) və Eliyas Muşeqin (XVIII əsr) şahidliyinə əsasən irəli sürüldüyünü bildirən alimə görə, bunlar eposun meydanagəlmə səbəblərini və yerini müəyyənləşdirən yeganə mənbələrdir. Arakel Təbrizi İran şahı I Abbasın hakimiyyəti dövründəki hadisələrdən bəhs açmış və baş verən üsyana başçılıq edən şəxslərdən

birinin adının Koroğlu olduğunu bildirmişdir. Qəribədir ki, o, indi aşıqların oxuduğu mahnıların çoxunun da Koroğlu tərəfindən qoşulduğunu vurğulayırdı. "Arakel Təbrizi söyləyirdi ki, üsyankarlar özlərini "cəlalilər" (ərəb sözü "cəlal" - məşhur, şöhrətli, qorxu yaradan deməkdir) adlandırırdılar. Onlar şaha və tərəfdarlarına qarşı amansızcasına vuruşurdular. O yazırdı: "Cəlalilər monarxa bütünlüklə tabe olmurdular; onların heç yerdə daimi yaşayış məskənləri yox idi; qabaqlarına nə çıxırdı, hamısını dağıdırdılar; haralara onlar haqqında heç bir məlumat çatmamışdı, tez oralara üz tutur, soyğunçuluğa başlayır, qənimətlər toplayır və yerdə qalan hər şeyi oda atırdılar".

Beləliklə, tarixi mənbələrdə Koroğlunun şəxsiyyəti haqqında ilk dəfə Arakel Təbrizi özünün 1662-ci ildə qələmə aldığı "Tarix" kitabında məlumat vermişdir. Şəhərlərin kasıb əhalisinin və kənd camaatının üsyan qaldırmasından bəhs açarkən o göstərmişdir ki, üsyan başçılarının birinin adı Koroğludur. Övliya Çələbinin XVII yüzilliyə aid "Səyahətnamə"sində də Koroğlu cəlalilər hərəkatının ən görkəmli nümayəndələrindən biri tək xatırlanmışdır.

Paris nüsxəsində qəhrəmanlar Cəlali Koroğlu və Nəzər Cəlali adıyla verilir. Molla Cumanın düzüb-qoşduğu dastanların birində də bu addan istifadə olunur: "Cəlali Məhəmməd və Tavat xanım". [5, 130]

1571-1573-cü illərdə Təbrizdə sənətkarlar və şəhər yoxsullarının böyük bir üsyanı olmuşdur. Çəkməçi, mahud toxuyan, şalvar-duz, dəvəçi, səbzəfruş və b. iştirak etdiyi üsyanı şah amansızcasına yatdırmışdır. H.Rumlunun, İ.Münşinin yazdıqlarına görə, üsyanda qəssablar silki mühüm rol oynamışdır. H.Rumlu pəhləvan hərəkatının başçılarından birinin adının Əvəz olduğunu yazır. İ.T.Petruşevski bunun Eyvaz ola biləcəyi fikrini irəli sürür. P.Əfəndiyev faktlar üzərində müqayisələr apararaq belə qənaətə gəlir ki, Eyvaz əvəzsiz bir pəhləvan, həm də Qəssab Alının oğludur. Belə olduqda dastandakı Eyvazın tarixi Əvəz-Eyvazın prototipi olmasına şübhə yeri qalmır .

1577-1578-ci illərdə Şirvanda yeni bir xalq üsyanı olmuşdur. Tarixçi H.Rumlunun təsvir etdiyinə görə üsyan qəddarcasına yatırılmış və onun iştirikçılarından 400 nəfərin başı kəsilib şahın sarayına göndərilmişdir. P.Əfəndiyev İ.P.Petruşevskiyə istinadən göstərirdi ki, Azərbaycan kəndlərində 35 növ vergi və mükəlləfiyyat tətbiq edilirdi.

Əndəlib Qaracadağı 1804-cü ildə İrəvan istila edildiyi zaman rus ordusunun mayoru Şubinin xahişi ilə soydaşlarının dilindən qələmə alıb sistemləşdirdiyi "folklor toplusu"nda Koroğlunun adı ilə bağlanan çoxsaylı aşıq şeirləri verir.

Xalq qəhrəmanı Koroğlunu saz-söz sənətkarı adı ilə tanıtmaq ənənəsi keçən əsrin otuzuncu illərinədək davam etdirilmişdir. Azərbaycan EA-nın Memarlıq və Arxeologiya İnstitutunun arxivindən tapdığımız 1938-ci ilə aid bir "Aşıq şeirləri" toplusunda Koroğlu adlı aşığa ünvanlanan qoşma və gəraylılara rast gəlirik. Doğrudur, gənc Ərtoğrul Cavidin (Hüseyn Cavidin oğlu) rəyi ilə çapa hazırlanmış bu toplu müəyyən səbəblərdən işıq üzü görməmişdir. Eləcə də şeirlər eposun ayrı-ayrı qolları ilə səsləşir. Daha dəqiq desək, məzmununda eposun hadisələrini tam əks etdirir. [4, 165]

Ədəbiyyat:

1.S.Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı, 1986
2.A.A.Bakıxanov. Gülüstani-İrəm. Bakı, 1951
3.H.Araslı. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, 1956
4.H.Araslı. Aşıq yaradıcılığı. Bakı, 1960
5. M.H.Təhmasib. Koroğlu. Müqəddimə. Bakı, 1949
6.M.H.Təhmasib. Azərbaycan xalq dastanları (Orta əsrlər). Bakı, Elm, 1972;

П.Е.Кулиева

Эпопея «кероглу» в устном народном творчестве

Резюме

Эпопея Кероглу является литературным памятником исторической эпохи, богатой хрониками войн в Азербайджане и на Ближнем Востоке. Хотя древние мифические мифы оспариваются легендами и «Деде Горгудом», его содержание представляет собой последовательную и неиссякаемую борьбу за крупные и последовательные крестьянские движения против иностранных захватчиков и местных феодалов после падения Сефевидов. Известно, что XVI и начало XVII веков были периодом непрерывной войны между феодальными государствами на Ближнем Востоке и в Азербайджане. Эта война, которая длилась с 1602 по 1639 год, была фактически полем битвы Азербайджана. В результате войн между иранскими королями и турецкими султанами Азербайджан оказался в руках иранского королевства и даже султанов Турции, а массы подвергались материальной и моральной депривации в результате подавления внутренних феодальных конфликтов. «Эти кровопролитные войны на Ближнем Востоке привели к жестокому разграблению населения, зверскому уничтожению производительных сил, захвату и убийству десятков тысяч людей и великолепным памятникам культуры - картинам, архитектурным произведениям, ценным рукописям». работа, которая приводит к разрушению ".

События, связанные с именем Кероглу в народной литературе, были легендарными и нашли отражение в эпосе Кероглу. Историческая линия событий и личностей не была нарушена сагой, и Кероглу - храбрый воин, талантливый поэт и автор замечательных пристрастий, и история сохраняется как истинная.

Ключевые слова: фольклор, народ, эпос, героизм, литература, исследование, образец, национальный

E Quliyeva

The «koroglu» epos in the folklore

Summary

The Koroglu epos is a literary monument of a historical epoch rich in the chronicles of wars in Azerbaijan and the Middle East. Although the ancient mythical myths are contested by legends and the "Dede Gorgud", its content is a consistent and inexhaustible struggle for large and consistent peasant movements against the foreign invaders and the local feudal lords following the Safavids decline. It is known that the sixteenth and early 17th centuries were a period of continuous war between the feudal states in the Middle East and in Azerbaijan. This war, which lasted from 1602 to 1639, was actually the battlefield of Azerbaijan. As a result of the wars between the Iranian kings and the Turkish sultans, Azerbaijan was in the hands of the Iranian kingdom and even the sultans of Turkey, and the masses were subjected to material and moral deprivation as a result of the oppression of internal feudal conflicts. "These bloody wars in the Middle East have led to the brutal plundering of the population, the brutal destruction of productive forces, the capture and killing of tens of thousands of people, and the splendid cultural monuments - paintings, architectural works, valuable manuscripts. the work that results in the destruction. ”

The events related to Koroglu's name in the folk literature have been legendary and reflected in the Koroglu epic. The historical line of events and personalities has not been broken by the saga, and Koroglu is a brave warrior, a talented poet and author of wonderful attachments, and the history is preserved as true.

Key words: folklore, nation, epos, heroism, literature, research, sample, national

Məqalənin redaksiyaya daxil olma tarixi:28.12.2019
Çapa hazırlnma tarixi:28.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Nəzmiyyə Axundova
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏZIZ SEVINC
sevincaziz92@gmail.com
Naxçıvan Dövlət Universiteti

"SEVGİ VƏ DOSTLUQ" ƏSƏRİ CEYN OSTIN YARADICILIĞININ MÜHÜM MƏRHƏLƏSİ KİM

Xülasə

İngilis yazıçısı Ceyn Ostinin yaradıcılığında təsir edən Maarifçilik dövrü ədəbiyyatı onu bir romançı kimi dövrünün sənətkarlarından fərqli etmişdir. Maarifçiliyin dəbdə olan epistolyar janrı Ceyn Ostin tərəfindən yenidən işlənmiş, onu ciddilikdən və didaktik ideya-məzmundan uzaqlaşdırmışdır.

Məhz Ceyn Ostinin yaradıcılığında ilk dəfə epistolyar janr komizmə və istehzaya meyilli olmuşdur. Sözü gedən problemin ilk təməli yazıçının "Sevgi və dostluq" əsərində qoyulmuş və bu əsər Ceyn Ostinin sonrakı yaradıcılğında mayak rolunda çıxış etmişdir. Məqalədə adı çəkilən əsərin təhlili onu deməyə əsas verir ki, məhz "Sevgi və dostluq"dan başlayan kinayə və istehza kimi gülüşün bədii ifadə vasitələri yazıçının "Qürür və qərəz", "Mensfild park", "Nortenger abbatlığı" romanlarında davam edərək onun yaradıcılıq kredosunu müəyyən etmişdir."Sevgi və dostluq" əsəri iki personajın bir-birinə yazdığı on beş məktubdan ibarətdir. Bu məktublar elə şəkildə yazılıb ki, oxucu süjet xəttini izləməklə yanaşı yazıçının ingilis ədəbiyyatına gətirdiyi yeniliyi sezə bilir.

C.Ostinin gənclik illərinə təsadüf edən bu əsərində yazıçı Maarifçilik ədəbiyyatının janrları ilə polemikaya girir, kütləvi ədəbi ştamplara gülür. Bu üzdən "Sevgi və dostuq" əsərini ədəbi polemika kimi nəzərdən keçirməli, realist prinsiplərin bərqərar olması yolunda ilk addım kimi dəyərləndirilməlidir.

Məqalə müəllifi C.Ostinin yaradıcılıq manerasının Maarifçiliyin bədii idealları üzərində formalaşması qənaətinə gəlir. Amma bununla belə qeyd edir ki, yazıçı ənənəvi nəsrin statik xarakterini nəzərdən qaçırmamış və bu üzdən epistolyar janra yenilik gətirmişdir. Bu yenilik ingilis ədəbiyyatında yeni üslubi-tematik yazı üslubu idi. Ciddi epistolyar janr C.Ostinin yaradıcılığında komizmə və ironiyaya çevrilmişdir. Yuxarıda qeyd edilənləri nəzərə alaraq müəllif belə qənaətə gəlir ki, "Sevgi və dostluq" əsəri Ceyn Ostin yaradıcılığının mühüm mərhələsi kimi dəyərləndirilməlidir.

Açar sözlər: Ceyn Ostin, "Sevgi və dostluq", üslub, sentimentalizm

Ceyn Ostin (Jane Austen, 1775-1817) yaradıcılığının formalaşmasında Maarifçilik ədəbiyyatının rolu az deyildi. Məhz maarifçilik dövrünün əsas janrlarından biri olan epistolyar yazı Ceyn Ostinin erkən yaradıcılğının ana xəttini təşkil edir. Görünür gənc yazar Maarifçiliyin bədii təcrübəsindən yaralanmış, eyni zamanda da onun yenidən dərk edib, yeni yaradıcı prinsiplərilə işləmişdir. Maraqlıdır ki, yazıçı epistolyar

janra sonralar yenidən qayıdacaq və özünün ən çox mübahisəyə səbəb olan "Ledi Syuzan"(Lady Susan) romanını bu janrda yazacaq. Məlumdur ki, Maarifçilik dövrünün yazıçıları T.Smollett, S.Riçardson, D.Didro, J.-J.Russo, Ş.Monteskyö yaradıcılığında epistolyar nəsrin ən gözəl nümunələri yaranmışdır. Məktub formasında yazılan belə əsərlərin bədii aləmi insanın dünya ilə münasibətləri fonunda deyil, özü-özü ilə mükaliməsi üzərində qurulur, başqa sözlə, hadisələr qəhrəmanın ətraf aləmilə deyil, onun daxili dünyasında baş verir. Bu üzdən epistolyar roman janrı psixoloji romanın yaranmasına təkan vermişdi.

İngilis yazıçısı Gilbert Kit Çesterton C.Ostinin erkən yaradıcılığına münasibətini açıqlayarkən bu məqamı xüsusi vurğulayaraq yazırdı ki, "onun(yazıçının) yaradıcılığında romantik yazarlar ona görə məzəmmət edilirdi ki, nədən onlar üsyankar düşüncə heyranlığını bu şəkildə bildirir, ona görə ki, valideynlərinə asi olurdular, qocaların hər zaman səhv etdiklərini düşünürdülər. Gənc yazarın əsəri əsil realist təsvirdir: "Sevgi və dostluq"da gənc oğlan var gücü ilə hayqırırdı ki, heç kəs məni atama qarşı çıxmaqda günahlandıra bilməz"[4;369]. Qəhrəmanın daxili hayqırtısı G.K.Çestertonun da qeyd etdiyi üsyan idi. Görünür gənc C.Ostin romantizm öncəsinin gətirdiyi duyğusal, hissiyyatlı bədii aləmi özünəməxsus şəkildə tənqid edir və "Sevgi və dostluq" ("Love and Freindship") əsərinin qəhrəmanının diliylə fikirlərini irəli sürürdü.

G.K.Çestertonun yanaşması maraq doğurmaya bilməz və gerçəkdən C.Ostin ingilis nəsrinə yeni bədii üslub gətirdi. Məhz bu üslub sonralar C.Ostinin psixoloji romanlarının yaranmasına təkan verdi.

C.Ostinin romanlarının tədqiqatçısı Yuliya Timoşenko yazıçı haqqında yazırdı ki, C.Ostinin yazıçı kimi fomalaşmasına S.Riçardson təsir göstərmişdir: "S.Riçardsonun romanı C.Ostin romanlarının daimi fonudur, ayrı epizodlar, ifadələr, qəhrəmanın sirli romantik qəhrəman haqqında düşüncələri də bunu təsdiqləyir"[5;12].

"Sevgi və dostluq"(" Love and Freindship") əsərini təhlilə çəkən tədqiqatçı qeyd edir ki, əsər epik və dramatikliyin qarışıqlığına yönəlib və C.Riçardsonla dialoq eyni zamanda həm sentimental romanı davam edir, həm də ənənəyə meydan oxuyur. Müxtəlif formaları maraqlı təhkiyə ilə hörən müəllif məktubu mətnin təşkilində xarici forma, dramı isə hekayədəki hadisələrin daxili strukturu kimi qura bilir. Y.Timoşenkonun gəldi qənaəti nəzərə alaraq yazıçının yaradıcılığının təşəkkül mərhələsini xarakterizə edən bu üslubu onun "İngiltərənin tarixi" ("The History of England"), "Ser Çarlz Qrandison" ("Sir Charles Grandison"), "Ledi Syuzan" ("Lady Susan")əsərlərində də görməmək mümkündür.

"Sevgi və dostluq" əsəri iki personajın bir-birinə yazdığı on beş məktubdan ibarətdir. Bu məktublar elə şəkildə yazılıb ki, oxucu süjet xəttini izləməklə yanaşı yazıçının ingilis ədəbiyyatına gətirdiyi yeniliyi sezə bilir.

Epistolyar janr ingilis ədəbiyyatına fransız maarifçiliyindən keçmiş və görünür bu üzdən C.Ostinin erkən yaradıcılığına J.-J.Russo və Ş.Monteksyö üslubu da təsir göstərmişdir. Məlumdur ki, J.-J.Russonun "Yeni Eloiza" əsəri epistolyar roman janrında

yazılan iki yüzə yaxın məktubdan ibarətdir və öz dövründə ən çox oxunan əsərlər sırasında yer alıb.

Elə bu üzdən maarifçiliyin son mərhələsində yaranan sentimentalizmin və ya romantizm öncəsinin özünəməxsus bədii paradiqması olan epistolyar romanın bütün xüsusiyyətlərini C.Ostinin erkən yaradıcılığında izləmək mümkündür. İngilis ədəbiyyatı tarixindən məlumdur ki, yazıçı gənc yaşlarından yazmağa başlamış və ilk yazıları sadəcə ailə daxili oxu üçün nəzərdə tutulmuşdur. Yazıçının sağlığında bu yazılar çap edilməsə də, uzun illər sonra onun nəsil davamçıları tərəfindən ictimaiyyətə açıqlanmışdır. Müəllifin "Birinci tom", "İkinci tom" və "Üçüncü tom" başlıqlı əlyazması onun erkən yaradıcılığına aid edilir. Janrlarına görə onların müxtəlif təsnifatını aparmaq olar. Bu sıraya şeirlər, qısa hekayələr, epistolyar romanlar, esselər və tarixi oçerk aiddir. Bu sıralamanı yalnız bir vacib məqam birləşdirir ki, o da hər birinin C.Ostin dövrünün dəyərlər sisteminin komik, ironik tonda, burlesk şəklində yazılmasıdır. Yazıçının yaradıcılığını öyrənən tənqidçi L.Sidorçenko məhz bu məqamı vurğulayaraq yazır: "onun yaradıcılığı ingilis ədəbiyyatında romantik istiqamətin yaranması və inkişafı dövrünə təsadüf edir, lakin o, Maarifçiliyin realist roman ənənəsini yenidən işləyib, yeni şəklə salmaqdan çəkinmədi"[3;216].

"Sevgi və dostluq" əsərinin səhifələrindən aydın olur ki, yazıçı inanılmaz dərəcədə diqqətli oxucu olmuş, dövrünün əsərlərində istifadə edilən bədii vasitələrin, bədii priyomlarının mahiyyətini tuta bilmişdir. C.Ostinin erkən yaradıcılığı dövrünə təsadüf edən digər yazıçılar əgər sentimentalizmin hiss və həyəcanlarına aludə olub bu istiqamətdə yazırdısa, gənc yazar inanılmaz dərəcədə mövcud klişelərə gülür, bəzən də onları ələ salırdı. "Sevgi və dostluq" əsəri də sentimental hissiyyata, duyğusallığa parodiya və ironiya üzərində yazılmış, satirik ton isə əsərin hər səhifəsində özünü büruzə verir. Maraqlıdır ki, qələm təcrübəsi az olan və demək olar ki, dövrü mətbuatda tanınmayan gənc yazarın tənqidi yanaşmasında ayıqlıq və cəsarət özünü gizlətmir. Yeniyetməyə xas olmayan zehni yetkinlik və tənqidi qavrayışın möhkəmliyi də sezilir. İllər sonra Virciniya Vulf onun haqqında yazacaq: "Canlı, məzəli, absurd dərəcədə rahat alınmış əsərdir "Sevgi və dostluq", amma onda daima digər səslərlə uyuşmayan aydın və dəqiq bir səs eşidilir. Bu istehzanın səsidir. On beş yaşlı qız öz görmə bucağından bütün dünyaya gülür"[1].

V.Vulfun da qeyd etdiyi "digər səslərlə uyuşmayan aydın və dəqiq səs" C.Ostinin bütün yaradıcılığında özünü göstərir və şübhəsiz bu sıraya "Sevgi və dostluq" əsəri də aiddir. Qısa epistolyar janrda yazılmış əsərdə Maarifçiliyin populyar janrının tənəzzülünü görməmək mümkün deyil.

Məktub şəklində yazılan "Sevgi və dostluq" əsəri yazıçının "Ağıl və ehtiras" romanının süjeti əsasında yenidən işlənir, lakin janr forması dəyişir. "Ledi Syuzan" romanında seçdiyi epistolyar forma isə dəyişməz olaraq qalır. Maraqlıdır ki, məhz bu roman ziddiyyətli rəylər almış, onu həm tənqid edənlər, həm də bəyənənlər olmuşdur. Lakin "Sevgi və dostluq" əsəri bu taleyi yaşamamış, elmi, ədəbi-bədii ictimaiyyət onunla tanışlığının ilk günlərindən maraqlı mülahizələr irəli sürmüş, yazıçının ilk qə-

ləm təcrübəsinin sonrakı yaradıcılığına təsirini sezmişlər. İngilis nəsrindən mühazirələr oxuyan rus əsilli amerikan yazıçısı Vladimir Nabokov həmyerlisi və dostu ədəbi tənqidçisi , yazıçı və jurnalist Edmund Uilsondan daha çox kimin yaradıcılığına müraciət etməsiylə bağlı məsləhət istəyəndə ikinci məhz Ceyn Ostinə müraciət etməyi və xüsusilə onun erkən yaradıcılığına diqqətli olmağı tövsiyə edir: "İngilis romançılarına gəldikdə, mənim fikrimcə Dikkens və Ostin ən yaxşılarıdır. Ceyn Ostini bütünlükdə oxumaq lazımdır, hətta yarımçıq romanları belə mükəmməldir". Tərəddüd edən, lakin sonralar yazıçının yaradıcılığına dair xüsusi mühazirə mətni hazırlayan Vladimir Nabokov Ceyn Ostin haqda yazırdı ki, "onda qadın əl işləri və uşaq məzəsi olsa da, bu səbətdəki əl işləri ecazkardır, uşaqda isə inanılmaz dahilik var"[2].

İngilis yazıçısı Gilbert Kit Çesterton isə "Sevgi və dostluq" əsərinin indiyə qədər nəşr edilməməsindən doğan təəccübünü gizlətmir, "əlimdə imkanım olsaydı özümün ev albomuna "Sevgi və dostluq"u hissə-hissə yığardım. Onu oxuyarkən Pikoka və Maks Birbomla bağlı burlesklərə dəfələrlə gülmək olar"[4;368]. Yazıçının əsərində sezilən gülüşü müəyyən edən G.K.Çesterton şübhəsiz onun kimə və nəyə ünvanlandığını bilməmiş deyildi. Bu obrazlar məhz romantizm öncəsinin sentimental duyğusallığını özündə daşıyır. G.K.Çestertonun da nəzərindən qaçırmadığı bədii üslub əsərin vacib elementi və yazıçının yaradıcı münasibətlərinin formalaşmasında müstəsna rol oynamışdır. Digər tərəfdən G.K.Çesterton yazırdı ki, "Ceyn Ostinin bütün erkən əsərləri psixoloji sirlə bərabər sözün həqiqi mənasında canlı psixoloji maraq doğurur... iti təxəyyül görünür... gəncik təcrübələrində həyata tənqidi nəzərlər zamanla mükəmməlləşir"[4;268]. Görünür elə bu şəkildə təsvir yazıçının ironik üslubunun formalaşmasına yardım edir və gələcək üslubunun təməlini qoyur.

C.Ostinin gənclik illərinə təsadüf edən bu əsərdə yazıçı Maarifçilik ədəbiyyatının janrları ilə polemikaya girir, kütləvi ədəbi ştamplara gülür. Bu üzdən "Sevgi və dostuq" əsərini ədəbi polemika kimi nəzərdən keçirilməli, realist prinsiplərin bərqərar olması yolunda ilk addım kimi dəyərləndirilməlidir.

İngilis ədəbiyyatı tarixindən məlumdur ki, epistolyar roman XVIII əsrin sonları müxtəlif şəkil dəyişikliyinə məruz qalır. C.Ostinin də adı çəkilən əsərində Maarifçiliyin epistolyar janrındakı sentimental ruhsallığı ironiya və gülüş obyektinə çevrilir, gözə dəyəcək dərəcədə bədii forma-məzmun dəyişikliyinə məruz qalır. Əsərin baş qəhrəmanı Laura özünün həyat hekayəsini danışır və məktub şəklində yazılan tarixçədə eyni zamanda digər qəhrəmanlardan söz açır, onların hekayəsini öz hekayəsi fonunda nəql edir.

XVIII əsrin sentimental qadın qəhrəmanları incə qəlbli, həssas, qayğıkeş, ehtiyatlı, yeri gələndə dözümlü, ağıllı və zərif olurdu. Bu vacib keyfiyyətlər sentimentalizmin janr qanunlarına uyğun idi və Ceyn Ostin bu üzdən "Sevgi və dostluq" əsərinin qəhrəmanı Lauranı elə belə də təsvir edir. Lakin Lauranın və onun nəql etdiyi hadisələrin təsvirində müəllif tərəfindən ənənəvi təhkiyənin pozulmasının şahidi oluruq.

Yazıçı sentimentalizmin idilliyasını pozur və təhkiyəyə istehza və gülüş elementləri qatır. XVIII əsrin qadın qəhrəmanlarına vacib olan, cəmiyyət tərəfindən müsbət qar-

şılanan evlilik atributunu da əsərinə gətirir. Məlumdur ki, xoşbəxt ailə motivi ismətli və dəyərli qızların mükafatı kimi Maarifçilik ədəbiyyatında mövcud idi və Ceyn Ostin də bu yolla sentimental ailə idilliyasını qabartmağa çalışır, lakin ənənəvi didaktik təhkiyədən imtina edir və bu səbəbdən yazıçı "yaxşıların" mükafatlandırılması motivini parodiyaya çevirir. Əsərin sonunda Lauranın tənha qalması, ata və anasını itirməsi, yaxın rəfiqəsinin ölümü Maarifçilik ədəbiyyatında mövcud olan qəhrəmanların mənəvi qələbəsinə ironik eyham kimi baxılmalı və dəyərləndirilməlidir.

Əsərdəki hadisələr inanılmaz tezliklə bir-birini əvəz edir. Əsərin qəhrəmanları iki rəfiqə və onların "şişirdilmiş" sentimental sevgililəridir. Ceyn Ostin bilərəkdən hadisələri şişirdir. Qəhrəmanların anidən bir-birlərini sevməsi, gözlənilməz evlilik təklifi, valideynlərin anındaca razılılığı kimi müəllif yanaşması Maarifçilik dövrünün dəbdə olan mövzularıyla polemikaya çevrilir: "İndi isə mənim sevimli Lauram (əlimi əlində saxlayaraq), mənə de görüm, mənim bu qədər əzab-əziyyətlərimin mükafat kimi sənninlə evlənə bilərəm? Mənə de görüm sənlə mükafatlanacam?" "Elə bu dəqiqə, əziz və sevimli Edvard (mən cavab verdim)". Atam keşiş olmasa da ruhani təhsili almışdı və biz tezliklə onun xeyir-duası ilə nişanlandıq"[6]. Göründüyü kimi gənc Ceyin Ostin dövrünün ədəbi nümunələrinə parodiya edir, eyhamlı yazı manerası ilə yazır, insan xarakterində mövcud olan nüansları dilə gətirir.

Ceyin Ostin həyatın mənəvi tərəfinə daha çox üstünlük verir, ənənəvi nəsrdən fərqli olaraq həyat həqiqətlərindən nəticə çıxaran obraz yaradır. Amma eyni zamandada epistolayar nəsrdən gələn personajların mənəvi üstünlüyü məsələsi Ceyn Ostinin əsərində xarakterlərin parodiyalı oyununa çevrilir. Əgər J.-J.Russo və ya Ş.Monteskyö, S.Riçardson və ya T.Smolett öz əsərlərində həddindən artıq ciddidirlərsə, C.Ostin əksinə ciddi məsələləri gülüşə çevirir, bilərəkdən ənənəvi epistolyar nəsrinin janr kanonlarını dağıdır. Elə bu üzdən XVIII əsrin epistolyar süjet xətti C.Ostin tərəfindən ironik şəkildə yenilənir. Maarifçilik ədəbiyyatındakı rasionalizm və didaktik başlanğıc C.Ostinin əsərində lirik təsəvvürlərlə bəzədilmiş inanılmaz rahatlıqla əvəzlənir.

Digər tərəfdən məhz C.Ostinin yaradıcılığında ilk dəfə epistolyar nəsr həcm etibarilə kiçilir. "Sevgi və dostluq" əsərinin həcmi çox da böyük olmayan on beş məktubdan ibarətdir. Birinci və ikinci məktub isə beş və altı cümləyə sığır. İlk sətirlərdən məlum olur ki, İzabella adlı qadın rəfiqəsi Lauradan qızı Mariannaya onun həyat hekayəsini danışmağı xahiş edir və bu şəkildə başlayan əsər sonuncuya ünvanlanan məktublarda davam edir: "Məni inadkarlıqda və tərs olmaqda günahlandırmamaq üçün Sizin qızın istəklərini cavablandıracam. Qoy mənim başıma gələn çoxsaylı müsibətlər və bədbəxtliklər onun nə vaxtsa qarşılaşa biləcəyi çətinliklərə yardım olsun. Laura."[6]. Bir məktubun həcmcə bu qədər az olması onu göstərir ki, məhz C.Ostin epistolyar nəsrdə ilk dəfə yalnız əsas və vacib məqamları qeyd edir, başqa sözlə, süjetin təhkiyə tipini dəyişir, onu daha lakonik şəklə salır.

Yazıçı məktubları çoxaltmamaqla, dialoqa girməməklə, ünvanlandığı məktubun cavabını gözləməməklə ənənəvi epistolyar janra yeniliklər gətirmişdir. Məktublar yalnız və yalnız bir şəxsin dilindən nəql edilir, süjetin müxtəlif qəhrəmanlarının "səslə-

ri" yalnız birinci şəxsin diliylə çatdırılır: "Bir dəfə, dekabr gecələrinin birində atam, anam və mən sobanın yanında oturmuşduq və bizim təəccübümüzə səbəb olacaq hadisə baş verdi və bizim kənd evinin qapısının bərk döyüldüyünü eşitdik. Atam sanki diksindi. "Bu nə səs-küydür?"(o, soruşdu). "Deyəsən kimsə bizim qapını döyür"(anam cavab verdi). "Doğrudan?"(mən qışqırdım). "Mən də belə düşünürəm(atam dedi), şübhəsiz səs-küy bizim qapını bərk döyməkdən yaranıb". "Bəli(mən həyəcanla dilləndim), mənə elə gəlir ki, kimsə daldalanmaq üçün qapını döyür". "Bu başqa məsələ(o, etiraz etdi). Biz elə etməliyik ki, guya bilmirik qapı nədən döyülür"[6].

C.Ostinin yaradıcılıq manerası göründüyü kimi Maarifçiliyin bədii idealları üzərində formalaşıb, lakin eyni zamanda da qeyd etmək lazımdır ki, yazıçı ənənəvi nəsrin statik xarakterini duya bilmiş və ingilis ədəbiyyatına yeni üslubi-tematik yazı manerasını gətirmişdir. T.Smolett, S.Riçardson, J.-J. Russo yaradıcılığında qəhrəmanların hiss və əhval-ruhiyyəsinə diqqətli yanaşması yazıçını özünə çəksə də, yazıçı personajların ideallaşdırılmasına tənqidi yanaşırdı. Məhz bu üzdən "Sevgi və dostluq" əsərinin qəhrəmanlarının davranışları müəllif tərəfindən yumor hissiylə təsvir edilir, yeri gələndə isə gülüş hədəfinə çevrilirdi: "Mən ömrümdə Edvard və Oqastesin görüşü qədər təsirli səhnənin şahidi olmamışdım. "Həyatım mənim! Ürəyim mənim!(birinci həyəcanla səsləndi). "Mənim sevimli mələyim"(ikinci cavab verdi). Onlar bir-birini bərk-bərk qucaqladı. Bu səhnə mənə və Sofiyaya inanılmaz təsir etdi. Biri-birimizin ardınca divana sərələnib ürəyimiz getdi"[6].

Yuxarıda qeyd edilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, "Sevgi və dostluq" əsəri C.Ostin yaradıcılığının mühüm mərhələsini təşkil edir və yazıçının sonrakı yaradıcılığında müstəsna rol oynayıb. Bu əsərdən başlayan yeni üslubi-tematik problem C.Ostinin dünyaca məşhur "Qürür və qərəz", "Mensfild park", "Nortenger abbatlığı" romanlarında ironik tonda davam edir.

Ədəbiyyat:

1.Вулф В. Джейн Остен http://apropospage.ru/person/vulf/v8.html
2.Владимир Набоков о Джейн Остен http://apropospage.ru/-osten/ost14.html
3.История западноевропейской литературы. XIX век: Англия: Учебное пособие / сост. Л. В. Сидорченко, И. И. Бурова, А. А. Аствацатуров и др. СПб: СпбГУ, 2004. 390с.
4.Писатели Англии о литературе XIX-XX вв.: Сб. статей / Сост. К.Н. Атарова. М.: Прогресс, 1981. 410с.
5.ТимошенкоЮ. Литературный диалог Джейн Остен с Сэмюэлем Ричардсоном. Автореферат диссертации канд. филол. наук. Самара, 2013,19с.
6.Austen J. Love and Freindship. https://pemberley.com/janeinfo/-lovfrend.html
7.Lascelles M. Jane Austen and Her Art. Oxford: Oxford University Press, 1966, 120p.

8.Litz A. Walton . Jane Austen: A Study of Her Development. New York: Oxford University Press, 1965, 156p.
9.Miller, D.A. Jane Austen, or The Secret of Style. Princeton: Princeton University Press, 2003, 189p.

А.Севиндж

Произведение «Любовь и дружба» как важный
этап творчества Джейн Остин

Резюме

Творчество английской писательницы Джейн Остин, сформировавшееся под влиянием литературы эпохи Просвещения, отличалось от творчества ее современников. Джейн Остин обработала свойственный Просвещению эпистолярный жанр, отдалила его от серьезности и дидактики. Именно в творчестве писательницы эпистолярный жанр впервые стал склонен к комизму и иронии. Указанная проблема впервые была поставлена в произведении «Любовь и дружба», выполняющем роль маяка в дальнейшем творчестве писательницы. Анализ данного произведения дает основание говорить о том, что ирония и сарказм как художественные приемы выражения смеха, впервые использованные в «Любви и дружбе», и в дальнейших романах Джейн Остин, таких как «Гордость и предубеждение», «Мэнсфилд-парк», «Нортенгерское аббатство» определили ее творческое кредо.

Юношеское произведение Джейн Остин «Любовь и дружба» состоит из пятнадцати писем, написанных двумя персонажами. Письма имеют такую форму, что читатель, наряду с пониманием сюжетной линии, также чувствует новизну, привнесенную писательницей в английскую литературу. В произведении писательница полемизирует с жанрами литературы эпохи Просвещения, высмеивает клише в литературе. Именно поэтому произведение «Любовь и дружба» следует рассматривать сквозь призму литературной полемики, оценивать, как первый шаг в утверждении реалистических принципов. Автор статьи делает вывод, что творческая манера Дж. Остин сформировалась на художественных идеалах Просвещения. Автор также отмечает, что привнесенная писательницей новизна в эпистолярный жанр объясняется пониманием статического характера традиционной литературы. Данная новизна стала новым стилем письма в английской литературе. Таким образом, в творчестве писательницы серьезный эпистолярный жанр превратился в комизм и иронию. Принимая во внимание вышесказанное, автор приходит к такому выводу, что произведение «Любовь и дружба» следует оценивать в качестве решающего этапа в творчестве Джейн Остин.

Ключевые слова: Джейн О́стин, “Любовь и дружба” стиль, сентиментализм

A.Sevinc

The Work "Love and Friendship"
as an Important Stage of Jane Austen's Creativity

Summary

The creativity of the English writer Jane Austen, which was formed under the influence of literature of the Enlightenment, was different from the creativity of her contemporaries. Jane Austen worked on the epistolary genre characteristic of the Enlightenment, estranged it from seriousness and didactics. First in the writer's creativity the epistolary genre became inclined to comic and irony. This problem was first posed in the work "Love and Friendship", which acts as a beacon in the future creativity of the writer. An analysis of this work gives reason to say that irony and sarcasm as artistic devices for expressing laughter, first used in "Love and Friendship", and in subsequent Jane Austen's novels such as "Pride and Prejudice", "Mansfield Park", "Northanger Abbey" defined her creative credo.

Jane Austen's youthful work "Love and Friendship" consists of fifteen letters written by two characters. The letters are in such a form that the reader, along with an understanding of the storyline, also feels the novelty introduced by the writer in English literature. In the work, the writer polemicizes with the genres of literature of the Enlightenment, ridicules the cliché in literature. That is why the work "Love and Friendship" should be considered through the prism of literary polemics, evaluated as the first step in the establishment of realistic principles. The author of the article concludes that the creative style of J. Austin was formed on the basis of artistic ideals of the Enlightenment. The author also notes that the novelty used by the writer in the epistolary genre is explained by an understanding of the static nature of traditional literature. This novelty became a new style of writing in English literature. Thus, in the writer's work, a serious epistolary genre turned into comic and irony. Taking into account the abovementioned, the author concludes that the work "Love and Friendship" should be evaluated as a decisive stage in the work of Jane Austen.

Key words: Jane Austen, "Love and Freindship" style, sentimentalism

Məqalənin redaksiyaya daxil olma tarixi:25.11.2019
Çapa hazırlnma tarixi:23.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent tərəfindən çapa tövsiyə olunmuşdur

AYNUR MƏMMƏDOVA
Azərbaycan Dillər Universitetini
Rəşid Behbudov küç61
aynur252@mail.ru

XX ƏSRİN 20-30-CU İLLƏRİ AZƏRBAYCAN ƏDƏBİ TƏNQİDİNDƏ ANADİLLİ KLASSİK İRSƏ YANAŞMALARIN ƏSAS İSTİQAMƏTLƏRİ

Xülasə

20-30-cu illər tənqidinin klassik irslə bağlı araşdırma və axtarışları olduqca məhsuldar idi. Bu axtarışlarda 20-30-cu illər ziyalılarının əzmkarlığı, vətəndaş mövqeyi ciddi əhəmiyyət kəsb edirdi. Lakin tərəddüdsüz şəkildə belə bir cəhəti xüsusi vurğulamaq lazım gəlir ki, klassik irsə dair axtarış və araşdırmaların çox ciddi nəticələr verməsində dövlət dəstəyi də mühüm rol oynamışdı. Klassik irsin üzə çıxarılması və tədqiqi istiqamətində bütöv bir hərəkat başlamışdı.

Məqalədə S. Mümtaz, Ə. Abid, B. Çobanzadə və A. Şaiqin məqalələri əsas təhlil predmeti olur. Həmin məqalələrdə orta əsrlər ədəbiyyatımızın Həsənoğlu, Ənbəroğlu, Həbibi, Ş. İ. Xətai, M. Füzuli, M. P. Vaqif kimi sənətkarlarının yaradıcılığına elmi-tənqidi nüfuzun istiqamətləri ümumiləşdirilir. 20-30-cu illər tənqidində sənətkarın həyat və yaradıcılıq faktlarının aşkarlanması ilə bərabər, onların əsərlərinin ideya-estetik istiqamətləri haqqında irəli sürülən fikirlər müasir ədəbiyyatşünaslıq prizmasından dəyərləndirilir.

20-30-cu illər tənqidinin ədəbiyyat tariximizi faktoloji baxımdan zənginləşdirməsi əsas istiqamətlərdən birini təşkil edir. Orta əsrlərdə yazıb yaradan anadilli sənətkarların bir çoxu haqqında bu illərin araşdırmalarında məlumat verilir.

Anadilli klassik irsin tədqiqinin digər bir istiqaməti isə adları ədəbiyyat tarixində bəlli olan sənətkarların həyat və yaradıcılığı ilə bağlı daha əhatəli tədqiqatların aparılmasıdır.

İkinci istiqamət kimi isə, anadilli sənətkarların yaradıcılığının ideya-estetik xüsusiyyətləri ilə bağlı tədqiqatlar önə çıxır. Xüsusən anadilli klassik irsdə sufizmin və hürufizmin yeri, təriqət ideyalarının sənətkarların yaradıcılığında fərqli keyfiyyətlərlə meydana çıxması məsələsinə aydınlıq gətirilmişdir.

Açar sözlər: tənqid, klassik irs, məqalə, tədqiqat, tərcümeyi-hal, yaradıcılıq.

Bir sıra hallarda sapmalara, yanlış mövqelərin ortaya çıxmasına baxmayaraq 20-30-cu illər tənqidinin klassik irslə bağlı araşdırma və axtarışları olduqca məhsuldar idi. Bu axtarışlarda 20-30-cu illər ziyalılarının əzmkarlığı, vətəndaş mövqeyi ciddi əhəmiyyət kəsb edirdi. Lakin tərəddüdsüz şəkildə belə bir cəhəti xüsusi vurğulamaq lazım gəlir ki, klassik irsə dair axtarış və araşdırmaların çox ciddi nəticələr ver-

məsində dövlət dəstəyi də mühüm rol oynamışdı. Klassik irsin üzə çıxarılması və tədqiqi istiqamətində bütöv bir hərəkat başlamışdı. Ədalət naminə, bu hərəkata əsas dəstəyi dövlət özü verirdi. Uzağa getməyib, S.Mümtazın klassik irsin üzə çıxarılması istiqamətində gördüyü böyük işləri nəzərə gətirsək və bu işin öz miqyası etibarilə F.Köçərlinin gördüyü işlərdən də qabağa getdiyini nəzərə alsaq, eyni zamanda, onu da düşünsək ki, F.Köçərlidən fərqli olaraq S.Mümtaz bu işi həm də dövlətdən dəstək alaraq görmüşdür, onda ümumi mənzərəni təsəvvür etmək olar. 1923-cü ildə "Nəsimi" adlı məqaləsinin başlanğıcında S.Mümtaz geniş oxucu kütləsini və ziyalıları "ona görə təbrik edir ki, artıq nəşrni çoxdan gözlədikləri" ədəbi məcmuə- "Maarif və mədəniyyət" nəşrə başlayır. S.Mümtaz böyük ümidlə bəyan edirdi ki, "daha bundan sonra mühərrir arkadaşlarımız istədikləri kimi Azərbaycan xalqının əski və yeni ədəbiyyatından ətraflı olaraq bəhs etməyə imkan bulacaqlar" (4, s.291).

Jurnal 20-30-cu illərdə adını tez-tez dəyişib, ədəbiyyat üzərində ideoloji təsirlərini artırsa da, S.Mümtazın ümidlərini doğrutdu. Müxtəlif vaxtlarda "maarif-mədəniyyət", "İnqilab və mədəniyyət, "Revolyusiya və kultura" adı ilə çıxan jurnalda klassik irslə bağlı tədqiqatlara ardıcıl olaraq yer verilirdi və heç şübhəsiz ki, Azərbaycanlı tədqiqatçılar bu yaranmış imkandan ruhlanıb klassik irslə bağlı araşdırmalarını intensivləşdirirdilər. A.Musaxanlının, B.Çobanzadənin, Ə.Abidin, H.Zeynallının, S.Mümtazın və b. jurnaldakı ardıcıl çıxışları bunu aydın sübut edir.

S.Mümtazın birbaşa dövlət dəstəyi hesabına "Azərbaycan ədəbiyyatı" seriyasından onlarla klassik sənətkarın əsərlərini həyat və sənət yolundan bəhs edən geniş müqəddimə ilə silsilə kitablar şəklində buraxması, həmçinin "Azərnəşr"də "Klassik irs" şöbəsinin müdiri işləyərkən klassik irsin təbliği, nəşri və tədqiqi istiqamətində gördüyü işlər bu dediklərimizə şübhə yeri qoymur.

20-30-cu illərdə dövlət dəstəyi ilə çap olunan çoxsaylı jurnal, qəzet və məcmuələr klassik irsin nəşri və tədqiqini keyfiyyət müstəvisinə çıxarmağa imkan verirdi. Bu illərdə klassik irsə münasibətdə tənqid və ədəbiyyatşünaslıq iki əsas istiqamətdə fəaliyyət göstərirdi. Birinci halda klassik ədəbiyyatımızın hər hansı bir nümayəndəsi haqqında təzkirələrdən, cünglərdən, əlyazma kitablarından əldə edilən məlumatlar onu geniş oxucu kütləsinə tanıtmaq, ədəbiyyat tariximizdə ona səhifə ayırmaq məqsədi daşıyırdısa, ikinci halda, artıq F.Köçərlidən başlayaraq ədəbiyyat tariximizə düşən sənətkarın həyat və yaradıcılıq yolu haqqında daha müfəssəl məlumat verən, əhatəli tədqiqat aparan yazılar meydana çıxır. Bu zaman sənətkarın həyat yolu haqqında müxtəlif mənbələrdən alınan məlumatlar daha səylə tutuşdurulur, dəqiqləşdirmələr aparılır, nəticə olaraq isə onun həyatı haqqında bitkin sayıla biləcək məlumatlar təqdim olunur. Sənətkarın yaradıcılıq yolunun araşdırılması zamanı isə onun mənsub olduğu ədəbi cərəyan, yaradıcılığının ideya-estetik keyfiyyətlərinin üzə çıxarılmasına xüsusi diqqət yetirilir. Şərti olaraq birincini üfüqi istiqamət, ikincini isə şaquli istiqamətdə aparılan tədqiqatlar hesab etmək olar. Fikrimizin təsdiqi mənasında deyək ki, məsələn, S.Mümtaz ədəbiyyat tariximizin müxtəlif dövrlərini öz içinə almaqla hər iki istiqamətdə fəaliyyət göstərirdi. Onun "Ənbəroğlu", "Nitqi Şirvani", "Nəşə", "Səfi",

"Şahi" məqalələrində müxtəlif tarixi dövrlərdə yaşamış sənətkarlar haqqında ədəbi ictimaiyyətə ilk dəfə məlumat verilirdi. Bu mənada "Ənbəroğlu" məqaləsində adı çəkilən sənətkarın yaradıcılığı xüsusi maraq doğururdu. Çünki S.Mümtazın təqdim etdiyi şair Həsənoğlu ilə təxminən eyni zamanda yaşamış, ondan da bizə Həsənoğlunun "Apardı könlümü..." qəzəli tipində bir qəzəl qalmışdır. S.Mümtaz Ənbəroğlunu "hicri VIII əsrin ilk yarısında Şirvanlı Molla Qasım, Əsfərayinli Həsənoğlu və digər Azərbaycan şairləri ilə müasir və yaxud bir az sonra yaşamış mühüm bir sima" kimi təqdim edir. Tədqiqatçı Ənbəroğlunun Şəki məscidindən tapılmış aşağıdakı mətləli qəzəlini eynən təqdim edir:

Apardı əqlimi məndən bu gün bir sərvi-siminbər,
Saçı sünbül, bəni filfil, yanağı gül, boyu ərər.

S.Mümtaz yazır: "Ənbəroğlu qəzəlinin mətləi Həsənoğlu qəzəlindəki mətlələrin eynidir. Hankısı hankısına nəzirə olaraq söylənildiyini qəti surətdə göstərmək hələlik çətindir... Əruz ilə yazılan bu qəzəllərin bəhrləri bir olduğu kimi, qafiyələri də bir vəzndədir. Yalnız səbkləri ilə mövzularında bir fərq və bir ayrılıq vardır.

Ənbəroğlu da, Həsənoğlu kimi, həm sufi, həm də şiədir" (4, s.365).

S.Mümtazın şair Ənbəroğlu və ümumiyyətlə, ədəbiyyat tarixi istiqamətindəki axtarışlarını düzgün dəyərləndirən prof. N.Şəmsizadə yazır: "S.Mümtazın klassiklərimizə, klassik janrlara münasibəti aydın və perspektivli idi. Başlıcası isə, o zaman güclü olan proletkultçu təsirlərə qapılmır, əksinə, öz nadir tapıntıları ilə milli nihilistləri tərksilah etməyə nail olurdu" (5, s. 350). S.Mümtaz artıq ədəbiyyat tarixində adları məlum olan sənətkarların həyatı və yaradıcılığı ilə bağlı əhatəli yazıları ilə də klassik irsə xüsusi maraq yaradırdı. Bu mənada onun Nəsimi, Xətai, Həbibi, Ağa Məsih Şirvani, M.P.Vaqif, M.V.Vidadi, N.Şirvani və b. həsr olunmuş məqalələri, onların böyük əksəriyyətinə dair "Azərbaycan ədəbiyyatı" seriyasından nəşr etdirdiyi kitablar, bu kitablarda sənətkarların həyati və yaradıcılığına həsr olunmuş oçerklərlə bərabər, indiyə qədər məlum əsərləri ilə bərabər S.Mümtazın özünün əldə etdiyi şeirlər tədqiqatçının ədəbiyyat tarixi istiqamətində gördüyü miqyassız işlərdən xəbər verirdi. Heç şübhəsiz, S.Mümtazın aramsız fəaliyyəti 20-30-cu illərin ədəbi prosesində klassik irsə marağı artırmaqla bərabər, ona sağlam münasibət formalaşdırır, digər tədqiqatçıların da bu sahəyə diqqət yetirməsinə təsirsiz qalmırdı. S.Mümtazın araşdırmaları, misal üçün deyək ki, "Seyid İmadəddin Nəsimi" (4, s.303-304), "Sultanüş-şüəra Həbibi" (4, s.283-290), "Şah Xətai" (4, s.309-322), "M.P.Vaqif" (4, s.31-73), "Vidadinin bioqrafiyası" (4, s.419-424) və s. və i. çoxsaylı məqalələrində əsas məqsəd ilk mənbələr, arxiv materialları əsasında daha çox sənətkarların tərcümeyi-hallarının gizli qalan səhifələrini aydınlaşdırmağa, elmi tərcümeyi-hal istiqamətində əsaslı işlər görməyə xidmət edirdi. Sənətkarın tərcümeyi-halı ilə onun yaradıcılığı arasındakı sıx əlaqəni nəzərə alsaq, S.Mümtazın bu araşdırmalarının elmi əhəmiyyəti bir daha aydın olar. Bu mənada onun Vaqiflə bağlı məqalələrinə diqqət yetirmək kifayətdir.

Ə.Abid, A.Şaiq, B.Çobanzadə kimi tədqiqatçılar daha çox sənətkarların yaradıcılıq yolunu izləməyi əsas götürür, onların əsərlərinin ideya-estetik xüsusiyyətlərinə

aydınlıq gətirməyə çalışırdılar. Bu mənada Ə.Abidin "Şair Bürhanəddinin "tuyuq"ları" (1, s.61-65), "Həbibi" (1, s.251-260), "Füzulinin tədqiq olunmamış bir əsəri" (1, s.36-38), B.Çobanzadənin "Füzuli və onun yeri" (3), S.Mümtazın "Molla Pənah Vaqif", A.Şaiqin "Füzuli" (6, s.) , "Vaqif" (6, s.), "Vidadi" (6, s.) məqalələrini xüsusi qeyd etmək lazım gəlir. Əgər biz adı çəkilən məqalələr içərisində, məsələn, Ə.Abidin "Həbibi" , yaxud B.Çobanzadənin "Füzuli və onun yeri" məqalələrinə bir qədər təfərrüatlı diqqət yetirsək, 20-30-cu illərdə tənqidin klassik irsə münasibətindəki elmi ciddiliyi bütün tərəfləri ilə təsəvvür edə bilərik. Ə.Abidin məqaləsi üç hissədən ibarətdir: I.Həbibinin həyatı;II.Həbibi yaradıcılığında hürufilik prinsipləri; III.Həbibinin lirik şeirləri. Bu tədqiqatda diqqəti çəkən əsas məsələ sənətkarın yaradıcılığının qiymətləndirilməsi zamanı ümumi dəyərləndirməyə yox, sənətin öz təbiətindən birbaşa çıxış etməyə üstünlük verilməsidir. Ə.Abid Həbibinin "hürufilik əsaslarını açıq bir surətdə təşkil edən" şeirlərilə dünyəvi məzmunlu şeirlərini elmi əsasla fərqləndirə bilir. Hətta dünyəvi məzmunlu şeirlərində hürufiliyə çəkən meylləri də müşahidə edib ümumiləşdirməyi bacarır. Fikrimizcə, Ə.Abidin aşağıdakı qənaəti Həbibi şeirinin mahiyyətini düzgün dəyərləndirmək mənasında olduqca dəyərlidir. "Fəqət bunu da qeyd etmək lazımdır ki, Həbibinin əsərlərində hürufi məzhəbinin əsasları yüksək bir səviyyədə qüvvətli bədiiliyi ilə verilmişsə də, lakin xasiyyət etibari ilə Həbibidə Nəsiminin mübarizəçi hürufiliyi yoxdur" (1, s.257) Bu qənaətlər müasir ədəbiyyatşünaslığın ən son qənaətləri ilə üst-üstə düşür: "Həbibi lirik şairdir. Onun lirikasının mövzu xətləri qismən çeşidlidir. Həmin xətlərdən birini təriqət və dini mövzulu şeirlər təşkil edir. Ümumiyyətlə, müəllifin yaradıcılığında həm təriqət, həm də dünyəvi mövzulu əsərlərə rast gəlmək mümkündür. Bəzi poetik nümunələrin mətnində isə təsəvvüfi-fəlsəfi baxışlarla dünyəvi motiv sintez şəklindədir" (2, s. 409).

B.Çobanzadənin məqaləsində Füzuli irsi dünya şərqşünaslarının böyük sənətkara verdiyi yüksək dəyərlər kontekstində təfərrüatlı təhlildən keçirildikdən sonra, bu dəyərlərin onun yaradıcılığındakı təzahür xüsusiyyətləri araşdırılır. Bu araşdırmalarda Füzuli irsinin sufizmlə əlaqəsinin ən mürəkkəb təzahür xüsusiyyətləri, Füzulini sufizmə aparan ədəbi ənənələr, sufizmdən ayıran zamanın gerçəklikləri, şair və cəmiyyət, sənətkar və zaman problemləri elmi həllini tapır, "Füzulinin sənətkarlığını şərtləndirən amillər içərisində "səmimiyyət" xüsusi fərqləndirilir. Onun həyati mənbələri müəyyənləşdirilir və bu, səmimiyyət sufizmin sxolastikası konktekstində yüksək qiymətləndirilir.

"Füzuli və onun yeri" məqaləsində Füzuli dilinin özünəməxsusluğuna, bədii dil tariximizdəki spesifikliyinə dair araşdırmalar, həmçinin türk dilini bədii dil kimi təsdiq etmək üçün Füzulinin şüurlu fəaliyyəti ilə bağlı qənaətlər də yer alır . Eyni zamanda, Füzuli dilinin əsasında türkcənin Azərbaycan şivəsinin durmasına dair M.F.Köprülüzadədən başlanğıc götürən qənaətlər dilçilik istiqamətindəki araşdırmalar hesabına bir qədər də möhkəmləndirilir. B.Çobanzadənin Füzuli dili haqqındakı qənaəti belədir: "Burada izahı uzun sürən digər bəzi lisani əlamətlərə dayanaraq, bu

sətirləri yazan Füzuli lisanının qismi etibarilə Azərbaycan şivəsinə daha ziyadə yaxın bulunur" (3, s. 172).

S.Mümtazın "Molla Pənah Vaqif", "Rudəki və Molla Pənah Vaqif" (4, s.276-282) məqalələrində daha çox şairin tərcümeyi-halı ilə bağlı araşdırmalar yer alırsa da, bu yazılarda onun bədii irsi ilə bağlı kifayət qədər məsələlərə də aydınlıq gətirilir. Çünki Vaqifin "Tüfəng", "Kürk", "Bu yerdə", "Hayıf ki, yoxdur", "Bax" və "Görmədim" şeirləri bilavasitə onun tərcümeyi-halı ilə bağlıdır. S.Mümtaz şairin həyatında baş verən və onun yaradıcılığına, dünyagörüşünə təsir edən hadisələri demək olar ki, bütün təfərrüatı və dəqiqliyi ilə təsvir edir. Hətta müasir tədqiqatlarda belə İbrahim xanın Kür qırağı səyahətdən Qarabağa qayıtmasına təsir etmək üçün Vaqifin "Hayıf ki, yoxdur" qoşmasını yazmasını önə çəkirlər. Halbuki "Bu yerdə" qoşması da həmin münasibətlə yazılmışdır. Həm tərcümeyi-halının dəqiq ifadəsi, həm də yaradıcılıq yolunun aydın təsəvvür edilməsi üçün S.Mümtazın "Bu yerdə" qoşması ilə bağlı verdiyi məlumatlar çox əhəmiyyətlidir. Yaxud, deyək ki, bəzən tədqiqatlarda "Bax" qəzəli və "Görmədim" müxəmməsi Vaqif yaradıcılığının ümumi inkişafı ilə üst-üstə düşməyən faktlar kimi təqdim olunur. Halbuki S.Mümtazın ilk dəfə Vaqif-Qacar, Vaqif-Məhəmməd bəy Cavanşir, Vaqifin ailə həyatı ilə bağlı genişliyi ilə təqdim etdiyi faktlar "Bax" və "Görmədim" əsərlərinin yazılması səbəblərini dəqiq izah edir.

"Ədəbiyyatdan iş kitabı"nda A. Şaiqin qələminə məxsus "Vaqif" və "Vidadi" oçerklərində isə əsas ağırlıq hər iki sənətkarın həyata, dünyaya baxışları arasındakı fərqin , bu baxışların onların yaradıcılığındakı təcəssüm xüsusiyyətlərinin izahına həsr olunmuşdur. A.Şaiqin Vidadi şeirinin fəlsəfəsi və bu fəlsəfənin həyati əsaslarına dair müşahidələri bilavasitə onun yaradıcılıq labarotoriyasına nüfuzdan güc aldığı üçün müasirliyini indi də saxlayır: "Vidadi Vaqif kimi hər şeyə qarşı laqeyd olmamış. Ufaq hadisələr belə oun ruhunda çox acı və silinməz izlər buraxmış, mühitindəki qarışıqlıq, hərcu-mərclik, xüsusən gənc oğlunun əlində təsadüfən açılan tüfənglə ölməsi, cəmiyyətin ictimai və iqtisadi həyatındakı sönüklük və bir takım dini təsirlər Vidadini bədbin edən başlıca amillərdir. O, həyata küskün və mühitinə qarşı bədbindir. Bu bədbinlik Vidadidə acı bir düşüncə doğurduğu üçündür ki, o, həx daim bir filosof kibi həyatı və onun qayəsini düşünür və mühitindən aldığı acı təsirlərə kapılaraq "Reybiyyun" fəlsəfəsinə qədər yaxınlaşır və həyatın kuru bir səsdən ibarətdən olduğuna hökm edərək deyir" (6, s.). Bu tamamilə başqa bir məsələdir ki, A.Şaiq Vidadi şeirinin ümumi ruhunu düzgün şərh etdiyi halda bu "ruh"u qəbul etmir. Vidadinin həyat fəlsəfəsini "çox əski və çürük" hesab edir. Əlbəttə, A.Şaiqin son qənaətində zamanın ideoloji diktələrinin də rolunun olduğunu unutmamalıyıq. Bununla bərabər, Vidadinin həyata baxışının həyat həqiqətlərindən doğduğunu da etiraf etmək lazımdır.

ISTIFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Abid Ə. Seçılmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007.
2.Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XIII əsrlər). Bakı. Elm və təhsil, 2018.
3. Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə. III cild. Bakı, Şərq-Qərb, 2007.
4. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Avrasiya Press, 2006
5. Şəmsizadə. Seçilmiş əsərləri. 3 cilddə. I cild. Bakı: "Elm ", 2008.
6. Zeynallı H., Abdulla Şaiq, Musaxanlı, Əfəndizadə C. Ədəbiyyatdan iş kitabı. Bakı. Azərnəşr, 1928.

A.Mammedova

The main directions of the approaches to the native classical hierarchy in the 20th - 30th years of the 20th century in Azerbaijan literary criticism.

Summary:

The researches of 20-30th criticism related to classical heritage was to productive. The scientists of 20-30th years did their best in these researches. We should stress

without any hesitation that the government support related to researches about classical heritage was of great importance. It was started a big process in clarification and research of classical heritage.

In article, S. Mumtaz's, Abid's, B. Chobanzadeh's and A. Shaikhs articles are the main subjects of analysis. In these articles, it was generalized the directions of scientific-critical influence about Hasanoglu, Anbaroglu, Habibi, Shah Ismail Xatai, M.Fuzuli and M.P. Vagif's activities. In addition, to revealing the artist's life and creativity in the criticism of the 20-30s, his ideas about the ideological and aesthetic aspects of their works are valued by the view of contemporary literary criticism.

The criticism of the 20-30th years enriched the history of our literature. This is one of the main directions. İn these years researches, it was given an information about many native artists who lived in the middle century.

Another direction of our native classical heritage's study is doing comprehensive researches about the life and creativity of artists whose names are known in the history of literature.The second direction includes researches related to the ideological and aesthetic features of the creativity of native artists. Especially, it was clarified the role of Sufism and Hurufism in the native classical heritage and the emergence of sectarian ideas with different features in artist's creativity.

Ключевые слова: kputuka, классическая иерархия, статья, исследование, биография, деятельность

А.Мамиедова

Основные направления отечественной классической иерархии Подход в азербайджанской литературной критике 20 – 30 годов XX века.

Резюме:

В статье Мумтаз С. Статьи Абида, Б. Чобанзаде и А. Шейха являются основным предметом анализа. В этих статьях мы обнаружим, что Хасаноглу, Анбароглу, Хабиби, Ш. II. Обобщены направления научного и критического влияния на творчество таких художников, как Хатаи, М. Физули и П. П. Вагиф. В дополнение к раскрытию жизни и творчества художника в критике 20-30-х годов его идеи об идеологических и эстетических аспектах их работ ценятся в призме современной литературной критики.

Критика 20-30-х годов обогатила историю нашей литературы. Это одно из основных направлений. Была дана информация о многих родных художниках, которые жили в средние века исследованиями этих лет.

Еще одним направлением изучения классического наследия материнства является более детальное изучение жизни и творчества художников, имена которых известны в истории литературы. Второе направление - исследование идеологических и эстетических особенностей творчества отечественных художников. , В частности, роль суфизма и гуруфизма в классическом наследии материнства прояснилась с появлением сектантских идей с разными качествами в творчестве художников.

Key words: criticism, classical hierarchy, article, research, biography, activity.

.

Məqalənin redaksiyaya daxil olma tarixi:23.12.2019
Çapa hazırlnma tarixi:18.01.2020
filologiya elmləri doktoru, professor Yaqub Babayev
tərəfindən çapa tövsiyə olunmuşdur

UOT 82-3.512.162
SEVİL BAXŞƏLİYEVA
Bakı Slavyan Universiteti
S.Rüstəm 33
sevinc.n@mail.ru

QARABAĞ MÜHARİBƏSİ XATİRƏLƏRİN SİMVOLİK MƏKANI KİMİ (S.ƏHMƏDLİNİN "AXİRƏT SEVDASI" VƏ A.ABBASIN "DOLU" ROMANLARI ƏSASINDA)

Xülasə

Məqalə Sabir Əhmədlinin "Axirət sevdası" və Aqil Abbasın "Dolu" romanlarında təhkiyənin xatirə formasına həsr edilib. Məqalədə qeyd edilir ki, xatirə yaddaş formalarından biridir. Xatirə hər iki romanın poetikasında sujetyaradıcı struktur elementi kimi çıxış edir. Avtobioqrafizm hər iki əsərin mühüm kodudur. Xüsusən "Axirət sevdası" romanında müəllifin avtobioqrafik obrazı üstünlük təşkil edir. Xatirənin xarakteri romanı avtobioqrafik əsər kimi dəyərləndirməyə imkan verir. Atanın (müəllifin-təhkiyəçinin) oğlu Məhəmmədlə virtual, xəyali görüşləri, söhbətləri, təhtəlşüur dialoqları onun obrazını simvola, mifoloji obraza çevirir. Məhəmməd sujetdə iştirak etmir. Onun obrazı yalnız atanın xatirələri ilə təqdim olunur. Eyni zamanda əsərdə xatirələrin, "şüur axını"nın metafizik mövzu üzərində qurulması müşahidə olunur. Məhz əsərin sonu da bu metafizik sevinclə işığa inamla bitirTəhkiyəçinin və ya qəhrəmanın yaddaşı retrospektiv akta çevrilir. Retrospektiv akt təhkiyəçinin və qəhrəmanın psixoloji durumunu açıb göstərir. Təhkiyənin xatirə forması Aqil Abbasın düşüncə-söyləmə tipini və romanın poetikasını müəyyənləşdirən priyomdur. Keçmişə emosional ekskurs, nostalji duyğularla keçən günləri xatırlama romanın xronotop strukturunu təşkil edir. Aqil Abbasın "Dolu" romanında simvolik, poetik obrazlar üstünlük təşkil edir. Müəllifin-təhkiyəçinin xatirə yaddaşı dolu obrazı ilə başlayır. Dolu uşaqlıq dünyasının saf obrazı kimi təqdim olunur. Dolu ilə qrad güllələrinin bir semiotik-simvolik mənalar sırasında verilməsi təhkiyənin poetik gücünü artırır. Məhz simvolik obrazlar qəhrəmanın (Komandirin) davranışının motivasiyasını müəyyənləşdirir. Aqil Abbasda bədii təxəyyül və avtobioqrafik yaddaşın vəhdəti əsərin dilinin obrazlılığını təmin edir. Beləliklə, S.Əhmədlinin "Axirət sevdası" və Aqil Abbasın "Dolu" romanlarında təhkiyənin xatirə məkanı simvolik obrazlar və assosiativ detallar üzərində qurulmuşdur.

Açar sözlər: təhkiyə, roman, janr, xatirə, yazıçı, qəhrəman

Təhkiyə tipi bədii mətndə yazıçının sujeti realizə etmə üsuludur və təhkiyəçi "səsi"nin seçimindən asılı olur. Xatirə, "xatırlama" forması fərdi yaddaş formaların-

dan və təhkiyə tiplərindən biridir. Yaddaş mövzusu müasir roman poetikasında janr, təhkiyə-sujet forması, qəhrəmanın strukturu, ideya və s. səviyyəsində çıxış edir. Yaddaş kateqoriyası yalnız avtobioqrafik və ya memuar tipli əsərlərin deyil, həm də müharibəyə həsr olunmuş bir çox romanların sujetini təşkil edir. Etiraf etməliyik ki, bədii siqlətinə və epik miqyasına görə Qarabağ müharibəsi və "tarixə İkinci dünya müharibəsi kimi düşmüş bu müharibə ilə bağlı yazılan əsərlər və onların dəyərləndirilməsi arasında xeyli fərqlərin olduğu ortaya çıxmış oldu. Ona görə ki, müharibələr arasındakı fərqlər, onların araşdırılması və qiymətləndirilməsi fərqlərini də ortaya çıxarmışdır. Qarabağ müharibəsi bədii düşüncədə fərqli, yeni, milli cəhətləri ortaya çıxartdı. Ona görə ki, bu müharibə əvvəlkindən fərqli olaraq, öz torpağımızda getdiyi üçün əsərlərdə də torpaqlarımız uğrunda döyüşən, milli varlığını qoruyan insanların düşüncələri təsvir edilir və obrazları yaradılır" (11, 74-75). Müharibə mövzusu xalq yazıçısı Sabir Əhmədli üçün heç də "yad" mövzu deyildi: qardaşı Cəmil Əhmədov II Dünya savaşında qəhrəmancasına həlak olmuşdu, 19 yaşında ölümsüzlüyə qovuşmuş və göstərdiyi şücaətə, igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Onda savaş ümumi Vətən – SSRİ uğrunda, doğma yurddan uzaqlarda gedirdi. İndisə öz Vətəni erməni faşistləri tərəfindən işğala məruz qalmışdı. Ata yurdu Cəbrayıl düşmən tapdağı altında idi. Avtobioqrafizm S.Əhmədli yaradıcılığının ayrılmaz hissəsidir, S.Əhmədli təhkiyəsinin vacib diskursudu. Yazıçının yaradıcılıq laboratoriyasında "təmiz roman"dan avtobioqrafik romana keçid meylləri güclüdür. Belə ki, Amerika ədəbiyyatşünası Pol de Man avtobioqrafizmi ədəbi mətnin genetik xüsusiyyəti kimi deyil, mətni özünəməxsus anlama fiquru kimi qəbul edir. Bu baxımdan avtobioqrafiyanı mətn müəllifinin həyat yolunun yazıda təcəssümü kimi anlamaq olmaz, çünki "əsl" "mən"in dildə yaradılması mümkün deyil. P.de Manın poststruktralist yanaşmasından göründüyü kimi, faktlar və təxəyyül mətni oxumadan asılı olaraq ya doğru, avtobioqrafik, ya da fiksional məqamlar kimi qavranıla bilər. (10, 919-930) Yazıçı öz həyatını, öz keçmişini narrativləşdirməyə- söyləmə aktına çevirməyə çalışır. Onda. üçüncü şəxsin dilindən təhkiyəyə, bədii təxəyyülə sanki bir "etibarsızlıq" olur.

Qarabağ müharibəsi avtobioqrafik yazı forması kimi yazıçının "Qarabağın qarlı səngərləri" oçerkində keçir. E.Mehrəliyev yazır: "Romanı ("Axirət sevdası"-S.B.) və "Qarabağın qarlı səngərləri" oçerkini müqayisə etdikdə hər iki əsərin yazıçının real müşahidələrindən, cəbhə həyatı ilə yaxın təmasından meydana çıxdığı dərhal sezilir. Oçerkdə cəbhə epizodları, düşmənin məkrli hücumlarından əhalinin müdafiə vəziyyəti, çətin məqamda belə xalqın öz xeyir işindən qalmaması və sairə bu kimi real, canlı həyat səhnələrinin təbii təcəssümü romanın təsvir tərzinə, müəllif tərəfindən təhkiyə intonasiyasına çox yaxındır" (6, 111). Ədəbiyyatşünas E.Mehrəliyev romanla oçerk arasında tipoloji əlaqələri qeyd edərək "Axirət sevdası" romanının janrını "xatirə-roman" kimi səciyyələndirir. Əlbəttə, S. Əhmədlinin bu "xatirə-romanı"nı mücərrəd, nəzəri janr normaları ilə deyil, tarixi kontekstdə, yazıçının roman estetikası çərçivəsində qiymətləndirə bilərik.

Romanda müxtəlif həyat gerçəklikləri və məişət hadisələri bir-birini əvəz edir, etiraf, tövbə kimi "nitq janrları" (M.Baxtin), daxili monoloqlar, "təhtəlşüur axını" və s. bir süjet məcrasında bir-birilə qaynayıb qarışır Romanın iki qəhrəmanı var: ata və oğul. Roman boyu atanın etiraz səsini eşidirik, amma ogulun virtual, xəyali obrazını gözümüzdə canlandırırıq. R.Nağıyeva hesab edir ki, "romanda əsgərin özü yox, onun haqqında xatirə əsasdır. Sujet, təhkiyə bu əsasda qurulmuşdur. Atanın oğulla xəyali görüşləri romanda əsgər obrazının mövcudluğunu, romanın məhz ona həsr edildiyini, əsərin məhz onun haqqında olması fikrini təsdiq edir" (9, 95)

Qəhrəman tez-tez ölüm, cənnət-cəhənnəm haqqında, dünyanın faniliyi haqqında dərin fəlsəfi düşüncələrə dalır, özünə və başqalarına ritorik suallar verir: " Öldün-Yoxsan! Hər şey qalar, sən yoxsan. İndi bu an, bu gün varsan. Canlı, dirigözlü insan birdən yox olur." (4, 28)

Atanın roman boyu təhtəlşüur axını ölümlə bağlıdır: "Məni ölüm düşündürür"- deyir. (4, 26) Malik müəllimlə axirətlə, ölümlə bağlı söhbətləri də düşdüyü depressiv-psixoloji gərginlikdən gəlir. Bu mövzuda Malik müəllimə ünvanladığı ritorik sualları bitmir: "İnsan öldükdən sonramı Cənnətə, Cəhənnəmə göndərilir?; Qiyamət günü haçandır?; İnsan öldükdən sonra ruhun yaşaması necə başa düşülsün" (4, 27-28) Cavabsız sualların çıxılmaz labirintində vurnuxan ata Allaha qarşı asilik fikrinə də düşür. Quran ayələrinə, dini ehkamlara skeptik yorumlar verir. Əlbəttə, qutsal dəyərlərə, sakral fövqəlqüvvəyə asiliyinin, xüsusən universitetdə ilahiyyat fakültəsinin dekanı Malik müəllimlə islamın sakral mətnilə- Quranla bağlı mübahisə etməsinin səbəblərini müəllifin dünyagörüşü və müəllifin "bioqrafik məkanı" çərçivəsində anlamaq olar: "Dünya, varlıq, aləmlər barədə yeni baxışa ehtiyac duyulur. Müsəlmanların Ömür və Axirət kitabı mənə keçilmiş mərhələ, köhnəlmiş təki görünür. Məhəmməd peyğəmbər dərin düşüncə, yüksək ağıl yiyəsi olsa da, indiki gözlə baxdıqda "ilahi vəhylər" bəsitdir. Təbii hadisələr, insanın bütün əməllərinin Tanrının istəyi ilə baş verdiyi sübuta yetirməliykən, sübut olunmuş kimi göstərilir. Məntiq çatmır. Quranda eləcə də bütün şər işlərdən, insanın başına gələn müsibətlərdən Allahın xəbəri olduğu halda, hətta bunları onun törətdiyi söylənir... İnsan inana bilmir ki, yer üzündə baş verən bütün haqsızlıqlqrın, fəlakət və dağıntıların, milyonlarla günahsız insan qanının tökülməsinin baisi Allahdır" (4, 26) Təhkiyəçinin bu məntiqi qarşısında Malik müəllim "aciz qalıb" axırda yalnız bunu soruşur ki, "siz Quranı –Şərifi oxumusunuz"? . Bildiyimiz kimi, Məhəmməd getdikdən qısa müddət sonra qəhrəmanlıqla şəhid oldu..." (7, 569) Qarabağ müharibəsinin mətbuatda açıq söylənilməyən təfərrüatları müəllif "səsi" ilə təhkiyənin əsas xəttini müəyyən edir. Birinci şəxsin dilindən xatirələrin xarakteri- roman avtobioqrafik janr kimi təsnif etməyə imkan verir.

Onun dominantlığı həmişə görümlüdür. "Kef" romanında Kişi obrazı müəllifin prototipidir. "Maraqlıdır ki, yazıçı bu obrazın adını bəzən xalq yazıçısı, bəzən də Xalq kimi vermişdir. Əsərdə göstərilir ki, ölkə dəyişikliyə doğru gedir. Xalq yazıçısı ABŞ-dan göndərilən qonorar hesabına evindəki köhnə televizoru dəyişir. Te-

levizorun yeniləşməsi ölkədə gedən proseslərin nəticəsi olaraq yeniləşmə kimi mənalanır". (11, 75)

"Axirət sevdası" romanında da təhkiyə birinci şəxsin dilindən verilir. Təhkiyəçi müəllifin (S.Əhmədlinin) prototipidir. Atanın bir əsgərlə dialoqu bu baxımdan səciyyəvidir. Dialoqun məsamələrində sual-cavabın intonasiyasında bir atanın nigarançılığı "yuvalanır". Ata artıq sövqi-təbii hiss edir ki, oğlu ilə görüşü baş tutmayacaq.

"- Apardılar hamısını. O da getdi.
- Axı, mən ona demişdim gələcəm.
- Özü də deyirdi atam gəlməlidiə
- Gözləyə bilmədi? Elə bir imkan yoxdu?
- Vardı, qala bilmədi. Qalmadı" (4, 40)

S.Əhmədli "Yanvar hekayələr"ində olduğu kimi, bu əsərdə də cəmiyyətin sosial əhvalını, ictimai-siyasi nəbzini həssaslıqla tutmağa çalışır. Mətbuatda deyilməyən, televiziyada göstərilməyən, əhali arasında şayiə, xəbər kimi dolaşan məlumatlar müəllif tərəfindən səsləndirilir, xəbər, şayiə kimi kütləvi "nitq janrları" insanların depressiv, dərdli durumunu təqdim edir. Məsələn, Gəncədəki bir epizoda da diqqət yetirək: "Çıxdım eşiyə. İcra hakimiyyəti başçısının müavini burada idi, bayaqkından fərqli olaraq qanı qara. Oraya yığışmış beş-üç kişi cəbhədən soraq verir, bir-ikisi deyirdi almışıq Kəlbəcəri. Kəlbəcərə bayrağımız sancılıb". Lakin bu xəbəri dərhal başqa bir söhbət əvəz edir. Cəbhədən təzəcə gəlmiş milis nəfəri ona bəd xəbər verir: "Nə almışıq, nə girmişik Kəlbəcərə?! Mən bu gecə oradan, mühasirədən çıxmışam. Heç alıb eləməyiblər. Üstəlik, bizdə olan bir neçə kəndi də ermənilər tutublar"(4, 50) Bu qanqaraldıcı, bəd xəbəri eşidən təhkiyəçi ata milisin mühasirə barəsində söylədiyindən bir az da ruhdan düşür, "bizimkilər ağır vəziyyətə düşüblər. Ölən, yaralanan çoxdur. Gəncəyə gətirilmiş əsgər meyidlərindən danışdılar. Bakıdandı çoxu, son çağırışla təzəcə aparılanlardı. Binəqədi... Yasamal adını çəkdilər" (4,50)

Romanın əsas məhvəri - "avtobioqrafik-xatirə diskursu" oğlu Məhəmmədin obraz ilə bağlıdır. Onun obrazı xatirələrin simvolik məkanında bir ruh kimi dolaşır. "Bu da romanda, obrazın birbaşa yox, təhkiyəçinin xatirələri, qavrayışları vasitəsi ilə təqdimindən irəli gəlmiş bir bədii üsuldur. Məhəmməd sujetdə birbaş iştirak etmir, sujetdə onun haqqında ancaq danışıq gedir; süjet atanın oğlunu axtarmasını və bu prosesdə atanın həyacanlarını, düşüncələrini əks etdirir. Buna görə də belə hesab etmək düzgün olar ki, romanda əsgərin özü yox, onun haqqında xatirə əsasdır. Süjet, təhkiyə bu əsasda qurulmuşdur" (6, 116) Bu mənada əsərdə S.Əhmədovun öz şəxsiyyəti, xarakteri bədii əkini tapmış, həm obrazlar, xarakterlər silsiləsinin zənginləşməsində, həm mühitin xarakterinin açılmasında, həm də sujet xəttinin inkişafında mühüm rol oynamışdır". (9, 96-97) "Əsgər atası" gürcü filmində olduğu kimi, ata içini qurd kimi gəmirən qara düşüncələrə, ayrılığa, evdəki üzüntülü, qara sükuta son qoymaq üçün oğlunun olduğu cəbhə bölgəsinə- Beyləqana, Gorana, Gəncəyə yollanır. Uzun axtarışlardan sonra ona oğlunu Gorana aparıldığını bildirirlər. Oğlunun Pirəküsküldən bir günlüyə evə gəlməsini xatırlayır, onun ordan da Goranboy istiqamə-

tində göndərilməsi ilə bağlı nigarançılığını, narahatlılığını dilə gətirir. Ata qeyri-şüuri olaraq onu bütün təhlükələrdən qorumaq istəyir. Qarabağın onun üçün ən güvənli yer olduğuna inanır. "Mən başqa səmt gözləyirdim. Goran yad yerdir, heç olmasa, öz yerimiz-Qarabağ olsa idi, məhrəm, tanış adamlar vardı" (4, 46) Goranda da oğlunu tapa bilməyən ata kor-peşiman Gəncəyə qayıtmalı olur. Hər yerdə ondan bir xəbər bilmək, eşitmək istəyir. Qış çovğunu, qarlı havalar, qaçqın-köçkün dalğası, qara şaiyələr onun narahatlığını bir az da artırır. İçində son ümid kimi yolda rast gəldiyi, qarşısına çıxan əsgərlər arasında onu görmək, onu tapmaq arzusu yaşayır: "Hər dəfə qar basmış yolda, izdə bir əsgər, bir əliyalın döyüşçü görürdüm, elə bilirdim odur. O da onların arasındadır. Düşəcək indicə, oradan gələcək üstümə. Çəhrayı üzü şaxtadan tay da allanmış, içində isti, qaynar ürək döyünür, qızdırırdı özünü də, yanındakı dostlarını da. Dil-ağızı donmamışdı bu qoçağın. Gələ-gələ astadanca qışqıracaqdı: "Məni haraya göndərmisən, ata!"" (4, 51) "Oğul axtarışı" zamanı ata gördüklərini, eşitdiklərini, iç söhbətlərini də qələmə alır, gəzib dolaşdığı yerlərin ictimai, sosial atmosferini sərt obrazlarla, virtual və realist detallarla təqdim edir. Həssas yazıçı müşahidələri müharibə aparan bir ölkənin siyasi, ictimai, sosial havasını bizə çatdırır. "Bu yandan, baş yolla kazarmalardan üzübəri "UAZ"gəlirdi. Qabaq şüşəni qar bürümüşdü. Brezen örtüklü maşın bir az qalmış dayandı. Oradan, silgəclərin azacıq açdığı sırsıra içindən, sürücünün yanında bir lalığ, qıpqırmızı bir sifət sezildi; yüksək rütbəli zabitə oxşadı. İçmiş, ya bərk hirslənmişdi. Bir leytenant düşüb gəldi, bizimlə maraqlandı. "UAZ"-dakı lalığ Goran göndəriş məntəqəsinin rəisi imiş, rusdu. Bizim-sivil adamların kazarma içində görünməyindən acıqlanıbış" (4, 48)Təhkiyəçi yaxşı bilir ki, bütün müharibələrin sonu barışdır. Bu müharibə də nə vaxtsa bitəcək. Zaman ən böyük loğmandır-yaralar sağalacaq. Şəhərlər, kəndlər bərpa olunacaq. Həyat öz axarına dönəcək... Bir şey onu dərin təəsüfləndirir: "Amma gedənlər, ölənlər qayıtmayacaq. Ölümdən qayıdış yoxdur". (4, 63) Təhkiyəçinin müşahidələri, yol qeydləri-düşüncələri, epizodlar müharibənin gerçək epizadlarıdır, acı salnaməsidir. Məsələn: "Çovğun bürümüş yollar, dolaylar, enişlər, meşə cığırları tey əsgərdir. "Yol evi" səmtdən axışıb gəlirdilər. Kimi də meşə tələşında ocaq qalayıb qızınırdı. Hamısı silahsız, başsız əsgərdi. Bunlar niyə səpələnmişdi qarda-qiyamətdə çöllərə? Əyin-başları da qalın deyildi. Elə bil əldən buraxılıb, fəlakətdən qurtulub çatmışdılar buraya" (4, 44) Artıq xatirəyə dönmüş bu müşahidələrin ümumi təsviri, adi şərhi də oxucunu dəhşətə gətirir, psixoloji effekt yaradır.

O, yoxdur..." (4, 45) Xatirələr, "şüur axını"- hamısı bir metafizik mövzu üzərində qurulmuşdur. Bu ölüm mövzusudur, axirət söhbətidir. Sonda oğlunun şərəfli ölümü ilə barışan ata bu haqda düşünür: "Olum, ölüm eyni hadisədir. Birindən insan, o birindən ruh doğulur. Ölüm də Doğuluşca heyrət oyatmalı, sevinclə qarşılanmalıdır. Ölüm əbədi ömürün başlanmasıdır. Ölüm məqamında doğulan ruh-işıqdır". Beləcə romanın sonu metafizik sevinclə-işığa inamla bitir. Bu işıq nakam şəhid Məhəmmədin ruhudu. Qarabağ müharibəsinə həsr olunmuş romanlar arasında Aqil Abbasın "Dolu" romanı xüsusilə seçilir. Romanın "Azadlıq" radiosunun "Oxu zalı"nda

geniş müzakirələri getdi, mətbuatda tanınmış ədəbiyyatşünaslar və tənqidçilər (Elçin, N.Cəfərov, T.Əlişanoğlu, E.Akimova, V.Yusifli, C.Yusifli, İ.Musayeva və b.) əsərlə bağlı maraqlı fikirlər söyləmişlər. Xalq şairi Vaqif Səmədoğlu da romanı Qarabağ mövzusunda yazılmış ciddi əsər kimi qiymətləndirmişdir. (1, 4). Akademik N.Cəfərov isə "Dolu" romanını ədəbiyyatın "Qarabağnaməsi" (2, 4) adlandırmışdır.

"Dolu" romanı obrazlı dili, simvolik yüklənməsi ilə poetik əsər təsiri bağışlayır. Akademik N.Cəfərov kitaba yazdığı ön sözdə qeyd edir ki, "bu əsər daha çox obrazları ifadə edir"(2, 7)

Əslində "Dolu" romanını simvolik –realist nəsrin nümunəsi kimi qəbul etmək olar. Romanın simvolik "yükü" əsərin adından başlayır və leytmotivi kimi süjetin içindən keçir. Bu işarələrin əsas özəlliyi semantik baxımdan açıqlıqdır, yəni müharibəni xatırladan hər bir işarə elə bu müharibədə doğulan, davam edən və heç zaman bitməyən hadisələrin içindən çıxır. Bu mənada "dolu" simvol-motivi roman boyu bütün "qırıq" sujet xətlərini calayır, mənalandırır, müharibənin yaddan çıxmayan hadisələrini öz adında canlandıran fraqmentlər kimi, yandırılan yurd yerlərinə təzə anlam verir, insan qoruya bilmədiyi sevgisinin acısını çəkir" (12, 60) "Dolu" obrazından başqa, romanda vurğun vurmuş cavanlar, Drakon Əzrayıl, katib Pələng, Millət, Tanrı, Yiyəsiz Dövlətin yiyəsiz övladları, Müharibə, Dünyanın böyük Dövlətləri, Dünyanın Ən Varlı Şəhəri, Dünya, At belində olan adam və s. bu kimi obrazlar müəllifin mifopoetik təfəkküründən xəbər verir.

Etnik və fərdi yaddaş yazıçıya simvolik-assosaiativ işarələr vasitəsilə bu məkanla virtual əlaqə yaratmağa və xəyalən keçmişlə bu günü bir arada qavramağa imkan verir. Jil Delez yazır: "Zaman və məkan obrazı üçün önəmli olan şey, heç bir kəsin daxili məhdudiyyətləri olmayan dörd elementi – gerçək və xəyalı, anılar və xəyal ediləni birləşdirmə ehtiyacıdır" (13, 132) Retrospek baxış yalnız bir simvolik məkanla – "Dünyaca ən varlı şəhər"lə (daha sonra məğlub şəhərlə) bağlıdır. Süjet Dünyanın Ən Varlı şəhərini dolu vurması ilə başlayır. Bundan sonra müəllifin təxəyülü "işə düşür", "meteoxatirə"si yaddaşında canlanır: "Dolu yağanda bu şəhərdə zurna-qavallı bir toy-bayram olardı, təbii ki, zurna-qavalı da özü gətirərdi. Baxmayaraq ki, dolu bağ-bağata da, avtomobillərə də, pəncərə şüşələrinə də, kasıb evlərinin kasıb damlarına da, çöldə-bayırda yaxaladığı adamlara çox böyük zərər vururdu-dəxli yox idi, camaat uşaq kimi sevinərdi. Bu dolu çəkərdi beş dəqiqə, on dəqiqə, amma bu beş-on dəqiqənin dadı-ləzzəti damaqlardan uzun müddət getməzdi. ...Balacalar isə böyüklərin əsəbləşməsinə, çığırıb bağırmaqlarına baxmazdılar, dolunun altında sevinclə atılıb düşər, yerdən ovuclayıb yığdıqları buz parçaları ilə bir-birini daşlar, arabir də ağızlarına atıb konfet kimi sümürər, dolunun kefini çıxarardılar. Gecə də anaları yanlarını şapaqlaya-şapaqlaya bellərini küpələyərdi" (1, 27-28)Aqil Abbasın yaddaşı "səsli", "akustik" yaddaşdır. Onu və qəhrəmanlarını keçmişlə həm də yaddaşdakı obrazların səsi, dolunun səsi, yaxud Qədir Rüstəmovun səsi bağlayır. Məhz səs təhtəlşüurda xatirələri canlandırır, yaddaşı diri saxlayır. Q.Rüstəmovun səsi də belə assosiativ-simvolik işarələrdən biridir. Q.Rüstəmovun səsi ("Bu dərənin uzunu, Tan-

rı qaytar quzunu") Kamandirin yaddaşını çaxnaşdırır.: "... Qəflətən minlərlə at ağız-ağıza verib necə kişnədisə və göylər necə şaqqıldadısa çöllər diksindi. Şimşəklər göy üzünü parça-parça elədilər. Və göy üzündən də yuxarıdan necə bir Dolu başladısa ... camaat dik atıldı və sevinclə özünü atdı bayıra..."(1, 254)

Dolu ilə şəhərə düşən qrad zərbələri arasında assosiativ əlaqəni də sezmək mümkündür. Dünyanın Ən Varlı Şəhərinə yağan qrad mərmiləri və göydən yağan Dolu bir simvolik məna sırasındadır. Artıq bu Dolu uşaqlığındakı Doludan deyil: "Uşaqlar bu dolu ilə oynaya bilmirdilər, ağızlarına atıb konfet kimi sümürə bilmirdilər. Bu Dolunun musiqisindən ləzzət almaq olmurdu, bu Dolunun musiqisi insanların beyninə bir dolu kimi dəyib ruhunu əzirdi. Göydən dolu yağmırdı, Əzrayıl yağırdı" (1, 28-29) "Aqil Abbas "Dolu" adlı romanında qrad yağışı altında yaşayan, işləyən, döyüşən Ağdamın ermənilərə təslim edildiyi son günlərə qədərki durumunu əks etdirməyə çalışıb"- deyən tənqidçi İ.Musayevanın bu fikrinə haqq qazandırmaq olar. Onu da qeyd edək ki, romanın fraqmentliliyi, bəzən vahid sujet xəttində bir-birilə qovuşmayan situasiyaların təsviri və təqdimatı diqqətdən yayınmır. A.Abbas sanki effektli poetik , simvolik detalları seçməklə oxucunu təəccübləndirmək istəyir: "Yaradılan personajların xarakteri, diqqət edilərsə, məhz bu detallar üzərində "qurulur", ancaq onlar müəyyən məqamlarda bir-birlərinə yapışmır və sonda hər ikisinin yarımçıq olması meydana çıxır" (12, 57).

Romanda belə bir epizod var: Bakıda, Şamaxinkada çayxanada üç jurnalisti döydüyünə görə Komandiri polis şöbəsinə gətirirlər. Bu zaman Rəis (At belində olan Adamın Oğlu) Komandiri tanıyır. Amma Komandir onu xatırlaya bilmir. Bu zaman At belində Olan Adamın oğlu detallarla onu keçmişə qaytarmaq istəyir: - "Yadınıza düşmərəm. Bir məktəbdə oxumuşuq. Siz bizdən dörd-beş sinif yuxarıda oxuyurdunuz. Onda sizə Kapitan deyirdilər, müharibədə Komandir oldunuz. Futbola gedəndə o qədər sizin çantanızı daşımışam ki! Məktəbdə hamı sizdən qorxurdu. Bir dəfə bizim məktəbin qızlarına söz atdıqlarına görə bazarın yanında iki oğlanı döydüyünüz də yadımdadı. Siz tutulanda məktəbdəki qızların hamısı ağlayırdı, elə müəllimlər də" (1, 238)

Romanın sonu - "aforistik nəticəsi" (2, 48) ona gətirir ki, Komandir Həmidə xanım Cavanşirni vurdurduğu kəhrizə girir və uşaqlığının detallarını yada salmaq istəyir: "... Kəhrizin dərinliklərinə üzməkdən xüsusi ləzzət alırdılar. Dərinliyə üzdükcə su daha şırınləşər, daha durular və bir az da buzlaşardı. Və kəhrizin dərinlikləri göyərçin yuvaları ilə dolu olardı, əlini at, tut. Amma bu göyərçinlərə toxunmazdılar, nənələri həmişə deyərdi ki, imam qanından yaranıblar..." (1, 251) "...Gözlərinin yummuşdu, onunla bu kəhrizdə çimə-çimə pırıl-pırıl balıqlara uduza-uduza böyüyən dostlarını xatırlayırdı. Hamısı müharibədə qırılmışdı, tək ondan başqa. Sonra Drakonu gördü, Pələngi gördü, Gülablı yolunda bağırsaqları ağacın budağına dolaşmış və hələ nə baş verdiyini anlamadan bağıran adamı gördü, od tutub yanan şəhəri gördü – gözünü açdı, hər şey yox oldu, bir kəhrizin suyuydu, bir özüydü, bir də yanında qorxusuz-ürküsüz üzüşən balaca, pırıl-pırıl balıqlar..." (1, 252) Yazıçının bu cür "simvo-

lik mənalara köklənmə”sini tənqidçi “Dolu” romanını M.Süleymanlının “Köç”, “Şeytan”, R.Rövşənin “Daş” əsərlərinin qrotesk realizmi iləmüqayisə aparmağa imkan vermişdir: “Qrotesk reaıizminin milli variantlarını isə bizdə daha çox sırf modernistlərimiz R.Rövşən (hekayələrində), Mövlud Süleymanlı və Aqil Abbas yaratmağı bacarmışlar” (3, 319) Yaddaşda iki gerçəklik-uşaqlığın uzaq, şirin xatirə gerçəkliyi və mövcud müharibənin acı gerçəkliyi toqquşur ki, bu da təhkiyənin sujetqurma imkanlarını və ifadə formalarını dəyişir. T.Əlişanoğlu bunu “qrotesk realizmi” kimi səciyyələndirir: “Romanın poetikası qrotesk realizmi üzərindədir; hadisələrin bilavasitə təsvirinə deyil, arxasında duran mənalara köklənmiş, mənaları danışır bu realizm...”(3) Belə ki, burada nə epik ardıcıllığı gözləyən təsviri realizm, nə də bilavasitə insan içinin analizinə yönəlik psixoloji və yaxud sosial-psixoloji realizm məxrəci keçərli deyil; həmin məqamlar roman təhkiyəsində tərkib, ünsür mənziləsindədir. Təhkiyə olanların, gerçəklərin məğzindən-mənasından qurulub təsvirinə, açmasına doğru gedir” (3, 314) Beləliklə, S.Əhmədlinin “Axirət sevdası” və Aqil Abbasın “Dolu” romanlarında təhkiyənin xatirə məkanı simvolik obrazlar və assosiativ detallar üzərində qurulmuşdur.

Ədəbiyyat siyahısı

1.Abbas Aqil. Dolu. Roman. Bakı: “Təhsil”, 2008, 256 s.
2.Cəfərov N. “Dolu” ədəbiyyatın “Qarabağnamə”sidir // Abbas A. “Dolu”. Bakı: “Təhsil”, 2008, s. 5-14.
3. Əlişanoğlu T. Bird aha Aqil Abbasın “Dolu” romanı haqqında // Tənqid.net jurnalı, 2011, 8, s. 308-317.
4. Əhmədli S. Axirət sevdası. Bakı: Ozan, 2003
5. Mehrəliyev E. Müharibə və ədəbiyyat (90-cı illər Azərbaycan ədəbiyyatı əsasında) f.e.n. nam. dissertasiyası. Bakı, 2001
6. Mehrəliyev E. Müharibə və ədəbiyyat. Bakı, “Azərnəşr”, 2000, 228 s.
7. Musayeva İ. Sabir Əhmədli və müstəqillik ədəbiyyatı.// Musayeva İ. XXI əsrdən baxış: ədəbi tənqid və bədii söz. Bakı, “Elm və təhsil”, 2017, 568-573
8. Musayev İ. İyirmi ilə yazılan roman. http: // www/ azadlıq. mobi/a 24448639.html
9. Nağıyeva R.S. Müasir Azərbaycan nəsrində qəhrəman və mühit problemi (S.Əhmədlinin yaradıcılığı əsasında) f.ü.f.d. elimlik dərəcəsi almaq üçün diss. Bakı, 2014
10. Paul de Man Autobioqraphy as De-facement. Modern Language Notes 94, no 5 (1979), 919-930
11. Rəhimova E. Azərbayca nəsri ədəbi-nəzəri fikirdə (1990-2010-cu illər). F.e.f.d. elmi dərəcəsi almaq üçün dis. Bakı, 2016
12. Yusifli C. “Dolu” romanı və nəsrimizin problemləri// “Tənqid.net”. 2008, № 5. 56-60

13. Yaqubova M. Müstəqillik dövrü Azərbaycan nəsrində retrospeksiya. F.l.ü.f.d. elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2012

Бахшалиева Севиль Мирзахан гызы

Карабахская война как символическое пространство воспоминаний (по мотивам романов с. ахмедли «любовь судного дна» и а.д.аббаса «град»)

Резюме

Статья посвящена форме воспоминания повествования Сабира Ахмедлы «Любовь к загробной жизни» и Агиля Аббаса «Град». В статье отмечается, что воспоминание является одной из форм памяти. Мемуары служат структурным элементом в поэзии обоих романов. Автобиография является важным кодом обеих работ. Автобиографический образ автора превалирует в романе «Любовь судного дна». Природа памяти позволяет нам интерпретировать роман как автобиографическое произведение. Виртуальные образные встречи, беседы и общение с отцом (автором-повествователем) сына превращают его образ в символ, мифологический образ. Мухаммед не участвует в сюжете. Его изображение представлено только воспоминаниями его отца. В то же время работа раскрывает формирование воспоминаний, поток сознания на метафизической позиции. Это конец этой работы, который заканчивается этой метафизической радостью - светом веры.Память повествователя или героя становится ретроспективным актом. Ретроспективный акт раскрывает психологическое состояние преступника и героя. Форма воспоминания повествования – это прием, определяющий мышление и прозу Агиля Аббаса и поэтику романа. Эмоциональное путешествие в прошлое, напоминающее дни с ностальгией, является хронотопной структурой романа.Символические и поэтические образы преобладают в книге «Град» Агиля Аббаса. Мемуары автора-повествователя начинаются с полного изображения. Град представлен как чистый образ мира детства. Комбинация града и их пуль как одного из семиотических символических значений увеличивает поэтическую силу повествования. Именно эти символические образы определяют мотивацию героя (командира). Единство художественного воображения и автобиографической памяти у Мудрого Аббаса дает представление о языке произведения. Так, в романах Агиля Аббаса «Любовь судного дна» С. Ахмедлы и «Град» пространство памяти фонда основано на символических образах и ассоциативных деталях.

Ключевые слова: повествование, роман, жанр, мемуары, писатель, герой

Bakhshalieva Sevil Mirzakhan

The karabakh war as a symbolic space of remembering (on the novels of s. ahmadli "doomsday love" and a.d. abbas "storm")

Summary

The article is devoted to the form of recollection of the narrative of Sabir Ahmedli "Doomsday Love" and Agil Abbas "Storm". The article notes that memory is a form of memory. Memoirs serve as a structural element in the poetry of both novels.An autobiography is an important code for both works. The autobiographical image of the author prevails in the novel "Doomsday Love" The nature of memory allows us to interpret the novel as an autobiographical work. Virtual imaginative meetings, conversations and communication with the son's father (author-narrator) turn his image into a symbol, a mythological image. Muhammad is not involved in the plot. His image is represented only by the memories of his father. At the same time, the work reveals the formation of memories, the stream of consciousness in a metaphysical position. This is the end of this work, which ends with this metaphysical joy - the light of faith.The memory of the narrator or hero becomes a retrospective act. A retrospective act reveals the psychological state of the criminal and the hero. The narrative recollection form is a device that defines Agil Abbas's thinking and prose and the poetics of the novel. An emotional journey into the past, reminiscent of days with nostalgia, is the chronotopic structure of the novel.Symbolic and poetic images prevail in the book "Storm" by Agil Abbas. Memoirs of the author-narrator begin with the full image. The city is presented as a pure image of the world of childhood. The combination of hail and their bullets as one of the semiotic symbolic meanings increases the poetic power of the narrative. It is these symbolic images that determine the motivation of the hero (commander). The unity of artistic imagination and autobiographical memory of Wise Abbas gives an idea of the language of the work. So, in Agil Abbas's novels "Doomsday Love" by S. Ahmedli "Storm", the fund's memory space is based on symbolic images and associative details.

Keywords: narration, novel, genre, memoirs, writer, hero

Məqalənin redaksiyaya daxil olma tarixi:27.12.2019
Çapa hazırlnma tarixi:28.01.2020
Filologiya elmləri doktoru, professor Rüstəm.Rəsulov
tərəfindən çapa tövsiyə olunmuşdur

MÜNDƏRİCAT

DİLÇİLİK

VÜQAR QARADAĞLI
HƏFS İLƏ VƏRŞ RƏVAYƏTLƏRİ ARASINDAKI
FƏRQLƏRDƏ /'/ (HƏMZƏ) FONEMİNİN MODİFİKASİYASININ
MÜQAYİSƏLİ TƏHLİLİ 3
SOFİYA MİRZƏYEVA
MORFOLOJİ TƏHLİL (SÖZÜN TƏRKİBİNƏ GÖRƏ) VƏ ONUN
XÜSUSİYYƏTLƏRİ 44
İRADƏ KƏRİMOVA
AZƏRBAYCAN TELEVİZİYASINDA (AzTV- də) İCTİMAİ
VERİLİŞLƏR VƏ BU VERİLİŞLƏRİN
APARICILARININ DİLİ HAQQINDA 50
ELXAN YUSİFOV
ALMAN DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ
MÜRƏKKƏB SÖZLƏRİN ROLU 56
VƏFA MƏHƏRRƏMOVA
İNGİLİS DİLİNDƏ QRAMMATİK VƏRDİŞLƏRİN AŞILANMASI
ZAMANI RAST GƏLİNƏN ÇƏTİNLİKLƏR VƏ HƏLLİ YOLLARI 63
ZƏRİFƏ AVİLOVA
ZƏRİFƏ MƏMMƏDOVA
AZƏRBAYCAN NİTQ MƏDƏNİYYƏTİNDƏ
ATALAR SÖZLƏRİNİN ROLU 68
SEVDA NOVRUZƏLİYEVA
NİTQ MƏDƏNİYYƏTİ VƏ İSLAM 78
HÜZURƏ AĞAYEVA
ORTA MƏKTƏBLƏRİN İBTİDAİ SİNİFLƏRİNDƏ ŞİFAHİ NİTQİN
İNKİŞAF ETDİRİLMƏSİNİN PSİXOLOJİ ƏSASLARI
(İNGİLİS DİLİ MATERİALLARI ƏSASINDA).....88
KÖNÜL NƏCƏFOVA
MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FELİ
TƏRKİBLİ SADƏ NƏQLİ CÜMLƏLƏRİN
STRUKTUR-SEMANTİK VƏ İNTONASİYA XÜSUSİYYƏTLƏRİ.....98
NİGAR BAYRAMOVA
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ HÜQUQ
TERMİNLƏRİNİN SİNONİMLİYİ 103

ARZU HÜSEYNOVA
GÖYTÜRK DİLİNDƏ MÜVAFİQ DERİVATİV VASİTƏLƏRLƏ FORMALAŞMIŞ XÜSUSİ MƏNALI SÖZLƏRDƏ AZƏRBAYCAN DİLİ QARŞILIQLARI İLƏ PARALELLİK 111
MUSTAFA GÜNAYDIN
TÜRKMƏN TÜRKCƏSİ VƏ TÜRKİYƏ TÜRKCƏSİNDƏKİ İL, AY, GÜN ADLARINI BİLDİRƏN SÖZLƏR 118
GÜLNARƏ QURBANOVA
İNGİLİS DİLİNDƏ GƏNCLƏRİN İSTİFADƏ ETDİKLƏRİ SLƏNQLƏRİN LEKSİK- SEMANTİK QRUPLARI 128
НАРГИЗ КАРИМОВА
ОСОБЕННОСТИ ФРАЗЕОЛОГИЗМОВ С КОМПОНЕНТОМ «ДЕНЕЖНАЯ ЕДИНИЦА» В СОВРЕМЕННОМ НЕМЕЦКОМ ЯЗЫКЕ И ОТРАЖЕНИЕ В НИХ НАЦИОНАЛЬНЫХ ЧЕРТ ХАРАКТЕРА 134
VALİDA ABIYEVA
AFƏT SAFIXANOVA
MADAL VERBS IN INGILISH 141
ZENFİRA MƏMMƏDOVA
İNGİLİS DILINDƏ EHTİMAL NƏZƏRİYYƏSİNƏ ƏSASLANAN MÜBTƏDASIZ - ŞƏXSSİZLİK KATEQORİYASININ LEKSİK-SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ 147
НИНА БУНЯТОВА ,
ЛЯМАН АХУНДОВА
ОСНОВНЫЕ РАЗЛИЧИЯ И СХОДСТВА АНГЛИЙСКОГО И РУССКОГО ЯЗЫКА 152
YEGANƏ QURBANOVA
AYTƏN HACIYEVA
İNGİLİS DİLİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ TEXNİKİ VASİTƏLƏRİN ROLU VƏ ƏHƏMİYYƏTİ 157
ИСМАИЛОВА ГЮЛЬНАРА
АЛИЕВА ШАФИГА
НЕКОТОРЫЕ НЮАНСЫ КАНАДСКОГО ВАРИАНТА АНГЛИЙСКОГО ЯЗЫКА 162
QƏNİRƏ ALLAHVERDİYEVA
MEHRİBAN MURADOVA
MÜASİR İNGİLİS DİLİNDƏ İNKARLIQ KATEQORİYASI VƏ ONUN LEKSİK-SEMANTİK XÜSUİYYƏTLƏRİ 167

SEVİNC BAĞIROVA
İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ KONSTRUKTİV TƏLİM METODU VƏ İNNİOTİV XARAKTERLİ ÜSULLARIN TƏTBİQİ 172
IRADA İSGENDARZADE
THE USE OF NEW METHODS OF TEACHING ENGLISH IN THE MODERN LINGUISTICS SYSTEM 177
EMİL İSAZADƏ
ALMAN DİLİNDƏ FRAZEOLOGİZMLƏRİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN TƏRCÜMƏ YOLLARI 182
KƏMALƏ YUSİFOVA
MÜASİR İNGİLİS DİLİNDƏ SUAL CÜMLƏLƏRİNDƏKİ EKSPRESSİVLİK 190
TAMİLƏ MƏMMƏDOVA
ALMAN DİLİNDƏ MƏİŞƏT LEKSİKASI VƏ ONUN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ 197
ÇINARƏ NƏRIMANOVA
İRADƏ MƏMMƏDOVA,
GENDER VƏ TƏHSİL: TƏHSİLDƏ GENDER BƏRABƏRLİYİNİN ƏHƏMİYYƏTİ 204
ŞƏFƏQ VƏLİYEVA
VALUES of LANGUAGE LEARNING AND TEACHING METHODS 212
AYNUR TURABOVA
DİLİN LEKSİK-SEMANTİK SİSTEMİNDƏ TERMIİNOLOGIYANIN YERİ VƏ TERMIİNOLOGİYA SÖZÜNÜN FƏRQLI ANLAYIŞLARI 219
KƏMALƏ VƏLİYEVA
MÜASİR İNGİLİS DİLİNDƏ SÖZLƏRİN MƏNALARINA GÖRƏ QRUPLAŞDIRILMASI,YAZILI VƏ ŞİFAHİ NİTQİN FƏRQLƏNDİRİLMƏSİ 228
LEYLA EMİNOVA
XALİDƏ ZAMANOVA
İNGİLİS DİLİNDƏ İNVERSİYA HADISƏSI STİLİSTİK-SİNTAKTİK HADİSƏ KİMİ VƏ ONUN SADƏ CÜMLƏ TƏRKİBİNDƏ MÜVAFİQ NİTQ HİSSƏLƏRİ İLƏ ƏVƏZLƏNMƏSİ 233
HAFİZƏ ABDİNOVA
SEVİNC ŞAHLAROVA
SKANDİNAV MƏNŞƏLİ ALINMA SÖZLƏRİN İNGİLİS DİLİNDƏ ETİMOLOGİYASI VƏ TİPOLOJİ XÜSUSİYYƏTLƏRİ 238
XURAMAN RƏFIYEVA
AZƏRBAYCAN VƏ FRANSIZ DILLƏRINDƏ FEILI BAĞLAMANIN MÜQAYISƏLI TƏHLILI 243

ƏDƏBİYYATŞÜNASLIQ

FƏRMAN XƏLİLOV
NAXÇIVANIN ƏLYAZMALAR XƏZİNƏSİ 249
YEGANƏ HÜSEYNOVA
B. VAHABZADƏNİN YARADICILIĞINDA
MİLLİ MƏNLİYİN DƏRKİ 256
KÖNÜL MƏHƏRRƏMOVA
HÜSEYN CAVİD FƏLSƏFƏSİNİN ÖYRƏNİLMƏ TARİXİNDƏN 263
GÜLNARƏ CƏFƏROVA
F.KÖÇƏRLİ YARADICILIĞININ NƏZƏRİ-ESTETİK
MƏZMUNU 275
HÜRZAD VƏLİYEVA
POL OSTERİN "QARANLIQDAKI ADAM" ƏSƏRİNDƏ
DEKONSTRUKSİYA VƏ İNTERMƏTNLİK 283
ARZU ƏLİYEVA
ARXAİK FOLKLORDA QADINLARLA BAĞLI METAFORALAR
VƏ ONLARIN PSİXOANALİTİK TƏHLİLİ.....291
PƏRVANƏ QULİYEVA
"ŞİFAHİ XALQ ƏDƏBİYYATINDA "KOROĞLU" DASTANI" 301
ƏZIZ SEVINC
"SEVGI VƏ DOSTLUQ" ƏSƏRI CEYN OSTIN YARADICILIĞININ
MÜHÜM MƏRHƏLƏSI KIMI 309
AYNUR MƏMMƏDOVA
XX ƏSRİN 20-30-CU İLLƏRİ AZƏRBAYCAN
ƏDƏBİ TƏNQİDİNDƏ
ANADİLLİ KLASSİK İRSƏ YANAŞMALARIN ƏSAS
İSTİQAMƏTLƏRİ.....317
SEVİL BAXŞƏLİYEVA
QARABAĞ MÜHARİBƏSİ XATİRƏLƏRİN SİMVOLİK MƏKANI KİMİ
(S.ƏHMƏDLİNİN "AXİRƏT SEVDASI" VƏ
A.ABBASIN "DOLU" ROMANLARI ƏSASINDA) 324

«Elm və təhsil» nəşriyyatının direktoru:
Filologiya elmləri doktoru, professor Nadir MƏMMƏDLİ

Dizayn: Kamran İbrahimov
Texniki redaktor: Yadigar Mirbagırzadə

Çapa imzalanmış 28. 01 2020
Şərti çap vərəqi 43,5 Sifariş № 2
Kağız formatı 60x84 1/8. Tiraj 300.

Jurnal "Elm və təhsil nəşriyyat-poliqrafiya" müəssisəsində
elektron nüsxə əsasında çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.